İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
# ƏLİYEV

## ON DOQQUZUNCU KİTAB

## AVQUST 2006 - OKTYABR 2006

AZƏRNƏŞR
BAKI - 2014

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR * NİTQLƏR

BƏYANATLAR * MÜSAHİBƏLƏR

MƏKTUBLAR * MƏRUZƏLƏR

MÜRACİƏTLƏR * FƏRMANLAR

AZƏRNƏŞR
BAKI - 2014

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2014, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində ölkəmizin iqtisadi, siyasi, mədəni həyatına, regionların sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş çıxış və nitqləri, göstərişləri öz əksini tapmışdır.

Kitabda Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin konfransında nitqi, İordaniya kralının, Ukrayna prezidentinin Azərbaycana səfəri, turizm nazirləri və Azərbaycanda 1-ci Beynəlxalq «Rus kitabı» festivalında ədəbiyyat, incəsənət, mədəniyyət xadimləri ilə keçirdiyi görüşlərə dair materiallar toplanmışdır.

Bu cilddə, eyni zamanda prezident İlham Əliyevin Sloveniyaya rəsmi səfəri zamanı «Kaspian outlook – 2008» Bled Strateji Forumunda, İstanbulda İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun daimi qərargahının açılış mərasimində nitqi, Antalyada türkdilli dövlətlərin və topluluqların X Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayında nitqi, qarşılıqlı maraq doğuran bir sıra görüşləri, Berlində «Beynəlxalq Bertelsmann – 2006» Forumunda, həmçinin «Demokratiya çağırışı» mövzusunda keçirilən müzakirələrdə dərin məzmunlu çıxışı və suallara cavabı, kütləvi informasiya vasitələrinə verdiyi bəyanat və müsahibələri dərc edilmişdir.

**İSBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2014}}$ **BBK - 32**

© Azərnəşr, 2014

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SALYAN RAYONUNA SƏFƏRİ

*10 avqust 2006-cı il*

## Salyan Olimpiya Mərkəzinin tikintisi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Salyan rayonuna gəlmişdir.*

*Əvvəlcə Salyan Olimpiya Mərkəzinin tikildiyi yerə gələn prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmətlə qarşıladılar. Dövlətimizin başçısı obyektin layihəsi ilə yaxından tanış oldu, inşaat işlərinin gedişi ilə maraqlandı. Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycan prezidentinə məlumat verərək dedi ki, təməli 2005-ci ilin sentyabrında qoyulmuş Olimpiya Mərkəzinin tikintisi gələn ilin iyun ayınadək başa çatdırılacaqdır. Smeta dəyəri 3 milyon manat olan obyektdə tikinti işlərini «Nurgün» İnşaat Şirkəti həyata keçirir. Bildirildi ki, Salyan rayonunda idmanın əsasən futbol, voleybol, basketbol, güləş növləri inkişaf etmişdir. Olimpiya Mərkəzinin tikilməsi rayonda idmanın inkişafına təkan verəcəkdir. Olimpiya Mərkəzində idman sarayı, üzgüçülük hovuzu, mehmanxana binası, kotteclər, voleybol meydançası, tennis kortu, istirahət guşəsi, basketbol, kiçik futbol meydançaları və s. olacaqdır.*

*Nazir xatırlatdı ki, indiyədək ölkəmizdə 10 Olimpiya kompleksi tikilib istifadəyə verilmişdir. Hazırda 4 rayonda – Ağdam, Qazax, Qusar və Salyanda tikinti işləri aparılır. 2007-ci ildə 13 rayonda, 2008-ci ildə isə daha 13 rayonda tikiləcək idman komplekslərinin layihə-smeta sənədləri hazırlanır. Belə-*

*liklə, 2008-ci ilin sonuna qədər ölkəmizdə belə komplekslərin sayı 40-a çatacaqdır.*

*Prezident İlham Əliyev Salyan Olimpiya Mərkəzinin tikintisi, o cümlədən dünya standartlarına uyğun gəlməsi barədə müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## Heydər parkinin və ümummilli liderin abidəsinin təntənəli açiliş mərasimi

*Avqustun 10-da Azərbaycan prezidenti İlham Əliyev Salyan şəhərində Heydər parkının və xalqımızın ümummilli liderinin abidəsinin açılış mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşmış minlərlə insan dövlətimizin başçısını və xanımını böyük hörmət və ehtiramla, alqışlarla qarşıladı. Sakinlərin əllərində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayraqları, prezidenti salamlayan şüarlar və ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar var idi.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsinin üzərindən ağ örtüyü götürdü. Tuncdan hazırlanmış bu abidənin postamentlə birlikdə hündürlüyü 5 metrdən çoxdur. Abidə Xalq rəssamı, akademik Ömər Eldarovun rəhbərliyi ilə heykəltəraş Akif Əsgərov tərəfindən hazırlanmışdır. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Azərbaycan prezidenti və xanımı parkı seyr etdilər, burada yaradılan səliqə-sahmandan razılıqlarını bildirdilər.*

## Salyan yardımçı elektrik stansiyasının təməlqoyma mərasimi

*Avqustun 10-da Salyan rayonunda gücü 220 MVA olacaq Salyan yardımçı elektrik stansiyasının təməli qoyulmuşdur.*

*Buraya toplaşan inşaatçılar prezident İlham Əliyevi hərarətli alqışlarla qarşıladılar.*

*«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev yardımçı stansiyanın sxemi barədə dövlətimizin başçısına ətraflı məlumat verərək bildirdi ki, tikinti gələn il başa çatdırılacaqdır. İranın İxrac İnkişaf Bankı tərəfindən maliyyələşdirilən bu obyekt hazır olduqdan sonra Salyan, Neftçala, Biləsuvar, Cəlilabad və Masallı rayonlarının elektrik enerjisinə olan tələbatı tam ödəniləcəkdir. Regionların sosial-iqtisadi inkişafı proqramında nəzərdə tutulan yardımçı stansiyada tikinti işlərini «Azenko» şirkəti həyata keçirir. Tikintidə yerli mütəxəssislərdən və işçi qüvvəsindən də istifadə olunur.*

*Prezident İlham Əliyev yardımçı stansiyanın çox əhəmiyyətli olduğunu vurğuladı, bunun işə düşməsindən sonra bölgənin elektrik enerjisi ilə tam təmin ediləcəyini bildirdi. Sonra dövlətimizin başçısı gilizi təmələ qoyaraq ilk beton qarışığını tökdü, bu yardımçı stansiyanın xeyirli və uğurlu olmasını arzuladı.*

## Heydər Əliyev muzeyinin açılış mərasimi

*Avqustun 10-da Salyan şəhərindəki Heydər parkında ulu öndərin adını daşıyan muzeyin təntənəli açılış mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, muzey görkəmli dövlət xadimi və siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin irsinin təbliği, gənc nəslin bu irsdən yararlanması məqsədi ilə yaradılmışdır. Burada ulu öndərin uşaqlıq və gənclik illərini, təhlükəsizlik orqanlarında fəaliyyətini, Azərbaycana rəhbərliyinin ilk dövrünü, ötən əsrin 70, 80 və 90-cı illərində Salyan rayonuna tarixi səfərlərini, müstəqil Azərbaycan dövlətinə rəhbərlik illərini, kənd təsərrüfatının, sənayenin inkişafına, ordu quruculuğuna, mədəniyyətə və idmana qayğısını, «Əsrin müqaviləsi»nin imzalanmasını, Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsini əks etdirən çoxsaylı fotoşəkil və*

*eksponat toplanmışdır. Xüsusi vurğulandı ki, ulu öndər 1969-cu ildə respublikada siyasi rəhbərliyə gəldikdən az sonra ilk səfərini məhz Salyan rayonuna etmişdir. Salyanlılar bunu ümummilli liderin onlara olan məhəbbətinin təzahürü kimi qiymətləndirirlər.*

*Muzeydə ümummilli liderin büstü də qoyulmuş, Salyan rayonuna səfərlərini əks etdirən xüsusi fotoalbom hazırlanmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin ayrı-ayrı guşələri ilə tanış oldular, fotoşəkillərə böyük maraqla baxdılar. Burada ulu öndərin 1998-ci ildə prezident seçkiləri ərəfəsində Salyana gəlişi zamanı söylədiyi nitq video-kadrlar vasitəsilə səsləndirildi.*

*Sonra dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyində nümayiş etdirilən fotoşəkillər ulu öndərin həyat və fəaliyyətini əks etdirir. Bütün dövrlərdə Heydər Əliyev doğma xalqına sədaqətlə xidmət etmişdir.

Heydər Əliyev Salyan rayonunun inkişafına həmişə böyük diqqət göstərmişdir. 1969-cu ildə Azərbaycan rəhbəri kimi ilk səfərini Salyan rayonuna etmişdir. 1998-ci ildə isə seçki kompaniyasını Salyan rayonundan başlamışdır. Bu faktlar Heydər Əliyevin Salyana və salyanlılara xüsusi münasibət və məhəbbətinin təzahürüdür.

Bu gün də Heydər Əliyev siyasəti yaşayır. Salyan rayonu inkişaf edir və rayonun gələcək inkişafına böyük diqqət göstərilir.

Bütün salyanlılara dərin hörmət və məhəbbətimi bildirirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*10.08.2006-cı il».*

## SALYAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Salyan*

*10 avqust 2006-cı il*

Əziz salyanlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür. Bu gün ulu öndər Heydər Əliyevin abidəsi açıldı və Heydər Əliyev muzeyinin açılışını da biz birlikdə etdik. Bu çox gözəl əlamətdar bir hadisədir. Muzeydə nümayiş etdirilən fotoşəkillər bir daha onu göstərir ki, ulu öndər Heydər Əliyev həmişə Salyan rayonunun inkişafına böyük diqqət vermişdir. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra ilk səfərini məhz Salyan rayonuna etmişdir. Ondan sonrakı illərdə dəfələrlə Salyanda olmuş və rayonun problemləri ilə yerində məşğul olmuşdur, müvafiq qərarlar qəbul etmiş və Salyan rayonunun inkişafına çox böyük töhfələr vermişdir.

1998-ci ildə prezident seçkiləri ərəfəsində də seçki kompaniyası çərçivəsində ilk səfərini məhz Salyan rayonuna etmişdir. Onu da demək istəyirəm ki, 2003-cü ildə mən də seçki kompaniyamı apardığım zaman bu gözəl ənənəyə sadiq qalaraq öz ilk səfərimi Salyana etmişəm. Bu gün də yenə Salyandayam, sizinlə birlikdəyəm.

Bu gün buraya gələrkən yeni tikilən Olimpiya kompleksinin tikintisi ilə tanış oldum və eyni zamanda Salyanda tikiləcək yeni müasir elektrik yardımçı stansiyasının təməl daşını qoydum. Bu iki obyektin Salyanda tikilməsi onu gös-

tərir ki, rayonun sosial-iqtisadi inkişafına çox böyük diqqət yetirilir. Olimpiya kompleksi ən yüksək dünya standartlarına cavab verəcək, onun yanında müasir mehmanxana, digər idman meydançaları da tikiləcək ki, həm gənclər, həm də idmansevərlər bu imkanlardan istifadə edə bilsinlər.

Öz növbəsində, yardımçı stansiyanın tikintisi Salyan rayonunun elektrik enerjisinə olan tələbatını tam şəkildə ödəyəcəkdir. 2007-ci ildə yardımçı stansiya istifadəyə veriləcəkdir. Bu iki obyektin tikintisi, ümumiyyətlə, Azərbaycanda aparılan siyasəti əks etdirir. Bir tərəfdən, infrastruktur layihələrin həyata keçirilməsi, elektrik enerjisi, qaz təchizatının yaxşılaşdırılması, digər tərəfdən, insanları narahat edən problemlərin aradan qaldırılması məsələləri bu gün bizim gündəliyimizdə əsas yerləri tutur.

Onu demək istəyirəm ki, Salyan mərkəzi xəstəxanasının da əsaslı təmiri nəzərdə tutulubdur. Mən bu gün xəstəxanada gedən işlərlə tanış olacaq və müvafiq göstərişlər verəcəyəm ki, xəstəxana qısa müddət ərzində ən yüksək səviyyədə təmir olunsun və ən müasir avadanlıqla təchiz edilsin. Bir sözlə, Salyan rayonunun hərtərəfli inkişafı üçün çox işlər görülür və bundan sonra da görüləcəkdir.

Yəqin onu da bilirsiniz ki, bu yaxınlarda rayonun inkişafı üçün burada abadlıq-quruculuq işlərinin aparılması üçün böyük məbləğdə vəsait ayrıldı. Bu vəsaitdən səmərəli istifadə olunmalıdır – yollar salınmalıdır, elektrik enerjisi ilə təchizat yaxşılaşmalıdır, məktəblər, sosial obyektlər tikilməli və əlbəttə ki, yeni iş yerləri də açılmalıdır. Çünki bildiyiniz kimi, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas hissəsi məhz yeni iş yerlərinin açılmasını nəzərdə tutur.

Sizə deyə bilərəm ki, son iki il yarım ərzində Azərbaycanda 435 min yeni iş yeri açılmışdır ki, bu da öz növbəsində həm məşğulluq problemini həll edir, eyni zamanda yerli istehsalı da gücləndirir. Bizim məqsədimiz Azərbaycanı hərtərəfli inkişaf etdirməkdir. Azərbaycanda çox güclü sənaye və iqtisadi potensialın yaradılması bizim əsas vəzifəmizdir.

Azərbaycanın son dövrdəki uğurlu inkişafı bu gün bütün dünyada qəbul edilir. İqtisadi inkişaf sürətinə görə Azərbaycan dünyada lider dövlətdir. Bizim iqtisadiyyatımız bu ilin 6 ayında 36 faiz, o cümlədən sənaye istehsalı 41 faiz artmışdır. Bu il ulu öndər Heydər Əliyevin əsəri olan Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilmişdir və artıq Azərbaycan neft gəlirləri əldə edir. Bu bizə imkan verir ki, ölkədə mövcud olan bütün problemləri qısa müddət ərzində həll edək. Mənim məqsədim məhz bundan ibarətdir. Güclü iqtisadiyyat, güclü sosial siyasət, ölkəmizin hərtərəfli inkişafı, yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması və aradan qaldırılması, yeni sənaye müəssisələrinin yaradılması – bütün bunlar reallıqdır. Azərbaycanın seçdiyi yol və əldə etdiyi nailiyyətlər deməyə əsas verir ki, bu, düzgün yoldur. Bu, Heydər Əliyev yoludur, Heydər Əliyev siyasətidir. Bu gün Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, yeni formalarla zənginləşir. Çünki bizim istəyimiz ondan ibarətdir ki, xalqımız daha da yaxşı yaşasın, insanların rifah halı yaxşılaşsın, mövcud olan problemlər aradan qaldırılsın, sosial ədalət prinsipləri tam şəkildə bərqərar olsun. Bilirsiniz ki, Heydər Əliyevin siyasətinin əsas istiqamətləri məhz bunlar idi. Azərbaycanda sosial ədalət prinsipləri tam şəkildə bərqərar olmalıdır. İnsanları narahat edən problemlər aradan qaldırılmalıdır. Biz hamımız insanlara böyük diqqət və qayğı ilə münasibət bəsləməliyik. Prezidentdən tutmuş, onun yerlərdəki nümayəndələrinə qədər hamımız bu amala qulluq etməliyik. Azərbaycanın hərtərəfli inkişafı, əlbəttə ki, həm ölkəmizi gücləndirəcək, həm yeni iş yerlərinin açılmasına imkan yaradacaq və insanların yaşayış səviyyəsini yaxşılaşdıracaqdır.

Bu illərdə Azərbaycanda məktəb tikintisi çox geniş vüsət alıbdır. Yüzlərlə məktəb tikilir, o cümlədən Salyan rayonunda. Düzdür, hələlik bu sahədə çoxlu problemlər var və demək olar ki, məktəblərin böyük hissəsinin çox böyük təmirə ehtiyacı vardır. Amma bizim iqtisadi imkanlarımız art-

dıqca bunu edirik və görürsünüz ki, büdcəmiz ildən-ilə artır. İnvestisiya layihələri həyata keçirilir, böyük elektrik stansiyaları, binalar tikilir, körpülər, yollar salınır. Bu bizə imkan verəcək ki, ölkəmiz çox zəngin, qüdrətli dövlətə çevrilsin, insanlar daha da yaxşı yaşasınlar. Biz əldə edilən gəlirləri, ilk növbədə, ən çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldirik. Məktəblər, xəstəxanalar tikilir, ən çətin vəziyyətdə yaşayan qaçqınlar, köçkünlər üçün də müasir binalar tikilir. Beləliklə, Azərbaycanın inkişafı təmin olunacaqdır. Çünki regionların inkişafı həm rayonlarda gedən işlərə güclü təkan verir, eyni zamanda, bütövlükdə ölkəmizi möhkəmləndirir.

İndi Azərbaycanda böyük, nəhəng, dünyamiqyaslı neft-qaz layihələri həyata keçirilir. Əlbəttə ki, onlar bizim üçün çox önəmli layihələrdir. Çünki Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını müəyyən edir. Bizim iqtisadi qüdrətimizi qaldırır. Ancaq bununla bərabər, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın, kənd təsərrüfatının inkişafı da daim diqqət mərkəzində olmalıdır. Bu istiqamətdə də müəyyən işlər aparılıbdır.

Bilirsiniz ki, kənd təsərrüfatının inkişafı üçün «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılmışdır və onun xətti ilə yeni kənd təsərrüfatı texnikası alınır və icarəyə verilir. Sahibkarlığın inkişafı üçün dövlət büdcəsində 100 milyon dollar həcmində kreditlərin verilməsi nəzərdə tutulub və bu kreditlər də fermerlərə verilir. Büdcəmiz artdıqca bu məbləğ də artacaq və gələn il daha da böyük olacaqdır. Biz sahibkarlığın inkişafı üçün bu kreditlərdən maksimum dərəcədə istifadə etməliyik. Yəni dövlət öz tərəfindən lazımi tədbirləri görür. İlk növbədə, infrastruktur layihələr həyata keçirilir. Çünki elektrik enerjisi olmasa, heç bir müəssisə işləyə bilməz. Həm magistral yolların, həm kənd yollarının tikintisi, su təchizatı, qaz təchizatı, sosial sahə və iqtisadi inkişaf, iş yerləri, yeni müəssisələr – bax, biz öz işimizi bu istiqamətlərdə qururuq. Deyə bilərəm ki, bütün istiqamətlərdə irəliləyiş

var. Haradasa inkişaf daha da sürətlə gedir, haradasa bir az ləng gedir. Amma hər yerdə gedir və getməlidir. Çünki Azərbaycanın əhalisinin yarısı rayonlarda, kəndlərdə yaşayır. Əlbəttə ki, rayonların, kəndlərin inkişafı da Azərbaycanı çox zəngin dövlətə çevirəcəkdir.

Bizim mövqelərimiz də möhkəmlənir. Güclü iqtisadiyyat bizə imkan verir ki, öz xarici siyasətimizi də müstəqil şəkildə aparaq, Azərbaycan xalqının milli maraqlarını tam şəkildə müdafiə edək. Çünki indiki zəmanədə dünyada, bölgədə müxtəlif proseslər gedir. Azərbaycan müəyyən mənalarda bölgədə gedən proseslərə təsir etmək iqtidarında olan ölkəyə çevrilir. Bizim mövqeyimizdən artıq çox şey asılıdır. Çünki biz bölgədə öz liderlik mövqelərimizi möhkəmləndiririk. Ancaq bunu etmək üçün, əlbəttə ki, güclü iqtisadiyyat lazımdır, xalqla iqtidar arasında birlik və Azərbaycanın hərtərəfli inkişafı lazımdır. Bu istiqamətdə prezident kimi, mən öz fəaliyyətimi aparıram. Bir daha qeyd etmək istərdim ki, 2003-cü ildə prezident seçkiləri ərəfəsində ilk görüşümü Salyan rayonunda keçirdim və ilk dəstəyi salyanlılardan aldım. Bu dəstəyi mən bu gün də hiss edirəm və bu mənə güc verir. Üç il bundan əvvəl verdiyim bütün vədlər həyatda öz əksini tapır. Söz vermişdim ki, Azərbaycanda gələn 5 il ərzində 600 min iş yeri açılacaqdır, onların 435 mini artıq açılmışdır. Söz vermişdik ki, yollar salınacaq, insanlar daha da yaxşı yaşayacaq, maaşlar, pensiyalar artacaq, bu işlər də gedir və daha da sürətlə gedəcəkdir.

Azərbaycanın bölgədəki, dünyadakı mövqeləri daha da möhkəmlənir. Bu həm ölkəmizdə gedən proseslərə çox müsbət təsir göstərir, eyni zamanda bizim hamımızda qürur hissi oyadır. Çünki Azərbaycan doğrudan da indi çox sürətlə irəliləyir.

Azərbaycan indi Dünya Birliyinin çox dəyərli üzvünə çevrilibdir. Bizim mövqeyimiz möhkəmlənir və əlbəttə ki, çox istəyirik ki, Azərbaycan qısa müddət ərzində qarşıda duran bütün problemlərini həll edə bilsin. Bizim düşünülmüş

proqramımız var, konsepsiyamız var və mən əminəm ki, qarşımızda duran bütün məsələlər növbəti illərdə öz həllini tapacaqdır. Hələ ki, insanların yaşayış səviyyəsi bizi qane edə bilməz. Çünki maaşlar, pensiyalar hələ ki, bizi qane etmir. Ancaq bu istiqamətdə işlər aparılır. İldən-ilə maaşlar, pensiyalar qaldırılacaq və elə edəcəyik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan heç bir adam olmasın.

Bunu etmək üçün biz hamımız çox fəal işləməliyik, hamımız bir nöqtəyə vurmalıyıq. Əlbəttə ki, xalq tərəfindən bu dəstəyi hiss etdikcə, mən daha da fəal oluram, daha da inamla islahatlar aparıram. Görəndə ki, nəticə var, uğurlar var, əlbəttə ki, çox sevinirəm. Mən çox sevinirəm ki, Azərbaycanda ictimai-siyasi vəziyyət də olduqca müsbətdir. Biz bu bölgədə yaşayırıq və burada gedən prosesləri də izləyirik, görürük. Görürük ki, bəzi hallarda bölgədə vəziyyət gərginləşir. Müharibələr, münaqişələr, toqquşmalar, daxili çəkişmələr, böhranlar mövcuddur. Azərbaycanda bunların biri də yoxdur. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. İnsanlar rahat yaşayırlar, axşamlar rahat gəzirlər. Azərbaycanda asayiş möhkəm qorunub saxlanılır. Xalqla iqtidar arasında olan birlik ölkəmizi çox sürətlə inkişaf etdirir və daxildəki proseslər də çox müsbət istiqamətdə gedir. Bir sözlə, Azərbaycanda sabitlik tam şəkildə bərqərar olunubdur. Sabitlik olmayan yerdə inkişaf da olmur. Başqa ölkələrin təcrübəsi də bunu göstərir. Azərbaycanda 90-cı illərin əvvəllərində yaşanan o dəhşətli hadisələr bunu bir daha göstərir. Sabitlik olmayan yerdə inkişaf ola bilməz. İnkişaf olmayan yerdə, ümumiyyətlə, ölkələr və bu ölkələrdə yaşayan insanlar çox böyük əziyyətlər çəkirlər. Azərbaycanın gələcəyi isə çox parlaq olacaqdır. Biz işin əvvəlindəyik. Bakı–Tbilisi–Ceyhan neft kəməri hələ tam gücü ilə işləmir. 2008-ci ildə Azərbaycanda 60 milyon tondan çox neft hasil ediləcək və bu, Azərbaycanı çox zəngin dövlətə çevirəcəkdir. Hər bir vətəndaş normal işlə təmin olunmalıdır. Onun yaşayış şəraiti yaxşı olmalıdır, iş şəraiti yaxşı olmalıdır və ölkəmiz inkişaf

etməlidir. Mənim məqsədim budur, amalım budur. Mən sizə arxalanıram və bu gün Salyana, sizinlə görüşə bu fikirlərlə gəlmişəm.

Bundan sonra da Salyan rayonunun inkişafına daim diqqət göstərəcəyəm. Birlikdə çox böyük işlər görəcəyik və Salyan rayonu həmişə olduğu kimi, Azərbaycanın qabaqcıl rayonu olaraq qalacaqdır. Bir daha sizi ürəkdən salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə görüşüb səmimi söhbət etdi, onların qayğı və problemləri ilə maraqlandı.*

*Rayon ağsaqqalları, ziyalılar və başqaları prezidentə dərin təşəkkürlərini bildirdilər, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Salyan rayonuna göstərilən diqqət və qayğıdan razılıq etdilər, ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini xatırladaraq onun siyasi xəttinin bu gün uğurla davam etdirildiyini söylədilər.*

## Azər Səfərov adına Salyan şəhər ümumtəhsil internat məktəbi ilə tanışlıq

*Avqustun 10-da Azərbaycan prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş Azər Səfərovun adını daşıyan Salyan şəhər ümumtəhsil internat məktəbinə gəldilər.*

*Burada prezidenti və xanımını gül-çiçəklə qarşıladılar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondu tərəfindən təmir olunmuş bu doqquzillik internat məktəbində 416 şagird təhsil alır. Burada 105 yetim uşaq da saxlanılır, onların yaşayışı, təlim-tərbiyəsi üçün hər cür şərait*

*yaradılmışdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Salyan rayonunda yeni məktəblər, idman salonları inşa olunur.*

*Prezident İlham Əliyev və xanımı ayrı-ayrı sinif otaqlarına, kompüter sinifinə baxdılar. Bildirildi ki, müasir informasiya vasitələrinin tətbiq olunması çox müsbət nəticələr verir. Ümumiyyətlə, Salyan rayonunun şagirdləri ayrı-ayrı fənlər üzrə respublika və beynəlxalq miqyaslı olimpiadalarda yüksək nəticələr göstərirlər.*

*Şagirdlərin yataq otaqlarına və oxu zalına baş çəkən prezident İlham Əliyev burada yaradılan şəraitdən razılığını bildirdi. Dövlətimizin başçısı Heydər Əliyev Fondunun təşəbbüsü ilə Salyanda gələcəkdə də yeni məktəb binalarının inşa olunacağını vurğuladı.*

## Zərifə xanım Əliyeva adına parkda gəzinti

*Avqustun 10-da Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Salyan şəhərinin mərkəzi küçəsində yerləşən və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan parka gəldilər.*

*Prezident və xanımı Zərifə Əliyevanın büstünü ziyarət etdilər və gül dəstələri qoydular.*

*Bir il əvvəl istifadəyə verilmiş parkda ətraf binaların sakinlərinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyev şəhər və rayonlarda bu cür abadlıq işlərinin aparılmasından razılığını bildirdi.*

## Salyan rayon mərkəzi xəstəxanası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 10-da Salyan rayonunun mərkəzi xəstəxanasında aparılan təmir-bərpa işləri ilə tanış olmuşlar. Azərbaycan prezidentini və xanımını binanın qarşısında gül-çiçəklə qarşıladılar.*

*Səhiyyə naziri Oqtay Şirəliyev 70-ci illərdə ulu öndər Heydər Əliyevin göstərişi ilə tikilmiş mərkəzi xəstəxanada görülən təmir-bərpa işləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, rayonda 900 çarpayısı olan doqquz səhiyyə müəssisəsi fəaliyyət göstərir. Tibb müəssisələrinin strukturlarının səmərələşdirilməsi üçün xüsusi layihə həyata keçirilir. Beş korpusdan ibarət mərkəzi xəstəxana ən yüksək standartlara cavab verəcək və müasir avadanlıqla təmin olunacaq, tibbi xidmətin səviyyəsinin artırılması üçün hər cür şərait yaradılacaqdır.*

*Sonra prezident İlham Əliyev xəstəxana ilə tanış oldu və dedi ki, bu müalicə ocağının müasir standartlara cavab verməsini təmin etmək üçün lazım olan vəsait ayrılacaqdır. Xəstəxananın mərkəzi magistral yolun yaxınlığında yerləşməsi yol-nəqliyyat qəzaları nəticəsində xəsarət alanlara təcili tibbi yardım göstərilməsi üçün xüsusi əhəmiyyət kəsb edir.*

*Xəstəxanada kardiologiya, nevrologiya, oftalmologiya, cərrahiyyə, travmatologiya, urologiya, reanimasiya, ginekologiya, yoluxucu xəstəliklər şöbələri, qadın məsləhətxanası və doğum evi olacaqdır. Təmir-bərpa işləri bp şirkəti və Səhiyyə Nazirliyi tərəfindən aparılır.*

*Prezident İlham Əliyev təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarının regional məntəqələrinin planı ilə tanış oldu.*

*Sonra dövlətimizin başçısı xəstəxananın tibbi heyəti ilə görüşdü, onlara yüksək standartlara cavab verən xəstəxananın yaradılması üçün hər cür kömək göstəriləcəyini bildirdi.*

## Salyan süd emalı zavodunda

*Avqustun 10-da Salyan süd emalı zavodunun istifadəyə verilməsi münasibətilə mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva bu münasibətlə zavoda gəldilər. Burada dövlətimizin başçısını və xanımını gül-çiçək dəstələri ilə qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə zavodun yenidən qurulması layihəsi və iş sxemi ilə yaxından tanış oldu. Məlumat verildi ki, tikintisinə keçən il başlanılan bu istehsal müəssisəsi 2007-ci ildə ilk dünya səviyyəli məhsulunu buraxacaqdır. Əsaslı təmir edilərək tamamilə yenidən qurulmuş və 10 çeşiddə süd məhsulları istehsal edəcək bu müəssisənin gündəlik emal gücü 30 tondur. Hazırda burada 50 nəfər çalışır. Salyanda, ümumiyyətlə, gündə 90 tondan çox süd istehsal olunur və bunu nəzərə alaraq bu sahə üzrə yeni müəssisənin yaradılmasına ehtiyac duyulur. Yeni istifadəyə verilmiş zavod xeyli ailənin işlə təmin olunmasına imkan yaradacaqdır.*

*Xüsusi vurğulandı ki, «Aqrokredit» Səhmdar Təşkilatının krediti və Dünya Bankının müəyyən maliyyə köməyi hesabına yaradılmış, müasir avadanlıq qurulmuş zavodun məhsulları xarici bazarlara da çıxarılacaqdır.*

*Prezident İlham Əliyev emal müəssisəsinin laboratoriyası, məhsulun qəbulu, çeşidlənməsi və kompüterlə keyfiyyətinin yoxlanılması və digər proseslərlə yaxından tanış oldu. Bu cür emal müəssisələrinin yaradılmasının əhəmiyyətindən danışan dövlətimizin başçısı bir daha xatırlatdı ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun həyata keçirilən işlər ölkəmizdə işsizliyin aradan qaldırılmasına xüsusi kömək göstərir. Ona görə bu cür müəssisələrin yaradılmasına və sahibkarlığın inkişafına bundan sonra da dəstək veriləcəkdir.*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

80 illik yubileyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Kuba arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, uzun ömür diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 avqust 2006-cı il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LƏNKƏRAN RAYONUNA SƏFƏRİ

*11 avqust 2006-cı il*

## Lənkəran şəhərində Heydər Əliyev parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 11-də Lənkəran rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Lənkəran şəhərində Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etdi. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular, parkda aparılan yenidənqurma işləri ilə tanış oldular. Bildirildi ki, ilin sonunadək parkın ərazisi daha da genişləndiriləcək, Heydər Əliyev xatirə muzeyinin tikintisi başa çatdırılacaqdır.*

*İkinci dünya müharibəsində faşizmə qarşı mübarizədə həlak olmuş lənkəranlıların xatirə kompleksi, fəvvarələr, müasir işıqlandırma sistemi bu istirahət guşəsinə xüsusi yaraşıq verir.*

*Dövlətimizin başçısı parkın yenidən qurulması layihəsi ilə tanış oldu, görülən işləri yüksək qiymətləndirdi, muzeyin tikintisi ilə maraqlandı.*

## General Həzi Aslanovun abidəsini ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 11-də Lənkəran şəhərində iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun adını daşıyan parkda olmuşdur. Dövlətimizin başçısı və xanımı burada görkəmli sərkərdənin abidəsi önünə gül dəstələri qoydular.*

*Parkla tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, rayon sakinlərinin istirahəti üçün burada gözəl şərait yaradılmışdır.*

## LƏNKƏRANDA MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ* NİTQ

*11 avqust 2006-cı il*

*Avqustun 11-də Lənkəran şəhərinin Tofiq İsmayılov küçəsində Dövlət Neft Şirkətinin vəsaiti hesabına inşa edilən Müalicə-Diaqnostika Mərkəzi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün buraya gəldi. Açılış mərasiminə toplaşan minlərlə sakin dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə qarşıladılar, onlara gül dəstələri təqdim olundu.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, konsultativ diaqnostik poliklinika, inzibati bölmə, əməliyyat bloku, qəbul, şüa diaqnostikası, reanimasiya, cərrahiyyə, hemodializ şöbələrinə və palatalara baxdı.*

*Bildirildi ki, bir il ərzində dünya standartlarına uyğun tikilən yeni tibb müəssisəsi təxminən 3 milyon dollar dəyərində ən müasir tibbi avadanlıq və ləvazimatla təchiz edilmiş, 300 nəfər daimi işlə təmin olunmuşdur. Burada xəstələrin müalicəsi üçün hər cür şərait yaradılmış, kadr heyəti təkmilləşdirilmişdir. Əsasən Almaniyanın «Siemens» şirkətinin istehsalı olan ən son avadanlıq böyrək xəstəliklərinin diaqnostikası və müalicəsi üçün çox yararlıdır. Bu avadanlıq dünyanın ən tanınmış nüfuzlu şirkətləri tərəfindən quraşdırılmışdır. İstilik, elektrik enerjisi, su təchizatı ilə bağlı hər cür şərait yaradılan*

---

* Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov və Uşaq Sağlamlıq Mərkəzinin həkimi Gülnarə Həmzəyeva çıxış etdilər.

*mərkəzdə oftalmologiya, kompüter tomoqrafiyası, kardiologiya kabinetləri də fəaliyyət göstərir.*

*Məlumat verildi ki, cənub bölgəsində böyrək çatışmazlığından əziyyət çəkən 7 min xəstə vardır. Artıq müalicə üçün 38 xəstə müraciət etmişdir.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirərək ölkəmizin bütün bölgələrində belə mərkəzlər yaradıldıqdan sonra böyrək çatışmazlığından əziyyət çəkən insanların müalicə və müayinəsinin asanlaşacağını, onların digər yerlərə getməsinə ehtiyac qalmayacağını söylədi. Ən son hemodializ aparatlarının məhz burada quraşdırıldığını vurğulayan dövlətimizin başçısı Bakıdakı xəstəxanaların da bu cür avadanlıqla təmin olunmasının zəruriliyini bildirdi.*

**İlham Əliyev:** Əziz lənkəranlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gün gözəl Müalicə və Diaqnostika Mərkəzinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, son illər ərzində Azərbaycanda tikilən ən müasir tibb ocağıdır. Bildiyiniz kimi, Azərbaycanın müxtəlif bölgələrində müalicə-diaqnostika mərkəzləri tikilir. Birinci Müalicə-Diaqnostika Mərkəzi bu gün Lənkəran şəhərində açılır və istifadəyə verilir. Bu çox gözəl hadisədir, çox əlamətdar bir haldır. Onu da deyə bilərəm ki, bu gün bu mərkəzlə tanış olarkən gördüm ki, o, ən yüksək dünya standartlarına cavab verir. Həm tikinti işləri, eyni zamanda burada quraşdırılan avadanlıq dünyanın ən yüksək, qabaqcıl texnologiyalarına uyğundur. Əminəm ki, dünyanın ən öndə gedən şirkətlərindən birinin – «Siemens» şirkətinin müasir avadanlıqları ilə təchiz olunmuş bu Müalicə-Diaqnostika Mərkəzində Lənkəranın və ətraf rayonların sakinləri çox yüksək tibbi xidmətlə təmin olunacaqlar.

Bu mərkəzin tikilməsi çox əlamətdar bir hadisədir. Çünki Azərbaycanın bugünkü reallıqlarını əks etdirir. Bu gün Azərbaycan çox sürətlə və dinamik şəkildə inkişaf edən ölkədir. Biz bu inkişafı bütün sahələrdə və ilk növbədə, sosial sahədə

görürük. Çünki sosial sahə ən böyük diqqətə layiq olan sahədir. İnsanların həyat səviyyəsinin yaxşılaşması, iş şəraitinin yaxşılaşması, işsizliyin aradan qaldırılması, məktəb və xəstəxanaların tikintisi, əlbəttə ki, ölkənin ümumi inkişaf potensialını müəyyən edir. Bu gün Azərbaycanın iqtisadi imkanları bizə bu şəraiti yaradır. Azərbaycanın iqtisadiyyatı çox sürətlə inkişaf edir, bizim bütün böyük layihələrimiz uğurla icra olunur. Ulu öndər Heydər Əliyevin neft strategiyası Azərbaycanda artıq öz potensialını ortaya qoyur. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını təmin edəcəkdir. Dövlət Neft Fondunda yığılan vəsait Azərbaycan xalqının rifah halının yaxşılaşmasına və iqtisadiyyatın inkişafına yönəldilir.

Bildiyiniz kimi, bu Müalicə-Diaqnostika Mərkəzini də Azərbaycan Dövlət Neft Şirkəti inşa edibdir. Bunun tarixini də yəqin ki, siz bilirsiniz, bu gün burada qeyd olundu. 2004-cü ilin əvvəlində bədbəxt hadisə baş verəndən sonra mən Lənkərana gəldim və burada xəstələrlə görüşdüm və gördüm ki, xəstəxananın şəraiti aşağı səviyyədədir. Ondan sonra belə bir fikir oyandı ki, biz gərək mütləq Lənkəranda yeni müasir tibb mərkəzi yaradaq. Keçən ilin sentyabr ayında sizinlə bərabər burada xəstəxananın təməl daşını qoyduq və bu gün onun açılışını qeyd edirik.

Bu onu göstərir ki, bizim qəbul etdiyimiz bütün qərarlar həyatda öz əksini tapır, bütün nəzərdə tutduğumuz proqramlar icra olunur, özü də qısa müddət ərzində və dünyanın ən yüksək standartlarına uyğun şəkildə. Bu gün Azərbaycanda bu xəstəxananın analoqu yoxdur və bilirsiniz ki, Azərbaycanda belə xəstəxanaların birincisi də məhz Lənkəranda tikildi.

Onu da qeyd etmək istəyirəm ki, bu gün Azərbaycanda müxtəlif layihələr həyata keçirilir. O cümlədən, bölgələrdə yeni elektrik stansiyalarının tikintisi də artıq başlanmışdır. Onların içərisində də birinci elektrik stansiyasını biz cənub

bölgəsində, Astara rayonunda tikdik və onun açılışını bərabər keçirdik. Bu, bütövlükdə cənub bölgəsinin inkişafına çox böyük töhfədir. İnfrastruktur layihələr, yeni elektrik stansiyaları, yolların çəkilməsi, məktəblərin, xəstəxanaların, diaqnostika mərkəzlərinin tikintisi bölgəni hərtərəfli inkişaf etdirəcəkdir. Bilirsiniz ki, mənim təşəbbüsümlə Lənkəran aeroportu da yenidən qurulur. Göstəriş vermişəm ki, yeni aeroport ən yüksək dünya standartlarına cavab versin, beynəlxalq status alsın. Uçuş-enmə zolağı da ən yüksək dünya standartlarına cavab versin ki, ən böyük, iri təyyarələr buraya enə bilsin. Artıq tikinti gedir, yaxın zamanlarda Lənkəran beynəlxalq aeroportu da istifadəyə veriləcəkdir.

Bilirsiniz ki, regionların inkişafı bizim siyasətimizin əsas istiqamətini müəyyən edir və əlbəttə ki, hər bir regionun inkişafı və yeni infrastrukturun yaranması bütövlükdə ölkəmizi möhkəmləndirir, bölgələrdə yaşayan insanların həyat səviyyəsini yaxşılaşdırır və bütövlükdə Azərbaycanın iqtisadi inkişafını təmin edir.

Bizim uğurlu neft strategiyamız öz bəhrəsini verməkdədir. İndi əsas diqqətimiz qeyri-neft sektorunun inkişafına yönəldilibdir. İqtisadiyyatımız çoxşaxəli olmalıdır, yeni iş yerləri daha da sürətlə açılmalıdır. Çox böyük iftixar hissi ilə deyə bilərəm ki, son iki il yarım ərzində Azərbaycanda 435 min yeni iş yeri açılmışdır.

Yoxsulluğun azaldılması da bu istiqamətdə çox önəmli bir proqram çərçivəsində, beynəlxalq maliyyə qurumları ilə birlikdə həyata keçirilir. Əminəm ki, proqramın icrası nəticəsində Azərbaycanda bir nəfər də yoxsul adam olmayacaqdır. İldən-ilə maaşlar qaldırılır və qaldırılacaqdır. Bizim buna iqtisadi imkanlarımız çatır. İqtisadi inkişaf hər şeyi müəyyən edir.

Əgər iqtisadi potensial olmasaydı, biz bu gözəl Müalicə-Diaqnostika Mərkəzini də tikə bilməzdik. Əgər bizim iqtisadi gücümüz olmasaydı, bu gün Azərbaycanda geniş quru-

culuq-abadlıq işlərini aparmaq mümkün olmazdı. Lənkəranın timsalında biz bunu görürük.

Mən fevral ayında son dəfə Lənkəranda olmuşdum və o vaxtdan indiyə qədər görülən işləri də bu gün bir daha gördüm. Çox böyük quruculuq işləri aparılır. Lənkəranın əsas meydanı abadlaşır, genişlənir, yeni yollar salınır, binalar rənglənir və bütövlükdə şəhərin infrastrukturu yeniləşir. Bizim qarşımızda olan bu gözəl sahil zonası da abadlaşır. Yəni bütün bunları etmək üçün gərək iqtisadi potensial olsun, büdcə icra olunsun, büdcəyə daxilolmalar artsın, maliyyə nizam-intizamı möhkəmlənsin və əlbəttə ki, əldə edilən vəsaitdən səmərəli istifadə olunsun.

Ulu öndər Heydər Əliyevin əsəri olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismarı zamanı Azərbaycan çox zəngin dövlətə çevriləcəkdir. Bizim iqtisadi imkanlarımız o qədər olacaq ki, ölkədə bütün problemlər öz həllini tapacaqdır. Artıq biz bunu görürük – bütün bölgələrdə gedən abadlıq işləri, quruculuq işləri, magistral yolların tikintisi. Onu deyə bilərəm ki, bu yaxınlarda Bakı–Astara magistral yolunun yenidən qurulması nəzərdə tutulubdur. Bu həm bölgəyə, insanlara rahatlıq gətirəcək, eyni zamanda Azərbaycanın bütövlükdə infrastrukturunun inkişafında çox mühüm rol oynayacaqdır. Amma təkcə o yol deyil, başqa istiqamətdə gedən yollar da var. Şimal istiqamətində magistral yol çəkilir, qərb istiqamətində yol çəkilir. Lənkəranda, Gəncədə, Zaqatalada yeni aeroportlar tikilir, məktəblər, xəstəxanalar tikilir. Budur Azərbaycanın bugünkü reallığı. Budur Azərbaycanın imkanları, potensialı.

Biz hamımız çalışmalıyıq ki, doğma vətənimizi daha da möhkəmləndirək, zənginləşdirək. Mən həmişə demişəm, bu gün də demək istəyirəm: əgər hər bir rayonun, hər bir kəndin problemi öz həllini taparsa, deməli, ölkədə mövcud olan bütün problemlər həll ediləcəkdir. Biz bu işlərlə məşğuluq və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulan bütün maddələr vaxtlı-vaxtında və yüksək

səviyyədə icra olunur. Bununla bərabər, nəzərə alsaq ki, proqram 2004-cü ilin əvvəlində qəbul edilmişdir və o vaxtdan bu günə qədər yeni məsələlər ortaya çıxır, biz mütəmadi qaydada proqrama dəyişikliklər edirik. Misal üçün, bu Diaqnostika Mərkəzinin tikintisi regionların sosial-iqtisadi inkişafı proqramında yox idi. Bunu sonra əlavə etdik. Lənkəran aeroportunun tikintisi də yox idi. Bilirsiniz ki, indi məktəb tikintisi çox geniş vüsət alıbdır. Amma proqramda bu qədər məktəbin tikintisi nəzərdə tutulmamışdı. Yəni biz gündəlik fəaliyyətimizdə bütün proqramlarımıza dəyişikliklər edirik. O məqsədlə ki, işlər daha da sürətlə getsin.

Təsəvvür edin ki, təxminən bir il ərzində Azərbaycanın dövlət büdcəsi 2 dəfə artırılıbdır. Gələn il isə daha da artırılacaqdır. Bizim imkanlarımız daha da böyük olacaq və büdcə xərcləri ilk növbədə insanların sosial problemlərinin həllinə yönəldilir. Bu il maaşlar da, pensiyalar da qaldırılacaq, eyni zamanda gələn il böyük infrastruktur layihələr həyata keçiriləcəkdir.

İndi Azərbaycanın davamlı iqtisadi inkişafı üçün enerji təhlükəsizliyi çox böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə Azərbaycanın bütün bölgələrində yeni elektrik stansiyaları tikilir, yollar salınır, qaz xətləri çəkilir, su xətləri çəkilməlidir və çəkiləcəkdir. Bilirəm ki, rayonlarda əsas problemlərdən biri də əhalinin içməli su ilə təchizatıdır. Biz bunu da həll edəcəyik. Bütün bunlar vəsait tələb edir və Azərbaycan bütün bu işləri öz gücü ilə həyata keçirir. Bizim potensialımız imkan verir ki, bütün bu böyük layihələri həyata keçirək və ölkəmizi daha da abadlaşdıraq, zənginləşdirək, Azərbaycanın iqtisadi inkişafı çox uğurlu olsun. Mən buna inanıram, bilirəm ki, bu belə olacaqdır. Çünki bu günə qədər qəbul etdiyimiz bütün proqramlar həyatda öz əksini tapıbdır. Verdiyimiz bütün vədlər həyatda öz əksini tapıbdır və sözlə əməl arasında güclü vəhdət olanda, işlər yaxşı gedir.

Bütün bu işləri biz birlikdə görürük və görəcəyik. Biz bu siyasəti xalqın dəstəyi ilə aparırıq və mən heç şübhə etmirəm

ki, Azərbaycanın gələcəyi çox parlaq olacaq, insanlarımız çox yaxşı yaşayacaqlar. İndi işsizlik aradan qaldırılır, yoxsulluq da aradan qaldırılacaqdır. İnsanların həyat səviyyəsi mütəmadi qaydada yaxşılaşmalıdır, maaşlar, pensiyalar qaldırılacaqdır. Buna çox böyük diqqət veririk, çünki bu sahədə olan vəziyyət bizi hələ ki, qane edə bilmir. Çünki hələ iqtisadiyyatımız imkan vermir ki, insanlar lazım olan səviyyədə pensiya, maaş alsınlar. Düzdür, bu, ildən-ilə artır. Amma hələlik minimum əməkhaqqı imkan vermir ki, insanlar minimum tələbatlarını təmin etsinlər. Minimum əməkhaqqı minimum həddir. Onu alan gərək minimum səviyyədə yaşasın. Ancaq hələ biz buna çalışırıq və əminəm ki, qısa müddət ərzində buna nail olacağıq.

Bu bölgənin də inkişafı Azərbaycan üçün çox vacibdir. Lənkəran həmişə Azərbaycanın çox fəal bölgəsi olmuşdur. Lənkəranlılar bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına öz töhfələrini vermişlər. Xüsusilə müstəqillik dövründə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində lənkəranlıların çox böyük rolu olmuşdur. Bu gün də bu rol göz qabağındadır. Bu bölgənin hərtərəfli inkişafı özlüyündə müstəqilliyimizə olan böyük töhfədir. Azərbaycanın müstəqilliyi artıq əbədi, dönməz xarakter alıb, günü-gündən möhkəmlənir. İqtisadi gücümüz nə qədər artsa, müstəqil siyasət aparmaq bizim üçün bir o qədər də asan olacaqdır.

Əziz dostlar, mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Mən bu gün çox sevinirəm ki, qısa müddət ərzində Lənkəranda belə gözəl tibb ocağı yaradıldı. Arzu edirəm ki, heç kim xəstələnməsin, hamı sağlam olsun. Amma işdir, əgər lazım olsa, bu Müalicə-Diaqnostika Mərkəzində ən yüksək tibbi xidmət ala bilərsiniz. Bir daha sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

***

*Prezident İlham Əliyev mərasimdən sonra yerli sakinlərlə səmimi görüşüb hal-əhval tutdu, onların problemləri ilə maraqlandı*

**Mirhəşim Talışlı** (*Lənkəran Dövlət Universitetinin müəllimi*): Çox əziz və hörmətli prezidentimiz İlham Əliyev!

Dünya şöhrətli liderimiz Heydər Əliyevin qarşısında 1998-ci il oktyabrın 5-də oxuduğum şeirə görə onun mənim haqqımda dediyi xoş sözlərin təsiri qəlbimdə əbədi və fərəhli iz salmışdır. İlk misraları xatırlayıram:

Sənin qüdrətinə söz demək üçün
Sözə İlahidən qüdrət gərəkdir!

Doğrudan da mən o böyük liderimizin misilsiz zəhmətləri, dar günündə xalqımızı, Vətənimizi, respublikamızı təhlükələrdən xilas edən dahi insanın qarşısında söz deməyə cəsarət etdiyim üçün ulu Tanrıdan sözlərimə bir qüvvət arzulamışdım. Dahi şəxsiyyətin ləyaqətli davamçısı olan, əbədi prezident hesab etdiyim İlham Əliyevin, Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın qarşısında söz demək üçün bu gün də ulu Tanrıdan bir hünər arzu edirəm.

Bu gün Lənkəranımız son dərəcədə abadlaşır, gözəlləşir, gülüstana çevrilir. Şəhər, qəsəbə və kəndlərimizin hər tərəfində böyük abadlıq işləri aparılır. Bütün bunlara görə lənkəranlılar və Lənkəran Dövlət Universitetinin professor-müəllim heyəti adından dərin razılığımı bildirirəm. Qoy ulu Tanrı Sizə işlərinizdə kömək olsun, hər işiniz, xüsusən siyasi fəaliyyətiniz müvəffəqiyyətlə nəticələnsin. Gün o gün olsun ki, Qarabağ torpağında Qələbə bayramına yığışaq. Qoy ulu Tanrı həmişə Sizdən razı qalsın.

## Lənkəran tikiş fabriki ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 11-də Lənkəranda tikiş fabrikinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını və xanımını burada gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev fabriklə yaxından tanış oldu, ayrı-ayrı sexlərə baxdı, istehsal prosesi ilə maraqlandı.*

*Məlumat verildi ki, «AY-NT» Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus fabrikdə 120 nəfər çalışır. Burada müxtəlif çeşidli məhsullar, o cümlədən idman geyimləri tikilir, sifarişlər qəbul olunur, etiketlər və emblemlər də hazırlanır. Naxış toxumaq üçün xüsusi texnologiya tətbiq olunur. Quraşdırılan avadanlıq Çindən gətirilmişdir. Müəssisədə orta aylıq əməkhaqqı 80–100 manat təşkil edir.*

## Sahil parkında gəzinti

*Avqustun 11-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Lənkəran şəhərində, Xəzər dənizinin sahilində müasir tələblərə cavab verən yeni sahil parkına gələrək burada yüksək zövqlə yaradılan istirahət guşələrini gəzdilər. Gəzintiyə çıxan sakinlər onları ehtiramla qarşıladılar, uşaqlara göstərilən diqqət və qayğıya görə təşəkkür etdilər. Xəzərin sahilində gəzintiyə çıxmağın xüsusilə uşaqlarda böyük sevinc doğurduğunu bildirdilər.*

*Gələcəkdə bu park sahilboyu bir neçə kilometr uzadılacaq, burada xüsusi işıqlandırma sistemi, əyləncə qurğuları quraşdırılacaqdır.*

*Dövlətimizin başçısı və xanımı parkdan Xəzər dənizini seyr etdilər, uşaqlarla söhbət etdilər.*

## Xalq Sənətkarlığı Şəhərciyinin açılış mərasimi

*Avqustun 11-də Lənkəranda Xalq Sənətkarlığı Şəhərciyinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı burada milli geyimli oğlan və qız gül-çiçəklə qarşıladılar.*

*Dövlətimizin başçısı əvvəlcə şəhərciyin layihəsi ilə tanış oldu. Məlumat verildi ki, yerli mətbəxi və xalq sənətkarlığını bir yerdə birləşdirən şəhərciyin yaradılmasından məqsəd milli adət-ənənəni təbliğ etməkdir. Lənkərana gələn xarici qonaqlar burada Azərbaycanın, o cümlədən bu bölgənin xalq sənəti, milli mətbəxi ilə yaxından tanış olacaqlar. Burada dulusçuluq, misgərlik, xalçaçılıq nümunələri və s. hazırlanır, plov, təndir çörəyi, cücə ləvəngisi bişirilir. Qədim musiqi, rəqslər də unudulmamışdır. Şəhərcikdə qonaqlar milli üslubda düzəldilmiş taxtlarda oturaraq Lənkəran çayı da içəcəklər.*

*Prezident İlham Əliyev şəhərciyi gəzdi, milli musiqiyə qulaq asdı, təndir çörəyindən və plovdan daddı, xalq sənəti nümunələrinin hazırlanması prosesinə, qədim rəqslərə maraqla tamaşa etdi. Prezident və xanımı ənənəvi çay süfrəsinə dəvət olundular.*

## Süd emalı zavodu ilə tanışlıq

*Avqustun 11-də Lənkəran süd emalı zavodunun istifadəyə verilməsi münasibətilə mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva bu münasibətlə zavoda gəldilər. Burada dövlətimizin başçısını və xanımını gül-çiçək dəstələri ilə qarşıladılar. Prezident İlham Əliyevə məlumat verildi ki, tikintisinə keçən il başlanılan bu istehsal müəssisəsi 2007-ci ildə ilk dünya səviyyəli məhsulunu buraxacaqdır. Müasir standartlara uyğun tikilən və 15 çeşiddə süd məhsulları istehsal edəcək zavod «Nursüd» markası ilə tanınacaqdır. Bu müəssisənin gündəlik*

*emal gücü 50 tondan çox olacaqdır. Ümumiyyətlə, Lənkəran rayonunda gündə 150 tondan çox süd istehsal olunur və bunu nəzərə alaraq yeni emal müəssisəsi yaradılmışdır. Zavod xeyli ailənin işlə təmin olunmasına imkan yaradacaqdır.*

*Xüsusi vurğulandı ki, «Palmali» şirkətlər qrupu tərəfindən yaradılmış, müasir avadanlıq qurulmuş zavodun məhsulları xarici bazarlara da çıxarılacaqdır. 18 milyon dollar vəsait xərclənmiş emal müəssisəsində quraşdırılan avadanlıq və texnologiya Türkiyə və Almaniyadan gətirilmişdir. Gələcəkdə müəssisə daha da genişləndiriləcəkdir.*

*Prezident İlham Əliyev zavodun laboratoriyası, məhsulun qəbulu, çeşidlənməsi və kompüterlə keyfiyyətinin yoxlanılması və digər proseslərlə yaxından tanış oldu, regionlarda bu cür müasir emal müəssisələrinin yaradılmasının əhəmiyyətini vurğuladı.*

## «Xəzər–Lənkəran» futbol klubunun yeni stadionunun istifadəyə verilməsi mərasimi

*Avqustun 11-də Lənkəran şəhərində «Xəzər–Lənkəran» futbol klubunun yeni stadionu istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir. İdmançılar və gənclər dövlətimizin başçısını və xanımını stadionun girəcəyində böyük hörmətlə qarşıladılar.*

*«Xəzər–Lənkəran» futbol klubunun prezidenti Mübariz Məsimov dövlətimizin başçısına məlumat verdi ki, 15 min tamaşaçı tutan və örtülü tribunaları olan bu stadion UEFA-nın standartlarına tam uyğundur və burada beynəlxalq yarışlar da keçirmək mümkündür. «Palmali» şirkətlər qrupunun maliyyə vəsaiti (15 milyon ABŞ dollarından çox) ilə tikilən stadionda 25 kvadratmetrlik işıq tablosu quraşdırılmış, uşaq futbolunun inkişafı üçün xüsusi meydança yaradılmışdır. Burada 100 yerlik mehmanxana da inşa edilmiş, 150-dən çox insan daimi işlə təmin olunmuşdur.*

*Prezident İlham Əliyev yeni stadionu yüksək qiymətləndirdi, bunun ölkəmizdə, o cümlədən Lənkəranda futbolun və digər idman növlərinin inkişafına təkan verəcəyini vurğuladı. O, stadionu gəzərək yeniyetmə futbolçularla, həmin gün qarşılaşacaq «Xəzər–Lənkəran» və «Neftçi» futbol komandalarının məşqçiləri və oyunçuları ilə görüşdü, onlara uğurlar arzuladı.*

*Dövlətimizin başçısı meydançanın mərkəzində topa ilk zərbə endirdi.*

## Osman Mirzəyev adına qarışıqtipli internat evində aparılan təmir işləri ilə tanışlıq

*Avqustun 11-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Lənkəran şəhərində Osman Mirzəyev adına qarışıqtipli internat evində aparılan təmir işləri ilə tanış olmuşlar.*

*Burada prezidenti və xanımını gül-çiçəklə qarşıladılar.*

*Dövlətimizin başçısı internat evinin əsaslı təmir layihəsi ilə tanış oldu. Məlumat verildi ki, internatda 600-dən çox şagird təhsil alır. Burada yetim uşaqlar da saxlanılır, onların yaşayışı, təlim-tərbiyəsi üçün hər cür şərait yaradılmışdır. İnternat evi ilə yanaşı, Lənkəran rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə bir neçə yeni məktəb binası da tikilir və təmir edilir.*

*Prezident İlham Əliyev və xanımı təmir gedən ayrı-ayrı sinif otaqlarına baxdılar. Bildirildi ki, burada layihəyə uyğun idman salonu, emalatxanalar, yataq otaqları, xalçaçılıq sexi, yeməkxana, camaşırxana, akt, oxu salonları, kompüter sinifi, uşaqlar üçün istirahət və oyun otaqları, həmçinin stadion da tikiləcək, xüsusi istilik-soyutma sistemi yaradılacaqdır.*

*Prezident İlham Əliyev təmir işlərinin keyfiyyətlə aparılmasını və bu tədris müəssisəsinin xarici görünüşünün də müasir səviyyəyə uyğunlaşdırılmasını tövsiyə etdi.*

## Lənkəran Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq

*Avqustun 11-də Azərbaycan prezidenti İlham Əliyev Lənkəran Hava Limanında aparılan tikinti işləri ilə tanış olmuşdur. Buraya toplaşan inşaatçılar dövlətimizin başçısını hörmət və ehtiramla qarşıladılar.*

*Prezidentə yeni hava limanının layihəsi və görülən işlər barədə məlumat verildi. Bildirildi ki, 40 hektardan çox ərazidə yerləşən hava limanı beynəlxalq statusa malik olacaq, müasir tipli avadanlıq və texnika ilə təmin ediləcəkdir. Uçuş-enmə zolağı 3,3 min metr, yəni Bakı və digər şəhərlərdəkinə uyğun olacaqdır. Gələn ilin sentyabrında istifadəyə verilməsi nəzərdə tutulan hava limanı hər cür yük təyyarələrini qəbul edəcəkdir.*

*Azərbaycan prezidenti hava limanında tikinti işlərini həyata keçirən Türkiyənin «Zema» şirkətinin işçiləri ilə görüşdü, ölkəmizdə yüksək standartlara uyğun beynəlxalq hava limanlarının tikilməsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı tikinti işlərinin sürətlə aparılması və vaxtında başa çatdırılması üçün lazımi tövsiyə və tapşırıqlarını verdi.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə Lənkəranın Liman şəhərində yeni məktəb binasının tikinti işləri ilə tanışlıq

*«Heydər Əliyev Fondunun Yeniləşən Azərbaycana yeni məktəb» Proqramının 2-ci mərhələsi çərçivəsində Lənkəran Liman şəhərində 1200 şagird yeri olan orta məktəb binası tikilir.*

*Azərbaycan prezidenti İlham Əliyevin Lənkərana səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva obyektə gələrək tikinti işlərinin gedişi ilə*

*maraqlanmışdır. İnşaatçılar, pedaqoji kollektivin üzvləri və valideynlər Mehriban xanım Əliyevanı hörmətlə qarşılamışlar.*

*Fondun prezidentinə məlumat verilmişdir ki, məktəb binasının tikintisi sentyabrın 15-dək başa çatdırılacaq, yeni təhsil ocağı yüksək standartlara cavab verən tədris ləvazimatı və texniki avadanlıqla təmin ediləcəkdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİLƏSUVAR RAYONUNDA

*12 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Lənkəran rayonuna səfərdən qayıdarkən yolüstü Biləsuvar rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Biləsuvar şəhərində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev və xanımı sonra Heydər Əliyev muzeyi ilə yaxından tanış oldular, xalqımızın ümummilli liderinin həyat və fəaliyyətini əks etdirən fotostendlərə baxdılar.*

## BİLƏSUVAR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*12 avqust 2006-cı il*

*Muzeylə tanışlıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin Biləsuvar rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşü oldu. Buraya toplaşmış minlərlə insan dövlətimizin başçısını və xanımını böyük hörmət və ehtiramla, alqışlarla qarşıladı. Sakinlərin əllərində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayraqları, prezidenti salamlayan şüarlar və ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar var idi.*

**Xosrov Əsgərov** (*Rayon Ağsaqqallar Şurasının sədri*): Hörmətli Prezidentimiz, Sizi rayonumuza gəlişiniz münasibətilə Biləsuvar camaatı və buraya toplaşanlar adından salamlayır, Sizə cansağlığı, uzun ömür arzulayırıq. Siz belə isti günlərdə respublikamızın bütün rayonlarına səfər edirsiniz. Xalqın qayğısına qalıb buraya gəldiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Əziz bacılar və qardaşlar!

Sizin hamınızı ürəkdən salamlayıram. Mən bu gün Biləsuvara, sizinlə görüşə gəlmişəm. Biləsuvarda əvvəllər də tez-tez olurdum, biz Gülmalı ilə görüşürdük. Bu gün də gəldim, görüşdük. Burada çox gözəl muzey yaradıldı.

70-ci illərdə, ondan sonra 90-cı illərdə Biləsuvarın inkişafında ulu öndər Heydər Əliyevin çox böyük rolu olmuşdur. Rayonun sosial-iqtisadi inkişafı indi yeni mərhələdədir. Çünki Azərbaycanın bütün bölgələrində olduğu kimi, Biləsuvarda da böyük proqramlar həyata keçirilməlidir. Bütövlükdə, Azərbaycanda regionların inkişaf proqramı bizim siyasətimizin əsas istiqamətini təşkil edir. Çünki Azərbaycanın

bölgələrinin inkişafı bütövlükdə ölkəmizi də gücləndirəcək və beləliklə, Azərbaycan hərtərəfli inkişaf edəcəkdir.

Biləsuvar rayonunun inkişafı üçün müəyyən işlər görülübdür. Dövlət Proqramında bu işlər vardır. Ancaq söz verirəm ki, əlavə tədbirlər planı da hazırlanmalıdır. Mən müvafiq göstəriş verəcəyəm ki, əlavə vəsait ayrılsın və rayonun sosial-iqtisadi inkişafı üçün daha da gözəl şərait yaradılsın.

Bilirsiniz ki, indi Azərbaycanın iqtisadiyyatı çox sürətlə inkişaf edir. Biz iqtisadi artım sürətinə görə dünyada birinci dövlətik. Əlbəttə ki, imkanlarımız da, büdcəmiz də artır və beləliklə, əlavə imkanlar da yaranır. Mən istəyirəm ki, bu imkanlardan çox səmərəli istifadə olunsun. Bütün rayonlar, rayon mərkəzləri, kəndlər abadlaşsın, yeni binalar tikilsin, iş yerləri açılsın, yollar salınsın. Bütün bunları etmək üçün, əlbəttə ki, maddi imkan lazımdır. İndi biz onu da yaradırıq. Bir daha demək istəyirəm ki, mən Bakıda rayonun inkişafına dair əlavə göstərişlər verəcəyəm. Gərək siz də ayrılacaq vəsaitdən səmərəli istifadə edəsiniz, yollar salınsın, elektrik xətləri çəkilsin, infrastruktur layihələri ilə bağlı və digər məsələlər həll olunsun ki, insanlar daha da yaxşı yaşasınlar. Əsas məqsəd bundan ibarətdir.

İndi Azərbaycanda iş yerlərinin açılması istiqamətində böyük işlər görülübdür. Son iki il ərzində 435 min yeni iş yeri yaradılmışdır. Yollar çəkilir, elektrik stansiyaları tikilir, elektrik enerjisi ilə təminat yaxşılaşır. Ancaq hələlik bütün bu məsələlər birinci mərhələdədir. Mən istəyirəm ki, insanları narahat edən əsas problemlər qısa müddət ərzində öz həllini tapsın. Yəni işsizlik, yoxsulluq aradan qaldırılsın, kənd təsərrüfatı inkişaf etsin. Bilirsiniz ki, kənd təsərrüfatının inkişafı üçün «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılmışdır, texnika alınır və bundan sonra da alınacaq, icarəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün büdcədə 100 milyon dollar həcmində vəsait var, gələn il daha da artacaqdır. Biz çalışmalıyıq ki, Azərbaycanın bütün bölgələrində sahibkarlıq daha da sürətlə inkişaf etsin. Çünki özəl sekto-

run inkişafı, ümumiyyətlə, Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərəcəkdir.

Bizim çox gözəl imkanlarımız var. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib istifadəyə verilmiş Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycanın iqtisadi inkişafını təmin edir. Bundan sonra uzun illər ərzində, onilliklər ərzində bu kəmərin fəaliyyətindən ölkəyə çox böyük həcmdə gəlir gələcəkdir. Biz bundan səmərəli istifadə edib bütün bölgələri abadlaşdıracağıq. Bütün bölgələr, o cümlədən Biləsuvar çox gözəl görkəm almalıdır.

Biləsuvar çox qədim ərazidir, qədim yerdir. Onun özünə görə çox gözəl ənənələri, gözəl tarixi var. Ancaq bütün bu gözəl ənənələri saxlamaq şərtilə gərək biz bütün bölgələri, o cümlədən Biləsuvar rayonunu daha da müasirləşdirək. Yeni gözəl binalar tikilməlidir, yollar salınmalıdır, məktəblər, xəstəxanalar olmalıdır və olacaqdır. Bu günə qədər nəzərdə tutulmuş bütün proqramlar icra olunur. Elə məsələ yoxdur ki, biz onu bəyan etmişik, amma həll etməmişik. Proqramlar vaxtlı-vaxtında, cədvəl üzrə, ardıcıllıqla həll olunur. Hər bir rayonun öz proqramı olmalıdır. Biləsuvar üçün də dəqiq tədbirlər planı olmalıdır, yəni burada nə və nə vaxt edilməlidir.

Əsas diqqət, əsas qayğı sosial məsələlərin həllinə yönəldilməlidir ki, insanlar daha da yaxşı yaşasınlar. İnsanları narahat edən əsas problemlər öz həllini tapsın və ədalət tam şəkildə bərqərar olunsun. Sosial ədalət, qayda-qanun olmalıdır ki, insanlar rahat yaşasınlar və beləliklə, Azərbaycan vətəndaşları ildən-ilə öz həyat səviyyəsini daha da yaxşılaşdıra bilsinlər. Dövlət, hökumət öz tərəfindən bütün lazımi tədbirləri görəcək və əminəm ki, qısa müddət ərzində Biləsuvarda daha da böyük işlər görüləcəkdir. Mən bundan sonra da rayona gələcək, vəziyyətlə tanış olacağam. Sizə bir daha söz verirəm ki, rayonun inkişafına çox böyük diqqət verəcəyəm.

Əziz dostlar, sizi bir daha ürəkdən salamlayıram. Sağ olun, sizə uğurlar, cansağlığı arzulayıram.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə görüşüb səmimi söhbət etdi, onların vəziyyəti, qayğı və problemləri ilə maraqlandı.*

*Dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirən sakinlər xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərini, Biləsuvar rayonuna səfərlərini məmnunluqla xatırlatdılar, rayona göstərilən diqqət və qayğıdan razılıq etdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN İKİNCİ MÜŞAVİRƏSİNDƏ NİTQ

*Xarici İşlər Nazirliyi*

*14 avqust 2006-cı il*

*Avqustun 14-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev müşavirədə iştirak etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev nazirliyin binasını gəzdi, ümummilli liderimiz Heydər Əliyevin foyedə qoyulmuş mərmər büstünə tamaşa etdi.*

*Müşavirədə Xarici İşlər naziri Elmar Məmmədyarov 2004–2006-cı illərdə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının fəaliyyəti barədə çıxış etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev müşavirədə nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli xanımlar və cənablar, səfirlər, Xarici İşlər Nazirliyinin əməkdaşları!

Bugünkü toplantı artıq ənənəvi xarakter daşıyır. İki il bundan əvvəl ilk dəfə olaraq, Azərbaycanı xaricdə təmsil edən səfirlərlə geniş müşavirə keçirilmişdir. Bugünkü müşavirədə biz, əlbəttə ki, son iki il ərzində görülmüş işləri təhlil edəcəyik. Eyni zamanda, şübhəsiz ki, gələcək planlar haqqında da fikir mübadiləsi aparılacaqdır.

Bu müşavirədə Azərbaycan hökumətinin digər üzvləri də iştirak edəcək və bir neçə gün ərzində səfirlər Azərbaycanda

gedən proseslər barədə dolğun məlumat alacaqlar. Əlbəttə ki, hər bir nazirliyin fəaliyyəti xaricdə Azərbaycanı təmsil edən səfirlər üçün çox maraqlı olmalıdır. Siz Azərbaycanda gedən proseslərdən, aparılan işlərdən, əlbəttə ki, xəbərdarsınız. Ancaq eyni zamanda, bu məsələlərin çox geniş şəkildə müzakirəsi sizin üçün də həm maraqlı olacaq, həm də ümumi işimizə çox böyük töhfə olacaqdır.

Son iki il ərzində Azərbaycanın xarici siyasəti uğurla davam etdirilir. Azərbaycan həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlarda öz mövqelərini çox inamla müdafiə edir. Deyə bilərəm ki, son iki il ərzində Azərbaycanın bölgədəki və dünyadakı mövqeləri çox kəskin şəkildə möhkəmlənmişdir. Bizim bütün ölkələrlə ikitərəfli formatda münasibətlərimiz çox müsbət zəmində, qarşılıqlı hörmət, etimad əsasında qurulur və Azərbaycan prezidentinin müxtəlif xarici səfərləri bunun əyani göstəricisidir. Onu da deyə bilərəm ki, son iki il yarım ərzində Azərbaycan prezidenti Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının beş daimi üzvü olan ölkələrə rəsmi səfərlər etmişdir. Bu özlüyündə çox gözəl göstəricidir. Azərbaycan həm əhali baxımından, həm də ərazi baxımından böyük ölkə deyil. Dünyanın aparıcı ölkələri ilə bizim çox səmərəli münasibətlərimiz, bir tərəfdən, əlbəttə ki, Azərbaycanın önəmindən xəbər verir, digər tərəfdən, şübhəsiz ki, Azərbaycanın düşünülmüş xarici siyasət prinsiplərindən irəli gəlir. Bir daha demək istəyirəm ki, bütün ölkələrlə münasibətlərimiz qarşılıqlı surətdə faydalı şəkildə aparılır və biz bu prinsiplərə sadiqik.

Qonşu ölkələrlə Azərbaycanın münasibətləri son iki il ərzində daha da möhkəmlənibdir. Biz bu bölgədə yaşayırıq və əlbəttə ki, bölgədə gedən proseslər, istər-istəməz, müəyyən dərəcədə Azərbaycana da təsir edir. Azərbaycanda gedən işlər, Azərbaycanın mövqeyi artıq bölgədə gedən proseslərə də çox önəmli dərəcədə təsir göstərir. Qonşu dövlətlərlə münasibətlərin sağlam şəkildə saxlanması və möhkəmlənməsi bizim mövqelərimizi möhkəmləndirir və eyni zaman-

da, Azərbaycanın bölgədə olan rolunu artırır. Bir də demək istəyirəm ki, bu münasibətlər çox müsbət zəmində qurulubdur və bizim milli maraqlarımıza cavab verir. Qonşu dövlətlərlə münasibətlərimiz bundan sonra da bizim üçün prioritet xarakter daşımalıdır və siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələr daha da möhkəmlənməlidir. Nəzərə alsaq ki, bizi qonşu dövlətlərlə çox sıx iqtisadi əlaqələr bağlayır, onda görərik ki, Azərbaycanın hərtərəfli inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmli və zəruridir.

Beynəlxalq təşkilatlarla bizim əməkdaşlığımız uğurla davam etdirilir. Azərbaycan bir sıra beynəlxalq təşkilatların fəal üzvüdür. Nazir artıq bunu qeyd etdi ki, müxtəlif beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz güclənir. Son müddət ərzində Azərbaycanda iki mötəbər beynəlxalq tədbir keçirilmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin zirvə görüşü və İslam Konfransı Təşkilatının xarici işlər nazirləri səviyyəsində toplantısı keçirilmişdir. Hər iki görüş, toplantı çox yüksək səviyyədə keçirilmişdir və şübhəsiz ki, Azərbaycan bunların keçirilməsində özü haqqında artıq əyani şəkildə təqdimat tədbirlərini də həyata keçirmişdir. Çünki biz hələ ki, gənc müstəqil dövlətik. Biz özümüzü tanıtmalıyıq, özümüzü təqdim etməliyik. Azərbaycan haqqında, əlbəttə ki, dünyada informasiya artır. Ancaq siz də bunu bilirsiniz ki, hələ kifayət qədər deyildir. Ona görə hər bir beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi iki məqsədi güdür. Bir tərəfdən, tədbirin Azərbaycanda keçirilməsi, əlbəttə, Azərbaycanın artan rolundan xəbər verir. Digər tərəfdən, bizə imkan verir ki, xarici nümayəndələr Azərbaycan reallıqlarını öz gözləri ilə görsünlər.

Bizim digər beynəlxalq təşkilatlarla da əməkdaşlığımız müsbətdir. Avropa İttifaqı və NATO ilə işimiz artıq proqramlar çərçivəsində keçirilir və keçiriləcəkdir. NATO ilə «Fərdi tərəfdaşlığın fəaliyyət planı» həyata keçirilir. Avropa İttifaqı ilə isə qonşuluq siyasətinin əsas konturları müəyyən olunub

və Azərbaycan bu istiqamətdə öz işlərini davam etdirəcəkdir. Avropa İttifaqı ilə, eyni zamanda, energetika sahəsində geniş əməkdaşlıq gözlənilir. Artıq bu barədə danışıqlar aparılıbdır. Azərbaycan bütövlükdə Avropa üçün çox önəmli ölkəyə çevrilir. Çünki həm coğrafi vəziyyətimiz, eyni zamanda, təbii sərvətlərlə zəngin olmağımız, son müddət ərzində dünyada enerji təhlükəsizliyi məsələlərinin kəskinləşməsi və ön plana çıxması, şübhəsiz ki, Azərbaycanın nə qədər önəmli ölkə olduğunu bir daha sübut edir.

Digər beynəlxalq təşkilatlarla da əməkdaşlıq müsbətdir. MDB, GUAM, Avropa Şurası və başqa təşkilatlarla Azərbaycan çox səmərəli işbirliyi, əməkdaşlıq edir. Biz bütün təşkilatlara könüllü şəkildə daxil olmuşuq və bu təşkilatlarda fəaliyyətimiz, əlbəttə, Azərbaycanın milli maraqlarının müdafiə olunmasına xidmət göstərir. Eyni zamanda, müxtəlif təşkilatlara üzv olmağımız, əlbəttə, Azərbaycanda gedən proseslərə də müsbət təsir göstərir. Misal üçün, Avropa Şurasında bizim fəaliyyətimiz, bir tərəfdən, Azərbaycanın maraqlarını müdafiə edir, digər tərəfdən, Azərbaycanda demokratik proseslərin sürətlənməsinə xidmət göstərir.

Bir sözlə, Azərbaycanın xarici siyasəti həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Bizim strateji xəttimiz var və bu xəttə sadiqik. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir.

Bununla bərabər, bizim diplomatiyamız çox çevik olmalıdır. Biz bölgədə və dünyada baş verən proseslərə çox operativ şəkildə reaksiya verməliyik. Eyni zamanda, öz təkliflərimizi verməliyik. Azərbaycan artıq dünyada gedən proseslərin fəal iştirakçısıdır. Bir çox hallarda bölgə və Avropa üçün önəmli tədbirlərin təşəbbüskarıdır. Bölgədə Azərbaycanın mövqeyindən artıq çox şey asılıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə – nə siyasi, nə iqti-

sadi, nə nəqliyyat, nə də başqa – həyata keçirilə bilməz. Ona görə bu bizim ölkəmizi möhkəmləndirir.

Bir tərəfdən, Azərbaycanın daxilində gedən müsbət proseslər, iqtisadi artım, sosial məsələlərin həlli, regionların sosial-iqtisadi inkişaf proqramı – bütün bunlar Azərbaycanın iqtisadiyyatını möhkəmləndirir və bunun nəticəsində ölkə iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artır. Azərbaycan bu göstəriciyə görə bu gün dünyada lider dövlətdir. Digər tərəfdən, bizim xaricdəki mövqelərimiz, beynəlxalq təşkilatlarda, ikitərəfli müstəvidə olan fəaliyyətimiz, əlbəttə ki, ölkəmizi daha da möhkəmləndirir, müəyyən risklərdən qoruyur. Bu da çox önəmlidir. Çünki dünyada gedən prosesləri biz hamımız izləyirik və görürük. Həm bölgədə, həm də başqa yerlərdə çox xoşagəlməz hadisələr baş verir. İnsanların təhlükəsizliyinə təsir göstərən proseslər gedir. Azərbaycanda bunların heç biri yoxdur. Biz ölkəmizi qorumalıyıq.

Bizim xarici siyasətimiz o cümlədən bu məqsədi güdməlidir və güdür. Azərbaycanda mümkün olan risklərin maksimum dərəcədə azaldılması xarici siyasət istiqamətində bizim əsas vəzifələrimizdən biridir. Görürsünüz ki, Azərbaycanda həm daxili vəziyyət, həm də ictimai-siyasi vəziyyət çox sabitdir, sosial vəziyyət yaxşılaşır və mümkün olan risklər minimum səviyyədədir. Bu çox vacib məsələdir.

Əlbəttə, xaricdə Azərbaycanı təmsil edən insanlar həmişə bunu bilməli və öz fəaliyyətində unutmamalıdırlar. Bizim məqsədimiz ölkəmizi hərtərəfli inkişaf etdirmək, Azərbaycanı zəngin dövlətə çevirməkdir. Daxildə gedən proseslər, bizim bütün iqtisadi proqramlarımız bunu tezliklə reallığa çevirəcəkdir. Çünki son iki il yarım ərzində Azərbaycanda iqtisadi artım, yeni iş yerlərinin açılması sürətlə gedir. Azərbaycanda son iki ildə 435 min yeni iş yeri açılmışdır. Azərbaycan miqyaslı hansı ölkədə biz bunu görürük? Bu heç bir ölkədə yoxdur. Ona görə, bizim iqtisadi potensialımız artdıqca, əlbəttə, ölkə də zənginləşir.

Bununla bərabər, xarici siyasətin uğurlu olması və daxili siyasətlə uzlaşması, şübhəsiz ki, ölkəmizi hərtərəfli inkişaf etdirəcək, çox güclü regional dövlətə çevirəcəkdir. Beləliklə, Azərbaycan daha da sürətlə inkişaf edəcəkdir. Ona görə bütün bu məsələlər bir-biri ilə çox bağlıdır. Bir daha demək istəyirəm ki, bu müşavirənin keçirilməsi bu məqsədi güdür. Çünki xaricdə Azərbaycanı təmsil edən diplomatlar daxili vəziyyəti ilk mənbədən, birinci əldən bilməlidirlər. Bu baxımdan indiki müşavirənin önəmi, əlbəttə, çox böyükdür.

Bir daha demək istəyirəm ki, bütövlükdə, bizim xarici siyasətimiz çox uğurludur. Bunu biz özümüz də bilirik, tərəfdaşlarımız da bilirlər. Bəzən sual da verilir, necə olur ki, Azərbaycan bütün ölkələrlə ən yüksək səviyyədə münasibətlər qurub, ancaq heç bir güzəştə getmir? Adətən, yenə də deyirəm, böyük olmayan ölkələr nəyisə güzəştə gedib, hansısa imtiyazlar əldə edirlər, yaxud da, hansısa xüsusi münasibətlərə meylli olurlar. Azərbaycanın mövqeyi həmişə birmənalı olubdur. Biz öz milli maraqlarımızı heç kimə güzəştə getmərik. Azərbaycanın milli maraqları birinci məsələdir. Ancaq bizim təcrübəmiz, siyasətimiz onu göstərir ki, milli maraqların tam şəkildə müdafiə olunması ilə bərabər, bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlığın yaradılması mümkündür. Azərbaycanın timsalında biz bunu görürük.

Mən bir neçə dəfə demişəm, bu gün də demək istəyirəm, biz imkan verməyəcəyik ki, Azərbaycan rəqabət meydanına çevrilsin və buna imkan vermirik. Artıq bu reallıqdır və hamı bu reallıqla barışır. Əksinə, Azərbaycan əməkdaşlıq meydanıdır. Bizim imkanlarımız, potensialımız, dünyaya açıq olmağımız, əlbəttə, tərəfdaşlarımız üçün də yeni imkanlar yaradır. Biz bundan səmərəli istifadə etməliyik. Biz Azərbaycana xarici sərmayələri daha da geniş şəkildə cəlb etməliyik və cəlb edirik də. Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci dövlətdir. Bu onu göstərir ki, Azərbaycanda çox gözəl sərmayə mühiti

var. Qanunvericilik imkan verir ki, investorlar Azərbaycana inamla işləməyə gəlsinlər. Digər tərəfdən, bu, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirən amillərdən biridir. Xüsusilə ilk illərdə, müstəqilliyimizin ilk illərində. Bu gün də vacibdir, baxmayaraq ki, indi bizim öz imkanlarımız artır və Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərir.

Bir sözlə, mən gələcəkdə Azərbaycan üçün hər hansı bir ciddi problem, yaxud da ki, təhlükə görmürəm. Düzdür, dünyada gedən proseslər dəyişir, dünya dəyişir və heç kim özünü heç nədən sığortalı hesab edə bilməz. Amma bugünkü günü götürsək, biz görərik ki, Azərbaycanın qarşısında çox gözəl perspektivlər var və bu perspektivlərdən çox səmərəli şəkildə istifadə etməliyik.

Bizim nadir şansımız var, bundan maksimum dərəcədə istifadə etməliyik. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi, onun ardınca Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi, ondan sonra digər önəmli layihələrin həyata keçirilməsi, o cümlədən Bakı– Tbilisi–Qars dəmir yolunun tikintisi, əlbəttə ki, Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını müəyyən edir və bundan sonra uzun illər ərzində, onilliklər ərzində Azərbaycanın iqtisadi potensialını gücləndirən amillərdir. Biz bu gözəl imkanlardan çox səmərəli istifadə etməliyik. Bir tərəfdən, Azərbaycan iqtisadi cəhətdən özünü təmin edən ölkədir. Bilirsiniz ki, keçmişdə də qonşularla və MDB-nin digər ölkələri ilə müqayisədə ən az xarici yardım alan ölkə həmişə Azərbaycan olubdur. Buna baxmayaraq, bütün bu çətinliklərə baxmayaraq, biz öz ölkəmizi inkişaf etdirə bilmişik.

Bu gün isə iqtisadi inkişaf baxımından biz birinci ölkəyik. Bildiyiniz kimi, enerji təhlükəsizliyi məsələləri bu gün ön plana çıxıbdır. Azərbaycan da bu baxımdan özünü çox arxayın hiss edir. Ölkədə gedən digər proseslər, siyasi vəziyyət çox sabitdir. İqtidarla xalq arasında olan münasibətlər ən yüksək zirvədədir və bu bizə əlavə imkanlar, əlavə güc verir. Məhz buna görə Azərbaycan bu gün müstəqil siyasət

aparmaq iqtidarında olan bir ölkədir. Bir daha demək istəyirəm ki, müstəqillik təkcə dövlət atributları ilə ölçülmür. Müstəqillik o deməkdir ki, ölkə tam şəkildə müstəqil siyasət apara bilsin, öz xalqının maraqlarını tam şəkildə müdafiə edə və dünyada olan öz mövqelərini möhkəmləndirə bilsin. Budur müstəqillik.

Azərbaycan bu gün müstəqil siyasət aparan ölkədir və bu bizim üçün ən böyük dəyərdir, ən böyük nemətdir. Yəni bu sahədə də müsbət imkanlar var. Biz bu gözəl imkanlardan səmərəli istifadə etməliyik. Çünki Azərbaycanın artan önəmi, iqtisadi potensialı, uğurlu xarici siyasəti, böyük dövlətlərlə olan strateji tərəfdaşlığımız – bütün bunlar ölkəmiz üçün çox gözəl perspektivlər açır. Biz də bunlardan səmərəli istifadə edirik və edəcəyik. Bu sahədə səfirliklərin də çox böyük rolu var. Çünki Azərbaycan haqqında həqiqətləri Dünya Birliyinə çatdırmaq çox önəmlidir. Yenə deyirəm, hələ ki, dünya ictimaiyyəti bizi geniş şəkildə, olduğumuz qədər tanımır. Bunun müəyyən təbii səbəbləri var. Çünki biz gənc dövlətik.

Digər tərəfdən, Azərbaycan əleyhinə işləyən güclü erməni lobbi təşkilatları var. Hansı ki, gündəlik fəaliyyətində Azərbaycana qarşı yalan, böhtan kompaniyası aparırlar. Bu da reallıqdır. Ona görə bizim nümayəndəliklərimiz bu məsələdə çox fəal olmalıdırlar. İşlədikləri ölkələrin müxtəlif qurumları ilə, təkcə dövlət qurumları ilə yox, parlament üzvləri ilə, qeyri-hökumət təşkilatları ilə, mətbuatla, geniş şəkildə ictimaiyyətlə təmasda olmalıdırlar ki, Azərbaycan haqqında reallıqlar Dünya Birliyinə olduğu kimi çatdırılsın. Bu bizi daha da möhkəmləndirəcəkdir.

Bu barədə keçən dəfə mən öz tövsiyələrimi vermişdim. Bəzi ölkələrdə bu tövsiyələr yerinə yetirilibdir. Bəzi ölkələrdə – mən indi ad çəkmək istəmirəm – hələ ki, passivlik nümayiş etdirilir. Mən tələb edirəm ki, bütün səfirliklər bu praktikanı öz gündəlik fəaliyyətində tətbiq etsinlər və fəal olsunlar. Bizim artıq 46 ölkədə səfirliyimiz təsis edilibdir. Bəzi ölkələrdə

hələ səfirlik yaranmayıb, onlarda da yaranacaqdır. Son iki il ərzində 21 ölkədə səfirlik təsis olunubdur. Biz bunu nə üçün edirik? Baxmayaraq ki, bu çox böyük maliyyə vəsaiti tələb edir, ona görə edirik ki, Azərbaycanı tanısınlar. Azərbaycan müxtəlif ölkələrdə öz mövqelərini möhkəmləndirə bilsin. Bizim imkanlarımız artsın və dünyada gedən proseslərdə Azərbaycanın rolu artsın. Bu istiqamətdə hələ böyük işlər görmək lazımdır.

Mən qeyd etdim ki, erməni lobbisi bizim əleyhimizə çox fəal kompaniya aparır və bunu hiss edirik, görürük. Bəzi hallarda müxtəlif xarici mətbuat orqanlarında Azərbaycana qarşı qərəzli məqalələrin arxasında da məhz erməni lobbisi dayanır. Biz bunu bilirik, öz mübarizəmizi aparmalıyıq və daha fəal olmalıyıq. Bu istiqamətdə öz siyasətimizi daha da güclü aparmalıyıq. Mən bir neçə dəfə demişəm, bir də demək istəyirəm, biz informasiya hücumuna keçməliyik. Biz Ermənistanın işğalçı siyasətini ifşa etməliyik. Çünki reallıq da bundan ibarətdir. Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir və Ermənistanın təcavüzkar, etnik təmizləmə siyasəti nəticəsində bizim 1 milyondan çox soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür. Amma erməni lobbisi tərəfindən aparılan təbliğat bəzi ölkələrdə tam fərqli bir mənzərə yaradıbdır. Baxmayaraq ki, bir ölkə kimi, Ermənistanın diplomatik imkanları çox məhduddur. Baxmayaraq ki, ölkə öz iqtisadi potensialına görə, əlbəttə, bizdən çox geridədir və imkanı yoxdur ki, müxtəlif ölkələrdə səfirliklər açsın. Amma erməni lobbisi onların, elə bil ki, səfirlikləridir və onlar bir nöqtəyə vururlar. Onların bir hədəfi var, o da Azərbaycandır. Biz bu sahədə çox ciddi işlər aparmalıyıq və aparırıq.

O ki qaldı, Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsinə, bilirsiniz ki, danışıqlar Praqa prosesi çərçivəsində aparılmışdır. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Biz hesab edirik ki, bu məsələ, bu münaqişə yalnız mərhələli yollarla öz həllini tapa bilər və Praqa prosesi, əs-

lində, məsələnin mərhələli həlli deməkdir. Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunmalıdır. Qaçqınlar, köçkünlər öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu məsələsi müzakirə oluna bilər. Status müzakirə ediləndə, əlbəttə ki, ilk növbədə, beynəlxalq hüquq normaları tətbiq olunmalı və dünyada mövcud olan müsbət praktika, təcrübə də tətbiq olunmalıdır. Bilirik ki, müxtəlif ölkələrdə milli azlıqlar var, muxtariyyətlər var. Milli azlıq olmaq hələ o demək deyil ki, separatizm yolu ilə ölkənin bir hissəsini ondan ayırıb hansısa müstəqil dövlət qurasan. Azərbaycan heç vaxt imkan verməyəcək ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın. Bu bizim birmənalı mövqeyimizdir və istəyirəm ki, siz də bunu biləsiniz.

Ermənistan tərəfi danışıqların gedişatı zamanı təxribat xarakterli müxtəlif uydurmalar, bəzi fərziyyələr irəli sürür. Bu onların arzuları ola bilər, amma reallığı əks etdirmir. Reallıq da tam başqadır. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Beynəlxalq hüquq normaları onu tələb edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Dağlıq Qarabağ həm tarixi, mədəni baxımdan, eyni zamanda, hüquqi baxımdan Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına Dağlıq Qarabağla birlikdə üzv olmuşdur. Azərbaycanın ərazi bütövlüyünü bütün ölkələr, o cümlədən Minsk qrupunun həmsədr ölkələri də tanıyırlar. Belə olan halda, Dağlıq Qarabağın Azərbaycandan hansı ayrılmasından söhbət gedə bilər?! Tamamilə mümkün olan məsələ deyildir.

Azərbaycanın mövqeləri günü-gündən möhkəmlənir. Bir də demək istəyirəm ki, hüquqi cəhətdən bizim mövqelərimiz sarsılmazdır. Ermənistanın mövqeyi çox zəifdir. Yəni, deyirlər ki, Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etməlidirlər. Belə olan halda, başqa ölkələrdə də ermənilər var. Mən bunu həmişə demişəm, onlar başqa ölkələrdə də öz müqəddəratlarını təyin edəcəklər?! Ameri-

kada, Los-Ancelesdə erməni dövləti yaradacaqlar? Yoxsa Fransada, Marseldə, yoxsa Krasnodar vilayətində, yoxsa Gürcüstanda? Əgər onlar bu məntiqlə yanaşırlarsa, dünyada neçə erməni dövləti yaranacaqdır?! Bu, mümkün olan şey deyil. Nə üçün burada Azərbaycan istisna olmalıdır? Nə üçün ikinci erməni dövləti məhz Azərbaycan ərazisində yaradılmalıdır? Hansı məntiqdən söhbət gedir? Mən bütün başqa məsələləri kənara qoyuram. Biz buna heç vaxt imkan verməyəcəyik və bir daha bunu bəyan edirəm. Amma sadəcə, məntiqdən söhbət gedir. Ona görə onların hüquqi mövqeləri çox zəifdir.

Gəlin tarixi götürək. Tarixi baxımdan da Qarabağ həmişə Azərbaycan torpağı olubdur, bizim torpağımızdır. Yəqin onu da yaxşı bilirsiniz ki, İrəvan Ermənistana Azərbaycan Xalq Cümhuriyyəti yarananda, məhz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmişdir. İrəvan xanlığında yaşayan insanların əksəriyyəti azərbaycanlı idi. Zəngəzur mahalında yaşayanların hamısı azərbaycanlı idi. Ona görə, tarixi baxımdan da bu bizim torpağımızdır.

Gəlin iqtisadi cəhətdən baxaq. Bu gün Azərbaycanı və Erməistanı müqayisə etmək mümkün deyil. Bizim iqtisadiyyatımız bu gün Ermənistan iqtisadiyyatından beş-altı dəfə böyükdür. Nəzərə alsaq ki, bizim əsas layihələrimiz indi başlanğıc mərhələsindədir, gəlin bir az uzağa baxaq. Gəlin üç il, beş il irəliyə baxaq ki, nə olacaq? Ermənistan Azərbaycanla rəqabət apara biləcəkmi? Yox! Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər də faydalı olar. Əgər onlar Azərbaycanın indiki təkliflərinə razı olmasalar, Azərbaycanın ondan sonrakı təklifləri daha da sərt olacaqdır. Onu da yaddan çıxartmamalıdırlar. Ona görə, bütün istiqamətlərdə üstünlük bizim tərəfimizdədir. Yenə də demək istəyirəm ki, siyasi proseslər baxımından Azərbaycan tam şəkildə müstəqil siyasət aparmaq iqtidarında olan bir ölkədir və bunu edir. Bununla bərabər, dünyanın aparıcı ölkələri ilə çox səmimi, işgüzar münasibətlər qura bilibdir. Bu münasibətlər

bərabərlik prinsipi, qarşılıqlı hörmət əsasında, daxili işlərə qarışmamaq şərti ilə qurulubdur.

Azərbaycanın torpaqlarını zəbt edən və daim narahatlıq hissləri keçirən Ermənistan, istər-istəməz, özünə haradasa sığınacaq, hami axtarır. Belə olan halda, təbii ki, ölkənin müstəqil siyasət aparmaq gücü tükənir. Nəzərə alsaq ki, iqtisadi cəhətdən, coğrafi vəziyyətdən, dünya üçün önəmi baxımından Azərbaycanla müqayisəedilməz səviyyədədir, əlbəttə ki, bu münaqişənin həll olunmaması nəticəsində Ermənistanın gələcəyi çətin olacaqdır.

Bildiyiniz kimi, son illər ərzində ordu quruculuğuna böyük diqqət göstərilir. Bu da təbiidir. Birinci növbədə ona görə ki, Azərbaycanın bütövlükdə büdcəsi artır. Son üç il ərzində Azərbaycanın büdcəsi dörd dəfə artmışdır, yenə də artacaq, gələn il daha da artacaqdır. Təbii ki, bununla bərabər, bütün başqa xərclər artdıqca, hərbi xərclər də artır. Bu, məsələnin bir tərəfidir. Yəni, burada heç bir fövqəladə məsələ yoxdur. Bəzi hallarda müəyyən xarici dairələrdə belə bir fikir yaranır ki, Azərbaycanın hərbi xərcləri artır, bu, regionda təhlükə yarada bilər. Biz ancaq hərbi xərcləri artırsaydıq, deyə bilərdik ki, bəli, məntiq var. Amma bütün xərclər artır, o cümlədən hərbi xərclər. Amma bununla bərabər, Azərbaycan müharibə şəraitində yaşayan bir ölkədir. Atəşkəs rejiminin mövcud olması o demək deyil ki, müharibə qurtarıbdır. Müharibə qurtarmayıbdır. Müharibənin birinci dövrü müvəqqəti olaraq dayandırılıb, atəşkəs rejimi yaranıbdır. Amma o demək deyil ki, müharibə qurtarıbdır. Biz müharibə şəraitində yaşayan, torpaqlarımız işğal altında olan ölkəyik. Belə olan halda, müdafiə xərclərinin artması zəruridir. Bu, bu gün də var, sabah da olacaq və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, biz sülh danışıqlarına sadiqik. Biz hesab edirik ki, Praqa prosesi çox müsbət bir çərçivədir və Azərbaycan bu çərçivədə razılaşmanın əldə olunmasında maraqlıdır və buna hazırdır. Am-

ma Ermənistanın qeyri-konstruktiv mövqeyi imkan vermir ki, Praqa prosesinin əsas müddəaları həyata keçsin. Ancaq biz hələ ki, ümidlərimizi üzməmişik. Hələ ümidlərimiz var ki, bu məsələ danışıqlar yolu ilə həll oluna bilər. Amma bunu həll etmək üçün birinci növbədə, Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Digər tərəfdən, bu məsələ ilə məşğul olan vasitəçilər də daha da fəal olmalıdırlar. Ermənistanla Azərbaycanı bir müstəviyə qoymaq olmaz. Biz zərərçəkən ölkəyik. Nəyimiz var ki, biz onu Ermənistana güzəştə gedək? Biz onların torpağını zəbt etməmişik ki, onu qaytaraq. Ona görə gərək bu yanaşmaya düzəliş edilsin. Burada açıq-aydın göstərilməlidir ki, müharibənin təşəbbüskarı kim olub və zərərçəkən tərəf kim olubdur.

Hesab edirəm ki, mən bu barədə fikirlərimi kifayət qədər sizə çatdırdım. Bir də demək istəyirəm ki, Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapa bilər. Siz də çalışdığınız ölkələrdə bu məsələni gündəliyin birinci məsələsi kimi həmişə nəzərdə saxlamalısınız.

Mən bilirəm ki, bu belədir. Bilirəm ki, Xarici İşlər Nazirliyi tərəfindən təlimatlar verilibdir. Səfirlərin özləri də bu məsələdə çox fəaldırlar. Bizim bu məsələdən başqa, ciddi problemimiz yoxdur və gələcəkdə də olmayacaqdır. Bu məsələ Azərbaycanın inkişafına da mənfi təsir göstərir. Baxmayaraq ki, bu gün iqtisadi inkişaf sürətinə, siyasi proseslərin müsbət olmasına görə iqtisadi potensialın artması onsuz da gedir. Ancaq təsəvvür edin, əgər bu məsələ öz həllini taparsa, Azərbaycan nə qədər daha da sürətlə irəliyə gedəcəkdir. Nə qədər yeni imkanlar yaranacaq, nə qədər xarici investorlar daha da inamla Azərbaycanla işləyəcəklər. Ona görə bu məsələdə hamımız çox fəal olmalıyıq. Təkcə səfirlər, yaxud da səfirliklərin işçiləri deyil, bütün ictimaiyyət, bütün Azərbaycan xalqı! Bu, ümummilli məsələdir.

Ümummilli məsələdə hamı birləşməlidir və hamı bir nöqtəyə vurmalıdır.

Bir məsələyə də diqqət yetirmək istərdim. Mən qeyd etdim ki, həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlarla olan münasibətlərdə bizim işlərimiz yaxşı gedir. İstərdim, siz bir sahəni də həmişə yadda saxlayasınız. Qeyri-hökumət təşkilatları ilə münasibətlər səfirliklər tərəfindən qurulmalıdır. Çünki qeyri-hökumət təşkilatları da dünyada gedən proseslərin bir hissəsidir. Bəzi hallarda, xüsusilə Azərbaycanın timsalında qeyri-hökumət təşkilatları çox siyasiləşibdir. Ona görə onların bir çoxunu heç qeyri-hökumət təşkilatı adlandırmaq mümkün deyildir. Beynəlxalq qeyri-hökumət təşkilatlarının bəzilərinin qərəzli, ədalətsiz mövqeyi də göz qabağındadır. Yəqin ki, onların yaranma prinsipi məhz bu məqsədi güdür.

Çünki bizi tənqid edən qeyri-hökumət təşkilatları, eyni zamanda, dünyanın ən inkişaf etmiş ölkələrini, o cümlədən demokratik inkişaf baxımından ən öndə gedən ölkələri də tənqid edirlər. Yəqin ki, bu onların iş üslubudur. Amma buna baxmayaraq, Azərbaycanın həqiqətləri onlara da çatdırılmalıdır və onlar da bunu bilməlidir. Düzdür, müəyyən hallarda bəzi təşkilatların mövqeyi çox qərəzlidir. Bəlkə də onlarla işləməyə heç vaxt sərf etməyə dəyməz. Ancaq görəndə ki, sadəcə olaraq, hansısa yanlış məlumat əsasında, yaxud da Azərbaycan müxalifətindən gələn hansısa yalan üzərində bir rəy formalaşıb, əlbəttə ki, buna operativ reaksiya verilməlidir və izahat işləri aparılmalıdır.

Təəssüflər olsun ki, dünyada Azərbaycana qarşı işləyən erməni lobbisi ilə bərabər, Azərbaycanda özünü müxalifət adlandıran qüvvələr də var. Onların maraqları da, mübarizə taktikası da üst-üstə düşür. Ancaq nəticə də təxminən eynidir. Bizə nə erməni lobbisi maneçilik yarada bildi, nə də ki, Azərbaycanın daxilində özünü müxalifət adlandıran bir qrup insanlar Azərbaycanın siyasətinə və ölkədə gedən proseslərə hansısa bir təsir edə bildi. Azərbaycan çox inamla

irəliləyən bir ölkədir. Artıq bunu hamı etiraf edir. Azərbaycanın mövqeyi ilə hesablaşırlar. Xüsusilə son parlament seçkilərindən sonra – hesab edirəm ki, bu da bir dönüş nöqtəsi idi – artıq bir çox təşkilatlar, o cümlədən xarici təşkilatlar tərəfindən, necə deyərlər, belə bir fikir açıq-aydın qəbul olunur ki, Azərbaycanın müstəqil siyasəti var, bu siyasət xalq tərəfindən dəstəklənir və belə olan halda, bu siyasətlə hesablaşmaq, barışmaq lazımdır. Kiminsə xoşuna gəlməyə bilər, bu da təbiidir. Çünki Azərbaycan indi çox cəlbedici ölkəyə çevrilir. Burada maraqlar toqquşa bilər. Mən əvvəldə dedim ki, biz imkan verməməliyik ki, bu, Azərbaycanda baş versin.

Azərbaycanın təbii sərvətləri, coğrafi vəziyyəti, artan önəmi, siyasi potensialı, əlbəttə ki, onu çox cazibədar ölkəyə çevirir. Bunun nəticəsində ona maraqlar artır. Maraqları təmin etmək üçün təzyiqlər artır. Bu təbiidir, biz bunu bilməliyik. Bilməliyik ki, bəzi hallarda bizə qarşı olan təzyiq cəhdləri haradan qaynaqlanır. Ancaq Azərbaycan da öz siyasətini inamla aparır. Hamı gördü ki, bizimlə təzyiq yolu ilə danışmaq olmaz. Əməkdaşlıq, qarşılıqlı faydalı əlaqələr, sağlam tənqid, xüsusilə beynəlxalq təşkilatlar tərəfindən olmalıdır. Çünki biz ancaq beynəlxalq təşkilatlar tərəfindən olan tənqidi qəbul edə bilərik. Biz heç bir ölkənin qarşısında öhdəlik götürməmişik ki, kiminsə tənqidinə məruz qalaq, yaxud kiminsə sifarişini yerinə yetirək. Biz bəzi beynəlxalq təşkilatların üzvüyük, orada bizim öhdəliyimiz var. Biz onu yerinə yetiririk. Bəzi hallarda yubanma olur. Əlbəttə, Azərbaycan cəmiyyəti hələlik kamil sistem deyil, amma biz bu yolla gedirik. Biz sağlam tənqidə həmişə çox düzgün reaksiya vermişik. Qərəzli hücumlara heç vaxt baş əyməmişik, əyməyəcəyik də. Bizə təzyiq etmək istəyən qüvvələr, şəxslər artıq bunu görüblər. Əminəm ki, bundan sonra belə cəhdlərin təkrarlanması baş verməyəcəkdir. Hər halda, bunun uğursuz olması bir daha göstərir ki, Azərbaycanla yalnız və yalnız əməkdaşlıq dili ilə rəftar etmək olar.

Biz əhali baxımından, ərazi baxımından kiçik dövlətik, amma ləyaqətli dövlətik. Bir daha demək istəyirəm ki, heç kimin qarşısında gözümüz kölgəli deyildir. Biz Azərbaycan xalqının dəstəyinə arxalanırıq və bu dəstək prezident kimi, mənə xarici siyasəti müstəqil şəkildə aparmaq üçün əlavə güc verir. Mən məhz buna arxalanıb müstəqil siyasət aparıram. Bir də demək istəyirəm ki, bu siyasət heç kimin əleyhinə deyildir. Bu siyasət Azərbaycan xalqının lehinədir, marağınadır. Siz də öz fəaliyyətinizdə bu prinsipləri rəhbər tutmalısınız. Sizinlə təmasda olan bütün orqanlarla işgüzar münasibətlər, qarşılıqlı hörmətə əsaslanan münasibətlər olmalıdır. Ancaq eyni zamanda, Azərbaycanın maraqları birinci yerdə olmalıdır.

Mən əminəm ki, gələcək illərdə Azərbaycanın dünyadakı rolu daha da artacaqdır. Çünki bir də demək istəyirəm ki, biz işin yalnız birinci mərhələsindəyik. Bakı–Tbilisi–Ceyhan neft kəməri tam gücü ilə işləyəndən sonra, Azərbaycan qazı xarici ölkələrə çıxandan sonra, digər infrastruktur layihələr reallaşandan, dəmir yollarının, nəqliyyat dəhlizlərinin fəaliyyətə başlamasından sonra, əlbəttə, Azərbaycan çox önəmli ölkəyə çevriləcəkdir. Nəzərə alsaq ki, Azərbaycan dünyəvi, çox tolerant dövlətdir, Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayır.

Azərbaycan demokratiya yolunu seçibdir. Bizim demokratiyaya sadiqliyimiz təkcə sözdə deyil, əməllərimizdədir. Biz bunu nümayiş etdiririk, ona görə yox ki, kiminsə xoşuna gələk. Ona görə ki, bu bizim ölkəmizə lazımdır. Siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmalıdır. Əgər ancaq siyasi islahatlar aparılacaqsa və onun iqtisadi bazası olmasa, heç vaxt uğur qazanmaq mümkün olmayacaqdır. Biz bunu keçmişdə də görmüşük, başqa ölkələrdə də. Ancaq iqtisadi məsələlərə üstünlük verib siyasi islahatları kənarda qoymaq, sadəcə olaraq, hansısa müvəqqəti nailiyyətlərə gətirib çıxara bilər. Müvəqqəti ola bilər, ancaq uzunmüddətli iqtisadi strategiyamıza xələl gətirə bilər. Ona görə Azərbaycanda demo-

kratik və iqtisadi islahatlar paralel şəkildə aparılır və bu, ölkəmizin hərtərəfli inkişafı üçün çox önəmli amildir.

Bir sözlə, bu sahədə də ölkəmiz inkişaf edir. Yəni biz bütün cəhətlərdə görürük ki, Azərbaycanın inkişafı, güclü dövlətə çevrilməsi artıq reallıqdır. Biz çalışmalıyıq ki, bunu daha da sürətlə həyata keçirək, öz maraqlarımızı tam şəkildə müdafiə edək. Elə edək ki, Azərbaycanın xarici siyasəti Azərbaycanı qorusun, Azərbaycanın qarşısında, elə bil, qalxan kimi dayansın ki, ölkəmiz inkişaf etsin. Ölkə öz istəyinə nail olsun və insanlar daha da yaxşı yaşasınlar. Budur siyasətimizin əsas istiqamətləri. Mən ümid edirəm ki, siz öz gündəlik fəaliyyətinizdə bu işləri əməli şəkildə icra edəcəksiniz və çalışdığınız ölkələrdə Azərbaycanı bundan sonra da ləyaqətlə təmsil edəcəksiniz. Sağ olun.

**MALAYZİYANIN ALİ BAŞÇISI**
**ƏLAHƏZRƏT TUANKU SEYİD SİRACUDDİN**
**PUTRA CAMALULLAİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Malayziya xalqını səmimiqəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Malayziya arasındakı münasibətlərin, dostluq və əməkdaşlığımızın inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Malayziya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2006-cı il*

**MALAYZİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLA ƏHMƏD BƏDƏVİYƏ**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Ümidvaram ki, dost ölkələrimiz arasındakı əlaqələr, əməkdaşlığımız xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2006-cı il*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ**

Hörmətli Kurmanbek Saliyeviç!

Qırğızıstanın milli bayramı – Müstəqillik günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, Azərbaycanla Qırğızıstan arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da dinamik inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Kurmanbek Saliyeviç, Sizə möhkəm cansağlığı və uğurlar, dost Qırğızıstan xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2006-cı il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörməli Viktor Andreyeviç!

Ukraynanın milli bayramı – Müstəqillik günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, qarşılıqlı surətdə faydalı ikitərəfli əlaqələrimizin daha da inkişaf etməsi və möhkəmlənməsi, beynəlxalq və regional təşkilatlarda sıx qarşılıqlı fəaliyyət və qarşılıqlı dəstək ölkələrimizin mənafelərinə, regionda sülhün, sabitliyin və tərəqqinin təmin olunması işinə bundan sonra da xidmət edəcəkdir.

Hörmətli Viktor Andreyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Ukrayna xalqına sülh, həmrəylik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2006-cı il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Moldovanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq və əməkdaşlıq dövlətlərarası münasibətlərimizin möhkəm əsası olaraq, bundan sonra da ikitərəfli əlaqələrimizin inkişafına və möhkəmlənməsinə təkan verəcək, xalqlarımızın mənafelərinə, onların tərəqqisinə xidmət edəcəkdir.

Hörmətli Vladimir Nikolayeviç, səmimi-qəlbdən Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Moldova xalqına sülh, tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2006-cı il*

## MƏRAKEŞİN KƏND TƏSƏRRÜFATI, KƏND RAYONLARININ İNKİŞAFI VƏ DƏNİZ BALIQÇILIĞI NAZİRİ MOHAND LANSARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 avqust 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında Mərakeşin Kənd Təsərrüfatı, Kənd Rayonlarının İnkişafı və Dəniz Balıqçılığı naziri Mohand Lansarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu səfərin Azərbaycan–Mərakeş əlaqələrinin genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını qeyd etdi. Siyasi sahədə münasibətlərimizin inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev iki ölkə arasındakı iqtisadi əlaqələrin və ticarət dövriyyəsinin qənaətbəxş səviyyədə olmadığını təəssüf hissi ilə bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Mərakeşdə səfirliyinin fəaliyyətə başlamasının ölkələrimiz arasındakı əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi işinə öz dəyərli töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Mohand Lansar Mərakeş Kralı VI Məhəmmədin məktubunu prezident İlham Əliyevə çatdırdı. Məktubda Mərakeş kralı ölkələrimizin böyük potensialından optimal şəkildə istifadə edilməsi üçün ikitərəfli münasibətlərə yeni təkan vermək arzusunda olduğunu vurğulamış, əməkdaşlığımızın hüquqi çərçivəsini möhkəmləndirmək, sərmayə yatırılması və ticarəti gücləndirmək məqsədi ilə ölkəsinin bütün mümkün səyləri göstərmək əzmində olduğunu bildirmişdir.*

## BMT-nin QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO QUTERREŞIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali komissarı Antonio Quterreşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bunun nəticəsində bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin ölkəmiz üçün başlıca problem olduğunu bildirdi. O, qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən zəruri tədbirlərin görüldüyünü və tezliklə bütün çadır düşərgələrinin ləğv olunacağını vurğuladı. Prezident İlham Əliyev bu səfərin Azərbaycan ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Antonio Quterreş Portuqaliyanın Baş naziri olan zaman ATƏT-in Lissabon şəhərində keçirilmiş sammitində xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşdüyünü məmnunluqla xatırladı. Keçən il BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə daha böyük diqqət ayrılması barədə qərar qəbul etdiyini bildirən qonaq bu baxımdan ölkəmizə səfərinin mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. O, Azərbaycan höku-*

*mətinin qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün göstərdiyi səyləri yüksək qiymətləndirdi və ölkəmiz ilə rəhbərlik etdiyi qurum arasında əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini bildirdi.*

**İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*19 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Prezident sarayında İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Mehdi Səfərinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Söhbət zamanı Azərbaycan–İran münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, iki ölkə rəhbərlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin genişləndirilməsində xüsusi rol oynadığı vurğulandı və bu əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edildi.*

## ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ SENATOR RİÇARD LUQARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Prezident sarayında ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri senator Riçard Luqarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı senator Luqar ilə Bakıda və Vaşinqtonda keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, Vaşinqtona səfərinin uğurla həyata keçirildiyini və səfər zamanı səmərəli müzakirələrin aparıldığını qeyd etdi. Vaşinqtona səfərindən keçən dövr ərzində Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə inkişafının uğurla davam etdirildiyini vurğulayan prezident İlham Əliyev bu münasibətlərin dostluq və qarşılıqlı dəstək prinsiplərinə əsaslandığını bildirdi. Azərbaycan tərəfinin senator Luqarın ölkəmizə bu səfərinə böyük önəm verdiyini qeyd edən dövlətimizin başçısı səfərin qarşılıqlı münasibətlərimizin və strateji əhəmiyyət daşıyan əlaqələrimizin çox gözəl göstəricisi olduğunu vurğuladı.*

*Ötən il Azərbaycana səfərini məmnunluqla xatırladan senator Luqar qeyd etdi ki, prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Senatın Xarici Əlaqələr Komitəsinin üzvləri ilə keçirdiyi görüş və bu görüş zamanı apardığı müzakirələr ABŞ tərəfi üçün çox əhəmiyyətli olmuşdur. Ölkəmizin iqtisadiyyatının heyranedici sürətlə inkişaf etdiyini vurğulayan qonaq*

*bunun onda gözəl təəssüratlar yaratdığını bildirdi. O, Azərbaycan xalqının rifahına yönəldilmiş bu cür inkişafa hətta bir çox ölkələrin belə, nail ola bilmədiyini və Azərbaycanda gözlənildiyindən daha artıq işlərin görüldüyünü qeyd etdi. Senator Luqar ABŞ–Azərbaycan ikitərəfli əlaqələrinin səviyyəsindən məmnun olduqlarını bildirdi.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Qahirə şəhəri yaxınlığında qatarların qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2006-cı il*

## «*bp*-AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında «bp-Azərbaycan» şirkətinin prezidenti Devid Vudvordu qəbul etmişdir.*

*Devid Vudvord Azərbaycanın neft və qaz sənayesinin uğurla inkişaf etdiyini bildirdi. O, Səngəçal terminalında olduğunu və «Şahdəniz» layihəsinin icrası ilə bağlı görülən işlərin hazırkı vəziyyəti ilə maraqlandığını qeyd edərək layihənin müvəffəqiyyətlə və vaxtında həyata keçirildiyini vurğuladı. Devid Vudvord yaxın zamanlarda «Şahdəniz» yatağından qaz ixracına başlanacağına əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı «Şahdəniz» layihəsinin Azərbaycan və ümumilikdə region üçün böyük əhəmiyyət daşıdığını qeyd etdi. Layihənin uğurla həyata keçirilməsinin vacibliyini vurğulayan prezident İlham Əliyev ölkəmizin yaxın gələcəkdə mühüm qaz hasilatçısı və ixracçısına çevriləcəyinə əmin olduğunu bildirdi.*

## KOPENHAGEN KONSENSUS MƏRKƏZİNİN DİREKTORU BYORN LOMBORQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında Kopenhagen Konsensus Mərkəzinin direktoru Byorn Lomborqu qəbul etmişdir.*

*Byorn Lomborq rəhbərlik etdiyi Kopenhagen Konsensus Mərkəzinin fəaliyyəti barədə prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, onun əsas məqsədi dünyada gedən iqtisadi inkişaf proseslərini araşdırmaqdır. Qonaq Mərkəzin Azərbaycanın iqtisadiyyat sahəsində əldə etdiyi nailiyyətlərə də böyük maraq göstərdiyini və ölkəmizin müvafiq strukturları ilə əməkdaşlıq etdiyini bildirdi.*

*Dövlətimizin başçısı Mərkəzin fəaliyyətinin Azərbaycan üçün maraq doğurduğunu qeyd etdi. O, hazırda ölkəmizin energetika sahəsində böyük uğurlar qazandığını bildirərək neft sahəsində əldə olunan gəlirlərdən məqsədyönlü istifadə edilməsi istiqamətində Azərbaycanda mühüm işlərin görüldüyünü vurğuladı. Prezident İlham Əliyev Kopenhagen Konsensus Mərkəzi ilə Azərbaycanın müvafiq qurumları arasındakı əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*Prezident sarayı*

*23 avqust 2006-cı il*

*Avqustun 23-də Prezident sarayında İordaniyanın Kralı əlahəzrət II Abdullanın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyatindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev İordaniyanın Kralı II Abdullanı səmimiyyətlə qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi İordaniya Kralına raport verdi. Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında İordaniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Kral II Abdulla fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İordaniya Kralı Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri İordaniyanın Kralı əlahəzrət II Abdullaya, İordaniya nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYANIN KRALI II ABDULLANIN GÖRÜŞÜ

*Prezident sarayı*

*23 avqust 2006-cı il*

*Rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və İordaniyanın Kralı II Abdullanın təkbətək görüşü oldu.*

*Görüşdə ikitərəfli əlaqələr, müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, Azərbaycan və İordaniya arasında qarşılıqlı siyasi münasibətlərin yüksək səviyyədə olması, siyasi dialoqun fəal surətdə həyata keçirilməsi müsbət hal kimi dəyərləndirildi.*

*Prezident İlham Əliyev və Kral II Abdulla ikitərəfli əlaqələrin digər sahələrini də inkişaf etdirməyin zəruriliyini vurğuladılar, ticarət-iqtisadi əlaqələrin səviyyəsinin qaldırılmasının, gələcəkdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirdilər.*

* * *

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan və İordaniyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirildi.*

*Prezident İlham Əliyev Kral əlahəzrət II Abdullanı bir daha səmimi salamladı, İordaniya Krallığı ilə hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət verdiyini söylədi. İordaniyanın dövlət başçısının Azərbaycana səfərinin və aparılan danışıqların ikitərəfli əməkdaşlığın genişlənməsinə töhfə verəcəyini vurğulayan prezident İlham Əliyev dedi ki, ölkələrimiz arasında siyasi*

*əlaqələr yüksək səviyyədədir və bu əlaqələri iqtisadi münasibətlərin genişlənməsinə yönəltməyin vaxtıdır. Bunun üçün gözəl perspektivlər var.*

*Prezident İlham Əliyev İordaniya Krallığında fəaliyyətə başlayan Azərbaycan səfirliyinin əlaqələrimizin daha da möhkəmlənməsinə və dərinləşməsinə xidmət edəcəyini bildirdi.*

*Kral II Abdulla Bakıya səfərindən, prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu söylədi. Bakıda olduğu qısa müddət ərzində Azərbaycanda görülən işlərdən və xalqın gələcəyi üçün nəzərdə tutulan layihələrin icrasından məmnunluğunu ifadə edən İordaniya krali bu tərəqqinin ölkəsində Azərbaycana olan marağın xeyli artmasına səbəb olduğunu bildirdi. O, ölkələrimiz arasında siyasi əlaqələri sosial-iqtisadi müstəviyə yönəltmək barədə Azərbaycan prezidentinin fikirləri ilə tamamilə razılaşdığını bildirdi və əməkdaşlığın genişlənməsinin xalqlarımızın mənafeyinə xidmət edəcəyini vurğuladı.*

*Əlahəzrət II Abdulla Azərbaycan prezidenti İlham Əliyevi İordaniyaya rəsmi səfərə dəvət etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLANIN SƏFƏRİN YEKUNLARINA DAİR BƏYANATLARI

*23 avqust 2006-cı il*

*Avqustun 23-də Prezident sarayında Azərbaycan və İordaniyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra prezident İlham Əliyev və Kral II Abdulla səfərin yekunları ilə bağlı bəyanat vermişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Əlahəzrət!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən əlahəzrət İordaniya kralını Azərbaycanda bir daha salamlamaq istəyirəm. Bu, İordaniya dövləti başçısının ölkəmizə etdiyi ilk rəsmi səfərdir və ölkələrimiz arasındakı münasibətlərdə mühüm mərhələdir. Bizim bütün sahələrdə çox gözəl əlaqələrimiz, yaxşı qarşılıqlı anlaşmamız var. Biz bir-birimizi beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyirik. Siyasi dialoq olduqca yüksək səviyyədədir. Buna görə də, əla münasibətləri bütün sahələrdə genişləndirmək əzmindəyik.

Dünən və bu gün regional təhlükəsizlik və sabitlik, Orta Şərqdə və öz regionumuzdakı vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Fələstin–İsrail münaqişəsi kimi məsələlər ətrafında çox geniş fikir mübadiləsi apardıq. Bütün müzakirələr zamanı biz gördük ki, yanaş-

mamız oxşardır, üst-üstə düşür və bu oxşarlıq mövqelərimizi daha da yaxınlaşdırır.

Gələcək illər ərzində aparacağımız əməkdaşlığın aspektlərindən biri iqtisadi və ticari sahələr olacaqdır. Bu günə qədər ticarət dövriyyəsi çox olmamışdır. Hesab edirəm ki, bu səfər və bundan sonra ölkələrimizin hökumət rəsmilərinin və iş adamlarının qarşılıqlı səfərləri sayəsində biz bu sahədə gözəçarpan nailiyyətlər əldə edəcəyik.

İkitərəfli münasibətlərin inkişafından xəbər verən bir fakt da var. Biz bu yaxınlarda İordaniyada tam fəaliyyət göstərən səfirliyimizi açmışıq. Ümid edirəm ki, səfirlik əməkdaşlığın yeni yollarının müəyyən edilməsində mühüm rol oynayacaqdır. Bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var. Əvvəldə qeyd etdiyim kimi, bunun üçün bizim çox yaxşı əsaslarımız var. Ölkələrimiz arasındakı əla siyasi münasibətlər, İordaniya krali, qardaşımla şəxsi dostluq münasibətləri iki qardaş ölkə arasında olduqca güclü əlaqələrin inkişafı üçün lazımi əsas yaradır.

Əlahəzrət, sizi və rəhbərlik etdiyiniz bütün nümayəndə heyətini Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizə işlərinizdə uğurlar arzulayıram. Ümid edirəm və əminəm ki, bu səfər gələcəkdə birgə həyata keçirəcəyimiz işlər üçün yeni imkanlar açacaqdır.

## İordaniyanın kralı II Abdullanın bəyanatı

Cənab Prezident!

İki gün ərzində bizə göstərdiyiniz xoş qonaqpərvərliyə görə öz adımdan və nümayəndə heyətimin adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycana yenidən gəlməyimdən və qardaşımla bir daha görüşməyimdən böyük şərəf hissi duyuram.

Zati-alilərinizin qeyd etdiyi kimi, iki ölkə arasındakı siyasi münasibətlər olduqca güclüdür. Biz həm mənim ölkəm, həm Sizin ölkəniz üçün mühüm olan bir çox regional məsə-

ləri müzakirə etdik. Həmin məsələlər ətrafında mövqelərimizin üst-üstə düşməsindən çox məmnun qaldım. Biz həmin mürəkkəb məsələlər qarşısındayıq, lakin hesab edirəm ki, ölkələrimiz əl-ələ verib, bütün regiona aid olan məsələləri aradan qaldırmaq iqtidarında olacaqdır.

Bununla belə, şəxsən hesab edirəm ki, İordaniya və Azərbaycan xalqları arasında mövcud olan münasibətlərin daha da inkişaf etdirilməsi üçün çox böyük imkanlar var. Azərbaycan prezidenti ilə şəxsi dostluq münasibətlərini iki xalq arasındakı dostluq münasibətlərinə çevirmək üçün yaxşı fürsət yaranıbdır.

Siz qeyd etdiniz ki, ticari sahədə əməkdaşlıq üçün imkanlar mövcuddur. Biz bunu ciddi qəbul edirik və çalışacağıq ki, bu istiqamətdəki işlərimizi artıraq. Ona görə də mən bu uğurlu səfərdən mümkün qədər qısa müddət ərzində real nəticələrin əldə edilməsi üçün xalqınız, hökumətiniz və səfirliyiniz ilə sıx işləyəcəyəm.

Eyni zamanda, bu fürsətdən istifadə edərək, ölkənizin inkişafı üçün gələcəkdə nəzərdə tutduğunuz planların həyata keçirilməsində Sizə uğurlar arzulamaq istəyirəm. Gələcəyinə inamla baxan digər qardaş müsəlman xalqların bütün sahələrdə nailiyyətlərini görmək İordaniyanın müsəlman xalqı üçün olduqca şərəflidir. İnşallah, biz gələcəkdə birgə işləyəcəyik. Əminik ki, Siz də ölkəmizə səfər edəcəksiniz və öz növbəmizdə, biz də Sizə bu cür səmimi qonaqpərvərliyimizi nümayiş etdirəcəyik.

İnşallah, ölkələrimiz arasındakı münasibətlər bir çox digər ölkələr üçün nümunə olacaqdır.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*23 avqust 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev və İordaniyanın Kralı əlahəzrət II Abdulla avqustun 23-də Heydər Əliyev Fondunda olmuşlar.*

*Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva İordaniyanın dövlət başçısını böyük səmimiyyətlə qaşıladı.*

*Mehriban xanım Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədləri prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev Kral II Abdullaya ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.*

*İordaniya dövlətinin başçısı fenomenal şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə*

*çəkilmiş şəkillərə böyük maraqla baxdı. İordaniyanın Kralı əlahəzrət II Abdulla Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı, Azərbaycanın böyük öndəri Heydər Əliyevin adını daşıyan Fondla tanışlıqdan məmnun olduğunu bildirdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və İordaniyanın Kralı əlahəzrət II Abdulla birgə xatirə şəkli çəkdirdilər. Mehriban xanım Əliyeva dost ölkənin rəhbərinə xatirə hədiyyələri təqdim etdi.*

*Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.*

* * *

*İordaniya Kralı əlahəzrət II Abdulla avqustun 23-də Şəhidlər xiyabanını və ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir. Avqustun 23-də İordaniya kralının Azərbaycana səfəri başa çatdı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörməli Vladimir Vladimiroviç!

Anapa – Sankt-Peterburq reysini yerinə yetirən «Tu-154» təyyarəsinin qəzaya uğraması nəticəsində heyətin və sərnişinlərin həlak olması barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların qohumlarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 avqust 2006-cı il*

## «GLOBAL STEEL HOLDİNGS LTD» ŞİRKƏTİNİN SƏDRİ PRAMOD MİTTALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında «Global Steel Holdings LTD» şirkətinin sədri Pramod Mittalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Pramod Mittal ölkəmizə səfərindən məmnun olduğunu bildirdi. O bu səfərin Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkanlar yaratdığını qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanın iqtisadiyyat və digər sahələrdə əldə etdiyi uğurlar barədə qonağa məlumat verdi.*

## TÜRKİYƏNİN İĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURETTİN ARASIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında Türkiyənin İğdır bələdiyyəsinin sədri Nurettin Arasın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi. Bu yaxınlarda Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin açılışında iştirak etmək üçün Türkiyədə səfərdə olduğunu qeyd edən prezident İlham Əliyev bu layihənin iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirəcəyini vurğuladı. Sonra dövlətimizin başçısı dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə «Tərəqqi» medalını Nurettin Arasa təqdim etdi.*

*Nurettin Aras «Tərəqqi» medalı ilə təltif olunması ilə bağlı Azərbaycan prezidentinə dərin minnətdarlığını bildirdi. Azərbaycanın sürətlə inkişaf etdiyini qeyd edən qonaq ölkəmizin gələcəkdə daha böyük nailiyyətlər qazanacağına inandıqlarını vurğuladı. O, Türkiyə iş adamlarının Azərbaycana böyük sərmayə qoyduqlarını qeyd etdi və onların fəaliyyəti üçün yaradılmış gözəl şəraitə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Sizi və dost Özbəkistan xalqını milli bayram – Müstəqillik günü münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycanla Özbəkistan arasında ənənəvi dostluq əlaqələrinin inkişafı və möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə, regionda sülhün, sabitliyin və tərəqqinin təmin olunması işinə xidmət edəcəkdir.

Hörmətli İslam Abduqəniyeviç, Sizə möhkəm cansağlığı və uğurlar, dost Özbəkistan xalqına sülh, həmrəylik və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2006-cı il*

**LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ**

Zati-aliləri!

Liviyanın milli bayramı – Böyük İnqilab günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Liviya arasındakı münasibətlərin inkişafı bundan sonra da dostluğumuzun möhkəmlənməsinə və əməkdaşlığımızın genişlənməsinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Liviya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2006-cı il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizə və bütün Slovakiya xalqına ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2006-cı il*

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ**
**ƏLAHƏZRƏT**
**ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Əminəm ki, dost ölkələrimiz arasındakı münasibətlər, əməkdaşlığımız xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Qətər xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2006-cı il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MİNH TRİETƏ**

Hörmətli cənab Prezident!

Vyetnamın milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Vyetnam münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost ölkənizə əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2006-cı il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Braziliyanın milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Braziliya arasındakı yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı xalqlarımız üçün hər cəhətdən faydalı olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2006-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYAYA RƏSMİ SƏFƏRİ

*27 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Sloveniya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Paytaxt Lyublyananın hava limanında prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Sloveniyanın Xarici İşlər naziri Dimitri Rupel və xanımı, digər dövlət və hökumət nümayəndələri səmimiyyətlə qarşıladılar.*

*Azərbaycanın və Sloveniyanın dövlət bayraqlarının asıldığı hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Sloveniyanın paytaxtından Bled şəhərinə gəlmişdir.*

*Elə həmin gün prezident İlham Əliyev Sloveniyanın Baş naziri Yanez Yanşa ilə görüşdü. Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli iqtisadi əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «CASPİAN OUTLOOK–2008» BLED STRATEJİ FORUMUNDA İŞTİRAK ETMİŞ VƏ NİTQ SÖYLƏMİŞDİR

*27 avqust 2006-cı il*

*Avqustun 27-də Sloveniyanın Bled şəhərindəki «Golf» mehmanxanasında «Caspian Outlook–2008» Bled Strateji Forumu işə başlamışdır. Forumda əsas diqqət enerji ehtiyatlarının Xəzər regionundan Qərbi Avropaya nəqli məsələlərinə yönəlmişdir.*

*Sloveniya hökuməti tərəfindən təşkil olunmuş və dünyanın işgüzar dairələrinin 180-dən çox nüfuzlu nümayəndəsinin, 20-dən çox ölkənin rəsmi nümayəndələrinin, eləcə də beynəlxalq təşkilatların təmsilçilərinin, region ölkələrinin tanınmış iqtisadçıları və siyasətçilərinin iştirak etdiyi forumu Sloveniyanın Xarici İşlər naziri Dimitri Rupel açdı. İki gün davam edəcək bu forumu strateji maraqların birləşdiyi tədbir kimi dəyərləndirən nazir praktiki əməkdaşlığın genişləndirilməsi, Avropada enerji təhlükəsizliyinin təmin edilməsi baxımından faydalı olacağını vurğuladı. Nazir dedi ki, müzakirələrdə əsasən, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropaya çatdırılması istiqamətində gələcək planlar nəzərdən keçiriləcək və ümumiyyətlə, Xəzər hövzəsinin enerji ehtiyatlarından istifadə Avropa üçün çox əhəmiyyətlidir. O, eyni zamanda, Xəzər hövzəsində sabitliyin bərpasının vacibliyini, enerji daşıyıcılarının Avropaya təhlükəsiz daşınması üçün birgə fəaliyyət göstərməyin zəruriliyini bildirdi.*

*Regional və beynəlxalq əməkdaşlığı nəzərdə tutan bu tədbirdə iştirakına görə Azərbaycan prezidenti İlham Əliyevə təşəkkürünü bildirən Dimitri Rupel həm də Azərbaycan iqti-*

*sadiyyatının son illərdəki sürətli inkişafı barədə məlumatın əldə edilməsinə imkan yaradacaq bu forumun bütün tərəflər üçün faydalı olacağını vurğuladı.*

*Sloveniyanın Baş naziri Yanez Yanşa Azərbaycanın dövlət başçısının xanımı ilə birlikdə forumda iştirak etməsini yüksək qiymətləndirdi. Baş nazir strateji əhəmiyyət daşıyan forumda mühüm məsələlər barədə fikir mübadiləsinin aparılacağını, enerji sahəsində yeni imkanların açıldığını bildirdi. Enerji təhlükəsizliyinin hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayan Yanez Yanşa dedi ki, bizim gələcək məqsədimiz, vəzifəmiz Avropada enerji təhlükəsizliyini təmin etməkdir. Bu baxımdan neftin və qazın dünya bazarlarına təhlükəsiz çatdırılması, xüsusilə qaz sektorunda əməkdaşlıq etmək bizim borcumuzdur və bu, günün tələbidir.*

* * *

*Forumda əsas diqqəti Xəzər hövzəsinə yönəldən və bu baxımdan Azərbaycanın rolunun xüsusilə önəmli olduğunu deyən Baş nazir həm də ixracçı və idxalçı ölkələr üçün Xəzər qazının çox böyük əhəmiyyət kəsb etdiyini söylədi. Cənubi Qafqazda əməkdaşlığa xüsusi diqqət verilməsinin zəruriliyini xatırladan Yanez Yanşa iqtisadi inteqrasiyada, azad iqtisadiyyatın inkişafında, bölgədə sülhün və təhlükəsizliyin qorunmasında hamının maraqlı olduğunu bildirdi. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər regionunun böyük rolunu bir daha xatırladan Baş nazir Sloveniyanın 2008-ci ildə Avropa İttifaqına sədrlik edəcəyini də bildirdi, enerji sahəsi ilə bağlı görülən səmimi və qarşılıqlı surətdə faydalı əməkdaşlığa yeni təkan verəcəyini vurğuladı.*

## «CASPİAN OUTLOOK –2008» BLED STRATEJİ FORUMUNDA NİTQ

Hörmətli cənab Baş nazir!
Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

İlk növbədə, Bled Strateji Forumunda iştirak etmək üçün məni dəvət etdiyinizə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Mən bu tədbiri çox önəmli bir təşəbbüs kimi dəyərləndirirəm və forum çərçivəsində müzakirə edəcəyimiz məsələlər gələcək illər ərzində olduqca əhəmiyyətli rol oynayacaqdır.

Bu gün keçirilən toplantının mövzusu Xəzər regionu və dünyanın enerji təhlükəsizliyində get-gedə artan rol oynayan Xəzər enerji təchizatıdır. Həmin rol gələn illər ərzində gözəçarpan səviyyədə artacaqdır.

Azərbaycan Xəzər regionunu xarici sərmayəçilərin üzünə açmaq məqsədi ilə göstərdiyi səylərdən fərəh duyur. 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalamaqla, Azərbaycan Xəzər dənizindəki sektorunda yerləşən neft və qaz yataqlarının kəşfiyyatı və işlənilməsi sahəsində dünyanın aparıcı neft şirkətləri ilə uzunmüddətli əməkdaşlıq qurmuşdur. Həyata keçirdiyimiz «açıq qapılar» siyasəti xarici sərmayələri cəlb etmiş və bunun nəticəsində son illər ərzində ölkə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox xarici sərmayə yatırılmışdır. Xəzər dənizinin enerji resursları artıq Avropa və dünya bazarlarına çıxarılmaqdadır. Biz ölkəmizdə xarici sərmayəçilər üçün olduqca əlverişli mühit yaratmışıq və buna görə də Azərbaycan adambaşına düşən birbasa xarici sərmayələrin həcmi baxımından regionda ən öncül yerlərdən birini tutur.

Xəzər dənizində yerləşən böyük neft və qaz yataqlarının işlənilməsinə yönəltdiyimiz səylər bu gün çox gözəl nəticələr verir. Bir neçə ay bundan əvvəl Ceyhan terminalında Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tam işə düşməsi qeyd edilmişdir. Azərbaycan neftinin həmin terminala çatması mühüm hadisə olmaqla yanaşı, onun simvolik mənası da var, yəni bu hadisə məhz Azərbaycanın milli bayramı olan 28 May – Respublika Günü ilə üst-üstə düşmüşdür. Bakı–Tbilisi–Ceyhan neft boru kəməri bizim üçün nəinki Azərbaycan neftini dünya bazarlarına çıxarmaq imkanı, onun ixracından əldə edilən gəlirlərdən faydalanmaq baxımından, həm də milli müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox mühümdür.

Müstəqil ölkə kimi, Azərbaycan beynəlxalq və regional məsələlərdə get-gedə daha fəal rol oynamağa başlayır. Bəzi hallarda ölkəmiz enerji, nəqliyyat kimi sahələrdə böyük regional inkişaf proqramlarının təşəbbüskarıdır. Azərbaycanın əlverişli coğrafi mövqeyini nəzərə alsaq görərik ki, bütün mühüm nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Hazırda biz nəqliyyat infrastrukturumuzun müasirləşdirilməsi üçün bir çox böyük sərmayə proqramlarını həyata keçirməkdəyik. Bir tərəfdən, Böyük İpək Yolunun bərpası, Şərq–Qərb nəqliyyat dəhlizi, TRASEKA proqramı, digər tərəfdən, Şimal–Cənub nəqliyyat dəhlizi Azərbaycanı Avropadan Asiyaya və geriyə yük daşımaları sahəsində mühüm bir ölkəyə çevirir.

Təbii ki, Xəzər dənizindəki zəngin neft və qaz yataqlarının işlənilməsi ölkədə siyasi və iqtisadi islahatları çox fəal həyata keçirməyə imkan yaradır. Biz Azərbaycanda siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq və hesab edirəm ki, bu, uğurların əldə edilməsi üçün ilkin şərtdir. Əgər siz diqqəti yalnız iqtisadi islahatlara yönəltsəniz və demokratikləşmə, vətəndaş cəmiyyətinin yaradılması və qanunun aliliyinin təmin edilməsini bir kənara qoysanız, onda istədiyiniz nailiyyətləri əldə edə bilməyəcəksiniz. Eyni ilə deyə

bilərəm ki, yalnız siyasi islahatlarla məşğul olacağınız və iqtisadi islahatlar aparmayacağınız təqdirdə, gündəlikdə duran iqtisadi layihələrin həyata keçirilməsi çətin olacaqdır. Yalnız siyasi və iqtisadi islahatların birgə reallaşdırılması və Avropa dəyərlərinə qəti sadiqlik güclü iqtisadiyyat, qanunun aliliyi, demokratik cəmiyyət qurulması əsasında bir çox uğurların əldə edilməsini mümkün edə bilər.

İndi Avropa İttifaqının sərhədləri bizim regionumuza daha da yaxınlaşır. Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə daxil edilibdir. Ona görə də bizim regionumuzda əsas götürüləcək meyarlar Avropa İttifaqında mövcud olan meyarlara çox bənzər olacaqdır. Azərbaycan ilə Avropa İttifaqı arasında çox güclü enerji dialoqu aparılmaqdadır. Bizim nəqliyyat imkanlarımız, istismara verilmiş boru kəmərləri regionda tamamilə yeni bir vəziyyət yaradır. Xəzər regionunun dünya üçün enerji təchizatı məsələsində oynadığı rol get-gedə daha da artacaqdır. Biz Azərbaycanın qaz yataqlarının işlənilməsinə də çox böyük önəm veririk. Nəhəng qaz yatağı sayılan «Şahdəniz»də bir trilyon kubmetrdən çox təbii qaz ehtiyatı var və burada hasilat cari ilin sonunda başlanacaqdır. Həmin qaz yatağını qonşu ölkələr və Avropa istehlakçıları ilə birləşdirəcək qaz boru kəməri eyni vaxtda istismara veriləcəkdir.

Son on iki il ərzində Azərbaycan neft və qaz sənayesinə xarici sərmayələrin cəlb edilməsi, əsas xarici neft şirkətləri və tərəfdaşlarımız, eləcə də beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın qurulması üçün böyük işlər görmüşdür. İndi Bakı–Tbilisi–Ceyhan boru kəməri artıq işləyir. Bu yaxınlarda Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri də istismara veriləcək, beləliklə, Azərbaycan qonşu ölkələr üçün yeni etibarlı qaz təchizatçısına çevriləcəkdir. Bir sözlə, bizim böyük planlarımız və perspektivlərimiz var.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı bizim daim diqqət mərkəzimizdədir. Biz Azərbaycan iqtisadiyyatını şaxələndirmək əzmindəyik. Qeyri-neft sektorunun inkişafı bir

çox yeni iş yerlərinin açılmasına imkan yaradır. Bu məqsədə nail olmaq üçün ölkə iqtisadiyyatının inkişafı çoxşaxəli olmalıdır. Son iki il yarım ərzində Azərbaycanda, əsasən qeyri-neft sektorunda 435 mindən çox yeni iş yeri açılmışdır. Ötən il ərzində ölkəmizdə ümumi daxili məhsulun artımı 26 faiz, cari ilin ilk altı ayı ərzində 36 faiz, sənaye istehsalının artımı isə təqribən 40 faiz olmuşdur və gələn il də bu rəqəmin eyni səviyyədə qalması proqnozlaşdırılır. Ölkəmiz sürətlə inkişaf edir. Bu baxımdan neft və qaz amili mühüm rol oynayır.

Azərbaycan Avroatlantik məkanına inteqrasiya istiqamətində çox fəal şəkildə çalışır. Mən artıq qeyd etdim ki, biz Avropa İttifaqının Cənubi Qafqaz ölkələri üçün tətbiq etdiyi «Yeni qonşuluq siyasəti»nə daxil edilmişik. NATO ilə «Fərdi tərəfdaşlığın fəaliyyət planı» üzrə fəal işləyirik. Biz regionumuzda olduqca güclü mövqelərə malikik və hesab edirik, bu, gələcəkdə daha da möhkəmlənəcəkdir. Ölkəmiz Avropa ilə Azərbaycan arasında əməkdaşlığın yeni yollarını müəyyən etməyə çalışır. Gələcək illər ərzində Avropa ilə apardığımız enerji dialoqunun daha da fəallaşmasına xüsusi diqqət yetirəcəyik. Azərbaycandan neft və qazın Avropa və dünya bazarlarına çıxarılması regional təhlükəsizliyin, sabitliyin və əməkdaşlığın çox vacib elementlərinə çevriləcəkdir.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri istismara verildikdən sonra Azərbaycan Qazaxıstanın həmin boru kəmərinə qoşulması haqqında bu ölkə ilə hökumətlərarası saziş imzalamışdır. Bu, öz növbəsində, regional əməkdaşlığın yeni elementidir. Əgər biz on iki il bundan əvvəl öz enerji siyasətimizi və yeni strategiyamızı başlamasaydıq, islahatları həyata keçirməsəydik, ürəkdən çalışmasaydıq və bu məsələlərin həllinə nail olmasaydıq, indi müşahidə olunan regional əməkdaşlığın və proseslərin heç biri reallığa çevrilə bilməzdi. Beləliklə, bu gün regionda yeni vəziyyət formalaşır.

Xəzərin enerji resursları artıq beynəlxalq bazarlara müxtəlif marşrutlarla çıxarılır. Hazırda Azərbaycandan üç istiqamətdə enerji daşıyıcıları nəql edən boru kəmərləri mövcuddur. Onlar Rusiya, Gürcüstan və Türkiyə ərazilərinə qədər çəkilibdir. Təbii ki, çoxşaxəli boru kəməri siyasəti regional əməkdaşlığın inkişaf etdirilməsində bizim üçün çox mühüm amildir. Bu gün enerji sahəsində əməkdaşlıq məsələləri avtomatik şəkildə bütövlükdə regional əməkdaşlığa zəmin yaradır və bir çox ölkələr Azərbaycanın neft və qaz ehtiyatlarının işlənilməsi layihələrində fəal iştirak edir. Layihələrimizə qoşulmuş həmin ölkələrin şirkətləri ilə qurduğumuz işbirliyi enerji, təhlükəsizlik sahəsində, terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq, siyasi islahatlar, cəmiyyətin demokratikləşməsi, qonşuluq siyasəti kimi müxtəlif sahələrdə lazımi nəticələrin əldə olunmasına şərait yaradır. Bu baxımdan, Xəzərin neft və qaz ehtiyatlarının işlənilməsi bizim üçün, sadəcə, karbohidrogenlərin hasilatı və nəqli prosesi deyil, regionda tamamilə yeni mühitin yaradılması deməkdir. Beləliklə, Xəzər regionu Balkan regionuna və bütün Avropaya daha da yaxınlaşır. Əminəm ki, biz birgə səylər əsasında gələcəkdə daha yaxşı nailiyyətlər əldə edəcəyik.

Bu gün keçirilən forumun çox böyük əhəmiyyəti var və mən əminəm ki, burada yeni faydalı fikirlər irəli sürüləcəkdir. Çünki açıq müzakirələr bu cür yeni fikirlərin yaranmasına yaxşı şərait yaradır və bu hamı üçün faydalı olur.

Regional təhlükəsizliyin və sabitliyin əsas elementlərindən biri təhdidlərin aradan qaldırılmasıdır. Bizim böyük planlarımız var. Gündəliyimizdə duran bir çox məsələlərin həllinin mümkün olmasını öz işlərimizlə sübuta yetiririk. Bir çoxları boru kəməri layihəsinə əfsanə kimi yanaşırdı, onun reallaşacağına inanmırdı, lakin biz bu sahədə də uğura nail olduq. Amma bütün planların həyata keçirilməsinə nail olmaq və gündəlikdə duran əsas məsələləri yekunlaşdırmaq üçün biz Cənubi Qafqaz regionunda sülhə və regional təhlü-

kəsizliyə nail olmalıyıq. Regionda həll olunmamış münaqişələr hələ də mövcuddur. Burada separatçılıq və işğal faktları var. Azərbaycan on ildən çoxdur ki, Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır. Etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Torpaqlarımızın 20 faizi işğal altındadır. Biz münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün beynəlxalq təşkilatlarla iş aparırıq. Məsələnin həlli yalnız beynəlxalq hüquq normaları və prinsipləri əsasında mümkün ola bilər. Hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşılmalıdır.

BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin zəbt olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi yerinə yetirilməlidir. Münaqişə ilə bağlı Avropa Şurasının qətnaməsində Ermənistan Azərbaycan torpaqlarını işğal edən dövlət kimi açıq şəkildə tanınır. Dünya ictimaiyyəti bu məsələyə qəti münasibətini bildirməlidir. Bu münaqişə əsas maneədir. Cənubi Qafqaz regionunda başqa oxşar münaqişələr də mövcuddur. Onlar bütün planlarımız üçün potensial təhlükə mənbəyidir. Ona görə də ədalət bərpa olunmalıdır.

Dünyadakı proseslər get-gedə daha asan şəkildə proqnozlaşdırıla bilir. Avropanın sərhədləri genişlənir. Regional əməkdaşlıq artır. Sivilizasiyalar arasında artan dialoq dünyada daha möhkəm təhlükəsizliyin bərqərar olmasına zəmin yaradır. Bu cür şəraitdə Cənubi Qafqazda hələ də potensial münaqişələr mövcud olaraq qalmaqdadır. Həmin münaqişələr Avropa strukturlarının daimi diqqət mərkəzində olacaqdır. Əgər biz artıq Avropa İttifaqının qonşusuna çevriliriksə, onda Avropa İttifaqı da bu məsələlərin nizamlanmasında iştirak hüququna malikdir. Azərbaycan heç bir dövlətin ərazisini işğal etməyib, biz etnik təmizləmə siyasəti aparmamışıq, əksinə, ölkəmiz təcavüzün və etnik təmizləmə siyasətinin qurbanına çevrilibdir. Təbii ki, biz ədalətin bərpa olunmasını istəyirik. Lakin biz problemi dinc yolla həll

etmək istəyirik. Hesab edirəm ki, sülh prosesinin potensialı da hələ tam tükənməyibdir. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və hesab edirəm ki, onların hamısı indiki tədbir zamanı müzakirə olunacaqdır. Sonda fürsətdən istifadə edərək məni bu tədbirə dəvət etdiyinə görə Sloveniya dövlətinə və hökumətinə bir daha öz minnətdarlığımı bildirirəm. Sabah mənim bu ölkəyə rəsmi səfərim başlanır və ümid edirəm ki, səfər zamanı çox yaxşı nəticələr əldə olunacaq və ölkələrimiz arasındakı əməkdaşlıq artacaqdır. İki ölkə arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün gözəl imkanlar mövcuddur. Siyasi münasibətlərə gəldikdə, biz dost və müttəfiq ölkələrik. Mən bu fürsətdən istifadə edərək bizə göstərilmiş qonaqpərvərliyə və xoş qəbula görə Sloveniya tərəfinə öz təşəkkürümü bildirirəm. Mən gözəl ölkənizdə, bu cür cənnət-məkanda olmağıma çox şadam. Ümid edirəm ki, planlarımızda nəzərdə tutulan bütün məsələlər öz həllini tapacaqdır. Mən konfransın işinə uğurlar arzulayıram və ümidvaram ki, onun nəticələri bütün planlarımızın həyata keçirilməsinə xidmət edəcəkdir.

* * *

*Sloveniyanın Xarici İşlər naziri Dimitri Rupel dərin məzmunlu nitqinə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

## GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ GEORGİ BARAMİDZE İLƏ GÖRÜŞ

*Sloveniya,*
*Bled şəhəri*

*27 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Bled şəhərinin «Golf» mehmanxanasında Gürcüstan Respublikası Baş nazirinin müavini, Avropa və Avroatlantik strukturlarına inteqrasiya məsələləri üzrə Dövlət naziri Georgi Baramidzeni qəbul etmişdir.*

*Georgi Baramidze Azərbaycan prezidenti ilə görüşməyindən şərəf duyduğunu söylədi, enerji qıtlığı ilə əlaqədar ölkəsinin problemlərlə üzləşdiyi bir vaxtda Azərbaycanın göstərdiyi qardaşlıq yardımını gürcü xalqının heç vaxt unutmayacağını vurğuladı və bütün bunlara görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan və Gürcüstanın dost və qardaş ölkələr olduğunu vurğulayaraq dedi ki, bizi birləşdirən ümumi dəyərlər və məqsədlər vardır. Həyata keçirilən birgə layihələr regionda əməkdaşlığımızın daha da genişləndirilməsinə xidmət edir. Dövlətimizin başçısı Sloveniyada keçirilən forumu Azərbaycan və Gürcüstanın Avropa ilə əməkdaşlığa göstərdiyi marağın daha bir nümunəsi kimi səciyyələndirdi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ NÜMAYƏNDƏSİ PETER SEMNEBİ İLƏ GÖRÜŞ

*27 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Bled şəhərinin «Golf» mehmanxanasında Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Peter Semnebi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri və digər məsələlər müzakirə edilmişdir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 27-də Sloveniyanın Bled şəhərinin görməli yerləri ilə tanış olmuşlar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Sloveniya prezidentinin iqamətgahı*

*28 avqust 2006-cı il*

*Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sloveniyaya səfərinin rəsmi hissəsi başlanmışdır. Həmin gün Sloveniya prezidentinin iqamətgahında – «Brdo Pri Kranyu» qəsrində dövlətimizin başçısının rəsmi qarşılanma mərasimi oldu.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı qəsrin qarşısındakı meydanda Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Sloveniya prezidenti Yanez Drnovşek Azərbaycan prezidenti İlham Əliyevi və xanımını böyük ehtiramla qarşıladı.*

*Azərbaycanın və Sloveniyanın dövlət himnləri səsləndi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Sloveniya prezidenti Yanez Drnovşek fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Sloveniya əsgərlərini salamladı.*

*Sloveniyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Sloveniya prezidenti Yanez Drnovşekə təqdim olundu.*

*Sonra dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

* * *

*Rəsmi qarşılanma mərasimindən sonra Sloveniya prezideninin iqamətgahında – «Brdo Pri Kranyu» qəsrində Azərbaycan*

*prezidenti İlham Əliyevin və Sloveniya prezidenti Yanez Drnovşekin təkbətək görüşü oldu.*

*Görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Avqustun 28-də Sloveniya prezidentinin iqamətgahında – «Brdo Pri Kranyu» qəsrində Azərbaycan prezidenti İlham Əliyevin Sloveniya prezidenti Yanez Drnovşek ilə təkbətək görüşü başa çatdıqdan sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Görüşdə iki ölkə arasında siyasi dialoqun fəal həyata keçirildiyi bildirildi, iqtisadi əməkdaşlıq üçün olan geniş imkanlar və onun perspektivləri barədə söhbət açıldı. Avropa İttifaqı ilə yeni qonşuluq siyasəti çərçivəsində Azərbaycan ilə Sloveniya arasında əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi vurğulandı.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin mövqeyini açıqladı.*

*Söhbət zamanı iqtisadi əlaqələr sahəsində konkret addımların atılmasının və qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyəti bildirildi.*

## SLOVENİYA PREZİDENTİ YANEZ DRNOVŞEKİN VƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRGƏ MƏTBUAT KONFRANSI

*28 avqust 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev və Sloveniya prezidenti Yanez Drnovşek geniş tərkibdə görüş başa çatdıqdan sonra birgə mətbuat konfransı keçirmişlər. Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Sloveniya prezidenti Yanez Drnovşekin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Bu gün mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi burada ilk rəsmi səfəri zamanı qəbul etməkdən olduqca məmnunam. Prezidentin ilk rəsmi səfəri hər zaman çox mühüm bir inkişaf nöqtəsi olur. Bu xüsusən də ikitərəfli münasibətlər üçün əhəmiyyətli olur. Azərbaycan ilə Sloveniya müstəqilliklərini, demək olar ki, eyni vaxtda elan etmişlər və həmin vaxtdan etibarən hərə öz inkişaf istiqamətində böyük nailiyyətlər qazanmışdır. Eyni zamanda, belə bir qənaətə gəldik ki, ikitərəfli əməkdaşlıq sayəsində biz artıq əldə etdiyimiz nəticələrdən daha çox nailiyyətlər qazana bilərik. Hər iki tərəf üçün əməkdaşlığın inkişaf etdirilməsi üçün siyasi, iqtisadi və mədəni sahələrdə bir çox imkanlar mövcuddur. Eyni zamanda, biz gələcək Avropanın formalaşması layihəsində də iştirak edə bilərik.

Prezident İlham Əliyev və mən ikitərəfli münasibətlərə dair fikir mübadiləsi apardıq, eyni zamanda, Avropanın gələcəyi ilə bağlı məsələləri nəzərdən keçirdik. Azərbaycan Avropanın bu cür perspektivlərində xüsusilə maraqlıdır və

Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir. Şəxsən mən Azərbaycanın gələcəkdə Avropa İttifaqına üzvlüyünə və ona tam inteqrasiya olunmasına məmnunluqla baxıram. Hesab edirəm ki, Dağlıq Qarabağ məsələsi də bu baxımdan dinc yolla öz həllini tapacaq, bu problem qarşılıqlı razılaşma əsasında çözüləcəkdir. Biz bilirik ki, Azərbaycanla Ermənistan arasında olan bu münaqişə artıq uzun müddətdir gedir. Ümid edirəm ki, hər iki ölkə gələcəkdə Avropa İttifaqı ilə birlikdə çətinliklərin aradan qaldırılması üçün birgə işləyəcəkdir. Mən sonda Sloveniyanın mümkün olan hər hansı bir formada Azərbaycana yardım göstərməsinə hazır olduğunu bildirirəm.

Sağ olun.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən Sloveniyaya ilk dəfə rəsmi səfər edirəm və biz ikitərəfli münasibətlərin inkişafına çox böyük əhəmiyyət veririk. Bu gün keçirdiyimiz danışıqlar bir daha onu göstərdi ki, aramızda olan əlaqələr çox sürətlə inkişaf edir və əminəm ki, bu səfərdən sonra əlaqələrin inkişafı daha da geniş olacaqdır. Eyni zamanda, hörmətli cənab Prezident, bu fürsətdən istifadə edib Sizi, münasib olan vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Biz bu gün ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini müzakirə etdik. Müzakirələr onu göstərir ki, bizim aramızda çox uğurlu əməkdaşlığın davam etdirilməsi mümkündür və biz bunu arzulayırıq. Sloveniya ilə ikitərəfli formatda əlaqələrin inkişafı bizim üçün çox önəmlidir. Eyni zamanda, Avropa İttifaqının üzvü kimi, Sloveniya bizim üçün çox böyük maraq kəsb edən ölkədir. Bizim Avropa ilə əlaqələrimiz

çox sürətlə inkişaf edir, Azərbaycan artıq Avropa İttifaqının qonşuluq siyasətinə qoşulubdur. Bununla bərabər, Avropa İttifaqı ilə enerji məsələlərinə dair yeni müzakirələr gözlənilir. Neft, qaz hasil edən ölkə kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində öz rolunu oynamağa hazırdır.

Beləliklə, bütün sahələrdə həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində bizim əməkdaşlığımızın çox gözəl perspektivləri vardır. Onu da qeyd etmək istəyirəm ki, Sloveniyanı Azərbaycan ilə tarixi əlaqələr də birləşdirir. Azərbaycanın qəhrəman oğlu Mehdi Hüseynzadə Sloveniyada faşizmə qarşı sloveniyalılarla çiyin-çiyinə vuruşmuş, həlak olmuş və Sloveniya torpağında dəfn edilmişdir. Ondan sonrakı illərdə də əlaqələrimiz mövcud idi və Sizin də qeyd etdiyiniz kimi, bizim aramızda oxşar məqamlar da kifayət qədərdir. Həm Sloveniya, həm də Azərbaycan uzun illər ərzində başqa ölkələrin tərkibində yaşamışlar, müstəqilliyi də təxminən eyni vaxtda əldə etmişlər. Müstəqilliyimizin möhkəmlənməsi bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bunu etmək üçün, təbii ki, iqtisadi potensial möhkəmlənməlidir və Azərbaycan bu sahədə son illər ərzində böyük uğurlar əldə etmişdir. Azərbaycanda keçən il iqtisadi artım 26 faiz olmuşdur. Bu ilin altı ayında isə ümumi daxili məhsulun artımı 36 faiz təşkil etmişdir. Ölkəmizin çox böyük iqtisadi perspektivləri var və biz çox istərdik ki, Sloveniya ilə Azərbaycan arasında əlaqələr – o cümlədən iqtisadi sahədə çox sürətlə inkişaf etsin. Bunu etmək üçün qarşılıqlı səfərlər də edilməlidir. Həm dövlət, hökumət nümayəndələrinin, eyni zamanda, iş adamlarının səfərləri təşkil olunmalıdır ki, biz bir-birimizin imkanlarını daha da yaxşı öyrənək və bunun nəticəsində əlaqələrimiz daha da sürətlə inkişaf etsin.

İlk söhbətimizin bir hissəsini Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına həsr etdik, geniş fikir mübadiləsi aparıldı, mən cənab Prezidentə Azərbaycanın mövqeyini bir daha təqdim etdim. Bizim mövqeyi-

miz beynəlxalq hüquq normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycana qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmış və bu siyasətin nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüşdür. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında həll olunmasını tələb edir. Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi bunu tələb edir. Bu qətnamələrdə erməni qoşunlarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması öz əksini tapmışdır. Eyni zamanda, keçən ilin yanvar ayında Avropa Şurası münaqişəyə dair qətnamə qəbul etmişdir və həmin qətnamədə Ermənistan açıq-aydın işğalçı və təcavüzkar dövlət kimi tanınır. Belə olan halda, təbii ki, münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll edilməsi yeganə mümkün olan variantdır və Azərbaycan öz siyasətini bundan sonra da bu çərçivədə aparacaqdır. İndi danışıqlar prosesi Praqa formatı çərçivəsində gedir. Praqa prosesi bütövlükdə məsələnin mərhələli həlli deməkdir. Biz hesab edirik ki, bu çox məqbul variantdır və ümid edirik ki, Ermənistan, nəhayət, konstruktiv mövqe nümayiş etdirərək öz tərəfindən də məsələnin həlli üçün səylər göstərəcəkdir. Bir daha demək istəyirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabag münaqişəsinin həlli ancaq və ancaq beynəlxalq hüquq normaları əsasında mümkündür. Bu məsələnin həll olunmaması bölgə üçün daim böyük təhlükə mənbəyidir və hesab edirəm ki, məsələ nə qədər tez həll olunarsa, bölgəyə sülh, əmin-amanlıq bir o qədər tez gələcək və risklər də azalacaqdır.

Cənab Prezident, məni Sloveniyaya dəvət etdiyinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən çox şadam ki, sizin ölkəyə səfər edirəm. Onu da qeyd etmək istəyirəm ki, Sloveniyanın bizim bölgəyə çox böyük marağı vardır və dünən Bled şəhərində işə başlamış forumun keçirilməsi bunun əyani sübutudur. Çox əlamətdar haldır ki, Sloveniyada Xəzər bölgəsinin problemləri müzakirə olunur

və geniş beynəlxalq ictimaiyyət də bu konfransda fəal iştirak edir. Mən əminəm ki, bu səfərdən sonra bizim aramızda olan əlaqələr daha da möhkəmlənəcəkdir. Əminəm ki, Siz Azərbaycana səfər edəndən sonra münasibətlər daha da yüksək pilləyə qalxacaq və ölkələrimiz, xalqlarımız bundan sonra da dostluq, mehribanlıq şəraitində bir-birinə dəstək verərək daha da irəli gedəcəklər.

**S u a l: Mənim sualım Sloveniya prezidentinədir. Cənab Prezident, məlumdur ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda sülhə və təhlükəsizliyə böyük maneələr törədir. Avropa İttifaqı isə Cənubi Qafqazla yeni qonşuluq siyasəti həyata keçirir. Avropa İttifaqının üzvü kimi, Sloveniyanın bu münaqişənin həllində mövqeyi nədən ibarətdir?**

**Y a n e z D r n o v ş e k:** Hər hansı bir münaqişə, xüsusən də söhbət bu cür münaqişədən gedirsə, bu, böyük bir maneədir, təhdiddir. Burada münaqişənin həllinin iki yolu var. Birincisi, dinc yolla, yəni iki tərəf arasında, siyasətçilər arasında danışıqlar yolu ilə. Digər variant münaqişənin güc, hərb yolu ilə həllidir. Mən bu baxımdan birinci varianta, yəni sülh və danışıqlar yoluna üstünlük verərdim. Eyni zamanda, hesab edirəm ki, prezident İlham Əliyev ilə apardığım müzakirələrdən sonra belə bir qənaətə gəldim ki, bu məsələnin, münaqişənin sülh yolu ilə yaxın gələcəkdə həll olunması üçün kifayət qədər imkanlar var. Mən hesab edirəm ki, bu cür imkanlardan istifadə etmək lazımdır. Təbii ki, bu məsələni həll edilməmiş bir formada saxlamaq yaxşı olmaz. Çünki onun həll olunmamış vəziyyətdə qalması mövcud vəziyyəti daha da gərginləşdirir. Hesab edirəm ki, hər iki ölkənin başçısı kifayət qədər konstruktiv mövqe göstərərək bu məsələnin çözülməsinə və çıxış yolunun tapılmasına nail ola bilər. Prezident İlham Əliyev, eyni zamanda, mənə bu imkanlarla bağlı öz fikirlərini söylədi və atılacaq ilk addımlar haqqında mülahizələrini bildirdi. Düşünürəm ki, bu baxımdan onun fikirləri həqiqətən vacibdir.

**S u a l: Mənim sualım prezident İlham Əliyevədir. Cənab Prezident, Siz enerji sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdinizmi?**

**İ l h a m  Ə l i y e v:** Enerji məsələlərinin müzakirəsi son müddət ərzində ənənəvi xarakter daşıyır. Mən öz çıxışımda qeyd etdim ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin bir hissəsi olaraq enerji məsələlərinin müzakirəsi ənənəvi xarakter alıbdır. Bu sahədə yeni imkanlar yaranır. Azərbaycan çox böyük neft-qaz hasil və ixrac edən ölkəyə çevrilir. Azərbaycandan Aralıq dənizinə çəkilən böyük neft kəməri artıq fəaliyyətdədir. Bir neçə milyard dollar dəyərində nəhəng transmilli layihə artıq başa çatmışdır. Bu ilin sonunadək Azərbaycanın böyük qaz yatağından çıxarılacaq təbii qaz Avropaya nəql ediləcəkdir. Yəni bunu etmək üçün artıq boru kəməri infrastrukturu da yaradılır. Bütün bunlar, əlbəttə ki, Avropa ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın möhkəmlənməsinə gətirib çıxaracaqdır. Biz buna hazırıq, bunu arzulayırıq. Hiss edirik ki, Avropa ölkələri də bunu arzulayır. Belə olan halda Azərbaycan Avropa istehlakçıları üçün yeni, çox əhəmiyyətli enerji mənbəyi olacaqdır.

**S u a l: Mənim sualım prezident İlham Əliyevə və prezident Yanez Drnovşekədir. Siz hər iki ölkənin iqtisadi əlaqələrinin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz və bugünkü yüksək səviyyədə keçirilən görüş Azərbaycan və Sloveniya arasındakı iqtisadi əməkdaşlığın perspektivi baxımından hansı yeni imkanlar açacaqdır?**

**Y a n e z  D r n o v ş e k:** İki ölkə arasında olan iqtisadi münasibətlər hazırda kifayət qədər məhdud xarakter daşıyır. Çünki bizim keçmişdə bu sahədə o qədər də böyük imkanlarımız olmamışdır. Biz prezident İlham Əliyevlə gələcəkdə bu əməkdaşlığın gücləndirilməsi haqqında danışdıq və təbii ki, onun ölkəmizə səfəri nəticəsində ikitərəfli iqtisadi əlaqələrimizin inkişaf etdirilməsinə zəmin yaranacaqdır. Prezident İlham Əliyev artıq qeyd etdi ki, Sloveniya şirkət-

ləri də bu geniş imkanlardan istifadə edərək Azərbaycanın gələcək inkişafına öz töhfəsini verə bilər. Azərbaycanın iqtisadi inkişafı bu gün çox yaxşı gedir. Biz baxacağıq ki, gələcəkdə işlərimiz necə gedəcəkdir. Bəli, Avropa İttifaqının üzvü olaraq Sloveniya Azərbaycanla öz təcrübəsini bölüşəcəkdir. Xüsusən də təchizatların formalaşdırılmasında. Beləliklə, Avropa İttifaqına üzvlük istiqamətində işlərin sürətləndirilməsinə öz töhfəsini verəcəkdir.

**İlham Əliyev:** Bizim iqtisadi əlaqələrimizin göstəriciləri o qədər də böyük deyildir. Amma mütləq rəqəmlər böyük olmasa da, dinamika çox müsbətdir. Yəni bu onu göstərir ki, son müddət ərzində ikitərəfli iqtisadi əlaqələr inkişaf etməyə başlamışdır. Lakin bu əlaqələrin səviyyəsi bizi qane edə bilməz. Cənab Prezidentlə mən razıyam ki, biz bir-birimizi daha da yaxşı tanımalıyıq. Mən əminəm ki, bu rəsmi səfərdən sonra iqtisadi sahədə də işlər daha yaxşı gedəcəkdir. Qarşılıqlı nümayəndə heyətlərinin səfərləri təşkil olunacaqdır. Bir sözlə, biz bir-birimizi daha da yaxşı tanımalıyıq, imkanlarımızı kəşf etməliyik. Belə olan halda, əminəm ki, iqtisadi əlaqələrin möhkəmlənməsi üçün çox gözəl imkanlar yaranacaqdır.

## ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ PYER ŞEVALYE İLƏ GÖRÜŞ

*Sloveniya,*
*Bled şəhəri*

*28 avqust 2006-cı il*

*Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, «Grand Union» mehmanxanasında ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Pyer Şevalyeni qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə olundu.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYER İLƏ GÖRÜŞ

*Sloveniya,*
*Bled şəhəri*

*28 avqust 2006-cı il*

*Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, «Grand Union» mehmanxanasında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer ilə görüşmüşdür.*

*Söhbət zamanı Azərbaycan ilə bu beynəlxalq maliyyə qurumu arasında əməkdaşlıq məsələləri müzakirə olundu.*

## ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZA İLƏ GÖRÜŞ

*Sloveniya,*
*Bled şəhəri*

*28 avqust 2006-cı il*

*Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, «Grand Union» mehmanxanasında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri, səfir Mətyu Brayzanı qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar Minsk qrupu çərçivəsində aparılan danışıqlarla bağlı məsələlər müzakirə edildi.*

* * *

*Avqustun 28-də Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Sloveniyanın Xarici İşlər naziri Yan Kubiş ilə görüşmüşdür.*

*Görüşdə iki ölkə arasında əlaqələrin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.*

## LYUBLYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞDƏ ÇIXIŞ

*28 avqust 2006-cı il*

*Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lyublyana şəhər meriyasının binasına gəlmişdir.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Lyublyana şəhərinin meri xanım Danika Simşiç böyük hörmət və ehtiramla qarşıladı.*

*Meriya binasının önündə dövlətimizin başçısının təntənəli qarşılanma mərasimi oldu, Lyublyana şəhərinin himni səsləndi. Xanım Danika Simşiç meriyanın əməkdaşlarını Azərbaycan prezidentinə təqdim etdi.*

*Sonra meriyanın binasında görüş keçirildi. Danika Simşiç ali qonağı və onun xanımını salamlamaqdan çox şad olduğunu bildirdi. O, Avropanın qədim şəhərlərindən olan Lyublyananın tarixi abidələrinin bərpası üçün görülən işlərdən danışdı, bir çox ölkələrin paytaxtları ilə əməkdaşlıq etdiklərini vurğuladı.*

*Xanım Danika Simşiç Bakı ilə də əlaqələrin yaradılmasında maraqlı olduqlarını bildirərək dedi ki, Azərbaycanın paytaxtı barədə müəyyən məlumatım var. Ancaq çox xoş və maraqlı olardı ki, mən qədim neft diyarı Azərbaycanın paytaxtı Bakı şəhəri ilə yaxından tanış olum.*

*Mer onu da bildirdi ki, Avropa İttifaqının üzvü olan 25 ölkənin paytaxt rəhbərlərinin toplantısı bu yaxınlarda məhz Lyublyanada keçiriləcəkdir.*

*Prezident İlham Əliyev görüşdə çıxış etdi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanım mer!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Sizin gözəl şəhərinizdə olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Mən artıq iki gündür ki, Sloveniyadayam, Lyublyana şəhərindəyəm. Hələ şəhərlə çox yaxından tanış ola bilməsəm də, maşında gedərkən binalara baxanda görürəm ki, çox gözəl şəhərdir. Çoxlu tarixi binalar var və onlar çox yüksək səviyyədə qorunur. Bu gün isə mən şəhərlə yaxından tanış olacağam və əminəm ki, ilkin gözəl təəssürat daha da möhkəmlənəcəkdir.

Sizin şəhəriniz çox böyük və qədim tarixə malikdir. Tarixi abidələri qoruyub saxlamaq və onları bərpa etmək, əlbəttə ki, sizin öz doğma tarixinizə olan münasibətdən irəli gəlir. Burada həm çox gözəl və zəngin təbiət mövcuddur, eyni zamanda, gözəl tarixi binalar Lyublyananın özünəməxsus simasını əks etdirir. Bütövlükdə Sloveniyanın son illər ərzində əldə etdiyi uğurlar bir dost kimi, məni çox sevindirir. Ölkəniz bütün sahələrdə, o cümlədən həm siyasi, həm də iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Təsadüfi deyil ki, Avropa İttifaqının ən yüksək mükafatı məhz Lyublyana şəhərinə verilmişdir.

Hörmətli xanım mer, bu fürsətdən istifadə edib sizi Bakıya dəvət edirəm. Güman edirəm ki, Bakı ilə tanışlığınız sizdə də çox gözəl təəssüratlar yaradacaq və bizim şəhərlərimiz bir-biri ilə əməkdaşlıq edəcəkdir. Mən artıq ikinci gündür ki, Lyublyanadayam. Sabah da burada olacağam və deyə bilərəm ki, ilk dəqiqələrdən çox böyük qonaqpərvərliklə üzləşmişəm. Mən və bizim bütün nümayəndə heyətimiz burada özümüzü çox yaxşı hiss edirik. Bu qonaqpərvərliyə görə sizə və bütün sloveniyalı dostlarımıza öz minnətdarlığımı bildirirəm.

Sağ olun.

* * *

*Səfərə dəvətə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirən xanım Danika Simşiç Mehriban xanım Əliyevaya gül dəstəsi, prezident İlham Əliyevə xatirə olaraq üzərində Lyublyananın rəmzi olan hədiyyə təqdim etdi.*

*Prezident İlham Əliyev meriyanın fəxri qonaqlar kitabını imzaladı.*

## Lyublyana şəhərinin mərkəzi hissəsi ilə tanişliq

*Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniyanın paytaxtı Lyublyana şəhərinin mərkəzi hissəsi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı və xanımı şəhərin mərkəzində yerləşən slavyan kilsəsinə baxdılar, şəhəri iki hissəyə bölən Seba çayını, «Cankarjevo» sahil küçəsini və tarixi körpünü seyr etdilər.*

*Şəhərlə tanışlıq dövlətimizin başçısında xoş təəssürat yaratdı.*

* * *

*Avqustun 28-də, günün sonunda Sloveniya Milli Şurasının sədri Yanez Şuşnik və xanımı Berta Şuşnikin adından Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniyaya rəsmi səfəri çərçivəsində avqustun 29-da bu ölkənin parlamentinə – Milli Assambleyaya gəlmişdir. Burada dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı parlament sədrinin müavini Saşo Peçe böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycan prezidenti İlham Əliyev Milli Assambleyanın fəxri qonaqlar kitabını imzaladı.*

*Sonra prezident İlham Əliyevlə parlament sədrinin müavini Saşo Peçenin görüşü oldu. Söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələrin genişləndirilməsinin də vacibliyi vurğulandı. Azərbaycanın dövlət başçısının Sloveniyaya ilk rəsmi səfərinə bu ölkədə çox böyük əhəmiyyət verildiyini bildirən Saşo Peçe bu səfəri ikitərəfli münasibətlərin inkişafında çox mühüm mərhələ kimi dəyərləndirdi.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Sloveniyanın paytaxtı Lyublyana şəhərindən 45 kilometr aralıda yerləşən Postoyna şəhərinə gəlmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada qədim Postoyna mağarası Postoynska-yama ilə tanış oldular.*

*Turizm obyekti kimi, dünyada məşhur olan mağaranın menecer-direktoru Peter Ştegin dövlətimizin başçısını və xanımını böyük səmimiyyətlə qarşıladı.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, mağaranın 160–190 min il tarixi var. Kaha və qalereyalardan ibarət mürəkkəb sistem təşkil edən bu karst mağarasının uzunluğu təxminən 23 kilometrdir. 1818-ci ildə mağaranın qədim hissəsi yerli sakin Luka Çeç tərəfindən aşkar edilmişdir. Burada 1872-ci ildə yeraltı dəmir yolu çəkilmişdir. Postoyna mağarası tavandan sızan su damcılarının əmələ gətirdiyi stalaktit və stalaqmitlərin gözəlliyi ilə dünyada məşhurdur. Təbiətin nadir əsəri olan bu mağaraya 1980-ci illərə qədər ildə təxminən 900 min nəfər turist gəlirdi. Sloveniya 1991-ci ildə müstəqillik qazandıqdan sonra bu rəqəm 300–400 min təşkil edir. Turist marşrutunun uzunluğu 5,2 kilometrdir. Mağarada qədim alətlər aşkar edən arxeoloqların fikrincə, burada 50 min il*

*əvvəl ibtidai ovçular yaşamışdır. Mağarada havanın hərarəti ilin bütün fəsillərində müsbət 10 dərəcədən çox olmur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu böyük «Kalvario dağı»na, «Gözəl dağ»a və yüksək akustikası olan konfrans zalına maraqla tamaşa etdilər. Zalın tavanının hündürlüyü 40 metr, sahəsi 3 min kvadratmetrdir. Buraya 10 min nəfər yerləşə bilər.*

*Prezident İlham Əliyev və xanımı 100 ildən bəri burada xüsusi hovuzda yaşayan «İnsan balığ»a da maraqla tamaşa etdilər.*

*Dövlətimizin başçısı və xanımı 15–20 metr dərinlikdən axan Pivka çayına – bu çay 800 metr məsafədə mağaradan keçir – və yeraltı su kanallarına da maraqla tamaşa etdilər, kiçik dəmir yol vaqonunda mağaranı gəzdilər.*

* * *

*Avqustun 29-da Sloveniya Respublikası Milli Assambleyası sədrinin müavini Saşo Peçenin və onun xanımı adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi nahar təşkil olundu.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da günün sonunda Sloveniya milli televiziyasına müsahibə verdi.*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROH MU HYUNA**

Hörmətli cənab Prezident!

60 illik yubileyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi və arzularımı yetirirəm.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, bu gün ölkələrimiz arasındakı münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Əməkdaşlığımızın hərtərəfli genişlənməsində, əlaqələrimizin dərinləşməsində Sizin xidmətləriniz böyükdür.

Azərbaycana səfərinizi, Sizinlə buradakı görüşlərimizi və söhbətlərimizi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Cənab Prezident, bu əlamətdar gündə Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2006-cı il*

## UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ, UKRAYNA–AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN UKRAYNA TƏRƏFDƏN SƏDRİ ANDREY KLYUYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 avqust 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında Ukrayna Baş nazirinin müavini, Ukrayna–Azərbaycan Birgə İqtisadi Əməkdaşlığı üzrə Hökumətlərarası Komissiyanın Ukrayna tərəfdən sədri Andrey Klyuyevi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Ukrayna ikitərəfli münasibətlərinin, o cümlədən iqtisadi əməkdaşlığının müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ZEYNAL ABİDİN BEN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

70 illik yubileyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, uzun ömür, dost Tunis xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 avqust 2006-cı il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2006-cı il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun daimi qərargahının açılış mərasimində iştirak etmək üçün sentyabrın 3-də Türkiyəyə səfərə yola düşmüşdür.*

## Atatürk Hava Limanında qarşılanma

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün İstanbula gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının asıldığı hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Atatürk Hava Limanında dövlətimizin başçısını İstanbul valisi Muammər Gülər, Böyük şəhər bələdiyyəsinin başçısı Kadir Topbaş, digər rəsmi şəxslər hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından Çırağan sarayında onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## İSLAM KONFRANSI TƏŞKİLATININ ƏMƏKDAŞLIQ VƏ DİALOQ UĞRUNDA GƏNCLƏR FORUMUNUN DAİMİ QƏRARGAHININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*İstanbul, Dolmabaxça sarayı*

*3 sentyabr 2006-cı il*

*Sentyabrın 3-də İslam Konfransı Təşkilatının (İKT) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun İstanbul Dünya Ticarət Mərkəzində yerləşən daimi qərargahının təntənəli açılış mərasimi keçirilmişdir.*

*Forumun prezidenti Əli Sarıkaya və Baş katibi Elşad İsgəndərov ali qonaqlara məlumat verdilər. Bildirildi ki, 2005-ci ilin iyununda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin Yəmənin paytaxtı Sənada keçirilən iclası zamanı Foruma üzv-qurum (affiliated institution) statusu verildikdən sonra, həmin ilin dekabrında Türkiyə hökuməti Səna qətnaməsinin tələblərinə uyğun olaraq, təşkilat üçün İstanbul Dünya Ticarət Mərkəzində daimi əsaslarla fəaliyyət göstərən qərargah verilməsi haqqında qərar qəbul etmişdir. Sentyabrın 3-də Forumun daimi qərargahının açılış mərasimini birgə keçirmək üçün Türkiyənin Baz naziri Rəcəb Tayyib Ərdoğan adından Azərbaycan prezidenti İlham Əliyevə dəvət göndərilmişdir. Tədbirdə həmçinin İslam Konfransı Təşkilatının Baş katibi, İKT-nin üzvü olan, habelə Avropanın bir sıra ölkələrinin hökumət nümayəndələri, BMT, Avropa Şurası, İSESKO və digər beynəlxalq təşkilatların təmsilçiləri iştirak edirdilər.*

*Sonra İslam Konfransı Təşkilatının (İKT) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu ilə İstanbul Dünya Ticarət Mərkəzi arasında daimi qərargah haqqında saziş imza-*

*landı, qərargahın rəmzi açılışını bildirən lent kəsildi, iştirakçılar onunla tanış oldular.*

* * *

*Fasilədən sonra mərasim İstanbulun Dolmabaxça sarayında davam etdirildi.*

*Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin sədri Bülənt Arınç, Pakistanın Baş naziri Şövkət Əziz, İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu, habelə digər yüksək vəzifəli qonaqlar iştirak edirdilər.*

*Əvvəlcə müqəddəs Qurani-Kərimdən ayələr oxundu.*

*Forumun prezidenti Əli Sarıkaya, Baş katibi Elşad İsgəndərov Forumun yaranma tarixindən, gördüyü işlərdən, gələcək planlarından danışdılar. Bildirildi ki, İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu Azərbaycan gənclərinin təşəbbüsü və Azərbaycan hökümətinin dəstəyi ilə 2004-cü ilin dekabrında Bakı şəhərində təsis edilmişdir. Təşkilat İKT-yə üzv olan 35 ölkədə fəaliyyət göstərən 40-dək aparıcı gənclər təşkilatını özündə birləşdirir. Forumun fəaliyyətinin əsas istiqamətləri sırasında İKT ölkələrinin üzləşdiyi işğal, təcavüzlər haqqında həqiqətlərin dünyada geniş yayılması mühüm yer tutur. Bu ilin iyun ayında Forum İKT ölkələrində yaymaq məqsədi ilə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti haqqında ilk dəfə olaraq, ərəb dilində «Qarabağ: faktlar və nəticələr» adlı kitab çap etdirmiş və İKT Xarici İşlər nazirlərinin Bakı konfransı zamanı onun beynəlxalq təqdimatını keçirmişdir.*

*İstanbul Böyük şəhər bələdiyyəsinin sədri Kadir Topbaş, İKT-nin Baş katibi Ekmələddin İhsanoğlu, Türkiyə Böyük Millət Məclisinin sədri Bülənt Arınç, İKT-nin üzvü olan digər ölkələrin rəsmi nümayəndələri belə bir forumun keçirilməsinin xüsusi əhəmiyyətini vurğuladılar. Bildirildi ki, qloballaşan dünyada müxtəlif sahələrdə ölkələrarası əlaqələri inkişaf etdirməyə bu gün həmişəkindən daha çox ehtiyac vardır.*

*Gənclərin əməkdaşlıq naminə bir araya gəlməsi zamanın tələbidir. Natiqlər müasir dünyada islam ölkələrinin üzləşdiyi problemlərin həllində Forumun qarşısında duran vəzifələrdən də danışdılar.*

*Pakistanın Baş naziri Şövkət Əziz bildirdi ki, gələcək dünyanın sağlam müstəvidə inkişafı həm də gənclər arasında qurulacaq möhkəm işbirliyindən asılıdır. O, ayrı-ayrı bölgələrdə baş verən münaqişələrlə, Yaxın Şərqdəki vəziyyətlə bağlı ölkəsinin mövqeyini də açıqladı və dedi ki, Pakistan bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir, terror hadisələrini qətiyyətlə pisləyir. Pakistanın Baş naziri Forumun fəaliyyətinə bundan sonra da kömək göstərəcəyini bildirdi.*

*Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidentinin bu tədbirin baş tutmasının dəstəklənməsində xüsusi əhəmiyyət daşıdığını bildirdi. O dedi ki, ilk gündən bu Forumun yaradılmasını dəstəklədiyinə görə dəyərli qardaşım, dost Azərbaycanın hörmətli cümhur başqanı İlham Əliyevə hamınızın qarşısında öz adımdan, ölkəm, millətim və gənclər adından dərin təşəkkürümü bildirirəm. Baş nazir vurğuladı ki, milli, bəşəri dəyərlərlə zəngin olan islam mənəviyyatı dünyada sülh tərəfdarıdır. Yalnız sülh, əməkdaşlıq və dialoq narahat dünyanın sabahına təminat verə bilər.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İlham Əliyev:** Hörmətli Türkiyə Böyük Millət Məclisinin sədri!

Hörmətli Baş nazirlər!

Əziz qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, qardaşım, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana məni Gənclər Forumunun açılış mərasiminə dəvət etdiyinə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Doğma Türkiyədə yenidən olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Mən buraya gələrkən ay yarım bundan əvvəl Türkiyədə baş vermiş buna bənzər mərasimi xatırladım. Ay yarım bundan əvvəl biz İstanbulda,

boğazda və ondan sonra Ceyhanda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini bərabər qeyd etdik. Bu gün isə İslam Konfransı Təşkilatı Gənclər Forumunun açılış mərasimini qeyd edirik. Bəlkə də bu iki hadisə arasında bilavasitə bağlantı yoxdur. Ancaq mən hesab edirəm ki, iki hadisənin qısa müddət ərzində baş verməsi çox böyük rəmzi xarakter daşıyır.

Bakı–Tbilisi–Ceyhan neft boru xəttinin fəaliyyətə başlaması bizim iqtisadi gücümüzü, bölgədəki mövqelərimizi daha da möhkəmləndirəcəkdir. Bizi bir-birimizə daha da sıx bağlayacaq və nəticədə ölkələrimizin iqtisadi və siyasi çəkisi artacaqdır. İslam Konfransı Təşkilatı Gənclər Forumunun uğurlu fəaliyyəti, eyni zamanda, humanitar sahədə bizim mövqelərimizi daha da möhkəm edəcəkdir. Sirr deyil ki, möhkəm iqtisadiyyat, güclü potensial hər bir işin görülməsi üçün əsas şərtdir və möhkəm zəmindir. Bu gözəl möhkəm zəmində biz maddi dəyərləri insani dəyərlərə çevirməliyik. Bu baxımdan İslam Konfransı Təşkilatı Gənclər Forumunun fəaliyyətə başlaması çox böyük əhəmiyyət kəsb edir və hesab edirəm ki, bu, müsəlman aləmində son illər ərzində baş vermiş hadisələrdən ən önəmlisidir.

Təşkilat fəaliyyətə çox uğurla başlamışdır. Qısa müddət ərzində bütün təşkilati məsələlər öz həllini tapmış və artıq Gənclər Forumu çox fəal işlərə başlamışdır. Bu gün forumun fəaliyyəti və gələcək planları haqqında burada kifayət qədər söhbət açıldı. Çox gözəl proqramlar var, planlar var. Mən şübhə etmirəm ki, bütün planlar həyata keçiriləcəkdir. Bununla bərabər, qeyd etmək istəyirəm ki, müsəlman gənclərinin birgə fəaliyyəti bizim gələcəyimiz üçün də çox önəmli əhəmiyyət daşıyan məsələdir.

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin əhalisinin böyük hissəsini gənclər təşkil edir. Gənclər cəmiyyətin ən fəal təbəqəsidir və böyük qüvvədir. Bizim ölkələrimizin gənclərinin indidən bir-biri ilə təmasda olması, əlbəttə ki, gələcəkdə fəaliyyətimizi daha da yüksək pilləyə gətirib çıxaracaqdır. İslam həmrəyliyinin möhkəmlənməsinə çox mühüm töhfəsini

verəcəkdir. Biz özümüzü dünyaya daha da geniş şəkildə, olduğumuz kimi təqdim etməliyik. Bəzi hallarda islam ölkələri və islam dini haqqında dünyada çox yanlış və deyə bilərəm ki, təhlükəli rəylər formalaşdırılır. Biz belə cəhdlərin bəzən bilərəkdən, bəzi hallarda bilməyərəkdən edildiyini müşahidə edirik, amma bu faktdır. Biz özümüzü təqdim etməliyik, dünyaya nümayiş etdirməliyik ki, islam dini sülh dinidir. İslamı heç vaxt terrorla eyniləşdirmək olmaz. Terrora biz məruz qalmışıq.

Azərbaycanda 90-cı illərin əvvəllərində erməni terrorist təşkilatları tərəfindən 30-dan yuxarı terror aktı törədilmişdir və onların nəticəsində 2 mindən çox günahsız insan həlak olmuşdur. Azərbaycan uzun illərdir ki, Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. İşğal olunmuş torpaqlarda bizim bütün tarixi abidələrimiz dağıdılıbdır. Məscidlərimiz, məktəblərimiz, tarixi binalarımız yerlə yeksan edilibdir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycana qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altında qalır və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın-köçkün şəraitində yaşayır. Bütün bunlar reallıqdır, faktlardır. Biz həmişə terrora məruz qalmış tərəfik. Biz istəyirik ki, ədaləti bərpa edək. İstəyirik ki, ərazi bütövlüyümüzü bərpa edək və buna nail olacağıq. Çünki beynəlxalq hüquq normaları, haqq-ədalət bizim tərəfimizdədir. Biz daha da fəal olmalıyıq, bütün imkanlardan istifadə etməliyik. Siyasi, iqtisadi, diplomatik, bütün başqa imkanlardan istifadə edib ədaləti bərpa etməliyik. Bu işlərdə gənclərin rolu çox böyükdür.

Mən böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, artıq qısa müddət ərzində Gənclər Forumunun təşəbbüsü ilə Qarabağ münaqişəsinə dair kitab çapdan çıxmışdır və ilk dəfə olaraq ərəb dilinə də tərcümə edilmişdir. Yəni bu onu göstərir ki, forumun fəaliyyəti artıq praktiki nəticələrə gətirir. Bu çox təqdirəlayiq bir hadisədir. Bütövlükdə, gənclərin təşkilatlanması, maarifləndirilməsi bütün islam dünyası üçün çox böyük önəmli məsələdir. Bizim gənclərimiz dün-

yada gedən bütün proseslərdə fəal iştirak etməlidirlər. Bütün mütərəqqi işlərdə fəal iştirak etməlidirlər. Yaxşı təhsil almalı, yaxşı oxumalıdırlar. Mövcud olan bütün yeni texnologiyalara yiyələnməlidirlər.

Biz Azərbaycanda bu məsələyə böyük diqqət göstəririk. Azərbaycanın bütün orta məktəblərində kompüter sinifləri yaradılır və onlar birbaşa internetə qoşulacaq ki, gənclərimiz, uşaqlarımız dünyada gedən bütün prosesləri izləsinlər və bu proseslərin iştirakçıları olsunlar. Biz yeni, güclü gənc nəslin formalaşmasında çox mühüm rol oynamalıyıq, çox böyük işlər görməliyik. Bu sahədə bir tərəfdən, təhsil, ikinci tərəfdən, idman, sağlamlıq, sağlam həyat tərzi, üçüncü tərəfdən, gənclərin fəal olması, bizim ictimai-siyasi həyatımızda onların fəal iştirakı – bütün bunlar ölkələrimizi möhkəmləndirəcəkdir. İslam Konfransı Təşkilatına üzv olan ölkələr arasında həmrəyliyi daha da gücləndirəcəkdir. Bir müddətdən sonra indiki gənclər bizim ölkələrdə rəhbər vəzifələrə gələcəklər, ölkələrimizi idarə edəcəklər. Onların fəaliyyətindən ölkələrimizin müqəddəratı asılı olacaqdır. Çox vacibdir ki, gənclərimiz həm bilikli, savadlı olsunlar, həm müasir olsunlar, eyni zamanda, bütün milli və dini ənənələrə sadiq olsunlar, vətənpərvərlik ruhunda böyüsünlər ki, bizim ölkələrimiz gələcəkdə də inkişaf etsin və möhkəmlənsin.

Mən forum yaradılmasını alqışlayıram. Bunu çox böyük hadisə kimi qiymətləndirirəm və əminəm ki, forumun fəaliyyəti nəticəsində görüləcək işlər bizi daha da sıx birləşdirəcək, bütövlükdə, İslam Konfransı Təşkilatının möhkəmlənməsinə gətirib çıxaracaqdır. Azərbaycan İslam Konfransı Təşkilatının çox fəal üzvüdür. Biz bu yaxınlarda Bakıda üzv ölkələrin xarici işlər nazirlərinin toplantısını keçirmişdik. Bir neçə gündən sonra Bakıda üzv ölkələrin turizm nazirləri yığışacaqlar. Bir sözlə, hesab edirəm, bu istiqamətdə bizim fəaliyyətimiz çox önəmlidir və çalışırıq ki, ölkələrimiz bir-biri ilə daim sıx təmasda olsunlar. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Çox vacibdir ki, bizim ölkələr iqtisadi sahədə bir-biri ilə daha da sıx əməkdaşlıq etsinlər.

Əziz dostlar, mən əminəm ki, Gənclər Forumunun fəaliyyətində böyük işlər görüləcəkdir, böyük nəticələr olacaqdır. Biz bu gün Forumun fəaliyyətinə öz xeyir-duamızı veririk, onu dəstəklədiyimizi göstəririk. İstərdim ki, bu dəstək, eyni zamanda, forumun təşkilatlanma prosesinə öz müsbət təsirini göstərsin. Bu məqsədlə Azərbaycan dövləti Forumun büdcəsinə 100 min dollar köçürülməsi haqqında qərar qəbul edibdir. Əminəm ki, bu kiçik töfhə sizin işlərinizin daha da yaxşı getməsi üçün əlverişli zəmin yaradacaqdır. Əlbəttə ki, gələcəkdə Forumun maddi-texniki bazasının möhkəmlənməsində bizim bütün ölkələrimiz fəal iştirak edəcəkdir.

Mən bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Qardaş türk xalqına öz sevgi və məhəbbətimi ifadə edirəm. Sağ olun.

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul, Dolmabaxça sarayı*

*3 sentyabr 2006-cı il*

*Sentyabrın 3-də İstanbulun Dolmabaxça sarayında Azərbaycan prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşü oldu.*

*Görüşdə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin, müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, bu əlaqələrin regionda sülhə, sabitliyə, inkişafın sürətləndirilməsinə xidmət etdiyi bildirildi və gələcəkdə əməkdaşlığın bütün sahələrdə daim genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edildi.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun daimi qərərgahının açılış mərasimi başa çatdıqdan sonra Vətənə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Atatürk Hava Limanında Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri səmimiyyətlə yola saldılar.*

* * *

*Prezident İlham Əliyev sentyabrın 4-də səhərə yaxın Bakıya gəldi.*

## RUSİYALI HƏMVƏTƏNLƏRİN BEYNƏLXALQ ŞURASININ BAKIDA KEÇİRİLƏN GENİŞ İCLAS İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2006-cı il*

**İ l h a m Ə l i y e v:** Şadam ki, bizim Bakıda belə mühüm hadisə baş verir – Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurasının geniş iclası keçirilir. Ümidvaram ki, bu görüşün keçirilməsi üçün bütün lazımi şərait yaradılmışdır. Şuranın iclasının ölkəmizdə keçirilməsi faktının özü çox şeydən xəbər verir. Bildiyiniz kimi, Azərbaycanda yaşayan bütün xalqlar arasında millətlərarası həmrəylik, sülh, dostluq məsələləri həmişə dövlətin və hökumətin diqqət mərkəzində olmuşdur və indi də diqqət mərkəzindədir. Əlbəttə ki, belə şəraitin yaradılması, bir tərəfdən, ölkəmizi möhkəmləndirir, çünki Azərbaycan çoxmillətli dövlətdir, digər tərəfdən isə bu, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin mühüm elementidir. Respublikamızın həyatının ayrılmaz tərkib hissəsi olan tolerantlıq, dözümlülük onun hüdudlarından uzaqlarda da məlumdur. Ona görə də biz belə bir tədbirin Azərbaycanda keçirilməsinə ölkədə mövcud vəziyyətə sizin təşkilatınız tərəfindən verilən qiymət kimi, habelə dövlətlərimiz arasında münasibətlərin inkişafına daha bir sübut kimi baxırıq.

Bildiyiniz kimi, bu il Azərbaycanda «Rusiya İli» çərçivəsində bir sıra tədbirlər keçirilir. Ötən il Rusiyada «Azərbaycan İli» idi. Rusiya və Azərbaycan prezidentlərinin bu tədbirlərin açılış mərasimlərində iştirak etməsi faktının özü

bizim buna nə kimi diqqət yetirdiyimizi göstərir. Həm keçən il, həm də bu il keçirilən tədbirlər çox mühümdür.

Biz bir-birimizi kifayət qədər yaxşı tanıyırıq. Bu səbəbdən də elə görünə bilər ki, ölkələrimizin illəri çərçivəsində tədbirlər keçirilməsinə lüzum yox idi. Xüsusən də ona görə ki, Rusiya incəsənətinin, mədəniyyətinin nümayəndələri, yaradıcılıq kollektivləri Azərbaycana müntəzəm olaraq gəlirlər, hökumət üzvləri, deputatlar, ictimai xadimlər səviyyəsində çox yaxşı əlaqələrimiz var. Buna baxmayaraq, hesab edirəm ki, məhz belə tədbirlərin keçirilməsi, onlara ictimai-siyasi əhəmiyyət verilməsi çox vacibdir. Bu həm Rusiya ilə Azərbaycan arasında münasibətlərin dostluq, mehriban qonşuluq xarakter daşıdığını nəzərə çatdırır, həm də vətəndaşlarımıza ölkələrimizin nailiyyətləri ilə daha yaxından tanış olmağa imkan verir. Zənnimcə ikitərəfli münasibətlərimizin inkişafının mühüm elementi ondan ibarətdir ki, bu münasibətlər Sovet İttifaqının süqutundan sonra da saxlanılmışdır. Əgər 90-cı illərdə müəyyən narahatlıq hiss olunurdusa, indi, 2000-ci ildən başlayaraq Rusiya ilə Azərbaycan arasında elə münasibətlər yaşanmışdır ki, onları hər iki prezident strateji tərəfdaşlıq kimi səciyyələndirir. Bu, həyatımızın bütün sahələrində – həm siyasi, həm də iqtisadi sahələrdə özünü büruzə verir. Son il yarım–iki ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 2 dəfə artmışdır və getdikcə artmaq meyli var. Humanitar məkanın saxlandığını siz yəqin ki, bilirsiniz. Yəqin sizə demişlər ki, Azərbaycanda rus dilinə münasibət olduqca müsbətdir. Ölkəmizdə rus dilində mətbu nəşrlər lap çoxdur. Mənə dedilər ki, onların sayı 20-dən artıqdır. Bəlkə də belədir, lakin, hər halda, sovet dövründəkindən qat-qat çoxdur. Rus dilində təhsil sahəsində də vəziyyət eyni ilə bu cürdür. Heç bir məhdudiyyət qoyulmur. Əskinə, biz rus dilində təhsil almaq istəyənlər üçün daha yaxşı şərait yaratmağa çalışırıq. Bizdə təhsilin ancaq rus dilində olduğu məktəblər çoxdur, habelə rus dilində təhsil bölməsi olan 300-dən artıq məktəb var. Ali məktəblərimizdə, bütün dövlət ali məktəblərində rus bölməsi fəaliyyət göstərir. Düşürünəm ki,

bu da ikitərəfli münasibətlərin və ümumən, Azərbaycanın siyasi xəttinin mühüm elementidir. Biz qəti əminik ki, ölkəmizi ancaq müxtəlif xalqların nümayəndələrinin qarşılıqlı əlaqəsi sayəsində hərtərəfli surətdə inkişaf etdirə bilərik. Siyasi baxımdan da qarşımızda çox yaxşı perspektivlər var. İndi Azərbaycan ictimai-siyasi vəziyyətin çox sabit olduğu bir ölkədir. İqtisadi sahədə bu gün Azərbaycan sənaye istehsalının və ümumən iqtisadiyyatın artım sürətinə görə dünyada liderdir. Odur ki, ölkənin hərtərəfli inkişaf perspektivləri çox müsbətdir. Bildiyiniz kimi, iqtisadi amil bir çox prosesləri öncədən müəyyənləşdirir. Lakin millətlərarası həmrəylik, sülh, dostluq və respublikada yaşayan bütün xalqlar arasında məhz səmimi, mehriban münasibətlər olmadan ölkənin ahəngdar inkişafına nail ola bilməzdik. Biz məhz belə inkişafa çalışırıq. Ona görə də bir daha demək istəyirəm ki, bu görüşün də, şuranın ölkəmizdə geniş iclasının keçirilməsi faktına da münasibətlərimizin çox mühüm elementi kimi, böyük əhəmiyyət verirəm, həmçinin şadam ki, Azərbaycana belə böyük nümayədə heyəti gəlmişdir. Bilirəm ki, çoxunuz ölkəmizə ilk dəfə gəlmisiniz, odur ki, reallıqlarımızla, ölkəmizin həyatı ilə, onun problemləri, nailiyyətləri ilə tanış olmaq, ümumiyyətlə, ölkəmizi hiss etmək imkanınız olacaqdır. Baş verən hadisələri öz gözünlə görmək çox vacibdir. Bu, digər mənbələrdən alınan informasiyaya nisbətən həmişə daha dəqiq məlumatdır.

Mən sizi bir daha ürəkdən salamlayıram. Ümidvaram ki, ölkəmizə səfəriniz yaddaşınızda qalacaqdır.

*Sonra görüş iştirakçıları çıxış edərək dedilər ki, Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurası Rəyasət Heyətinin geniş iclası Bakıda Azərbaycan dövləti başçısının xeyir-duası və dəstəyi ilə keçirilir. Buna görə Azərbaycanın Rus icmasının sədri, Milli Məclisin deputatı M.Zabelin onların adından prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Qeyd olundu ki, görüşdə müxtəlif ölkələrin bir çox ictimai təşkilatlarının rəhbərləri iştirak edirlər.*

*İclas iştirakçılarının şərəfinə verilmiş təntənəli ziyafətdə onlar ölkəmiz, paytaxtımız haqqında təəssüratlarını bölüşdülər, qonaqlara məlumat verildi ki, Azərbaycan və şəxsən prezident həmişə istəyir ki, ölkəmizə daha çox nümayəndə heyətləri, xüsusən də respublikamızda heç vaxt olmayan nümayəndə heyətləri gəlsinlər, onlar Azərbaycan xalqının həyatı və mentaliteti ilə tanış olsunlar. Azərbaycan xalqının mentaliteti rus xalqının mentalitetinə oxşardır. Odur ki, Azərbaycana rus xalqının nə qədər çox nümayəndələri – hətta ölkəmiz barəsində müəyyən mənfi baxışları olanlar da – gəlsələr, onlar buradan Azərbaycan xalqının dostu kimi gedəcəklər.*

**Q r a f  Ş e r e m e t y e v** *(Şuranın Rəyasət Heyətinin sədri)*: Bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə, bu görüşə dəvətə görə Sizə təşəkkür edirik. Şura ilk dəfə olaraq Rusiyadan kənarda toplaşır. Biz şadıq ki, bu Sizin ölkənizdə baş verdi. Keçən il tanış olduğum Azərbaycan prezidenti ilə görüşmək mənim üçün çox böyük şərəfdir. Biz Sizin atanızın məzarını ziyarət etdik, əklil qoyduq. Bu bizim hamımız üçün çox təsirli bir an idi. Biz bilirik ki, o öz ölkəsi üçün çox böyük işlər görmüşdür. Nümayəndə heyətinin Azərbaycanda vaxtının belə gözəl keçməsi üçün şərait yaradıldığına görə bir daha Sizə minnətdarlığımı bildirirəm.

*Şuranın Rəyasət Heyətinin sədri prezident İlham Əliyevə Georgi Pobedonosetsin təsviri olan qızıl suyuna çəkilmiş gümüş nimçə hədiyyə edərək dedi ki, bu, Moskvanın və ordunun rəmzidir.*

*Görüşdə rus icmasına göstərilən xeyirxah, həssas münasibətə görə ölkəmizin, onun rəhbərliyinin ünvanına səmimi minnətdarlıq sözləri səsləndi. Bildirildi ki, M.Zabelinin başçılıq etdiyi rus icması ölkə iqtidarının ona münasibəti baxımından bir çox cəhətdən nümunədir. O, Qafqazda ən böyük rus icmasıdır, eyni zamanda, sıx birləşmişdir, vahiddir. Burada rusiyalı həmvətənlərin bir çox təşkilatları təmsil olunmuşdur. Şəxsən prezidentin və bütün Azərbaycan rəhbərliyinin münasibəti ona fəal olmaqda kömək edir. Bu isə ona Azərbaycan ilə Rusiya arasında, iki xalq arasında dostluq körpüsü olmağa,*

*Azərbaycan parlamentində təmsil edilməyə imkan verir. Çıxışlarda qeyd olundu ki, yaxın vaxtlarda Bakıda rus kitabının birinci beynəlxalq konqresi keçiriləcək və Azərbaycana nadir rus kitablarının 600 nüsxəsini hədiyyə vermək planlaşdırılır. Burada rus dilinə, rus dilində təhsilə böyük əhəmiyyət verildiyi nəzərə alınmaqla, bu kitablar bütün ölkə əhalisi üçün faydalı ola bilər. Görüşdə ondan da söhbət getdi ki, Azərbaycanda «Rusiya İli» çərçivəsində Moskvanın mədəniyyət günləri keçiriləcəkdir.*

*Görüş iştirakçıları xalqımızın rifahı naminə, Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq naminə son dərəcə mühüm fəaliyyətində Azərbaycan prezidentinə uğurlar arzuladılar.*

**İlham Əliyev:** Xoş sözlərə görə sağ olun. Mən çox minnətdaram, çünki həqiqətən hesab edirəm ki, hazırda Azərbaycanda baş verən hadisə çox mühümdür. Yeri gəlmişkən, mən bilmirdim ki, belə iclas Rusiyanın hüdudlarından kənarda ilk dəfə keçirilir. Odur ki, məhz Azərbaycanın Rusiyadan kənarda iclasın ilk dəfə keçirildiyi yer olduğuna görə təşəkkür edirəm. Yəqin ki, bu təcrübə gələcəkdə digər ölkələrə də yayılacaqdır. Düşünürəm ki, bu cür tədbirin, şuranın geniş iclaslarının rus icması olan və müsbət təcrübəyə malik ölkələrdə keçirilməsi çox vacibdir. Eləcə də bu müsbət təcrübənin digər ölkələrə yayılması üçün vacibdir.

Bilirsinizmi, milli əlahiddəlik, millətçilik təzahürləri heç zaman tərəqqiyə doğru aparmamışdır. Bunların yayıldığı və ya tətbiq edildiyi ölkələr həmişə dərhal böyük problemlərlə qarşılaşmış, əziyyət çəkmişlər. Ona görə də bunun, milli sülhün vacibliyinin dərk edilməsi, zənnimcə, hər bir dövlətin ahəngdar inkişafına doğru aparan yoldur. Azərbaycan da, Rusiya da çoxmillətli ölkələrdir. Bizim ölkələrimizdə bütün millətlərin nümayəndələri nəinki özlərinin Konstitusiya hüquqlarından istifadə edirlər, həm də cəmiyyətin gündəlik həyatında kifayət qədər tolerant səviyyədə digər mədəniyyətə qarşı həssasdırlar. Bu bizi zənginləşdirir, Azərbaycanın hərtərəfli inkişafının çox mühüm amilidir. Siz qeyd etdiniz ki, rus kitabı festivalı keçiriləcəkdir. Bu da çox mühüm

hadisədir. Çünki Birlik ölkələri arasında humanitar sahədə əməkdaşlığın təkmilləşdirilməsi üçün MDB çərçivəsində bir sıra tədbirlər hazırlanır ki, bu da mühüm hadisə və yanaşmadır. Bu baxımdan ölkələrimiz arasında ünsiyyətdə rus dilinin rolu, təbii ki, çox böyükdür. Rus dilinin unudulmaması, əksinə, gənc nəslin onu bilməsi çox vacibdir. Ölkələrimizin artıq 15 ildir müstəqil dövlətlər kimi yaşadığını nəzərə alaraq, təbii ki, illər keçdikcə rus dilinin ünsiyyətdən çıxa biləcəyi ilə əlaqədar potensial təhlükə var. Bu isə son dərəcə arzuedilməz olardı. Çünki XIX əsrdə də, XX əsrdə də dünya ədəbiyyatı kimi, hər şey Azərbaycana rus dili vasitəsilə gəlmişdir. Məsələn, bu gün dünyada mövcud olan müasir texnologiyalar internetin və digər vasitələrin köməyi ilə Azərbaycana, əsasən rus dilindən istifadə ilə gəlir. Ona görə də ölkəmizdə rus dilinin qorunub saxlanılmasının bizim üçün çox böyük əhəmiyyəti var. Belə tədbirlər isə ona kömək edir. Yadımdadır ki, 2-3 il əvvəl Bakıda rusdilli mətbuatın ümumdünya konqresi keçirilmişdi. Bu, Rusiyadan kənarda keçirilən konqres idi. Xatirimdədir, dünyanın hər yerindən çox böyük nümayəndə heyətləri, jurnalistlər, dövri nəşrlərin rəhbərləri gəlmişdilər. Elə onda Azərbaycan da müəyyən dərəcədə kəşf edildi. Burada mən bir məsələni də deməliyəm: biz, hər halda, heç də bərabər şəraitdə deyilik, çünki müasir Rusiyanın həyatı haqqında Azərbaycanda kifayət qədər yaxşı təsəvvür var. Belə ki, bizdə Rusiya telekanalları yayımlanır. Özü də peyk televiziyası vasitəsilə deyil, birbaşa rejimdə. Siz bunu da görə bildiniz: birinci kanal da, Rusiya kanalı da yayımlanır. Odur ki, biz Rusiyada nələr baş verdiyini bilir və prosesləri izləyirik. Amma Azərbaycanda baş verənləri keçmiş SSRİ-nin digər ölkəsində və ya Rusiyada bəzən çox yaxşı bilmirlər. Çünki informasiya, hər halda, çox məhduddur. Bax, ona görə də belə səfərlərin çox böyük əhəmiyyəti var. Gərək gələsən, baxasan, həyatı hiss edəsən, ölkənin nə ilə yaşadığını, onun nə kimi prioritetləri, nə kimi problemləri, ikitərəfli münasibətlərin nə kimi səviyyədə olduğunu görəsən. Axı bütün bunlar təkcə hansısa rəsmi, pro-

tokol tədbirləri çərçivəsində deyil, həm də gündəlik həyatda hiss edilir. Əminəm və siz də yəqin edəcəksiniz ki, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə və rus millətinin nümayəndələrinə münasibət həm dövlət, həm də məişət səviyyəsində tamamilə eyni cürdür. Bu, sevindirici haldır.

Sizi bir daha ürəkdən salamlayıram. Sizə ən xoş diləklərimi bildirir, Rusiyalı Həmvətənlər Şurasına uğurlar arzulayıram. Ümidvaram ki, gələcəkdə siz Bakını öz görüşlərinizin yeri kimi, bir daha seçəcəksiniz. Sağ olun.

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

65 illik yubileyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Sizin rəhbərliyiniz ilə qardaş Türkiyənin hərtərəfli inkişafı, beynəlxalq miqyasda nüfuzunun artması bizi sevindirir.

Bir-birinə qırılmaz tellərlə bağlı olan qardaş xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətləri gündən-günə möhkəmlənməkdə və inkişaf etməkdədir. Sevindirici haldır ki, xalqlarımızı tarixən birləşdirən amillər sırasına zamanın nəbzi ilə yeniləri də əlavə olunur. Bunlardan ən əhəmiyyətlisi prezident Heydər Əliyev tərəfindən əsası qoyulmuş və birgə səylərimiz sayəsində inşası yenicə başa çatdırılmış Bakı–Tbilisi–Ceyhan neft kəməridir. Əsrimizin bu nəhəng layihəsinin gerçəkləşməsində Sizin xidmətlərinizi böyük məmnunluqla qeyd etmək istərdim.

Cənab Prezident, bu əlamətdar gündə Sizə, bütün ailənizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyənin yüksəlişi naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2006-cı il*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB VİSENTE FOKS KESADAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Meksika münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Meksika xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2006-cı il*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD FENEÇ ADAMİYƏ**

Hörmətli cənab Prezident!

Malta Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq əlaqələri əməkdaşlıq imkanlarımızın genişlənməsinə daim öz müsbət təsirini göstərəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2006-cı il*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirməkdən məmnunluq duyuram.

Şadam ki, bu gün ölkələrimiz arasında qarşılıqlı inam və etibara əsaslanan əsl dostluq münasibətləri mövcuddur. Əminəm ki, bu münasibətlər daim yaşayacaq, möhkəmlənəcək və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Səudiyyə Ərəbistanı xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2006-cı il*

**SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Milli bayramınız – Krallıq elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr, ənənəvi xoş münasibətlər xalqlarımızın istəyinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən səmimi arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2006-cı il*

## UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*7 sentyabr 2006-cı il*

*Prezident sarayında Ukrayna prezidenti Viktor Yuşşenkonun rəsmi qarşılanma mərasimi olmuşdur. Sarayın həyətindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Ukrayna prezidenti Viktor Yuşşenkonu səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Ukrayna prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Ukraynanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Viktor Yuşşenko fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Ukrayna prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Ukrayna prezidenti Viktor Yuşşenkoya, Ukrayna nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*7 sentyabr 2006-cı il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü oldu.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı və əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*7 sentyabr 2006-cı il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü oldu.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimi-qəlbdən salamlayıram, xoş gəlmisiniz. Bizim çox ətraflı söhbətimiz oldu, qarşılıqlı maraq doğuran, demək olar, bütün məsələləri müzakirə etdik. Düşünürəm ki, indi geniş tərkibdə biz əməkdaşlığımızın əsas istiqamətlərini daha da dəqiqləşdirəcəyik.

Ölkələrimiz arasında ənənəvi xarakter daşıyan çox səmimi, mehriban münasibətlər mövcuddur. Ukrayna və Azərbaycan xalqları bütün dövrlərdə fəal əməkdaşlıq etmişlər, müstəqillik əldə olunduqdan sonrakı dövrdə isə bu əməkdaşlıq, əlbəttə, yeni forma və xüsusiyyətlər almışdır.

Əməkdaşlığımız çox uğurlu, qarşılıqlı surətdə faydalıdır və bir çox sahələri əhatə edir. Siyasi, iqtisadi baxımdan, humanitar sahədə bizim aramızda münasibətlər çox yüksək səviyyəyə çatmışdır və uğurla inkişaf edir. Əminəm ki, Ukrayna prezidentinin Azərbaycana rəsmi səfəri də bu münasibətlərin inkişafı üçün yaxşı amil olacaqdır.

Hörmətli Viktor Andreyeviç, Siz Azərbaycana çox böyük nümayəndə heyəti ilə gəlmisiniz. Elə bu faktın özü Sizin ikitərəfli münasibətlərə necə diqqət yetirdiyinizi göstərir. Biz

də Azərbaycanda ikitərəfli əlaqələrimizin inkişafına çox böyük əhəmiyyət veririk.

Əminəm ki, Sizin səfəriniz, aparılan danışıqlar, imzalanmış sənədlər, şübhəsiz, ölkələrimiz arasında dostluq, tərəfdaşlıq münasibətlərinin inkişafında mühüm mərhələ olacaqdır. Ümidvaram ki, səfər uğurlu keçəcək və ölkəmizdə olmağınız Sizdə yaxşı təəssürat doğuracaqdır. Bir daha xoş gəlmisiniz deyirəm.

**Viktor Yuşşenko:** Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Ukrayna tərəfdən olan hörmətli nümayəndələr!

Dəvətdən istifadə etməyimə və bu gün belə mötəbər Ukrayna nümayəndə heyəti ilə Azərbaycanda olmağıma çox şadam. Sizinlə söhbətimizin əsaslandığı tezislərin bir hissəsini burada təkrar etmək istərdim. Sizinlə, ölkənizlə səmərəli siyasi, diplomatik münasibətlər saxlamaq bizim üçün çox rahat, çox asandır. Əsası qoyulmuş ənənələr, xalqlarımız səviyyəsində qədim əlaqələr, rəsmi hakimiyyət səviyyəsində sağlam ikitərəfli münasibətlər buna kömək edir. Azərbaycanla münasibətlərimizin inkişafının dinamikasının belə səviyyəsi, belə xarakteri strateji münasibətlərin olduğunu göstərir.

Ona görə də biz buradayıq, belə geniş nümayəndə heyəti ilə gəlmişik. Əminəm ki, bu, nəinki bizim mənafelərimizə, Ukraynanın mənafelərinə, həm də ikitərəfli mənafelərimizə cavab verir.

*Sonra görüşdə fikir mübadiləsi davam etdirildi.*

* * *

*Prezidentlərin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Prezident sarayında sənədlərin imzalanma mərasimi oldu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yuşşenko birgə bəyannamə imzaladılar.*

*Azərbaycan Dövlət Neft Şirkəti ilə «Naftaqaz Ukrainı» şirkəti arasında uzunmüddətli əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ukrayna Aqrar Siyasət Nazirliyi arasında bitki sortlarının dövlət sınaqları və mühafizəsi sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Ukrayna Dövlət Nüvə Tənzimlənməsi Komitəsi arasında radiasiya təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ukrayna Xarici İşlər Nazirliyi arasında diplomatik kadrların hazırlanması haqqında saziş imzalandı. Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov, Ukrayna hökuməti adından nazir Boris Tarasyuk imzaladılar. Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında beynəlxalq qarışıq yükdaşımaları haqqında saziş imzalandı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLA ÇIXIŞLARI

*7 sentyabr 2006-cı il*

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Ukrayna prezidenti Viktor Andreyeviç Yuşşenkonu və bütün nümayəndə heyətini Azərbaycanda bir daha səmimi-qəlbdən salamlamaq istərdim.

Bugünkü səfər ölkələrimiz arasında dostluq münasibətlərinin çox əyani təzahürüdür. Bu gün ikitərəfli münasibətlərimizin müxtəlif məqamları haqqında çox konkret, çox geniş söhbət oldu. Biz bu münasibətləri təhlil etdik, onların tarixindən danışdıq, habelə – bu bəlkə də ən başlıcasıdır, əməkdaşlığımızın perspektivlərini müzakirə etdik. Bu perspektivlər bizim üçün çox mühümdür və olduqca böyük potensiala malikdir. Biz müxtəlif beynəlxalq təşkilatlarda, birgə iştirakımız da daxil olmaqla, Ukrayna ilə Azərbaycanın ikitərəfli münasibətlərinə aid məsələlərin çox geniş dairəsini nəzərdən keçirdik. Müzakirə edilən bütün məsələlərdə mövqelərimiz üst-üstə düşür.

Biz Ukraynanı dost ölkə, Azərbaycan üçün mühüm tərəfdaş hesab edirik və ümidvarıq ki, bu gün imzalanmış sənədlər, əldə olunmuş razılaşmalar bütün sahələrdə münasibətlərimizin inkişafına xidmət edəcəkdir.

Biz energetika sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdik və qarşılıqlı maraq doğuran məsələlərin əməli

surətdə işlənməsinə başlamaq barədə müvafiq qurumlara konkret tapşırıqlar verdik. Burada qarşılıqlı surətdə faydalı ola biləcək məqamlar lap çoxdur və biz bu əməkdaşlığı təkmilləşdirməyin müxtəlif yollarını nəzərdən keçiririk. Azərbaycan enerji ehtiyatlarının iri hasilatçısına və dünya bazarlarına böyük ixracçısına çevrilir və Ukrayna ilə əməkdaşlığın bizim üçün çox böyük əhəmiyyəti var. Nəqliyyat, kənd təsərrüfatı məsələləri, humanitar sahədə əməkdaşlıq məsələləri müzakirələrimizin diqqət mərkəzində olmuşdur. Bütün bu məsələlərdə bizim aramızda çox yüksək səviyyədə qarşılıqlı anlaşma var.

Biz çox şadıq ki, Ukraynadakı Azərbaycan diasporu və ölkəmizdə yaşayan ukraynalılar cəmiyyətə çox inteqrasiya etmiş və özlərini olduqca rahat hiss edirlər. Bunun özü də həm ikitərəfli münasibətlərin, həm də cəmiyyətlərimizin dözümlülüyünün yüksək səviyyəsinə dəlalət edir. Bu, ikitərəfli əlaqələrin çox mühüm elementidir.

Biz Ukrayna və Azərbaycanın getdikcə artan potensialını nəzərə alaraq ümumən iqtisadi münasibətlərin inkişafı məsələlərini müzakirə etdik. Bizə elə gəlir ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin çox yüksək sürətlə artmasına baxmayaraq – inanıram ki, bu sürət saxlanacaq – əminəm ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin daha fəal, daha geniş şaxəli və tam olması üçün istifadə edilməli ehtiyat mənbələri hələ çoxdur.

Azərbaycanda iqtisadi islahatların uğurla aparılması ölkə iqtisadiyyatının çox sürətli yüksəlişinə gətirib çıxarmışdır. Keçən il iqtisadiyyatımız 26 faiz artmışdır. Bu ilin altı ayında ümumi daxili məhsul 36 faiz, sənaye istehsalı 41 faiz artmış, son iki il yarımda Azərbaycanda 435 min yeni iş yeri yaradılmışdır.

Demək istəyirəm ki, bütün bunlar iqtisadi potensialın artdığını bir daha təsdiqləyir. Əlbəttə ki, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün imkanlar da artır. Ukraynada istehsal edilən bir sıra sənaye məhsuluna ölkəmizdə tələbat

var. Biz bu istiqamətdə əməkdaşlıq edirik. Lakin ümidvaram ki, birgə hökumətlərarası komissiyanın işi, nazirliklər, idarələr səviyyəsində, ola bilsin, prezidentlər səviyyəsində də – çox mühümdür. Belə səviyyədə münasibətlərin daimi məşvərət formatı haqqında qərar qəbul edilmişdir – fəal əlaqələr, zənnimcə, daha geniş iqtisadi münasibətlər üçün yaxşı təkan olacaqdır.

Regional məsələlərdə əməkdaşlıq sahəsində bizim aramızda tam qarşılıqlı anlaşma var. Biz hörmətli prezident Viktor Andreyeviç Yuşşenko ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsini də müzakirə etdik və mən bu problemin həllinə baxışımızı, bu məsələdə mövqeyimizi prezidentə açıqladım. Biz Azərbaycanın mövqeyini Ukraynanın başa düşməsinə, habelə beynəlxalq aləmdə Ukrayna tərəfindən olan dəstəyə həmişə minnətdarlıq hissi ilə yanaşmışıq.

Başqa sözlə desək, zənnimcə, bir neçə saatlıq intensiv ünsiyyətimiz zamanı ikitərəfli münasibətlərin mühüm məsələlərindən heç biri diqqətdən kənarda qalmadı. Biz onları kifayət qədər ətraflı və çox yaxşı, səmimi şəraitdə müzakirə etdik.

Ümidvaram ki, Ukrayna prezidentinin ölkəmizə səfəri və bu səfərlə bağlı hər şey – imzalanmış sənədlər, razılaşmalarımız münasibətlərimizin daha uğurla inkişaf etməsinin çox mühüm amili olacaqdır.

Təşəkkür edirəm.

## Ukrayna prezidenti Viktor Yuşşenkonun bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Xanımlar və cənablar!

Mən, ilk növbədə, dəvətə görə cənab Prezidentə minnətdaram. Mən ənənəvi dostluq şəraitində keçirdiyimiz danışıqlardan məmnunam. Mövzu çox müxtəlif idi, biz münasibət-

lərimizin müxtəlif sahələrinə – siyasi, iqtisadi, humanitar, müdafiə, xarici siyasət sahələrinə aid məsələlərə toxunduq. Hərbi-texniki əməkdaşlıq, energetika sahəsində bir sıra layihələrin həyata keçirilməsi məsələlərini ayrıca müzakirə etdik.

İlk növbədə qeyd etmək istərdim ki, indi Ukraynada siyasi sabitlik mərhələsi başlamışdır. Parlament seçkilərində iştirak etmiş siyasi qüvvələr parlament çoxluğunun formalaşmasının, hökumətin formalaşmasının, ümummilli dəyərlərə, inteqrasiya vektoruna, milləti uzun illərdən bəri narahat etmiş ümdə məsələlərə münasibətə əsas baxışların formalaşmasının çox mürəkkəb yolunu keçdilər.

Mən böyük məmnunluqla demək istəyirəm ki, indi Ukrayna siyasi sabitlik mərhələsindədir. Bu, nəzərdən keçirdiyimiz məsələlərin həllinin iqtisadi perspektivlərini hiss edə bilməyimiz baxımından çox vacibdir. Əgər bu gün Ukrayna bazarını, makroiqtisadi mədəniyyəti, digər göstəriciləri müqayisə etməli olsaq, onda deyərdim ki, bizim bəlkə də Şərqi Avropa üçün nadir göstəricilərimiz var. Bizdə ümumi məhsul istehsalının həcmi 7,7 faiz səviyyəsindədir. Milli iqtisadiyyatın bütün sahələrində artım müşahidə edilir. Elə bir sahə yoxdur ki, o, tənəzzüldə, durğunluqda olsun, yaxud böhrandan çıxmasın.

Bu gün ölkədə müstəqilliyin 15 ili ərzində işsizliyin ən aşağı səviyyəsi müşahidə olunur – 7,2 faiz. İl hesabı ilə biz xarici investisiyaların ən yüksək göstəricisinə malikik, ildə təxminən 7,4 milyard dollardır. Bizdə büdcənin formalaşmasının yaxşı dinamikası var. Keçən il büdcənin mədaxili 53 faiz artmışdır. Ötən illə müqayisədə cari ildə bu artım 18 faiz təşkil edir. Biz uzun illər ərzində həll edilə bilməyən sosial və humanitar məsələlərin xeyli hissəsinin həllinə müvəffəq olmuşuq.

Mən bunu Ukrayna ilə çoxtərəfli və ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı zəmin hesab edirəm. Ukrayna perspektivli ölkədir. Əminəm ki, Ukrayna qarşılıqlı maraqların gerçəkləşdirilməsi üçün çox imkanlara malikdir. Odur

ki, münasibətlərimiz üçün ənənəvi olaraq əhəmiyyət kəsb edən bir sıra məsələlərin bu gün ikitərəfli danışıqlarda müzakirə edilməsi bizdən ötrü vacib idi. Məsələlərin birinci qrupu energetika sahəsində əməkdaşlıqla bağlıdır. Bu gün energetika sahəsində Ukraynanı üç istiqamət maraqlandırır. Birincisi, potensial Azərbaycan şirkətləri ilə müştərək strukturlar yaradılmasıdır. Elə strukturlar ki, onlar neft kəşfiyyatı və hasilatı, neft məhsullarının emalı və satışının müştərək bazarlarında işləməyə qadir olsunlar. Ukrayna tərəfi buna hazır olduğunu artıq bildirmiş və bu, azərbaycanlı həmkarlara rəsmi qaydada göndərilmişdir. Hesab edirik ki, bu, bazarlara birlikdə daxil olmağın və qarşılıqlı potensialları inkişaf etdirməyin birinci mərhələsidir. İkinci addım Azərbaycan və Qazaxıstan neftinin Odessa–Brodi–Avropa bazarı marşrutu ilə nəql etmək imkanlarını saxlamaqdan ibarətdir. Bu, işləyən, fəaliyyət göstərən layihədir. Bu gün Xəzər dənizi və Qara dəniz regionu xam neftə dair yeni təkliflər formalaşdırır və onlar Odessa–Brodi layihəsinin gerçəkləşdirilməsinə asanlıqla uyğun gəlir. Üçüncü addım, əslində, elə həmin marşrutla Xəzər regionu – Ukrayna–Avropa İttifaqı marşrutu ilə qazın nəql edilməsi kimi mühüm məsələdə birgə mövqeləri formalaşdırmaqdan ibarətdir.

Biz aviasiya sahəsində əməkdaşlığın davam və inkişaf etdirilməsində çox maraqlıyıq. Hazırda Ukrayna təyyarələrin yeddi modelini təqdim edə bilər. Onlar sınaqdan çıxarılmışdır və təhlükəsizliyin ən yüksək tələblərinə, müasir aviasiya bazarının iqtisadi xarakteristikalarına cavab verir. Hesab edirik ki, bu bizim perspektivimizdir. İndi təkliflərimiz ondan ibarətdir ki, biz bu məsələni ən yüksək səviyyədə öyrənməli, hər şeyə aydınlıq gətirməli, işimizi davam etdirməliyik.

Biz GUAM-ın fəaliyyəti məsələlərinə, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinə böyük diqqət yetirmişik. Ukrayna bu münaqişənin nizama salınması üçün əvvəllər olduğu kimi, yenə də özünün bütün potensial

imkanlarını təqdim edir. Azərbaycan tərəfindən xahiş edirik ki, bunu nəzərə alsın. Biz münaqişə iştirakçıları üçün daha çox münasib olan formada və rolda çıxış edə biləcək tərəf olmağa hazırıq.

Biz milli azlıqların yaşayışı üçün ən zəruri şəraitin təmin edilməsindən danışdıq. Ukraynadakı Azərbaycan icmasının özünü gözəl hiss etməsini eşitmək Ukrayna prezidenti kimi, mənə xoşdur.

Əgər hələ həll etmədiyimiz məsələlər varsa, biz onların həllini ən yüksək səviyyədə təmin etməyə hazırıq. Sizə açığını deyəcəyəm ki, bizim danışıqlarımız asan oldu. Çünki bir tərəfdən, aramızda tarixən, ənənəvi mehriban münasibətlər var. Bu münasibətlər həm şüurlu səviyyədə, həm də təhtəlşüur səviyyəsində nəinki formalaşmışdır, eyni zamanda, hər iki xalqda möhkəmlənmişdir. Digər tərəfdən, zənnimcə, son illərin siyasəti də ölkələrin milli mənafelərinə diqqətcil münasibət göstərildiyini nümayiş etdirmişdir. Ukrayna bu siyasəti bundan sonra da davam etdirməyə hazırdır.

Son illər ticarət münasibətlərimizdə formalaşmış olan dinamika bizi çox sevindirir. Əmtəə dövriyyəsi keçən il 37 faiz, bu il isə, demək olar, 30 faiz artmışdır. Bu onu göstərir ki, GUAM çərçivəsində iki ölkə arasında ticarət münasibətlərinin təşkili mexanizmi səmərəlidir. Azad ticarət zonası özünün növbəti nəticələrini verir. Hər halda, əgər bu münasibətlərdə işçi komissiyaların, prezidentlərin diqqət yetirməli olduğu problemlər varsa, biz danışıqlar masası arxasında əyləşib onları müzakirə etməyə hazırıq. İstər tarif siyasəti məsələləri olsun, istərsə də sığorta və digər sahələrlə bağlı məsələlər olsun, fərqi yoxdur. Başa düşürük ki, bu münasibətləri təkmilləşdirmək lazımdır. Ona görə də nəticədə hər iki tərəf münasibətlərimizin statusunu qaldırmağa, Azərbaycan və Ukrayna Prezidentləri Şurası formasında yeni Konstitusiya mexanizmi yaratmağa razılaşdı. Bu şura çərçivəsində ikitərəfli münasibətlərin ən aktual məsələlərini əhatə edəcək strateji plan hazırlanacaqdır. Bu gün prezi-

dentlər müvafiq tapşırıqlar verdilər. Əminəm ki, münasibətlərimiz nəinki qarşılıqlı fayda verəcək, həm də bunlar olduqca perspektivlidir. Odur ki, İlham Heydər oğlu, danışıqlarımızın, hökumət səviyyəsində iki komandanın danışıqlarının aparıldığı şəraitə görə təşəkkür edirəm.

Sağ olun.

**S u a l: Cənab prezidentlər, Odessa–Brodi boru kəməri üçün əlavə neft göndərilməsi barədə sizdən daha ətraflı şərh eşitmək istərdim. O cümlədən, çox istərdim ki, cənab Əliyevdən qiymətlər barədə şərh eşidim. Xəzər neftinin Ukrayna neftayırma zavodlarında emalı Rusiya neftindən baha başa gəlməsi Ukraynanın neftayırma zavodları üçün rentabelli olaraq qalacaqmı? Cənab Yuşşenkodan eşitmək istərdim, Xəzər neftini emal etməyə razı olan konkret zavodlar, konkret ölkələr barədə planlarınız varmı? Əgər varsa, xahiş edirəm onları açıqlayın.**

**İ l h a m Ə l i y e v:** Neft-qaz sahəsi ilə əməkdaşlıq məsələsi bizim aramızda ilk dəfə müzakirə olunmur. Biz ötən dəfə Kiyevdə də bu barədə ətraflı danışdıq və enerji əməkdaşlığının bütün məsələlərini kompleks şəkildə nəzərdən keçirən işçi qrupu yaradılması haqqında qərar qəbul edildi. İndiki halda söhbət Odessa–Brodi boru kəmərinin layihəsindən, habelə onunla bu və ya digər dərəcədə bağlı olan başqa layihələrdən gedir. Biz Azərbaycandan enerji ehtiyatlarının göndərilməsini çoxşaxəli etməyi ölkəmizə indiyədək böyük üstünlük verən neft strategiyamızın əsas elementlərindən biri kimi nəzərdən keçiririk. İndi Azərbaycandan dünya bazarlarına üç boru kəməri çəkilmişdir. Onların ikisi Rusiya və Gürcüstana, Qara dəniz limanlarına, biri isə Türkiyəyə, Aralıq dənizindəki limana gedir. Beləliklə, Azərbaycandan enerji daşıyıcılarının, məhz neftin göndərilməsinin çoxşaxəliliyi artıq baş vermiş faktdır. Əlbəttə, Azərbaycanda neft hasilatı artdıqca, biz ixrac üçün yeni imkanları da nəzərdən keçiririk.

Deməliyəm ki, planlarımıza uyğun olaraq, Bakı–Ceyhan boru kəməri 2008-ci ilədək neftlə tam doldurulacaqdır. Bu isə 50 milyon ton deməkdir. Azərbaycan 2008-ci ildə məhz bu qədər neft ixrac edəcəkdir. Sonrakı illərdə isə neftin hasilatının da, ixracının da həcmi artacaqdır. Ona görə də alternativ yollar məsələlərinin nəzərdən keçirilməsi bizim üçün çox böyük maraq doğurur və bütün qalan amillər, ilk növbədə, məsələnin kommersiya tərəfi uzlaşdırılmaqla, təbii ki, həmin istiqamətdə işin intensivliyi də müəyyənləşdiriləcəkdir.

Azərbaycan nefti çox keyfiyyətlidir, dünya bazarlarında məşhur Brend markasından daha yüksək qiymətləndirilir, Brend mükafatı ilə satılır və bununla da, Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinin səmərəliliyi artır. Azərbaycan neftinin neftayırma zavodlarında emalı məsələsi də aktual ola bilər, lakin deməliyəm ki, bu gün Qara dəniz və Aralıq dənizi limanlarından nəql olunan Azərbaycan nefti Avropanın neftayırma müəssisələrində çox böyük səmərə ilə uğurla emal edilir. Beləliklə, dünya bazarlarına neftin çox mühüm ixracçısı kimi, ən başlıcası isə, Xəzər neftinin Aralıq dənizi bazarlarına yeni ixracçısı kimi, Azərbaycan tərəfdaşlarımızla, o cümlədən Ukrayna ilə gələcəkdə çox fəal əməkdaşlıq etmək niyyətindədir.

**V i k t o r  Y u ş ş e n k o:** Odessa–Brodi layihəsinin işini bərpa etmək üçün bazarda təxminən 4,5–5 milyon ton neft təklif olunmalıdır. Xəzər regionu bu cür perspektivi bir il-il yarımdan sonra təklif edir. Ona görə də «Ukrnafta» bu parametrin çərçivəsinə daxil ola biləcək ixrac cədvəlinin formalaşdırılması məsələsi ilə əlaqədar Azərbaycan Dövlət Neft Şirkətinə rəsmən müraciət etmişdir. Söhbət 4,5–5 milyon ton neft və boru kəmərini dolduracaq 600 min ton texnoloji neft göndərilməsindən gedir. Qeyd etdiyim kimi, bu, birinci mərhələdir. İndi Odessa–Brodi neft kəməri boyunca yerləşən iki neftayırma zavodu bu qədər nefti emal etməyə qadirdir. Emal imkanlarının cəmləşdirilməsi hazırda

«Ukrnafta» şirkətinin malik olduğu 600 yanacaqdoldurma stansiyasından istifadə edilməsi barədə həm Azərbaycan, həm də Ukrayna tərəfinin qarşılıqlı təklifini nəzərdən keçirməyə imkan verəcəkdir. Bu, Ukraynada ən geniş yanacaqdoldurma stansiyaları şəbəkəsidir. Biz Azərbaycan tərəfinə bu imkanları birgə həyata keçirmək üçün təklif etməyə hazırıq. Bu, layihənin birinci hissəsidir. Bundan sonra biz emal zavodunun tikintisindən, bunun ardınca isə xam neftin müxtəlif qərbi avropalı tərəfdaşların, o cümlədən də polşalı tərəfdaşların mülkiyyəti olan zavodlarda emalı üçün onu «Drujba» boru kəməri ilə Slovakiyaya və Çexiyaya göndərməkdən danışa bilərik. Əlbəttə, biz zavodun tikintisinə başlanmasını və Xəzər neftinin Mərkəzi və Şərqi Avropada potensial surətdə yeni bazara çıxmasını bu layihənin zirvəsi hesab edirik.

**S u a l: Mənim sualım hər iki prezidentədir. İndicə «Birgə Bəyannamə» imzalandı. Bu sənəd iki ölkə arasında siyasi dialoqun genişlənməsinə konkret olaraq necə kömək edə bilər?**

**İ l h a m   Ə l i y e v:** Ölkələrimiz arasında çox fəal, intensiv siyasi dialoq aparılır. Dediyimiz kimi, biz ikitərəfli formatda da, beynəlxalq təşkilatlar çərçivəsində də çox səmərəli əməkdaşlıq edirik və bu çox yaxşı nəticələr verir. Çünki digər sektorların, o cümlədən iqtisadi, nəqliyyat, energetika sektorlarının inkişafı ilə bağlı qalan bütün məsələlər də, prinsipcə, ölkələr arasında siyasi münasibətlərin inkişaf səviyyəsindən asılıdır. Əgər yüksək səviyyədə qarşılıqlı etimad, anlaşma və dəstək varsa, onda, təbii ki, qalan bütün məsələlər daha asan həll edilir. Ukrayna ilə Azərbaycan arasında ənənəvi olaraq tərəfdaşlıq münasibətləri mövcuddur. Ölkələrimiz müstəqillik qazandıqdan bəri biz ikitərəfli formatda da, beynəlxalq təşkilatlar çərçivəsində də həmişə əməkdaşlıq etmişik və bu əməkdaşlıq davam etdirilir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində Ukraynanın mövqeyi, habelə separatizmin hər cür formasının pislənilməsi istiqamətində GUAM

ölkələrinin birgə addımları da, əlbəttə, ikitərəfli əlaqələri tamamlayan mühüm elementdir. Odur ki, bu gün imzalanmış Bəyannamə, əvvəla, ölkələrimiz arasında yüksək siyasi münasibətlərin səviyyəsini əks etdirir, habelə bu münasibətləri möhkəmlətmək və bununla da qalan bütün sahələrdə qarşılıqlı fəaliyyət mexanizmlərindən daha tam istifadə etmək niyyətini müəyyənləşdirir. Bu gün biz danışıqlarda, indi isə mətbuat konfransında bu barədə kifayət qədər ətraflı söhbət açdıq. İqtisadiyyatın və siyasətin müxtəlif sektorlarına aid imzalanmış sənədlər də buna parlaq sübutdur. Başqa sözlə, Bəyannamə siyasi münasibətlərin yüksək səviyyəsini və hər iki tərəfin onları möhkəmlətmək istəyini göstərir.

**Viktor Yuşşenko:** Düşünürəm ki, qarşımızda, əslində, iki hissədən ibarət məsələ durur. Münasibətlərimizin statusu necədir və onların gerçəkləşdirilməsinin mexanizmi necədir? Əgər biz konkret olaraq bugünkü sənəddən, siyasi Bəyannaməmizdən danışırıqsa, onda, bir tərəfdən, Bəyannamə elə prinsiplərə hörmət bəslənildiyini təsbit edir ki, münasibətlərimiz ənənəvi olaraq bu prinsiplər əsasında inkişaf edir. Söhbət yüksək qarşılıqlı siyasi etimad nümayiş etdirilməsindən tutmuş, tərəflərin müxtəlif məsələlərdə – siyasi, iqtisadi və başqa məsələlərdə mövqeyinədək vəziyyətdən gedir. Digər tərəfdən, başlıcası odur ki, Bəyannamə münasibətlərimizin statusunu qaldırmağı təklif edir, yəni bu, Prezidentlər Şurası kimi mexanizmdir. Zənnimcə, biz burada ona görə görüşmürük ki, bu və ya digər layihənin rentabelliyini, səmərəliliyini, zəruriliyini hiss edərək, onun həyata keçirilməsinə illərlə başlamayaq. Çünki haradasa siyasi mərkəz yoxdur, haradasa tətbiqi məsələlərin bu və ya digər hissəsinin tənzimlənməsində həmrəylik yoxdur. Məqsədimiz münasibətlərin statusunu yüksəltmək vasitəsilə bu cür problemləri gündəlikdən çıxarmaqdır, Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin 4-5 ümdə mövzusuna prezidentlər səviyyəsində nəzarət etməkdir. O ki qaldı münasibətlərin dolğunlaşmasına, biz bu gün bu barədə danışdıq.

İkitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı «Yol xəritəmiz» var. Bu gün biz nəinki malik olduğumuz nə varsa, o cümlədən – mən buna əminəm, azad ticarət zonası rejiminin formalaşdırılması haqqında qərar qəbul olunması sayəsində – onun yaxşı dinamizmini, həm də kifayət qədər tez-tez keçirdiyimiz siyasi dialoqu qeyd edirik.

Ümidvaram ki, İlham Heydər oğlu sentyabrın 27-də Ukraynaya gələcək, bizdə Kiyev şəhərinin müxtəlif millətlərdən olan 120 min sakininin həyatına son qoyan Babi Yar faciəsi ilə bağlı müvafiq tədbir keçiriləcəkdir. Bu, əslində bəşəriyyətin qarşılaşdığı ilk Holokost dərsi ola bilər. Biz, inanın, digər ölkələrin rəhbərləri ilə heç də tez-tez müzakirə etmədiyim məsələlərdən, tariximizə aid məsələlərdən danışdıq. Lakin bizim üçün çox vacibdir ki, tariximizi Bakıda da, Tbilisidə də, Moskvada da, Brüsseldə də başa düşsünlər. Məsələn, bu gün biz dedik ki, Azərbaycan parlamenti 32-33-cü illərdə Ukraynada baş vermiş Qolodomor haqqında müvafiq qərar qəbul etsəydi, bu, siyasi cəhətdən çox düzgün olardı. Biz 10 milyon insanın faciəsindən yan keçməməyi təklif edirik. Hesab edirik ki, bu, təkcə Ukrayna xalqının faciəsi deyil, bu faciəni hamı bilməlidir. Əminəm ki, indi biz bu tarixdən ibrət götürsək, yaxın və ya uzaq qonşular olub-olmamağımızdan asılı olmayaraq, daha yaxşı olarıq. Bundan dünya da daha yaxşı olar. Minnətdaram ki, biz bu cür məsələlərdə də anlaşma tapırıq. Mən artıq sahə əməkdaşlığına aid olan məsələlərdən danışmayacağam. Bu gün beş sahə üzrə altı sənəd imzalandı. Bu o deməkdir ki, hər iki tərəf münasibətlərimizi fəallaşdıra biləcək vasitələrin yaxşı ehtiyatına malikdir.

Ümumi bir qeyd: əminəm ki, hökumətlərin rolu, prezidentlərin rolu ondan ibarətdir ki, hər bir ölkənin, hər bir millətin çox böyük potensialı olsun. Bəlkə də bu potensialın həyata keçirilməsi problemi bəzən, yaxud tez-tez ondan ibarət olur ki, dövləti təmsil edən hakimiyyət müvafiq informasiyanı və ya müvafiq imkanları dolğunluğu ilə əlaqədar

tərəflərə çatdırmır. Ona görə də deyirik ki, bizim vəzifəmiz təkcə siyasi dialoqu deyil, həm də işgüzar dialoqu, kommersiya qüvvələri arasında dialoqu formalaşdırmaqdır. Hiss edə bilsinlər ki, onların münasibətlərinin inkişafının arxasında prezidentlərin, hökumətlərin siyasi dəstəyi durur.

Bu cəhət çox vacibdir. Düşünürəm ki, bugünkü səfər, bugünkü danışıqlar, əlbəttə ki, bizim üçün münasibətlərimizin əlamətdar səhifəsini açdı.

Çox sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Yaxt-klub*

*7 sentyabr 2006-cı il*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli Viktor Andreyeviç!
Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamağıma şadam. Bu gün biz çox səmərəli işlədik, çox mühüm danışıqlar apardıq, Ukrayna ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin gələcək inkişafını müəyyən edəcək çoxlu mühüm sənəd imzalandı. Biz Ukrayna prezidentinin ölkəmizə səfərini ikitərəfli münasibətlərin çox mühüm elementi kimi qiymətləndiririk və elə indi demək olar ki, səfər çox uğurlu keçir və səfərin nəticəsində bütün istiqamətlərdə gələcək əməkdaşlıq üçün tamamilə yeni imkanlar yaradılır. Bu gün biz bu barədə təkbətək, nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşlərdə, mətbuat konfransında da danışdıq. İqtisadiyyatın bütün sahələrində, siyasi baxımdan və humanitar sahədə Ukrayna ilə Azərbaycan arasında əməkdaşlıq tamamilə yeni mərhələyə çıxır. Biz tərəfdaşlar, dostlarıq və bu, ikitərəfli əlaqələrimizin səviyyəsi və formatını da öncədən müəyyən edir. Ümidvaram ki, səfərin nəticələrini yaxın gələcəkdə biz hamımız əlaqələrimizin təkmilləşməsi, münasibətlərimizin bütün səviyyələrdə – hökumət üzvləri, parla-

ment, ictimai təşkilatların üzvləri səviyyəsində intensivləşməsi məsələlərində görəcəyik. Münasibətlərin və qəbul edilən qərarlara nəzarəti əlaqələndirməyin özlüyündə nadir bir formatı yaradılmışdır. Bu, Prezidentlər Şurasıdır və o, ikitərəfli münasibətlərlə bağlı bütün məsələləri mütəmadi olaraq nəzərdən keçirəcəkdir.

Bizim aramızda siyasi qarşılıqlı əlaqə ən yüksək səviyyədədir, beynəlxalq təşkilatlar çərçivəsində, iqtisadiyyat, energetika sahəsində çox uğurla əməkdaşlıq edirik, çox gözəl perspektivlərimiz var. Ən başlıcası budur ki, bizim aramızda, ölkələrimiz və xalqlarımız arasında çox yüksək ənənələrə, dostluğa, qarşılıqlı anlaşmaya əsaslanan etimadlı münasibətlər mövcuddur. Ukrayna prezidentinin Azərbaycana bugünkü səfəri bu münasibətləri daha da möhkəmləndirdi, gələcək inkişafın əsas istiqamətlərini öncədən müəyyənləşdirdi və əminəm ki, ikitərəfli əlaqələrin çox mühüm amili olacaqdır.

Dünyanın bizim yaşadığımız hissəsində regional əməkdaşlığın səviyyəsi də Azərbaycan ilə Ukraynanın müxtəlif məsələlərdə əməkdaşlığından xeyli dərəcədə asılı olacaqdır. İndi regional əlaqələrin tamamilə yeni formatı yaranır. Xəzər dənizi, Qara dəniz regionu bir-biri ilə getdikcə daha sıx inteqrasiya edərək Xəzər dənizi və Qara dəniz regionunda tamamilə yeni vəziyyət əmələ gətirir. Nəqliyyat, energetika sahəsində, siyasi və digər münasibətləri nəzərə alaraq bu regiona müəyyən dərəcədə vahid bir tam kimi baxmaq olar. Bu baxımdan regional əməkdaşlıq çərçivəsində Azərbaycanın və Ukraynanın rolu kifayət qədər yüksəkdir və əlaqələrimiz möhkəmləndikcə, nail olduğumuz bütün razılaşmalar həyata keçirildikcə artacaqdır.

Mən bu badəni Ukrayna xalqının, Ukraynanın şərəfinə, Ukrayna və Azərbaycan xalqları arasında dostluğun, sizin ölkənizin tərəqqisi şərəfinə və prezident Viktor Andreyeviç Yuşşenkonun sağlığına qaldırmaq istəyirəm.

## Ukrayna prezidenti Viktor Yuşşenkonun nitqi

Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Zənnimcə, hər hansı layihənin gerçəkləşdirilməsini təmin etmək üçün bir zəruri şərt var – sənin qeyd dəftərçəndə nəzərdə tutulan layihənin həyata keçirilməsini birlikdə təmin etdiyin tərəfin telefon nömrəsi olmalıdır. Bugünkü səfər, Ukraynadan gələn nümayəndə heyəti məncə buna çox gözəl sübutdur ki, Azərbaycanla, onun rəhbərliyi, iqtidarı, xalqı ilə münasibətlərimiz ən yüksək səviyyədədir.

İş elə gətirmişdir ki, bu münasibətlərin illərlə formalaşmış gözəl ənənəsi var. Zənnimcə, o da eyni dərəcədə əhəmiyyətlidir ki, biz bu ənənəni qiymətləndiririk və bu münasibətləri qoruyub saxlamağın, onlara daha yaxşı cəhətlər əlavə etməyin, növbəti nəslə ötürməyin nə dərəcədə vacib olduğunu başa düşürük. Mən sizin rəhbərliklə aramızda yaranmış etimadın səviyyəsini çox yüksək qiymətləndirirəm.

Bu gün biz tətbiqi layihələrə, həyata keçirmək üçün kifayət qədər aşkar olan layihələrə çox vaxt ayırdıq. Layihələrin gerçəkləşdirilməsi üçün hakimiyyət mexanizmlərindən, dövlət qurumlarından nə dərəcədə səmərəli və tez istifadə etməyə nail olmağımız məsələsində bəlkə də risk var. Məmur bir tərəfdən, fiziki baxımdan böyük işlərə qadirdir, digər tərəfdən isə haqqında danışdığımız layihələrin təşkilində ciddi maneə də ola bilər. Düşünürəm ki, biz bu münasibətlərin siyasi müstəvidən, hökumətlər arasındakı münasibətlər müstəvisindən işgüzar qurumların – digər əsaslar olan, digər stimulların işlədiyi, öz oyun qaydaları olan qurumların səviyyəsinə mümkün qədər tezliklə keçirmək üçün öz üzərimizdə məsuliyyət hiss etməliyik. Bu gün müzakirə etdiklərimizin üçdə iki hissəsi bazar layihələrinə praktiki olaraq açıq, rəqabətli layihələrə aiddir. Bu layihələrin həyata keçirilməsini təmin etməyin ən yaxşı yolu hökumətin onları müm-

kün qədər tezliklə vicdanlı işgüzar strukturlara verməsindən ibarətdir.

Onu da vurğulamaq istərdim ki, biz Azərbaycanda Ukrayna xalqına olan münasibəti çox yüksək qiymətləndiririk. Cənab Prezident, Azərbaycandakı Ukrayna diasporunun həyatı üçün belə normal şərait təmin edildiyinə görə Sizə, komandanıza, hökumətinizə çox minnətdaram. Demək istərdim ki, Siz Ukraynada yaşayan Azərbaycan diasporu barəsində Ukrayna tərəfindən eyni cavabı həmişə eşidəcəksiniz. Ümumiyyətlə, bizim məqsədimiz Ukraynadakı hər hansı icmanın, o cümlədən də Azərbaycan icmasının həyatı üçün elə dinclik və rahatlıq yaratmaqdır ki, hansı torpaqda doğulmasından asılı olmayaraq, hər bir insan ayağa qalxıb böyük iftixar hissi ilə deyə bilsin: mən ukraynalıyam, çünki Ukraynada yaşayıram və Ukrayna dövləti mənə insan ləyaqətinə layiq olan firavanlığı verir. Ona görə də təhsillə, dilin inkişafı, məktəbəqədər tərbiyə, kütləvi informasiya vasitələri, mədəni xarakterli tədbirlərlə bağlı layihələr və ya digər təşəbbüslər ən yüksək səviyyədə dəstəklənəcəkdir.

Mən bu badəni iki böyük, iki maraqlı xalqın, nadir perspektivə malik xalqların şərəfinə qaldırmaq istərdim. Bu gün son on beş ilin bizi necə dəyişdirdiyindən danışdıq. Belə başa düşürəm ki, bəlkə də insan meyarı baxımından milyonlarla adamın fəlakətləri, bəlkə də minlərlə adamın faciələri olmuşdur, bəlkə də bugünkü günün üstünlüklərindən heç də hamı bəhrələnməmişdir. Amma gəlin yada salaq ki, bu on beş ildə iki dövlət – Azərbaycan və Ukrayna dövlətləri yaradılmışdır. Bu ideya milyonlarla əcdadımızın düşüncəsinin bəhrəsi idi. Lakin onda ulduzlara görə də, vəziyyətə görə də müstəqil, suveren dövlətdən danışmaq üçün belə imkan yox idi. Bu gün biz hamımız nadir bir zamanədə yaşayırıq. İstərdim ki, biz mövcud problemlərdən – baxmayaraq ki, sanki onlar mühümdür, onlarla həm məişət səviyyəsində, həm də siyasi səviyyədə hər gün qarşılaşırsan – heç olmasa bir anlığa uzaqlaşaq və bizi suveren dövlət-

lərimizin yaranmasına gətirib çıxaran zəmanəni hər halda, layiqincə qiymətləndirək.

Mən Azərbaycan və Ukrayna xalqlarının şərəfinə, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlunun və onun xanımının sağlığına, burada olanların hamısının sağlığına badə qaldırıram.

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA SƏFƏRİ DAVAM EDİR

*8 sentyabr 2006-cı il*

*Ukrayna prezidenti Viktor Yuşşenko sentyabrın 8-də Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Burada Ukrayna dövləti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Ali qonağı və nümayəndə heyətini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev və digər rəsmi şəxslər qarşıladılar.*

*Ukrayna prezidenti «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu, şəhidlərin əziz xatirəsini ehtiramla yad etdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Ukraynanın və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Şəhidlər xiyabanının tarixi, 20 Yanvar faciəsi, paytaxtda aparılan tikinti və abadlıq işləri barədə məlumat verdi.*

*Sonra Ukrayna prezidenti Viktor Yuşşenko Bakı şəhərinin mənzərəsini seyr etdi.*

* * *

*Ukrayna prezidenti Viktor Yuşşenko sentyabrın 8-də Fəxri xiyabana gəlmişdir.*

*Ukrayna rəhbəri xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək əklil qoydu, türk dünyasının görkəmli oğlunun ruhu qarşısında baş əydi.*

*Sonra ali qonaq tanınmış oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə gül dəstəsi qoydu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verdi.*

* * *

*Ukrayna prezidenti Viktor Yuşşenko sentyabrın 8-də Səngəçal terminalına gəlmişdir.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və terminalın Baş direktoru Alan Maqines Ukrayna rəhbərini burada hörmətlə qarşıladılar.*

*Prezident Yuşşenko və Ukrayna nümayəndə heyətinin üzvləri Xəzər Enerji Mərkəzində «Əsrin müqaviləsi» üzrə həyata keçirilən layihələrə, indiyədək görülmüş işlərə həsr edilmiş fotosərgiyə və sənədli filmə baxdılar.*

*Prezident Viktor Yuşşenko və onu müşayiət edən nümayəndə heyətinin üzvləri terminalda texnoloji proseslərlə əyani tanış oldular. Mütəxəssislər qonaqların çoxsaylı suallarına cavab verdilər.*

*Dünyanın ən nəhəng terminallarından biri ilə tanışlıq Ukrayna prezidentində xoş təəssürat yaratdı.*

* * *

*Sentyabrın 8-də Bakı Slavyan Universitetində Ukrayna prezidenti Viktor Yuşşenkoya BSU-nun fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilmişdir.*

*Ukrayna prezidentini universitetdə səmimiyyətlə qarşıladılar. Tələbələr ali qonağa gül-çiçək təqdim etdilər.*

*Ukrayna dövlətinin başçısı və nümayəndə heyətinin üzvləri BSU-da 2001-ci ildə açılmış Ukrayna Mədəni-Maarif Mərkəzinin fəaliyyəti ilə tanış oldular. Ali məktəbdə ukraynaşünaslıq ixtisası üzrə təhsil alan tələbələr Viktor Yuşşenkonu Ukrayna dilində səmimiyyətlə salamladılar. Prezident Yuşşenko elə*

*burada Azərbaycandakı Ukrayna diasporunun nümayəndələri ilə görüşdü.*

*Sonra universitetin akt salonunda təntənəli mərasim keçirildi. Tələbə xorunun ifasında Ukrayna və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Mərasimi universitetin rektoru professor Kamal Abdullayev açdı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKO HEYDƏR ƏLİYEV FONDUNDA

*8 sentyabr 2006-cı il*

*Ukrayna prezidenti Viktor Yuşşenko sentyabrın 8-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ukraynanın dövlət başçısını böyük səmimiyyətlə qarşıladılar. Qonaqlar əvvəlcə kinozalda Fondun fəaliyyətinə, həyata keçirdiyi layihələrə həsr edilmiş sənədli filmə baxdılar.*

*Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Ukrayna prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədləri prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, ölkəmizin qonaqlarında əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev Ukrayna rəhbərinə ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.*

*Ukrayna prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan*

*tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə böyük maraqla baxdı.*

*Ulu öndər Heydər Əliyevin 1997-ci ildə Ukraynaya səfəri zamanı o vaxt Ukrayna Milli Bankının rəhbəri olan V. Yuşşenko ilə çəkdirdiyi şəkil Ukrayna prezidentində xüsusi ovqat yaratdı. O, həmin görüşü həmişə xoş təəssüratla xatırladığını bildirdi. Azərbaycan və Ukrayna prezidentləri həmin fotonun önündə xatirə şəkli çəkdirdilər.*

*Ukrayna prezidenti Fondun Xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə dərin hörmətini bildirdi, Azərbaycan dövlətinin tərəqqisi naminə dəyərli fəaliyyətində Fonda yeni uğurlar arzuladı.*

*Ukrayna prezidentinə xatirə hədiyyələri təqdim edildi.*

*Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.*

* * *

*Sentyabrın 8-də Ukrayna prezidenti Viktor Yuşşenkonun Azərbaycana səfəri başa çatdı.*

## BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN TURİZM NAZİRLƏRİNİN V KONFRANSINDA* NİTQ

*Gülüstan sarayı*

*11 sentyabr 2006-cı il*

*«Gülüstan» sarayında İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin V Konfransının açılışı oldu.*

*Konfrans iştirakçıları Azərbaycan prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Əvvəlcə Azərbaycanın turizm imkanlarını, təbiətini, zəngin mədəniyyətini əks etdirən reklam xarakterli film göstərildi.*

*İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin IV Konfransının sədri, Seneqalın Turizm və Hava Nəqliyyatı naziri Usman Massek Ndiay V Konfransı açıq elan etdi.*

*Müqəddəs Qurani-Kərimdən ayələr oxundu.*

*Azərbaycan prezidenti İlham Əliyev konfransda nitq söylədi.*

**İlham Əliyev:** Hörmətli qonaqlar!

Hörmətli nazirlər!

Xanımlar və cənablar!

---

* Konfransda Seneqalın Turizm və Hava Nəqliyyatı naziri Usman Massek Ndiay, İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu, Ümumdünya Turizm Təşkilatının Baş katibi Françesko Franjialli və Azərbaycan Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev çıxış etdilər.

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

İslam Konfransı Təşkilatının xətti ilə Azərbaycanda keçirilən çoxsaylı tədbirlər İslam Konfransı Təşkilatı ilə Azərbaycan arasında olan çox fəal əlaqələri daha da möhkəmləndirir. Biz çalışırıq ki, təşkilat çərçivəsində bütün tədbirlərdə çox fəal iştirak edək və bəzi tədbirlərin və görüşlərin təşəbbüskarıyıq. Bu, Bakıda İslam Konfransı Təşkilatının çərçivəsində keçirilən ikinci tədbirdir. Birinci tədbir xarici işlər nazirlərinin görüşü idi və o görüş zamanı çox faydalı və əhəmiyyətli qərarlar qəbul edilmişdir. Bu gün isə biz Azərbaycanda turizm nazirlərinin konfransını keçiririk.

Bugünkü hadisə özlüyündə göstərir ki, Azərbaycan təşkilatın işində çox fəal iştirak edir və çalışır ki, onun möhkəmlənməsinə öz töhfəsini versin. İslam Konfransı Təşkilatı islam dünyasını birləşdirən təşkilatdır. Təşkilatın nüfuzu, dünyadakı rolu ildən-ilə artmaqdadır və bu bizi çox sevindirir. Çünki müsəlman ölkələrinin həmrəyliyi, birliyi indiki zamanədə daha böyük əhəmiyyət kəsb edir. Bizi birləşdirən tarixi əlaqələr, mədəni tellər, siyasi maraqlar, əlbəttə ki, çox önəmlidir. Bizim mövcud çağırışlara birgə cavablarımız, dünyanı əhatə edən böhranlara münasibətlərimiz, qaynar nöqtələrdə baş verən hadisələrə münasibətimiz, əlbəttə ki, dünyada gedən proseslərə çox əhəmiyyətli dərəcədə təsir göstərir. Təşkilatımız – İslam Konfransı Təşkilatı gücləndikcə, əlbəttə ki, bizim mövqelərimiz güclənəcək, bölgəyə və dünyaya baxışlarımız daha da bərabər şəkildə formalaşacaq və eyni zamanda, bölgədə və dünyada gedən proseslərə təsirimiz daha da möhkəmlənəcəkdir. Biz bunu arzulayırıq, bunu istəyirik və İKT-nin tədbirlərinin Azərbaycanda keçirilməsi də bu məqsədi daşıyır.

Eyni zamanda, islam dünyasının turizm nazirlərinin Azərbaycana gəlməsi Azərbaycanın bir növ təqdimatı deməkdir. Çünki Azərbaycan gənc müstəqil dövlətdir. Biz müstəqil dövlət kimi cəmi 15 ildir yaşayırıq və hələ ki, özü-

müzü tanıtmağımıza böyük ehtiyac var. Mən bilirəm ki, nazirlərin böyük əksəriyyəti Azərbaycana ilk dəfədir səfər edirlər və hesab edirəm ki, ölkəmizlə tanışlıq gələcək əlaqələrin möhkəmlənməsinə gözəl şərait yaradacaqdır. Biz İslam Konfransı Təşkilatına üzv olan bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlığın dərinləşməsini istəyirik, buna çalışırıq. Əlbəttə ki, belə tədbirlərin ölkəmizdə keçirilməsi bu məqsədlərə xidmət edir.

Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkədir. Azərbaycanda gedən proseslər, bölgədə gedən proseslər ölkəmizin mövqelərini möhkəmləndirir. İqtisadi artım baxımından ölkəmiz bu gün dünyada birinci ölkədir. Keçən il Azərbaycanda iqtisadi artım 26 faiz təşkil etmişdir, bu ilin 6 ayında isə 36 faizdir. Bu bizə imkan verir ki, maddi imkanlarımız möhkəmlənsin, ölkənin qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirək. Biz iqtisadiyyatın bütün sahələrini inkişaf etdirmək əzmindəyik və şübhəsiz ki, turizm sahəsinə də böyük diqqət göstərilir. Bir sözlə, Azərbaycanın ildən-ilə artan iqtisadi imkanları ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün çox gözəl zəmin yaradır.

Bununla bərabər, bölgədə və Azərbaycanda ən böyük təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, əfsuslar olsun ki, uzun illərdir öz həllini tapa bilmir. Ermənistanın Azərbaycana hərbi təcavüzü və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti ona gətirib çıxarıb ki, ölkəmizin, ərazimizin 20 faizi işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağından didərgin düşübdür.

Bu həm böyük humanitar fəlakətdir, həm böyük ədalətsizlikdir və Ermənistan tərəfindən bütün beynəlxalq normaları pozmaq deməkdir. Bu münaqişəyə dair müxtəlif beynəlxalq təşkilatlar öz qərarlarını vermişdir. Birləşmiş Millətlər Təşkilatı dörd qətnamə qəbul etmişdir və bu qətnamələrdə

Ermənistanın işğalçı qüvvələrinin zəbt olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulmuşdur. Buna baxmayaraq Ermənistan tərəfi qətnamələrə məhəl qoymur. Avropa Şurası keçən ilin əvvəlində buna bənzər qətnamə qəbul etmişdir və o qətnamədə Ermənistan işğalçı dövlət kimi tanınmışdır. İslam Konfransı Təşkilatı həmişə olduğu kimi, Azərbaycanın haqq işinə öz dəstəyini əsirgəmir və təşkilatın çoxsaylı qərarları, qətnamələri açıq-aşkar şəkildə Ermənistanın təcavüzkar siyasətinə son qoyulmasını tələb edir.

Amma bütün bunlara baxmayaraq münaqişə öz həllini tapmır. Azərbaycan həm etnik təmizləmə siyasətinə düçar olmuşdur, eyni zamanda, Azərbaycanda çoxsaylı terror aktları törədilmişdir. Bu terror aktları nəticəsində 2 mindən artıq soydaşımız həlak olmuşdur.

Bu gün sentyabrın 11-dir və hamımız yaxşı xatırlayırıq ki, beş il bundan əvvəl Amerika Birləşmiş Ştatlarında dəhşətli terror aktı baş vermişdir. Günahsız insanlar həlak olmuşlar, biz onların xatirəsini bu gün bir daha yad edirik. İslam dünyası o dəhşətli terror aktını pisləmişdir və bu gün bizim birgə səylərimiz o cümlədən dünyada terrorizmə qarşı aparılan mübarizəyə xidmət göstərir. Terrorizmlə mübarizə aparmaq üçün bütün ölkələrin səyləri birləşməlidir. Təkbaşına bu bəla ilə mübarizə aparmaq mümkün deyildir. Azərbaycan bu işə töhfəsini verməyə hazırdır və verir. İslam Konfransı Təşkilatı çərçivəsində çoxsaylı görüşlərdə həmişə bir məsələ də vurğulanıb ki, bəzi qüvvələr islamı terrorla eyniləşdirmək istəyirlər. Buna qətiyyən yol vermək olmaz. İslamı terrorla eyniləşdirmək istəyən qüvvələr sadəcə olaraq, ya bilməyərəkdən, yaxud da ki, qəsdən bizim dinimizə təcavüz etmiş olurlar. İslam dözümlülük dinidir, sülh dinidir, tolerantlıq dinidir. Biz bütün başqa dinlərin nümayəndələri ilə sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyirik və buna nail olacağıq.

Beləliklə, təşkilat çərçivəsində həm iqtisadi, həm siyasi, həm də mədəni xarakter daşıyan çoxsaylı məsələlər var, çağırışlar var. Mən əminəm ki, bizim görüşlərimiz nə qədər çox olsa, biz daha da böyük uğurlara nail olacağıq. İqtisadi sahədə İKT-yə üzv olan ölkələr arasında əməkdaşlıq daha da sürətlə aparılmalıdır. Bizim siyasi sahədə çox gözəl əməkdaşlığımız var, bizi birləşdirən mədəni əlaqələr buna çox gözəl xidmət göstərir. Eyni zamanda, iqtisadi sahədə daha da böyük əməkdaşlığa ehtiyac var. Bizim ölkələrimiz çox böyük potensiala malikdir və hesab edirəm ki, qarşılıqlı ticarətin təşviqi və dəstəklənməsi hər bir ölkənin iqtisadi siyasətində öz yerini tapmalıdır.

Bugünkü konfrans isə turizm sahəsində əməkdaşlığa həsr olunur və bu gün burada nümayiş etdirilən qısa film Azərbaycanın turizm imkanlarını təqdim etmişdir. Ölkəmizin çox gözəl təbii şəraiti var, doqquz iqlim qurşağı var, 800 kilometrdən çox dənizsahili zonası var. Yəni Azərbaycanda turizmin inkişafı üçün hər cür şərait var. Biz indi bu sahəyə çox böyük diqqət göstəririk. Turizm infrastrukturunun möhkəmlənməsinə çox böyük vəsait qoyulacaqdır. Bununla bərabər, ölkənin bütünlüklə infrastrukturu yeniləşir. Çünki turizmi inkişaf etdirmək üçün mütləq infrastrukturun – yolların, aeroportların və digər obyektlərin yaradılması zəruridir.

Deyə bilərəm ki, indi Azərbaycanda – ölkənin qərbində, cənubunda və şimalında üç yeni beynəlxalq aeroport tikilir, baxmayaraq ki, ölkənin ərazisi o qədər də böyük deyildir. Üç yeni, beynəlxalq standartlara cavab verən aeroportun tikintisi o cümlədən turizmin inkişafına xidmət göstərəcəkdir. Avtomobil yolları Azərbaycanda sürətlə inşa edilir. O cümlədən kənd yolları, magistral yollar. Azərbaycanın ən ucqar kəndlərinə yeni yollar çəkilir ki, həm insanlar daha da rahat gedib-gələ bilsinlər, eyni zamanda, turistlər üçün əlverişli şərait yaradılsın. Həm Bakı şəhərində, həm də

Azərbaycanın müxtəlif bölgələrində yeni müasir hotellərin tikintisi nəzərdə tutulur.

Bir sözlə, dövlət öz tərəfindən əlindən gələni etməyə çalışır ki, turizmin inkişafı üçün bütün infrastruktur layihələr tezliklə həyata keçirilsin. Eyni zamanda, əlbəttə ki, özəl bölmə də bu gözəl imkanlardan istifadə edib yeni, müasir turizm obyektləri yaratmalıdır.

Bu gün bu fürsətdən istifadə edib təşkilata üzv olan ölkələrin şirkətlərinə və dövlət orqanlarına da müraciət etmək istəyirəm ki, Azərbaycanın turizm imkanlarından siz də bəhrələnin. Çünki bu sahə Azərbaycanda çox sürətlə inkişaf edəcək, bütövlükdə ölkəmizə çox böyük həcmdə xarici sərmayə qoyuluşu nəzərdə tutulubdur. İstərdik ki, bizim dost, qardaş ölkələrin nümayəndələri turizm sahəsində də iştirak etsinlər. Turizm həm mədəniyyət deməkdir, həm də, əlbəttə ki, iqtisadiyyatın böyük sektoru deməkdir, eyni zamanda, ölkələrimizi birləşdirən amildir. Çünki insanların müxtəlif ölkələrə gəlişi, ölkələrin vəziyyəti, tarixi abidələrlə tanış olması, əlbəttə ki, ölkələri bir-birinə daha da yaxın edir. Əlbəttə, siyasi əlaqələr çox mühümdür və bunlar var. Mən iqtisadi əlaqələrdən söhbət açdım və hesab edirəm ki, iqtisadi əlaqələr təşkilata üzv olan ölkələri daha da sıx birləşdirəcəkdir. Bununla bərabər, turizm imkanlarından istifadə edilməsi də insanları bir-birinə daha da yaxın edəcəkdir. Buna da böyük ehtiyac var.

Bir daha demək istəyirəm ki, bizim çox zəngin birgə tariximiz var, bizi birləşdirən islam dini var, bizim mədəniyyətimiz var. İnsanlarımız bir-biri ilə nə qədər çox təmasda olsalar, bizim üçün bir o qədər də yaxşı olacaq, islam dünyası bir o qədər möhkəmlənəcək, İslam Konfransı Təşkilatı daha da böyük nailiyyətlərə malik olacaq və bütövlükdə, dünya daha da dolğun şəkildə inkişaf edəcəkdir.

İslam dünyası çox böyük qüvvədir. Bu qüvvədən biz səmərəli istifadə etməliyik. Bölgədə və dünyada sülhün, təhlükəsizliyin, əmin-amanlığın bərqərar olunmasında islam

dünyasının çox böyük rolu var və bu rol getdikcə artmaqdadır. Biz hamımız, hər birimiz çalışmalıyıq ki, islam ölkələrini birləşdirən əlaqələr daha da möhkəm olsun və mövqelərimiz daha da möhkəmlənsin. Bütün bu məsələləri nəzərə alaraq, bir daha demək istəyirəm ki, Azərbaycanda İslam Konfransı Təşkilatı ölkələrinin turizm nazirlərinin konfransının keçirilməsi bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Mən bir daha bütün qonaqları ürəkdən salamlayıram, Azərbaycana gəldiyiniz üçün sizə öz minnətdarlığımı bildirirəm və konfransın işinə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra İKT-yə üzv olan ölkələrin turizm nazirlərinin IV Konfransının sədri, Seneqalın Turizm və Hava Nəqliyyatı naziri Usman Massek Ndiay çıxış etdi. O, konfransda iştirakına və dərin məzmunlu nitqinə görə prezident İlham Əliyevə dərin minnətdarlıq edərək dedi ki, cənab Prezident, Sizin dünyada turizmin roluna verdiyiniz qiyməti, eyni zamanda, ölkənizdə bu sahənin inkişafına göstərdiyiniz qayğını bilirik və buna görə təşəkkür edirik. Biz tam aydınlığı ilə gördük ki, Azərbaycan xalqı və Sizin hökumətiniz İKT-nin bütün çağırışlarına qoşulurlar. Sizi əmin etmək istəyirəm ki, söylədiyiniz bütün fikirlər bizim tərəfimizdən qəbul olunur.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev konfrans iştirakçıları ilə birlikdə «Gülüstan» sarayının foyesində Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi «Azərbaycan – 2006 turizm aləmi» fotomüsabiqəsində nümayiş etdirilən əsərlərdən ibarət sərgi ilə tanış oldu.*

*Dövlətimizin başçısı konfrans iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

* * *

*Sentyabrın 11-də Bakı Əyləncə Mərkəzində Azərbaycan prezidenti İlham Əliyevin adından İKT ölkələri turizm nazirlərinin şərəfinə ziyafət verildi.*

*Dövlətimizin başçısı ziyafətdə iştirak etmişdir.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ALİ TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ SULTAN BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığının Ali Turizm Təşkilatının Baş katibi Sultan bin Salman bin Əbdüləziz Al Səudu qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev qonağın bu səfərini, İKT-nin Bakıda keçirilən tədbirlərdə iştirak etməsini Azərbaycan haqqında daha geniş və dolğun məlumat alması üçün gözəl fürsət kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini və keçirdiyi görüşləri məmnunluqla xatırlatdı.*

*Sultan bin Salman bin Əbdüləziz Al Səud Bakıda yüksək səviyyədə təşkil edilən konfransın əhəmiyyətini vurğuladı. Görüşdə Azərbaycanda turizm infrastrukturunun sürətlə inkişaf etdiyi, bu sahənin əməkdaşlıq üçün yeni imkanlar açdığı bildirildi.*

## TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ ATİLLA KOÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Türkiyənin Mədəniyyət və Turizm naziri Atilla Koçu qəbul etmişdir.*

*Nazir Atilla Koç bir neçə il bundan əvvəl Bakıya gəldiyini xatırlatdı, ötən son illər ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu bildirdi. O, İKT ölkələri turizm nazirlərinin V Konfransının Azərbaycanda yüksək səviyyədə təşkil edildiyini və bu mötəbər tədbirin əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı İlham Əliyev respublikamızda gedən inkişaf proseslərindən danışdı.*

*Görüşdə ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ TURİZM NAZİRİ XANIM NİLUFƏR BƏXTİYAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Pakistan İslam Respublikasının Turizm naziri xanım Nilufər Bəxtiyarı qəbul etmişdir.*

*Qonaq Azərbaycana ilk dəfə səfər etdiyini və bundan çox böyük məmnunluq hissi keçirdiyini söylədi. Nazir prezident İlham Əliyevin Pakistana rəsmi səfərini xatırlatdı, onun çox uğurla keçdiyini vurğuladı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini söylədi və əminliyini bildirdi ki, Azərbaycanın və Pakistanın turizmlə məşğul olan qurumları arasında da bu əlaqələr daim genişlənəcəkdir.*

## ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ (ÜTT) BAŞ KATİBİ FRANÇESKO FRANJİALLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Ümumdünya Turizm Təşkilatının (ÜTT) Baş katibi Françesko Franjiallini qəbul etdi.*

*ÜTT-nin Baş katibi Françesko Franjialli vaxtilə Azərbaycanda olduğunu, xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevlə görüşünü məmnunluqla xatırlatdı. O, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin V Konfransının Azərbaycanda keçirilməsinin böyük əhəmiyyət daşıdığını bildirdi.*

*Prezident İlham Əliyev ÜTT-nin Baş katibinin ölkəmizə səfərinin turizmin inkişafı ilə əlaqədar Azərbaycanda görülən işlərlə yaxından tanış olması üçün yaxşı imkan yaratdığını söylədi.*

*Dövlətimizin başçısı İKT ölkələri turizm nazirlərinin V Konfransının önəmini xüsusi vurğuladı, Ümumdünya Turizm Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

## İSLAM KONFRANSI TƏŞKİLATININ (İTK) BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında İslam Konfransı Təşkilatının (İKT) Baş katibi Ekmələddin İhsanoğlunu qəbul etdi.*

*Ekmələddin İhsanoğlu Azərbaycanın İslam Konfransı Təşkilatında çox fəal iştirak etdiyini, ölkəmizdə bu nüfuzlu təşkilatın böyük tədbirlərinin keçirilməsini Azərbaycanın beynəlxalq aləmdə artan və möhkəmlənən mövqeyi ilə əlaqələndirdi.*

*Prezident İlham Əliyev bu yaxınlarda İstanbulda İKT-nin Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun daimi qərargahının açılışı mərasimində iştirakını xatırlatdı, bu təşkilat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini bildirdi.*

## ABŞERON RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Abşeron rayonu, Xırdalan qəsəbəsi*

*12 sentyabr 2006-cı il*

Əziz bacılar və qardaşlar! Əziz abşeronlular!

Bu gün çox gözəl və əlamətdar bir gündür. Bu gün Abşeron rayonunda ulu öndər Heydər Əliyevin abidəsi açılır. Ulu öndər Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə və sədaqətlə xidmət etmişdir. 70-ci illərdə, Azərbaycan Sovet İttifaqının tərkibində yaşadığı dövrdə respublikamızın sosial-iqtisadi inkişafı üçün böyük işlər görülmüşdür, böyük sənaye potensialı yaradılmışdır ki, bu da indi Azərbaycanın hərtərəfli inkişafı üçün böyük əhəmiyyət kəsb edir. O illərdə, demək olar ki, respublikamızın hər bir yerində abadlıq, quruculuq işləri aparılmış və Azərbaycan qabaqcıl yerlərə çıxmışdı.

Ondan sonrakı dövr Azərbaycan üçün çox ağır olmuşdur. Bildiyiniz kimi, Sovet İttifaqı dağılandan sonra ölkədə gedən mənfi proseslər faktiki olaraq Azərbaycanı uçurumun kənarına gətirib çıxarmışdı. Ölkədə yaşanan həm siyasi, həm də iqtisadi böhran Azərbaycana çox böyük problemlər yaratmışdı. Faktiki olaraq Azərbaycanın dövlət müstəqilliyi böyük şübhə altında idi. Azərbaycan xalqının çağırışı ilə 1993-cü ildə rəhbərliyə qayıdan və prezident vəzifəsinə seçilmiş Heydər Əliyev ölkəmizi və xalqımızı bu böyük bəlalardan qurtardı. Azərbaycan o gündən bu günə qədər çox sürətlə, dinamik şəkildə inkişaf edir. Əgər 1991-ci ildə ən ağır vəziyyətdə olan ölkə Azərbaycan idisə, bu gün Azərbaycan

dünyada ən sürətlə inkişaf edən ölkədir. Artıq bütün dünya ictimaiyyəti bunu bilir ki, iqtisadi artım sürətinə görə ölkəmiz dünyada birinci yerdədir. Bütün bunları etmək üçün, əlbəttə ki, böyük bilik, savad, bacarıq, cəsarət, müdriklik lazım idi. Bu gün bu siyasət davam etdirilir. Azərbaycanın hər bir yerində böyük quruculuq işləri aparılır. Biz bunu Abşeron rayonunun simasında da əyani şəkildə görürük.

Qısa müddət ərzində rayonun siması dəyişdi, yeni yollar, parklar salınır, abadlıq işləri aparılır. Bu işlər, demək olar ki, respublikamızın, ölkəmizin hər bir yerində görülür. Mən çox istəyirəm ki, bu proseslər daha da sürətlə getsin, insanlar daha da yaxşı yaşasınlar, iqtisadiyyatımız daha da uğurla inkişaf etsin.

İqtisadi inkişafın təməli də məhz ulu öndərin Azərbaycana rəhbərliyə qayıdışından sonra qoyuldu. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Heydər Əliyevin neft strategiyası icra olunmağa başlamışdır və bu gün uğurla davam etdirilir. Dünya üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq fəaliyyətdədir və təsadüfi deyil ki, Heydər Əliyevin adını daşıyır. Çünki o bu kəmərin çəkilməsinin təşəbbüskarı olmuşdur. Biz ağır, çətin vəziyyətə, bütün çətinliklərə, maneələrə baxmayaraq, kəmərin tikintisinə nail ola bilmişik. Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycanın uzunmüddətli inkişaf yolunu təmin edəcəkdir.

Bu gün həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən Azərbaycan qabaqcıl ölkələrin sırasındadır. Siyasi sabitlik tam şəkildə bərqərar olunmuşdur. Dünya praktikası onu göstərir ki, əgər sabitlik yoxdursa, heç bir inkişafdan söhbət gedə bilməz. Bunu uzaq-yaxın tarix əyani şəkildə göstərir. Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir. Ölkəmiz çox uğurla inkişaf edir, beynəlxalq mövqelərini möhkəmləndirir. Azərbaycanda mötəbər beynəlxalq təşkilatların tədbirlərinin keçirilməsi artıq ənənəvi xarakter almışdır.

Dünən Bakıda İslam Konfransı Təşkilatına üzv olan ölkələrin turizm nazirlərinin konfransı keçirilmişdir. Ondan əvvəl beynəlxalq təşkilatların çərçivəsində zirvə görüşləri keçirilmişdir. Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirir. Bunun əsasında düşünülmüş siyasət və əlbəttə ki, iqtisadi imkanlar dayanır. İqtisadi imkan olmasa, heç bir işi görmək mümkün deyildir. Bizim iqtisadi islahatlarımız uğurla icra edilir. Büdcəmiz ildən-ilə artır. Son üç il ərzində büdcə xərcləri bir neçə dəfə artıbdır. Bir neçə aydan sonra yeni büdcə qəbul olunacaq və əminəm ki, biz yenə də artımı görəcəyik. Artım isə, öz növbəsində, insanların gündəlik həyatında öz əksini tapır. Maaşlar, pensiyalar qaldırılır. Onu da deyə bilərəm ki, bu yaxınlarda yenə də minimum əməkhaqqının və pensiyanın qaldırılması üçün əməli tədbirlər görüləcəkdir.

Görün indi ölkəmizin nə qədər ehtiyacı var. Haraya baxsaq, inkişafı görəcəyik. Yeni işlər görülür, yollar çəkilir, elektrik stansiyaları tikilir, su, qaz xətləri çəkilir, parklar abadlaşır, binalar, zavodlar, fabriklər, məktəblər tikilir.

Mən bu gün yeni, böyük məktəbin təməl daşını qoyacağam. Azərbaycanda məktəb tikintisi çox geniş vüsət alıb, son illər ərzində bir yox, iki yox, yüzlərlə məktəb tikilibdir. Biz bunu gələn illərdə də edəcəyik. Xəstəxanalar tikilir. Yəni insanların gündəlik tələbatını ödəmək üçün bütün işlər görülür. Hər sahədə düşünülmüş konsepsiya var, taktika və proqram var. Bütün işləri proqram çərçivəsində aparırıq. O cümlədən regionların sosial-iqtisadi inkişafı proqramı da artıq iki il yarımdır icra olunur və bunun nəticəsində təqribən 450 min yeni iş yeri açılıbdır. Bu proses davam edir. Çünki hələ ki, Azərbaycanda işsizlərin sayı kifayət qədərdir. Yoxsulluq şəraitində yaşayan insanlar da kifayət qədərdir. Baxmayaraq ki, yoxsulluq şəraitində yaşayanların sayı bir il ərzində 20 faiz aşağı düşübdür. Bizim məqsədimiz Azərbaycanda yoxsulluğu, işsizliyi tamamilə aradan qaldırmaqdır və buna nail olacağıq. Bunu deməyə gördüyümüz işlər əsas

verir. Bunu deməyə Azərbaycanın ildən-ilə artan iqtisadi potensialı və bizim proqramlarımız əsas verir. Çünki bir daha demək istəyirəm ki, hər bir sahədə bizim proqramlarımız var.

Yerlərdə fəaliyyət göstərən məmurlardan çox şey asılıdır. Çünki birincisi, düzgün qərarlar qəbul edilir və onlar yerlərdə icra olunmalıdır. İkincisi, yerli icra orqanları da təşəbbüs göstərməlidirlər. Bu da olmalıdır və Abşeron rayonunun simasında biz bunu görürük. Mən həmişə həm müsbət, həm də mənfi cəhətləri birmənalı şəkildə bəyan edirəm. Görəndə ki, işlər yaxşı gedir, əlbəttə, mənim ürəyim sevinir. Siz, burada yaşayan insanlar görürsünüz ki, qısa müddət ərzində böyük işlər görülübdür. Bu hələ işlərin ilkin mərhələsidir. Rayonun inkişafı üçün əlavə vəsait veriləcəkdir. Yeni fabriklər, zavodlar tikiləcək, iş yerləri yaradılacaq və beləliklə, insanlar daha da yaxşı yaşayacaqlar.

Digər tərəfdən, maaşlar və pensiyalar hər il qaldırılacaqdır. Həm minimum əməkhaqqı, həm də pensiyanın minimum məbləği ildən-ilə qaldırılacaqdır. Çünki indiki səviyyə bizi qane edə bilməz. İndiki səviyyə Azərbaycanın hazırkı iqtisadi durumuna bağlıdır. Bizim iqtisadi vəziyyətimiz yaxşılaşdıqca, əlbəttə, insanların da bütün tələbatları ödəniləcəkdir.

Bir daha demək istəyirəm ki, 1994-cü ildə o cəsarətli addımın atılması ilə Azərbaycanın uzunmüddətli inkişaf perspektivləri müəyyən olundu. Təsəvvür edin ki, əgər «Əsrin müqaviləsi» imzalanmasaydı, Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi, Azərbaycanda vəziyyət necə olacaqdı?! Əlbəttə ki, ölkəmiz çox böyük problemlərlə, həm iqtisadi, eyni zamanda, siyasi problemlərlə üzləşəcəkdi. Çünki biz görürük ki, iqtisadi azadlıq, iqtisadi müstəqillik, ümumiyyətlə, ölkənin müstəqilliyini müəyyən edir.

Azərbaycanı çox gözəl gələcək gözləyir. Bakı–Tbilisi-Ceyhan neft kəmərinin istismarı zamanı ölkəmizə çox böyük vəsait gələcək, maddi imkanlar yaxşılaşacaq və ilk növbədə,

insanların həyat səviyyəsi yaxşılaşacaqdır. Mən buna şübhə etmirəm. Biz artıq bunu görürük və bütün səylərimizi bu sahəyə yönəldirik.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanın hər bir bölgəsi, hər bir rayonu inkişaf etməlidir. Abşeron rayonunun inkişafı üçün əlavə tədbirlər görüləcəkdir, nə lazımdırsa, kömək ediləcəkdir. Ancaq eyni zamanda, rayon ictimaiyyəti də, həmişə olduğu kimi, fəal olmalıdır ki, Abşeron Azərbaycanın ən qabaqcıl rayonlarından birinə çevrilsin. Mən əminəm ki, siz buna nail olacaqsınız. Bir halda ki, siz belə yaxşı işləyirsiniz, əminəm gələcəkdə də yaxşı işlər görüləcəkdir.

Əziz dostlar, sizi bir daha ürəkdən salamlayıram. Bu gün doğrudan da çox gözəl gündür. Ulu öndərin abidəsi önündə toplaşmışıq. Həm Heydər Əliyevin – ulu öndərin xatirəsinə öz hörmətimizi bildiririk, həm də görülən işlər haqqında təhlil aparırıq. Ən önəmlisi isə, gələcək haqqında fikirləşirik: Azərbaycanın gələcəyi necə olacaq, Azərbaycan haraya gedir, bir, iki, üç ildən sonra Azərbaycanda vəziyyət necə olacaq? Bütün bunlar bu gün bizim düşüncələrimizdir. Mən ümid edirəm ki, bütün qüvvələri səfərbər edib ölkəmizi zənginləşdirəcək və çox qüdrətli, müasir dövlət yaradacağıq. Bu işdə hamınıza uğurlar arzulayıram. Sağ olun.

***

*Sonra prezident İlham Əliyev sakinlərə yaxınlaşaraq onlarla söhbət etdi, qayğı və problemləri ilə maraqlandı.*

**D a d a ş  M u r a d o v:** (*Rayon Veteranlar Şurasının sədri, Böyük Vətən müharibəsi iştirakçısı):* Cənab Prezident, mən Sizinlə ikinci dəfədir görüşməyimdən çox şadam. Siz gözəl insan, Azərbaycan xalqının ən yaxşı oğlusunuz. Rəhmətlik ulu Heydər, əbədi prezidentimiz bizi Sizə, Sizi də bizə tapşırmışdır.

Mən 51 ildir müəllimən, müharibə əliliyəm. İndiyə qədər Abşeronda belə əzəmətli tikinti-quruculuq işləri görməmişəm. Yollar asfaltlanır, işıqlandırılır, küçələrdə əməlli-başlı səliqə yaradılmışdır. Bunların hamısı Sizin diqqətinizin nəticəsidir. Arxayınıq ki, bundan sonra da bizə diqqət yetirəcəksiniz. Abşerona kifayət qədər maliyyə vəsaiti ayırın ki, biz daha yaxşı yaşayaq. Mən bunu bütün abşeronluların adından deyirəm.

**İ l h a m Ə l i y e v:** Abşeron rayonuna əlavə maliyyə vəsaiti ayıracağam, nə lazımsa edəcəyəm. Təki burada işlər yaxşı getsin.

**D a d a ş M u r a d o v:** Rəhmətlik Süleyman Rüstəm deyirdi ki, «Cənnət görmək istəyən Azərbaycana gəlsin». Mən də deyirəm ki, «Cənnət görmək istəyən Abşerona gəlsin». Bütün şəhərlər nümayəndələrini göndərsin, gəlib baxsınlar ki, necə yaxşı işlər gedir, nə gözəl parkımız var. Nə Sumqayıtda, nə də Bakıda belə gözəl park yoxdur.

**İ l h a m Ə l i y e v:** Yollar Bakının yollarından daha da gözəldir.

**D a d a ş M u r a d o v:** Bəli, hər yer işıqlandırılır, küçələrdə rahat gedirsən. Nə elektrik enerjisinə, nə qaza, nə suya – heç nəyə ehtiyacımız yoxdur. Allah Sizə uzun ömür, can-sağlığı versin. Başladığınız işlərdə müvəffəqiyyətlər, ailə səadəti arzulayırıq.

Çox sağ olun.

## HEYDƏR PARKININ VƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*Abşeron rayonu, Xırdalan qəsəbəsi*

*12 sentyabr 2006-cı il*

*Sentyabrın 12-də Azərbaycan prezidenti İlham Əliyev Abşeron rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Xırdalan qəsəbəsində Heydər parkının və xalqımızın ümummilli liderinin abidəsinin açılış mərasimində iştirak etdi.*

*Mərasimə toplaşmış minlərlə insan prezident İlham Əliyevi böyük hörmət və ehtiramla, alqışlarla qarşıladı.*

*Sakinlərin əllərində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayraqları, ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar, prezidenti salamlayan şüarlar var idi.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsinin üzərindən ağ örtüyü götürdü. Bütöv qranitdən hazırlanmış bu abidənin hündürlüyü 4,2 metr, postamentlə birlikdə isə 6 metrdir. Abidənin müəllifi heykəltəraş Səlhab Məmmədovdur.*

*Prezident İlham Əliyev abidənin önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, 9,6 hektar ərazini əhatə edən, Xırdalan sakinlərinin ulu öndərin xatirəsinə sonsuz hörmət və ehtiramının bariz nümunəsi olan bu parkda istirahət üçün hər cür şərait yaradılıb. Parkda Heydər Əliyev muzeyi və Tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir. Yaşıllıqları, gül-çiçəyi, yaraşıqlı fəvvarələri ilə göz oxşayan parkda yay*

*estradası da vardır. Burada müxtəlif iaşə xidməti müəssisələri də fəaliyyət göstərir.*

*Azərbaycan prezidenti parkı seyr etdi, burada görülən işlərdən razılığını bildirdi.*

## Heydər Əliyev muzeyinin açılış mərasimi

*Sentyabrın 12-də Xırdalan qəsəbəsindəki Heydər parkında ulu öndərin adını daşıyan muzeyin təntənəli açılış mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Muzeyin direktoru Tükəzban Həsənova dövlətimizin başçısına məlumat verdi ki, 10 bölmədən ibarət muzey dahi şəxsiyyət Heydər Əliyevin irsinin təbliği, gənc nəslin bu irsdən yararlanması məqsədi ilə yaradılmışdır. Burada ulu öndərin uşaqlıq və gənclik illərini, təhlükəsizlik orqanlarında fəaliyyətini, Azərbaycana rəhbərliyinin ilk dövrünü, 1981-ci ildə Abşeron rayonuna gəlməsini, müstəqil Azərbaycan dövlətinə rəhbərlik illərini, kənd təsərrüfatının, sənayenin inkişafına, milli-mənəvi dəyərlərimizin qorunmasına, ordu quruculuğuna, mədəniyyətə və idmana qayğısını, yeni neft strategiyasının həyata keçirilməsini, xarici ölkələrə rəsmi səfərlərini, tanınmış dövlət xadimləri və siyasətçilərlə görüşlərini, 2001-ci ildə Abşeron rayonunda istifadəyə verilən obyektlərin açılış mərasimində iştirakını əks etdirən çoxsaylı fotoşəkil və eksponat toplanıb.*

*Muzeydə ümummilli liderin büstü qoyulub, Abşeron rayonunda olmasını əks etdirən xüsusi fotoalbom hazırlanıb.*

*Prezident İlham Əliyev muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, fotoşəkillərə, Qobu xalçaçılarının toxuduqları, üzərində ulu öndərin portreti olan xalçaya böyük maraqla tamaşa etdi.*

## Muzeyin xatirə kitabına yazdığı ürək sözləri

«Heydər Əliyev muzeyində ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər bir daha göstərir ki, bütün dövrlərdə Heydər Əliyev doğma xalqına sədaqətlə xidmət etmişdir. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev Abşeron rayonunun sosial-iqtisadi inkişafına böyük diqqət göstərmişdir.

Bu gün Abşeron rayonu uğurla inkişaf edir, burada quruculuq, abadlıq işləri sürətlə gedir. Əminəm ki, bundan sonra da abşeronlular, həmişə olduğu kimi, doğma Vətənimizin inkişafına öz töhfələrini verəcəklər.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*12 sentyabr 2006-cı il».*

***

*Rayon ictimaiyyəti adından xatirə olaraq prezident İlham Əliyevə Hökməli xalçaçılarının toxuduqları, üzərində dövlətimizin başçısının portreti olan xalça təqdim edildi.*

## Abşeron Tarix-diyarşünaslıq muzeyi ilə tanışlıq

*Sentyabrın 12-də Azərbaycan prezidenti İlham Əliyev Abşeron Tarix-diyarşünaslıq muzeyi ilə tanış oldu.*

*Dövlətimizin başçısını burada ehtiramla qarşıladılar. Direktor Yeganə Mənsimova məlumat verdi ki, Tarix-diyarşünaslıq muzeyi ötən əsrin 80-ci illərindən fəaliyyət göstərir. Bina bu ilin əvvəllərində təmir olunmuşdur. Burada minlərlə eksponat vardır. Bunların xeylisi nadir eksponatlardır və Abşeronun, ümumən rayonun qədim tarixini, məişətini, mədəniyyətini əks etdirir. Muzeydə Balaxanıda ilk neftin çıxarıl-*

*ması, Hacı Zeynalabdin Tağıyevin və digər neft milyonçularının fəaliyyəti, Abşeronun inkişafı, bu torpaqda doğulmuş görkəmli şəxsiyyətlər, eləcə də köhnə Bakı barədə fotoşəkillər və dəyərli sənədlər toplanıb.*

*Muzeydə xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini, o cümlədən Abşeron rayonunda olmasını əks etdirən xüsusi bölmə də vardır.*

*Prezident İlham Əliyev rayonun tanınmış şəxslərinin tərcümeyi-halı ilə maraqlandı, qədim dövrlərə və orta əsrlərə aid məişət, kənd təsərrüfatı alətlərinə, hərbi silah-sursata baxdı, bunların böyük əhəmiyyət daşıdığını, Abşeronun qədim tarixə malik olmasını sübut etdiyini vurğuladı.*

## Xırdalan qəsəbəsində orta məktəb binasının təməlqoyma mərasimi

*Sentyabrın 12-də Abşeron rayonunun Xırdalan qəsəbəsində 1296 yerlik orta məktəb binasının təməlinin qoyulmasına həsr olunmuş mərasim keçirilmişdir.*

*Mərasimə toplaşan sakinlər, təhsil işçiləri prezident İlham Əliyevi alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı binanın layihəsi ilə tanış oldu. Prezidentə məlumat verildi ki, Təhsil Nazirliyinin sifarişi ilə «Azkommunallayihə» İnstitutu tərəfindən hazırlanmış layihə əsasında tikiləcək və gələn ilin sentyabrında istifadəyə veriləcək orta məktəbdə 70-dən çox sinif otağı, idman, konfrans salonları, kompüter otağı və yardımçı otaqlar, voleybol meydançası, ayrıca istilik sistemi olacaqdır. Qəsəbədəki 2 nömrəli orta məktəbin ərazisində müasir standartlara uyğun tikiləcək üçmərtəbəli məktəb Azərbaycanın ən nümunəvi təhsil ocaqlarından biri olacaqdır. İnşaat işlərini «Ulubəy–İnşaat» Məhdud Məsuliyyətli Cəmiyyət yerinə yetirəcəkdir.*

*İndiyədək 2 nömrəli orta məktəbdə 4500 şagird üç növbədə təhsil alırdı. Bu ağır vəziyyəti nəzərə alaraq yeni məktəb*

*binasının tikintisinə başlanır. Növbəti ildə 2 nömrəli məktəbin indiki binası da təmirə dayandırılacaqdır.*

*Prezident İlham Əliyev binanın təməlinin qoyulduğunu bildirən gilizi bünövrəyə atdı və ilk beton qarışığını tökdü.*

*Dövlətimizin başçısı təhsil işçilərini təbrik etdi, gələn ilin sentyabrında məktəbin açılışı olacağını bildirdi.*

**Elmira Yaqubova** (*2 nömrəli orta məktəbin ədəbiyyat müəllimi*): Çox hörmətli cənab Prezident, Abşeron rayonunun Xırdalan qəsəbəsindəki 2 nömrəli orta məktəbdə Sizi salamlamaq bizim hamımız üçün olduqca xoşdur. Azərbaycanımızın daha da inkişaf etməsi, ulu öndərimiz, qüdrətli şəxsiyyət Heydər Əliyevin ideyalarının dönmədən həyata keçirilməsi naminə Sizə böyük uğurlar və möhkəm cansağlığı arzulayıram.

Cənab Prezident, bu gün bir daha qürur hissi ilə deyirik ki, regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı qəbul edildikdən sonra bütövlükdə respublikamız geniş abadlıq, tikinti meydanına çevrilmişdir. Biz abşeronlular da fəxr edirik ki, son bir ildə rayonumuzda çox işlər görülüb və görülməkdədir.

Cənab Prezident, elmə, təhsilə, xüsusilə məktəb tikintisinə hədsiz diqqət yetirdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Elə təkcə bizim rayonumuzda 10 məktəb binası inşa edilir. Bunlardan 6-sı Təhsil Nazirliyi, 3-ü Heydər Əliyev Fondu tərəfindən, 1-i isə Yaponiyanın ölkəmizdəki səfirliyinin maliyyə dəstəyi ilə tikilir. Yeni məktəb binası tikmək kimi müqəddəs bir işdə Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanımın hamıya örnək ola biləcək fəaliyyətini yüksək qiymətləndirir, ona ürəkdən gələn ən səmimi, xoş arzularımızı çatdırırıq.

Cənab Prezident, bu gün bizim üçün həqiqətən, mübarək bir gündür. Bir qədər öncə ümummilli liderimiz, xalqımızın fəxri, müstəqil Azərbaycanımızın memarı, dahi Heydər Əliyevin qəsəbəmizdə monumental abidə kompleksi açılmışdır. Bu mərasim dahi Heydər Əliyevə ümumxalq məhəbbə-

tinin bir daha nümayişinə çevrilmiş, Sizin ətrafınızda hamımızın necə sıx birləşdiyini açıq şəkildə göstərmişdir. Biz çox sevinirik ki, Sizinlə birgə yeni məktəb binasının təməlinin qoyulması mərasimində iştirak edirik. İnanırıq ki, bu məktəbdə təhsil alacaq şagirdlər, işləyəcək müəllimlər Azərbaycanımızın gələcəyi naminə, azərbaycanlı adına layiq olmaq üçün var qüvvələrini sərf edəcəklər.

Çox hörmətli cənab Prezident, həmişə Sizinlə görüşmək arzusunda idim. Ulu Tanrıma şükürlər olsun ki, Sizinlə görüşdüm. Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm ki, 2005-ci tədris ilində təhsil sahəsindəki uğurlarıma görə məni «Tərəqqi» medalı ilə təltif etmisiniz. Bu təltifə görə ailəm və öz adımdan Sizə dərin təşəkkür edirəm. Uca Allahdan arzu edirəm ki, hələ çox-çox illər belə vüqarla, hünərlə Azərbaycanı addım-addım gəzəsiniz.

**İlham Əliyev**: Xoş və səmimi sözlərə görə təşəkkür edirəm.

Bir ildən sonra gözəl məktəb tikiləcək və uşaqlar yaxşı şəraitdə oxuyacaqlar. Mənə dedilər ki, bu məktəbdə 4500 şagird təhsil alır. Bu çox çətindir, həm uşaqlar üçün, həm də müəllimlər üçün əziyyətdir. Müəllim Azərbaycanda ən hörmətli insandır. Böyük hörmətə malik müəllimin həm şəraiti yaxşı olmalıdır, həm də uşaqlar yaxşı oxumalıdır. Bütövlükdə indi Azərbaycanda hər şey çox sürətlə inkişaf edir. Bütün sahələrdə ən müasir, ən yaxşı şərait olmalıdır. İlk növbədə də məktəblərdə. 2008-ci ilə qədər Azərbaycanda məktəb tikintisi məsələləri bütünlüklə həll olunmalıdır. Harada lazımsa, təmir olunacaq, harada lazımsa, tikiləcəkdir. Yəni pis vəziyyətdə olan məktəb binaları qalmamalıdır.

Sizə bir daha uğurlar arzulayıram. Sağ olun.

## «Tam» qida sənayesi müəssisəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 12-də Abşeron rayonunda «Tam» qida sənayesi müəssisəsi ilə tanış oldu. Azərbaycan–Türkiyə birgə müəssisəsində dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Müəssisənin direktoru Hüseyn Əliyev məlumat verdi ki, tikintisinə keçən il başlanılan bu istehsal obyekti 2006-cı ildə tam gücü ilə işləməyə başlamışdır. 150 çeşiddən çox şirniyyat məhsulu istehsal edən bu müəssisənin gündəlik gücü 10 tondur. Hazırda burada 500 nəfər çalışır. Gələcəkdə istehsal və emal sahələrini genişləndirməklə işçilərin sayı 1000-ə çatdırılacaqdır. Yüksək keyfiyyətli məhsullar yerli tələbatı ödəməklə yanaşı, xarici bazarlara – Gürcüstana, Orta Asiya ölkələrinə də göndərilir. İşçilərin ən aşağı maaşı 100 manat təşkil edir. Burada Rusiya, İtaliya, Türkiyə və Almaniya istehsalı olan avadanlıq quraşdırılmışdır. Yaxın günlərdə İtaliyadan və Rusiyadan yenə avadanlıq gətiriləcəkdir.*

*Prezident İlham Əliyev biskvit, şokolad sexlərini gəzdi, laboratoriya ilə, məhsulun qəbulu, çeşidlənməsi və kompüterlə keyfiyyətinin yoxlanılması və digər proseslərlə yaxından tanış oldu. Şirniyyatlardan daddı, bu cür müəssisələrin yaradılmasının əhəmiyyətini vurğulayaraq bir daha xatırlatdı ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun həyata keçirilən işlər ölkəmizdə işsizliyin aradan qaldırılmasına xüsusi kömək göstərir. Ona görə bu cür müəssisələrin yaradılması və sahibkarlığın inkişafı bundan sonra da dəstəklənəcəkdir.*

*Prezident İlham Əliyev müəssisənin əməkdaşları ilə xatirə şəkli çəkdirdi.*

## BALKAN SİYASİ KLUBUNUN PREZİDENTİ JELYU JELEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında Bolqarıstan Respublikasının sabiq prezidenti, Balkan Siyasi Klubunun prezidenti Jelyu Jelevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Jelyu Jelev ilə Sofiyada keçirdiyi görüşü məmnunluqla xatırladı.*

*Jelyu Jelev ümummilli lider Heydər Əliyev ilə Bolqarıstanda və Azərbaycanda keçirdiyi görüşlərin onda dərin təəssüratlar yaratdığını bildirdi. Qonaq rəhbərlik etdiyi Balkan Siyasi Klubunun fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN «SOCİETY» JURNALININ REDAKTORU XANIM GERTRUT TAUXAMMERƏ MÜSAHİBƏ VERMİŞDİR

*13 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Prezident sarayında Avstriyanın «Society» jurnalının redaktoru xanım Gertrut Tauxammerə müsahibə verdi.*

*Dövlətimizin başçısı Azərbaycan–Avstriya ikitərəfli münasibətləri, ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlər barədə suallara cavab vermişdir.*

## VAŞİNQTONDA FƏALİYYƏT GÖSTƏRƏN MƏRKƏZİ ASİYA–QAFQAZ İNSTİTUTUNUN SƏDRİ FREDERİK STARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Vaşinqtonda fəaliyyət göstərən Mərkəzi Asiya–Qafqaz İnstitutunun sədri Frederik Starın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi.*

*Dövlətimizin başçısı Frederik Starı yenidən görməyinə məmnun olduğunu bildirdi. Vaşinqtona səfərinin nəticələrindən razı qaldığını qeyd edən prezident İlham Əliyev bu səfərdən keçən dövr ərzində Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə inkişafının uğurla davam etdirildiyini vurğuladı.*

*Prezident İlham Əliyev ilə görüşlərini məmnuniyyətlə xatırladan Frederik Star dövlətimizin başçısının Vaşinqtona səfərinin çox uğurla keçdiyini bildirdi. Qonaq rəhbərlik etdiyi Mərkəzi Asiya–Qafqaz İnstitutunun hazırkı fəaliyyəti barədə Azərbaycan prezidentinə məlumat verdi.*

# TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ MURAT BAŞESGİOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Türkiyənin Əmək və Sosial Müdafiə naziri Murat Başesgioğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi.*

*Dövlətimizin başçısı Azərbaycan–Türkiyə əməkdaşlığının bütün sahələrdə çox uğurla həyata keçirildiyini qeyd etdi. İki ölkənin müxtəlif nazirlikləri arasındakı əlaqələrin daha da möhkəmləndirilməsinin mühüm olduğunu bildirən prezident İlham Əliyev qarşılıqlı səfərlərin bu baxımdan əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan hökumətinin sosial məsələlərin həllinə xüsusi diqqət verdiyini bildirərək bu istiqamətdə ölkəmizdə böyük həcmli işlərin həyata keçirildiyini qeyd etdi.*

*Murat Başesgioğlu ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyev ilə əvvəllər keçirdiyi görüşləri məmnuniyyətlə xatırlatdı. Azərbaycanın iqtisadi və sosial sahələrdə böyük uğurlar qazandığını vurğulayan qonaq ölkəmizdə baş verən inkişafın onda dərin təəssüratlar yaratdığını bildirdi. Murat Başesgioğlu rəhbərlik etdiyi Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycanın müvafiq nazirliyi arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu və bu əlaqələrin bundan sonra da genişlənəcəyini söylədi.*

## «*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ

*14 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında «bp–Azərbaycan» şirkətinin prezidenti Devid Vudvordu qəbul etdi.*

*Görüşdə «bp–Azərbaycan» şirkəti tərəfindən ölkəmizdə görülən işlər, o cümlədən Səngəçal terminalında uğurla həyata keçirilən layihələrlə bağlı məsələlər müzakirə olunmuşdur.*

## BAKININ ZABRAT QƏSƏBƏSİNDƏKİ 307 NÖMRƏLİ ORTA MƏKTƏBİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*15 sentyabr 2006-cı il*

Əziz dostlar!

Əziz uşaqlar!

Gözəl məktəbin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Burada qeyd olundu ki, məktəb qısa müddət ərzində tikilib və bu gün istifadəyə verilir. Lətif kişi öz çıxışında bunu qeyd etdi. Amma bir şeyi deməyi unutdu ki, şəhər meriyasında keçirilən görüşdə məktəbin burada tikilməsinin təşəbbüskarı məhz Lətif kişi olmuşdur və yəqin ki, biz hamımız ona öz minnətdarlığımızı bildirməliyik.

Keçən ilin noyabrında Bakı şəhərinin qəsəbələrinin inkişafına dair geniş müşavirə keçirilmişdir və bu görüşdə Bakı rayonlarının ağsaqqalları, eyni zamanda, icra hakimiyyətinin nümayəndələri iştirak edirdilər və geniş fikir mübadiləsi aparılmışdır. Bildiyiniz kimi, artıq iki il yarımdır ki, Azərbaycanda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çox uğurla icra olunur. Ancaq Bakı şəhərinin problemləri, Bakının qəsəbələrinin problemləri bir az kənarda qalmışdı. Ona görə mən belə bir fikrə gəldim ki, Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafına dair xüsusi proqram qəbul edilsin və o məqsədlə geniş müşavirə keçirilmişdir.

Deyə bilərəm ki, o müşavirənin nəticəsi çox müsbət olmuşdur. Bu məktəbin tikintisi onun əyani sübutudur. Bundan başqa, demək olar ki, bütün qəsəbələrdə böyük abadlıq,

quruculuq işləri gedir, yeni yollar salınır, qaz, elektrik xətləri çəkilir, məktəblər, xəstəxanalar tikilir. Bir sözlə, iki il ərzində proqramın icrası nəticəsində qəsəbələrdə yaşayan insanların həyat səviyyəsi yaxşılaşmalıdır. Burada göstərilən xidmətlər daha da yüksək səviyyəyə qalxmalıdır və bütün görülən işlər ən yüksək standartlara cavab verməlidir.

Bir daha demək istəyirəm, bu məktəbin tikintisi də onu əyani şəkildə göstərir. Çox gözəl məktəbdir. Mən məktəblə tanış olmuşam, gözəl sinif, kompüter otaqları var, idman zalı, böyük konfrans zalı var. Yəni yaxşı oxumaq üçün hər bir şərait var. Bizim istəyimiz, arzumuz ondan ibarətdir ki, Azərbaycanda bütün məktəblər bu məktəb kimi olsun. Buna böyük ehtiyac var. Uşaqlar çox yaxşı şəraitdə oxumalı, yaxşı bilik almalıdırlar. İndi Azərbaycanın hərtərəfli inkişafı hamımız üçün bəlli məsələdir. Bunu biz də bilirik, beynəlxalq ictimaiyyət də bilir.

İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir. Bu gün vaxtı gəlibdir ki, biz məhz bu sahəyə sərmayələr qoyaq. Çünki Azərbaycanın uğurlu iqtisadi islahatlar siyasəti bu gün buna imkan verir. Azərbaycana çox böyük həcmdə sərmayələr qoyulubdur. İlk növbədə, neft-qaz sahəsinə, infrastruktur layihələrinə, sənaye potensialının inkişafına. İndi isə o sahələrdən əldə olunan gəliri biz humanitar sahələrə, təhsilə, səhiyyəyə, yeni texnologiyaların tətbiq olunmasına yönəltməliyik. Uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyaya sahib çıxmalıdırlar. Məhz bu məqsədlə iki il bundan əvvəl məktəblərin kompüterlə təchiz olunması proqramı qəbul edilibdir. Məqsəd qoyulmuşdur ki, 2007-ci ilə qədər bütün məktəblərdə kompüter sinfi yaradılsın və birbaşa internetə çıxış olsun. Çünki bir daha demək istəyirəm, bizim

uşaqlarımız dünyada gedən prosesləri izləməli, yaxşı oxumalı, xarici dilləri bilməli və dəyərli vətəndaşlar olmalıdır. Bunu etmək üçün hər bir şərait var.

Bir daha deyirəm ki, iqtisadi potensial ildən-ilə artır. Büdcə xərcləri artır, o cümlədən təhsil sahəsinə ayrılan xərclər artır. 2006-cı ildə 2005-ci ilə nisbətən büdcə xərcləri təxminən 70 faiz artmışdır. Bu yaxınlarda gələn ilin büdcəsi müzakirəyə çıxarılacaqdır. Artıq onun ilkin parametrləri görünməkdədir və ümid edirəm ki, gələn ilin büdcəsi bu ilin büdcəsindən ən azı 50 faiz çox olmalıdır. Bu nə deməkdir? O deməkdir ki, bizim işlərimiz daha da sürətlə gedəcəkdir. Yeni məktəblər, xəstəxanalar tikiləcək, yollar salınacaqdır.

Bütün infrastruktur obyektlər yeniləşməlidir. Bilirsiniz ki, elektrik stansiyaları tikilir, qaz, su xətti çəkilir. 2008-ci ilə qədər Bakının içməli təmiz su ilə təchizat məsələləri də öz həllini tapacaqdır. Bütün bunun təməlində iqtisadi potensial, iqtisadi siyasət, bizim apardığımız islahatlar dayanır. Biz bunu edirik. Bu məktəbin qısa müddət ərzində tikilməsi həm də onu göstərir ki, nəzərdə tutulan hər bir məsələ öz həllini tapır. Əgər qərara gəlmişdiksə, burada məktəb tikək, mütləq tikməliydik. Lətif kişi dedi ki, buraya çoxlu nümayəndələr gəlirdi, baxırdılar ki, tikinti necə gedir, nə vaxt hazır olacaqdır. Yəqin həm də ona görə ki, məktəbin təməl daşını qoyanda mən demişdim açılışına özüm gələcəyəm və sentyabrın 15-nə bu məktəb hazır olmalıdır. Hər yerdə belə olmalıdır.

Əfsuslar olsun, mənim imkanım yoxdur ki, bu il bütün məktəblərin açılışında iştirak edim. Bizim nümayəndələr iştirak edəcəklər. Son iki il ərzində, 2005–2006-cı illərdə 600-dən çox yeni məktəb tikilibdir. Bu çox böyük nailiyyətdir, çox böyük göstəricidir və bu proqram davam edir. Gələn ilin büdcəsində də əlavə məktəblərin tikintisi, məktəblərin təmiri nəzərdə tutulubdur.

Beləliklə, qısa müddət ərzində təhsil sahəsinin maddi-texniki bazasının möhkəmlənməsi proqramı öz həllini tapa-

caqdır. Amma, əlbəttə, bu o demək deyil ki, təhsil sahəsində bütün problemlər həll ediləcəkdir. Çünki bu sahədə ən önəmlisi, maddi-texniki bazanın yaranması ilə bərabər, təhsilin keyfiyyətidir. Bu sahədə də böyük işlər görülür. Təhsil Nazirliyində düşünülmüş proqram, konsepsiya var, yeni fikirlər var, yeni dərsliklər nəşr olunur. Əminəm ki, həm maddi-texniki baza möhkəmlənəcək, həm də təhsilin keyfiyyəti yaxşılaşacaqdır. Beləliklə, Azərbaycanın uzunmüddətli, davamlı inkişaf strategiyası daha da güclənəcəkdir.

Mən bu məsələyə bir daha qayıtmaq istəyirəm. Çünki insan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr bunun hesabına daha da inkişaf edirlər. Təbii resursların hesabına yox, yaxud da coğrafi vəziyyətinə görə yox, məhz intellektual potensialına görə, məhz yeni texnologiyaların icad olunmasına görə, tətbiqinə görə. Biz də bu yolu keçməliyik və bunu etmək üçün bütün şərait var. İnsanlarımızın intellektual səviyyəsi çox yüksəkdir. Azərbaycanda savadlı insanlar çoxdur. İndi iqtisadi imkanlar yaranıb və beynəlxalq maliyyə qurumları da bunu bəyan edirlər ki, qısa müddət ərzində Azərbaycana çox böyük həcmdə valyuta axını olacaqdır. Biz bilirik bunları haraya xərcləməliyik. Biz bunu birlikdə edirik. Azərbaycan hökuməti, Milli Məclis, ictimaiyyət bu sahədə öz rolunu oynayır. Bilirik ki, hansı sahələr bizim üçün prioritet əhəmiyyət kəsb edir. Demək olar ki, bütün sahələr. Məhz buna görə indi Azərbaycanın inkişafı hərtərəflidir. Məktəblər, xəstəxanalar, elektrik stansiyaları, aeroportlar tikilir, yollar salınır, su xətləri çəkilir, bizim tarixi abidələrimiz bərpa olunur. Bütün sahələr inkişafdadır.

Əlbəttə, neft-qaz sektorunda gedən işlər də göz qabağındadır. Bütün istiqamətlərdə inkişaf var, ən önəmlisi isə, bütün istiqamətlərdə proqram var. Regionların sosial-iqtisadi inkişafına dair proqram var, icra olunur. Bakı qəsəbələrinin inkişafına dair proqram var, icra olunur. Təhsil, səhiyyə sahəsində, bütün başqa sahələrdə proqramlar var.

Biz ancaq bu yolla ölkəmizi daha da möhkəmləndirəcəyik, daha da müasirləşdirəcəyik və Azərbaycanın uzunmüddətli inkişafı əsaslı olacaqdır. Biz bunu istəyirik, bunu arzulayırıq və bu yolla da gedirik. Bu yolda cəmiyyətdə heç bir fikir ayrılığı yoxdur. Çünki bu, yeganə düzgün yoldur. Bütün ictimaiyyət bu prosesləri, əlbəttə ki, dəstəkləyir və bu proseslərdə fəal iştirak etməlidir.

Bugünkü açılış mərasimi bu böyük işlərin balaca bir tərkib hissəsidir. Amma özlüyündə çox əyani göstəricidir. Mən əminəm ki, nəzərdə tutulan bütün məsələlər öz həllini tapacaq, gözəl məktəblər tikiləcək, başqa binalar tikiləcək, insanların həyat səviyyəsi ildən-ilə yaxşılaşacaqdır. Bu sahədə də böyük işlər görüləcəkdir. Maaşlar, pensiyalar – bilirəm ki, əhalini narahat edən ən böyük məsələlərdən biri də budur – bunlara da baxacağıq, həll edəcəyik. Bir daha demək istəyirəm ki, son iki il yarım ərzində verilmiş vədlər, nəzərdə tutulmuş proqramlar öz həllini tapır. Bu, deməyə əsas verir ki, fikrimizdə olan bütün başqa məsələlər də öz həllini tapacaqdır.

Arzum budur ki, uşaqlar bu məktəbdə yaxşı oxusunlar. Müəllimlər üçün də çox gözəl şərait yaradılıbdır. Müəllimlər də uşaqlara yaxşı tərbiyə versinlər. Siz hamınız gələcəkdə Vətənimizin sağlam, çox dəyərli insanları olmalısınız və ölkəmizi gələcəkdə idarə etməlisiniz. Bu işdə sizə uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev və Mehriban xanım Əliyeva məktəbin pedaqoji kollektivi ilə görüşüb söhbət etdilər, onlarla və şagirdlərlə xatirə şəkli çəkdirdilər.*

## BAKININ ZABRAT QƏSƏBƏSİNDƏ SAĞLAMLIQ MƏRKƏZİ İLƏ TANIŞLIQ

*15 sentyabr 2006-cı il*

*Sentyabrın 15-də Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsində Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir. Qəsəbə sakinləri, səhiyyə işçiləri mərasimdə iştirak etmək üçün buraya gələn Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verərək dedi ki, 4250 kvadratmetr sahəsi olan iki-üçmərtəbəli Sağlamlıq Mərkəzində 25 çarpayılıq xəstəxana, o cümlədən reanimasiya şöbəsi fəaliyyət göstərir. Mərkəzin təməli Sizin iştirakınızla ötən ilin dekabrında qoyulmuş və tapşırığınızla inşası qısa müddətdə başa çatdırılmışdır. Burada Almaniya, İtaliya, Yaponiya və digər ölkələrin istehsalı olan və ən müasir standartlara cavab verən avadanlıq quraşdırılmışdır. Sağlamlıq ocağı 21 mindən çox sakinə xidmət edəcəkdir.*

*Prezident İlham Əliyev mərkəzlə yaxından tanış oldu, o cümlədən reanimasiya şöbəsinə, laboratoriyalara baş çəkdi, quraşdırılmış tibb avadanlığına baxdı.*

*Dövlətimizin başçısı mərkəzin əməkdaşlarını təbrik etdi, burada yaradılmış şəraitdən səmərəli istifadənin zəruriliyini vurğuladı, ölkəmizin bütün bölgələrində bu cür mərkəzlərin istifadəyə verilməsinin əhalinin sağlamlığının qorunmasına xidmət etdiyini bildirdi.*

*Səhiyyə işçiləri yaradılan şəraitə, xalqımızın sağlamlığına göstərilən diqqət və qayğıya görə prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.*

## «ANKARA MƏKTƏBİ» MƏKTƏB-LİSEYİ İLƏ TANIŞLIQ

*Bakı, Nərimanov rayonu*

*15 sentyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 15-də Bakının Nərimanov rayonunda yerləşən «Ankara məktəbi» məktəb-liseyi ilə tanış olmuşdur. Məktəblilər dövlətimizin başçısını və xanımını gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin məktəbin birinci mərtəbəsində qoyulmuş büstü qarşısında keşik çəkən «Gənc heydərçiləri» salamladı. Dövlətimizin başçısı və xanımı büstün önünə gül dəstələri qoydular.*

*Təhsil naziri Misir Mərdanov respublikamızın rəhbərinə məlumat verərək dedi ki, ötən ilədək 77 nömrəli orta məktəb kimi fəaliyyət göstərən bu təhsil ocağı tam əsaslı təmir edilmiş, müasir avadanlıqla təchiz olunmuşdur. Burada 1400-dən çox şagird təhsil alır, 100-dən çox müəllim çalışır. «Ankara məktəbi» adlansa da, sırf Azərbaycan məktəbi kimi fəaliyyət göstərəcək, tədris prosesi ölkəmizin proqramları əsasında aparılacaqdır. Məktəbdə iki kompüter otağı, akt və idman zalları, 30-dan çox sinif otağı və digər yardımçı otaqlar vardır. Dərslər Azərbaycan və rus bölmələri üzrə iki növbədə keçiriləcəkdir. Məktəbdə ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin fəaliyyətləri, Azərbaycanın dövlət dili və hərb sənəti ilə bağlı xüsusi guşələr yaradılmışdır.*

*Prezident İlham Əliyev gənclərin çağırışaqədərki hazırlığı, informasiya texnologiyası və informatika kabinetlərini, ayrı-ayrı sinif otaqlarını gəzdi, tədris prosesi, dərs vəsaitləri ilə maraqlandı.*

*Bildirildi ki, yüksək tədris bazasına malik məktəb dərs vəsaitləri ilə tam təmin olunmuşdur. Bu il yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmuş və Prezident təqaüdünə layiq görülmüş tələbələr arasında bu təhsil ocağının məzunları da var.*

*Prezident İlham Əliyev müasir təlim texnologiyaları kabinetində qədim Azıx mağarasına aid videokadrlara tamaşa etdi. Bildirildi ki, yeni metodlardan istifadə etməklə tarixə dair materialların şagirdlərə öyrədilməsi çox səmərəlidir. Bu cür layihələr Avropa ölkələrində tətbiq olunur.*

*Dövlətimizin başçısı Azərbaycanda orta məktəblərin kompüterləşdirilməsi proqramının başa çatdırılmasının, internetə qoşulmasının, ölkəmizin bütün bölgələrində yeni müasir təhsil ocaqlarının tikilməsinin, şagirdlərin yüksək bilik alması üçün hər cür şərait yaradılmasının vacibliyini vurğuladı. Uşaqların yaxşı oxuması, biliyə yiyələnməsi, vətənpərvərlik ruhunda tərbiyə alması üçün daha səylə çalışmağı tövsiyə etdi.*

*Müəllimlər Mehriban xanımın rəhbərlik etdyi Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirdilər, ulu öndərin tarixi xidmətlərini, təhsilə göstərdiyi diqqət və qayğını xatırlatdılar, dövlətimizin başçısının tövsiyələrinin yerinə yetirilməsi üçün əzmlə çalışacaqlarını bildirdilər.*

*Sonra Azərbaycan prezidenti türk dünyasının böyük oğulları Heydər Əliyevin və Mustafa Kamal Atatürkün fotoşəkilləri olan «Bir millət, iki dövlət» guşəsinə maraqla baxdı.*

*Prezident İlham Əliyev məktəbin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:* «Ankara məktəbi» təmirdən sonra yeni görkəm alıb. Müəllimlərin iş şəraiti yaxşılaşıb, uşaqlar üçün, yaxşı oxumaq üçün gözəl imkanlar yaradılıb.

Azərbaycanda son illər ərzində məktəb tikintisi və təmiri geniş vüsət alıb. Təhsil sisteminin maddi-texniki bazası möhkəmlənir, tədris prosesində yeniliklər müşahidə olunur.

Məktəbin bütün kollektivinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

15.09.2006».

## ABŞ MÜDAFİƏ NAZİRİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ CEYMS MAK DUQALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Prezident sarayında ABŞ Müdafiə nazirinin Avrasiya məsələləri üzrə müşaviri Ceyms Mak Duqalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi.*

*Dövlətimizin başçısı Vaşinqtona səfərini məmnuniyyətlə xatırlayaraq səfəri zamanı Azərbaycan ilə ABŞ arasındakı əməkdaşlığın müxtəlif aspektləri üzrə geniş müzakirələrin aparıldığını qeyd etdi. Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasındakı əlaqələrin gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminliyini söylədi.*

*Ceyms Mak Duqal prezident İlham Əliyevin Vaşinqtona səfərinin uğurla keçdiyini bildirdi. Qonaq ABŞ ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın müvəffəqiyyətlə davam etdiyini vurğuladı. Azərbaycanın beynəlxalq terrorizmə qarşı qlobal mübarizədə ilk günlərdən ABŞ-ın tərəfdaşı olduğunu qeyd edən Ceyms Mak Duqal bu sahədə ölkəsinə verilən dəstəyə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

## BAKIDA BİRİNCİ BEYNƏLXALQ «RUS KİTABI» FESTİVALININ İŞTİRAKÇILARINA

Hörmətli festival iştirakçıları!

Sizi Azərbaycan torpağında ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, festivalınız rus ədəbiyyatının bütün pərəstişkarları üçün əsl bayrama çevriləcəkdir. Rus mətbuatının Ümumdünya Konqresinin və İTAR–TASS-ın yubileyinin ardınca Bakıda belə bir festivalın keçirilməsini biz səmərəli əməkdaşlığımızın parlaq göstəricisi hesab edirik.

Böyük rus ədəbiyyatı dünya mədəni irsində xüsusi yer tutur. Azərbaycanlılar istər rus klassikası ilə tanışlığın, istərsə də müxtəlif illərdə ölkəmizə gəlmiş müasir Rusiya yazıçı və şairləri ilə görüşlərin gözəl anlarını hafizələrində yaşadırlar.

Azərbaycan nadir ölkədir ki, burada son üç il ərzində rus klassiklərinin əsərləri ümumilikdə milyon nüsxədən artıq tirajla təkrar nəşr edilmişdir. Puşkin və Lermontovun, Qoqol və Dostoyevskinin, Turgenev və Tolstoyun bir çox illər bundan əvvəl tərcümə olunmuş əsərləri latın qrafikasında ilk dəfə çap edilərək müasir oxucuya təqdim olunmuşdur. Bu istər ölkənin rusdilli məktəbləri, istərsə də bütün ali məktəblərində rus dilində təhsili qoruyub saxlaya bilmiş Azərbaycanın təhsil məkanında rus klassik ədəbiyyatına verilən yüksək qiyməti əyani şəkildə təzahür etdirir. Ümidvaram ki, festival bütün iştirakçıların qəlbində silinməz iz buraxacaq, Azərbaycan və Rusiya arasında yeni humanitar təşəbbüslərdə öz layiqli davamını tapacaqdır. Sizin hamınıza cansağlığı və uğurlar arzulayıram.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 sentyabr 2006-cı il*

## BİRİNCİ BEYNƏLXALQ «RUS KİTABI» FESTİVALININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 sentyabr 2006-cı il*

**İ l h a m Ə l i y e v:** Sizin hamınızı ölkəmizdə görməyimə çox şadam. Xoş gəlmisiniz! Azərbaycanda «Rusiya İli»nin keçirilməsi nadir hadisədir. Düşünürəm ki, «Rus kitabı» festivalı keçiriləcək bütün tədbirlər çərçivəsində ən yaddaqalanı olacaqdır. Ona görə də ümidvaram ki, ölkəmizə səfər sizin üçün də çox xoş olacaqdır. Bir çoxunuz əvvəlki illərdə, son onillikdə Azərbaycanda artıq dəfələrlə olmusunuz, bir çoxunuzla məni şəxsi dostluq münasibətləri bağlayır. Ona görə də sizin hamınızı, o cümlədən ölkəmizə ilk dəfə gələnləri ürəkdən salamlayıram.

Bir tərəfdən, bu festival Bakı sakinlərinin rus ədəbiyyatının, rusdilli ədəbiyyatın nailiyyətləri ilə tanış olması üçün gözəl imkandır, eyni zamanda, ümumən ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm hadisədir. Çünki iqtisadi, siyasi əlaqələrlə yanaşı, bizim bu istiqamətdə böyük uğurlarımız var, ikitərəfli münasibətlərdə humanitar əməkdaşlıq əvəzsiz rol oynayır. İndi o da ön sıraya keçir ki, bu da çox sevindiricidir. Görünür, bu onunla bağlıdır ki, ölkələrimizdə, MDB ölkələrində dövlətçiliyin təşəkkülü prosesləri artıq bitmişdir, iqtisadi böhranlar da əsasən başa çatmışdır və indi daha dinamik inkişaf dövrü gəlib çatmışdır ki, burada da mənəvi dəyərlərə tələbat artır. Ona görə bir daha demək istəyirəm ki, mən bu festivalı məhz həmin nöqteyi-nəzərdən qiymətləndirirəm. Festivalın çox böyük səmərəsi, böyük əhəmiyyəti var. Mövcud olan, genişləndiril-

məli olan əlaqələr ikitərəfli münasibətlərin möhkəmlənməsində, şübhəsiz, öz rolunu oynayır.

Rusiya ilə Azərbaycan arasında münasibətlər ümumən çox müsbətdir, biz bundan məmnunuq. Festivalın keçirilməsi buna daha bir sübut və bu əlaqələrin möhkəmlənməsi işində daha bir addımdır.

Siz yəqin bilirsiniz ki, Azərbaycanda rus dilinə böyük məhəbbətlə yanaşırlar. Rus dilinin ölkəmizdə saxlanması bizim üçün çox vacibdir. Əlbəttə, 15 il müstəqillikdən sonra bizdə rus dilindən Sovet İttifaqı dövründəki qədər istifadə edilmir və bunun da təbii səbəbləri var. Lakin gənc nəslin də rus dilini bilməsi çox vacibdir.

Yeri gəlmişkən, bu gün Azərbaycanda əlamətdar gündür – sentyabrın 15-i dərs ilinin başlanğıcı günüdür. Mən səhər tezdən bir neçə məktəbə getdim, onlardan birinin təmirdən sonra açılışında iştirak etdim. Bu məktəbdə iki bölmə – Azərbaycan və rus bölmələri var. Azərbaycanda tədrisin rus dilində aparıldığı belə məktəblər 300-dən çoxdur. Bu baxımdan biz fəxr edə bilərik ki, SSRİ dağıldıqdan sonra rusdilli məktəblərin sayı azalmadı, harada tədris rus dilində aparılırdısa, eləcə də saxlanmışdır. O cümlədən dövlət ali məktəblərində, orada da təhsilin rus dilində aparıldığı şöbələr var. Məsələn, Slavyan Universiteti. Başqa sözlə, bu, dövlət siyasətidir, çünki Azərbaycan çoxmillətli dövlətdir və hər bir millət təkcə Konstitusiyaya görə deyil, real həyatda da bərabər hüquqlara malikdir. Ona görə də ölkəmizdə yaşayan xalqlar arasında sülh inkişafımızın və dövlətçiliyi möhkəmlətməyin mühüm amillərindən biridir. Ona görə də çoxmillətli dövlət kimi biz, təbii ki, ölkədə yaşayan xalqların milli mədəniyyətlərinin inkişaf etdirilməsi, tam ahəngdarlıq şəraiti yaradılması məsələləri ilə çox ciddi məşğul olmalıyıq. Bundan ötrü çox yaxşı zəmin var. Azərbaycan tolerantlığı, dözümlülüyü, milli həmrəyliyi ilə həmişə fərqlənmişdir və indi də fərqlənir. Əlbəttə ki, bu festival kimi tədbirlər belə meylləri gücləndirir. Gərək bizim aramızdakı əlaqələr qırıl-

masın, onlar daimi xarakter daşısın. Məsələn, ötən il və cari il əlaqələrin yeni formatı üçün imkanlar yaratmışdır: keçən il Rusiyada «Azərbaycan İli» idi, bu il Azərbaycanda «Rusiya İli»dir. Bu iki il bizi daha da yaxınlaşdırdı. Gərək bu illər başa çatdıqdan sonra əlaqələr kəsilməsin, meyl davam etsin. Bu, ilk növbədə, bizdən, ölkələrin rəhbərlərindən və təbii ki, ictimai və siyasi proseslərə təsir göstərən, ictimai rəyi formalaşdıran adamlardan asılıdır. Rusiyada da, Azərbaycanda da ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri sayılıb-seçilən, hörmət bəslənən insanlardır. İctimai şüurun, ictimai rəyin, ölkənin inkişaf yollarının formalaşmasında onların rolu böyükdür. Tanınmış yazıçının, şairin, mədəniyyət xadiminin dediyi sözün ictimaiyyət üçün böyük dəyəri var. Ona görə də gələcəkdə münasibətlərimizin necə inkişaf edəcəyi həm də xeyli dərəcədə ölkələrimizin nümayəndələri arasında bu sahədə əməkdaşlıqdan asılı olacaqdır. Biz çox istəyirik ki, münasibətlərimiz indiki kimi dinamik inkişaf etsin. Bundan ötrü bütün əsaslar var, qarşılıqlı istək var və deyə bilərəm ki, biz hesab edirik, ümumiyyətlə, Rusiya ilə Azərbaycanın münasibətləri qonşular arasında münasibətlərə nümunədir. Qonşuları seçmirlər, amma təəssüf ki, bəzən qonşular arasında mübahisələr, hansısa anlaşılmazlıqlar, daha ciddi problemlər meydana çıxır. Lakin bizim münasibətlərimizdə belə şeylər yoxdur. Ona görə də əlaqələrimizi möhkəmlətmək lazımdır. Ümidvaram ki, biz birgə səylərimizlə daha da irəliləyəcəyik.

Sizi bir daha salamlamaq istərdim, sizinlə şəxsən görüşməyimə çox şadam, şadam ki, şəhərimizin sakinlərinin də sizinlə görüşmək imkanı olacaqdır. Bilirəm ki, bu axşam filarmoniyada görüş keçiriləcəkdir. Arzu edirəm ki, ölkəmizdə olduğunuz günlər xatirinizdə qalsın və xoş keçsin. Sağ olun.

**Vitali İqnatenko** (*İTAR–TASS İnformasiya Agentliyinin Baş direktoru*): İlham Heydəroviç, Sizinlə söhbət etmək, görüşmək imkanına görə sağ olun. Demək istəyirəm ki, bu salon Rusiya Federasiyasının ziyalılarını bi-

rinci dəfə qəbul etmir. Unudulmaz Heydər Əliyeviç məhz bu salonda bizi bir neçə dəfə qəbul etmişdi. Biz bunların hamısını xatırlayırıq. Diqqətəlayiq haldır ki, biz bütün bunları unutmuruq. Budur, indi bizi Siz qəbul edirsiniz.

Bu gün başlanan festivalın təşkilində Rusiya XİN xüsusi rol oynayır. Sizə və festivalın təşkilinə kömək edənlərin hamısına dərin təşəkkürümüzü bildiririk. Bu günlər ərzində biz «dəyirmi masalar» keçirəcək, Bakı Slavyan Universitetində olacağıq. Biz çox şadıq ki, «Rus kitabı» festivalının tarixi məhz burada başlayır.

**Aleksandr Ebanoidze** (*«Drujba narodov» jurnalının Baş redaktoru*): Mən «Drujba narodov» jurnalına başçılıq edirəm. O, ünsiyyət və mədəni əlaqələr vasitəsidir, əvvəldən belə düşünülmüşdür və belə də fəaliyyət göstərməkdədir. Sizə deməyə şadam ki, ilk dəfə olaraq bu il biz Azərbaycan ədəbiyyatına həsr olunmuş xüsusi buraxılış nəşr etməyi qərara aldıq. Son 15 ildə Moskva nəşrlərində Azərbaycan yazıçılarının əsərləri çap edilməmişdi. Xüsusi buraxılış jurnalın üçüncü nömrəsidir, onun birinci səhifəsində Mehriban xanım Əliyevanın məktubu dərc olunmuşdur. Biz buna görə ona minnətdarıq. Xüsusi buraxılış maraqlı alındı. Bu yaz nömrəsindən sonra Azərbaycan müəlliflərinin daha iki əsəri çap olundu. İtirilmiş ədəbi əlaqələr beləcə bərpa edilir.

**Mixail Seslavinski** (*Federal Mətbuat və Kütləvi Kommunikasiyalar Agentliyinin rəhbəri*): «Festivalın açılışının idman kompleksində olmasına yaxşı mənada qibtə etdik. Xatırladaq ki, əvvəllər şair və yazıçıları böyük stadionlar qəbul edərdi. Burada olanların bir çoxu 70-ci illərdə Heydər Əliyevin təşkil etdiyi sovet ədəbiyyatı festivallarına gəlmişdi. Biz burada, festivalda xoş təbəssümlər, səmimi maraq və diqqət gördük. Bu, təkcə salonda deyil, şəhərdə, küçələrdə də baş verirdi. Adamlar müasir kitablarla, 70-ci illərin kitabları ilə yazıçılara yaxınlaşır, avtoqraf xahiş edirdilər. Bütün bunlar insan qəlbinə hərarət verir.

**Ç i n g i z   A y t m a t o v** (*Dünya şöhrətli yazıçı, Qırğızıstanın Lüksemburqdakı səfiri)*: Azərbaycan dövləti başçısının elm və mədəniyyətə yetirdiyi diqqəti yüksəkdir. Bakıda «Rus kitabı» festivalının keçirilməsi buna sübutlardan biridir. Bizə çox xoşdur ki, Azərbaycan prezidenti bizim üçün aktual olan məsələləri bizimlə bilavasitə müzakirə edir. Özü də iqtisadi, sosial problemlərlə, siyasətlə birlikdə.

**O l j a s   S ü l e y m e n o v** (*Görkəmli yazıçı, Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi)*: Yaradıcılıq təşkilatı kimi qorunub saxlanmasında məşhur siyasi xadim Heydər Əliyevin böyük rol oynadığı Azərbaycan Yazıçılar Birliyinin hazırda da qorunub saxlanması faktının özü yüksək qiymətə layiqdir. Bu siyasəti prezident İlham Əliyev də uğurla davam etdirir. «Rus kitabı»na belə əhəmiyyət verilməsini ancaq alqışlamaq lazımdır.

*Şair Dmitri Bıkov Rusiyanın gənc yazıçıları adından çıxış edərək azərbaycanlı müəlliflərlə yaradıcılıq əlaqələrindən danışdı.*

*Mixail Seslavinski Birinci beynəlxalq «Rus kitabı» festivalının iştirakçıları adından «Bolşaya rossiyskaya ensiklopediya»nın sanballı nəşrinin indiyədək çapdan çıxmış cildlərini, habelə sonrakı cildlərin alınması üçün sertifikatları Azərbaycan dövlətinin başçısına təqdim etdi. O, həmçinin bildirdi ki, nəşrin ilk cildlərində Azərbaycan, prezident Heydər Əliyev, Bakı haqqında geniş məqalələr dərc olunmuşdur.*

*Görüşdən sonra prezident İlham Əliyev və qonaqlar Prezident sarayı qarşısında xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKDİLLİ DÖVLƏTLƏRİN VƏ TOPLULUQLARIN X DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏYƏ SƏFƏRİ

*17 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etmək üçün sentyabrın 17-də Türkiyəyə səfərə yola düşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Türkiyənin Antalya şəhərinə gəldi.*

*Dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hava limanında Antalya şəhərinin bələdiyyə başçısı Menderes Türel, digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar. Milli geyimli oğlan və qız dövlətimizin başçısına və xanımına gül dəstələri təqdim etdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKDİLLİ DÖVLƏTLƏRİN VƏ TOPLULUQLARIN X DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA NİTQİ

*18 sentyabr 2006-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qurultay iştirakçıları!
Əziz dostlar!

İlk növbədə qurultayda iştirak etmək üçün məni Türkiyəyə dəvət etdiyinə görə əziz qardaşım, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana öz dərin minnətdarlığımı bildirirəm.

Qardaş Türkiyədə yenidən olmağımdan çox böyük məmnunluq hissi keçirirəm.

Qurultayın çox böyük önəmi var. Əminəm ki, qurultayın nəticələri də çox önəmli olacaqdır. Çünki qurultay zamanı son müddət ərzində görülmüş işlər, uğurlar, nailiyyətlər təhlil ediləcək və ən önəmlisi isə qarşıda duran vəzifələr müəyyən olunacaqdır. Mən şübhə etmirəm ki, qurultay iştirakçıları müxtəlif komissiyalarda çox fəal işləyəcəklər və qurultayın nəticələri əməli-praktiki əhəmiyyətə malik olacaqdır.

Bizim istəyimiz bəllidir. Bu barədə bu gün çox gözəl danışıldı. Biz istəyirik ki, türk dünyası bir olsun. Birlik daha da möhkəm olsun. Bizi birləşdirən əlaqələr çoxşaxəli olsun və bütünlükdə türk dünyası dünya üçün çox önəmli amilə çevrilsin. Bunu etmək üçün bütün əsaslar var.

Bildiyiniz kimi, Sovet İttifaqı dağılandan sonra, 1991-ci ildə bir neçə yeni türkdilli dövlət yarandı. Beləliklə, türkdilli dövlətlər anlayışı yarandı. Bu gün bu dövlətlər arasında olan

işbirliyi, əlbəttə ki, hər bir ölkəni daha da gücləndirir. Xüsusilə müstəqilliyimizin ilk illərində Türkiyənin dəstəyinə böyük ehtiyac var idi və bütün türkdilli dövlətlər bu dəstəyi hiss edirdilər. Bu gün də biz bunu hiss edirik. Buna görə Türkiyəyə, türk xalqına minnətdarıq. Ancaq eyni zamanda son illər ərzində müstəqillik tariximizin keçid dövrü başa çatandan sonra bizim dövlətlər də artıq böyük imkanlara malik oldular. Bu gün türkdilli dövlətlərin fəaliyyəti, onların artan potensialı, bu ölkələrdə baş verən proseslər, əlbəttə ki, öz tərəfindən Türkiyəyə də dəstək olur.

Türkiyə–Azərbaycan münasibətləri indi ən yüksək zirvədədir, əziz dostum, qardaşım Rəcəb Tayyib Ərdoğan bu gün bu barədə danışdı. Bu münasibətləri bir neçə amil şərtləndirir – tarixi köklərimiz, etnik mənsubiyyətimiz, dilimiz, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz, ənənələrimiz.

Eyni zamanda bu münasibətləri türk dünyasının iki görkəmli şəxsiyyətinin fikirləri, kəlamları müəyyənləşdirir. Böyük öndər Mustafa Kamal Atatürk demişdir: «Azərbaycanın sevinci Türkiyənin sevinci, Azərbaycanın kədəri Türkiyənin kədəridir». Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: «Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir». Bu kəlamlar fərqli ictimai-siyasi durumda söylənmişdir. Tarix baxımından da onların arasında kifayət qədər böyük fərq var. Ancaq bu düşüncələr, bu fikirlər keçmişdə, bu gün olduğu kimi, gələcəkdə də Türkiyə–Azərbaycan birliyini əbədi edəcək, möhkəmləndirəcəkdir. Bu kəlamlar həm dövlətlərarası münasibətlərə yol göstərir, eyni zamanda insanlar arasında olan münasibətləri də müəyyənləşdirir. Biz bunu qurultayın adından da görürük – Türkdilli dövlətlərin və topluluqların qurultayı.

Dövlətlərarası münasibətlər, əlbəttə ki, mövcud olan praktikaya uyğun şəkildə həyata keçirilir. Bu münasibətləri, Türkiyə–Azərbaycan münasibətlərini qardaşlıq, dostluq prinsipləri birləşdirir və indi iqtisadi, siyasi və mədəni sahələrdə bu münasibətlər ən yüksək zirvədədir. Bütün başqa

sahələrdə də bu münasibətlərə güc verən, təkan verən məsələlərin də öz həllini tapması çox önəmlidir. Bu baxımdan ziyalıların bir araya gəlməsi, konfransların, qurultayların keçirilməsi, ictimai xadimlərin, millət vəkillərinin davamlı əlaqədə olması çox böyük əhəmiyyət kəsb edir. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanda baş verən proseslər, Azərbaycanın həyata keçirdiyi böyük, nəhəng layihələr öz növbəsində bütün türk dünyasına, onun möhkəmlənməsinə töhfəsini verir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri dünyada və təbii ki, bizim bölgədə vəziyyəti tam dəyişdirmişdir. Bu layihələr bölgənin uzunmüddətli inkişaf strategiyasını müəyyən edəcəkdir. Bizim həm iqtisadi, həm də siyasi mövqelərimizi möhkəmləndirəcək və artıq bunu görürük. Azərbaycan və Türkiyəni Orta Asiya ilə birləşdirən yollar, enerji dəhlizləri, Qars–Tbilisi–Bakı dəmir yolu layihəsinin həyata keçirilməsi dünyada tamamilə yeni bir vəziyyət yaradacaqdır. Biz bu vəziyyətdən çox səmərəli şəkildə istifadə etməliyik. Çünki bu vəziyyəti biz yaradırıq. Əgər biz bunları yaratmasaydıq, bunlar olmazdı. Heç kim bizə bunu tövsiyə etməmişdir. Heç kim bizim əvəzimizə bu işləri görməmişdir. Bunu biz gördük. Vaxtilə əfsanə kimi tanınan bu layihələr xalqlarımızın səyi ilə, dövlət rəhbərlərinin cəsarəti və siyasəti sayəsində bu gün gerçəklikdir və uzun illər ərzində həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə bizim xalqlarımıza imkanlar yaradacaqdır. Ona görə türk dünyasının birləşməsi bu gün daha aktualdır və bunu etmək üçün daha da gözəl imkanlar var.

Biz bu barədə çox danışırıq. Birlikdən çox danışırıq və belə də lazımdır. Bu barədə daim danışmalıyıq və bir də deyirəm ki, bütün ictimai xadimlər, ictimaiyyət bu işdə fəal olmalıdır. Amma bu birliyi möhkəmləndirən amillər var. İqtisadi amillər, enerji amili, siyasi əlaqələr, xarici məsələlərə birgə baxışlarımız, birgə münasibətlərimiz, beynəlxalq təşkilatlarda birgə fəaliyyətimiz, əlaqələndirilmiş şəkildə

aparılan siyasət, bir-birimizə dəstək – əlbəttə ki, bunlar bizi daha da möhkəmləndirir.

Dünyada qloballaşma prosesləri gedir. Ancaq eyni zamanda ayrı-seçkilik məsələləri də kifayət qədərdir və biz bunu görürük. Biz bu vəziyyətə özümüzü uyğunlaşdırmalıyıq. Bir-birimizə bağlı olmalıyıq, bir-birimizin əlini möhkəm tutmalıyıq ki, gücümüz daha da artsın. Bu gün türk dünyasının çox böyük potensialı var və Türkiyə başda olmaqla, bütün türkdilli dövlətlər siyasi, iqtisadi cəhətdən, bütün başqa cəhətlərdən çox sürətlə inkişaf edir. Bizim bölgənin inkişafı nəticəsində dünya proseslərinə böyük təsirlər olacaqdır və biz bunu görürük. Bu baxımdan qurultayın keçirilməsi çox böyük əhəmiyyət daşıyır. Mən şübhə etmirəm ki, bu qurultayda bizi narahat edən bütün məsələlər müzakirə olunacaq və ən önəmlisi, gələcək fəaliyyətimiz üçün gözəl tövsiyələr veriləcək, dövlətlər və hökumətlər bundan bəhrələnəcəklər.

Bu gün bizim qurultayımızda çoxsaylı nümayəndələr var. Bütün türkdilli dövlətlərin nümayəndələri buradadır. Bu onu göstərir ki, müstəqillik dövründə əldə olunmuş uğurlar ölkələrimizi bir-birinə daha da bağlayır. Bu onu göstərir ki, türk dünyasının gələcək fəaliyyəti bizi düşündürür, narahat edir və biz öz fəaliyyətimizlə türk dünyasının gücünü möhkəmlətməliyik və bunu edirik. Əminəm ki, qurultay və onun nəticəsi olan birliyimizin möhkəmlənməsi həm bölgədə, həm Avropada və dünyanın başqa yerlərində çox böyük əks-səda doğuracaqdır.

Qurultaylar, konfranslar tez-tez keçirilməlidir. Eyni zamanda hesab edirəm ki, xarici ölkələrdə, Avropa ölkələrində belə tədbirlərin keçirilməsi böyük əhəmiyyət kəsb edər. Çünki biz özümüzü tanıtmalıyıq, öz potensialımızı təqdim etməliyik. Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl görürük və hiss edirik.

Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücum etməliyik, çünki həqiqət bizim tərəfimizdədir. Baxın, Türkiyə dövlətinə ərazi iddiasında olan, Türkiyənin sərhədlərini tanımayan, Türkiyə hökumətinin arxivlərin açılmasına dair təkliflərini rədd edən Ermənistan bütün dünyada Türkiyəyə qarşı təbliğat aparır və dırnaqarası soyqırımını tanıtdırmaq istəyir. Ərazi baxımından tarixi Azərbaycan torpağında yerləşən, vaxtilə İrəvan xanlığının ərazisində və onun ətrafında yerləşən Azərbaycan torpaqlarında yaradılmış Ermənistan dövləti indi Azərbaycana qarşı ərazi iddiasındadır və təcavüz yolu ilə torpaqlarımızı ələ keçirmək istəyir. Torpaqlarımızın 20 faizi işğal altındadır, etnik təmizləmə siyasəti aparılmışdır və bu siyasət nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüşdür. Ancaq buna baxmayaraq, erməni təbliğatı daim bizi hədəfdə saxlayır. Biz hücuma keçməliyik, onların yalan, iftira üzərində qurulmuş təbliğatını darmadağın etməliyik və bütün səyləri birləşdirib, həqiqəti bərpa etməliyik. Azərbaycan heç vaxt öz torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi – bütün imkanlardan istifadə edib, öz doğma torpaqlarını azad edəcəkdir.

Bir daha demək istəyirəm ki, xaricdə bizim fəaliyyətimiz daha da yüksək səviyyədə qurulmalıdır. Bu baxımdan diaspor təşkilatlarının fəaliyyətinə böyük önəm verilməlidir. Diaspor təşkilatlarımız xaricdə çox sıx əməkdaşlıq edir. Türkiyə və Azərbaycan diasporlarının müxtəlif ölkələrdə birgə layihələri, birgə tədbirləri çox uğurludur və əminəm ki, bu, gələcəkdə bizim imkanlarımızı daha da artıracaqdır. Hesab edirəm ki, biz gələn il Türkiyə və Azərbaycan diaspora təşkilatları rəhbərlərinin forumunun keçirilməsi

məsələsinə də baxmalıyıq. Mən təklif edirəm ki, gələn ilin birinci yarısında Azərbaycanda birinci forumu keçirək, Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyətini bir daha təhlil edib, onları istiqamətləndirək.

Bir sözlə, gələcəkdə çox işlər var. Biz türk dünyasını daha da mütəşəkkil şəkildə birləşdirməliyik və türk dünyasında gedən proseslərə biganə qalmamalıyıq. Daim bir-birimizə dəstək olmalıyıq, bir-birimizin problemlərinin həllində iştirak etməliyik. Əminəm ki, birgə səylər nəticəsində türk dünyası dünyada çox böyük imkanlara, çox güclü siyasi mövqeyə malik olacaq və beləliklə, bizim işlərimiz daha da uğurla həyata keçiriləcəkdir. Biz bunu istəyirik. Bugünkü qurultay bu işdə çox böyük önəmi olan addımdır. Mən qurultayın bütün iştirakçılarına uğurlar diləyirəm. Qurultayın keçirilməsində fəaliyyət göstərmiş TÜDEV və TİKA təşkilatlarının rəhbərlərinə öz minnətdarlığımı bildirirəm və bütün türk dünyasına uğurlar, uğurlar və qələbə arzulayıram.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*Antalya,*
*«Sunqate Port Royal» mehmanxanası*

*18 sentyabr 2006-cı il*

*Sentyabrın 18-də Antalyada, «Sunqate Port Royal» mehmanxanasında Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü oldu.*

*Görüşdə ikitərəfli əlaqələr, enerji layihələri, beynəlxalq çərçivədə əməkdaşlıq məsələləri müzakirə edildi.*

*Qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərdən də söhbət gedən görüşdə Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının əhəmiyyətindən də danışıldı. Bildirildi ki, bu qurultay Azərbaycanla Türkiyə arasındakı dostluq, qardaşlıq münasibətlərinin, ümumən, türk dünyasının əlaqələrinin genişlənməsinə öz töhfəsini verəcəkdir.*

* * *

*Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etmək üçün Türkiyədə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Vətənə qayıtdı.*

*Antalyanın hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi hava limanında Antalya şəhərinin bələdiyyə başçısı Menderes Türel, digər rəsmi şəxslər səmimiyyətlə yola saldılar.*

* * *

*Prezident İlham Əliyev sentyabrın 19-da axşam Bakıya gəldi.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Yəhudi xalqının qədim milli bayramlarından olan Roş-Ha-Şana – Yeni il bayramı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Məmnunluq hissi ilə qeyd edirəm ki, bu gün Azərbaycanda milli-etnik və dini tolerantlıq mühiti hakimdir. Ölkəmiz bu cəhətdən bir çox dövlətlər üçün nümunə ola bilər. Bu bizim tarixi nailiyyətimiz olmaqla, xalqımızın mütərəqqi ənənələri, zəngin milli-mənəvi dəyərləri, humanizmi ilə bağlıdır. Azərbaycanın yəhudi icmasına dövlətimizin, xalqımızın və vətəndaşların səmimi dostluq və qayğıkeş münasibəti bunun əyani sübutudur. Müstəqil Azərbaycan dövləti mütərəqqi tarixi ənənələrinə və müasir beynəlxalq normalara uyğun olaraq milli azlıqların, o cümlədən yəhudi icmasının sosial-iqtisadi və mədəni ehtiyaclarına daim diqqət və qayğı göstərmiş və bu siyasəti bundan sonra da davam etdirəcəkdir.

Əsrlər boyu Azərbaycanda məskunlaşıb yaşayan yəhudu icması xalqımızın və cəmiyyətimizin ayrılmaz tərkib hissəsidir. Yəhudi vətəndaşlarımız həmişə Azərbaycan xalqının yanında olmuş, onun sevincini də, kədərini də bölüşmüşlər. Yəhudi icmasının təmsilçiləri ölkəmizin tamhüquqlu vətəndaşları kimi, iqtisadi, sosial-mədəni və ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, eyni zamanda Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, ölkəmizin beynəlxalq əlaqələrinin inkişafına layiqli kömək göstərirlər.

Yeniləşmə və mənəvi saflıq bayramı olan Roş-Ha-Şana hər il Azərbaycanda yəhudi icması tərəfindən təntənə ilə qeyd olunur. Bu əziz gün münasibətilə sizi bir daha səmimi-

qəlbdən təbrik edir, ailələrinizə əmin-amanlıq, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 sentyabr 2006-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN AVROPA KOMANDANININ MÜAVİNİ, GENERAL UİLİAM VORD İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*20 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında ABŞ Silahlı Qüvvələrinin Avropa komandanının müavini, general Uiliam Vordu qəbul etdi.*

*Dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*General Uiliam Vord ölkəmizə ilk səfərindən məmnun olduğunu bildirdi. Prezident İlham Əliyevin ABŞ-a səfərinin müvəffəqiyyətlə həyata keçdiyini qeyd edən ABŞ Silahlı Qüvvələrinin Avropa komandanının müavini ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ PARKDA NEFTÇİLƏR GÜNÜ MÜNASİBƏTİLƏ XALQ GƏZİNTİSİNDƏ

*20 sentyabr 2006-cı il*

*Axşam saatlarında həmişə gur olan dənizkənarı Milli Parkda sentyabrın 20-də xüsusilə qələbəlik idi. Paytaxtın on minlərlə sakini özlərinin əmək hünərləri ilə Odlar yurdu Azərbaycanın tarixinə şanlı səhifələr yazmış neftçilərin peşə bayramı münasibətilə gəzintiyə çıxmışdı.*

*Ulu öndər Heydər Əliyevin müəllifi olduğu ölkəmizin yeni neft strategiyasının əsl təntənəsinə çevrilən bu günlərdə qəhrəman neftçilərimizin öz peşə bayramlarını həmişəkindən daha yüksək səviyyədə qeyd etməyə tam haqqı vardır. Azərbaycan prezidenti İlham Əliyev bayram münasibətilə xalq gəzintisində iştirak etmək üçün Milli Parka gəldi.*

*Neft Bakısının sakinləri, paytaxtımızın qonaqları dövlətimizin başçısını böyük səmimiyyətlə, hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti Dövlət Neft Şirkətinin müxtəlif strukturlarının bədii özfəaliyyət kollektivlərinin çıxışlarına tamaşa etdi. Balaca uşaqların ifasında neftçilər kompozisiyası böyük maraqla qarşılandı.*

*Dövlətimizin başçısı Milli Park boyunca təşkil olunmuş və neft sənayesinin tarixi ilə bağlı sərgiyə, müxtəlif fotostendlərə, habelə maketlərə, ARDNŞ-nin tərkibindəki uşaq bağçalarında tərbiyə alan balacaların istedadından xəbər verən əl işlərinə baxdı. İdmançıların nümunəvi çıxışları da diqqəti cəlb edirdi.*

*Prezident İlham Əliyev həmişə olduğu kimi, bu dəfə də sakinlərlə səmimiyyətlə görüşüb hal-əhval tuturdu. Xoş ünsiyyətdən sevincini gizlətməyən sadə insanlar ölkəmizin neft*

*sənayesinin sürətli inkişafında, ulu öndərin başladığı nəhəng işlərin davam etdirilməsində böyük xidmətləri olan prezidenti əlamətdar bayram münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzularını bildirirdilər.*

*Bütün bunlar, sakinlərin bəzilərinin dövlətimizin başçısını ən əziz adamı kimi bağrına basması xalqımızın müstəqil Azərbaycanın işıqlı, firavan sabahına, bu yolda səylərini əsirgəməyən, həqiqətən, hər bir azərbaycanlının prezidenti olan İlham Əliyevə şəksiz inamının daha bir əyani təzahürü idi.*

## ABŞ DÖVLƏT KATİBİNİN RABİTƏ VƏ İNFORMASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD QROSS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında ABŞ Dövlət katibinin Rabitə və İnformasiya məsələləri üzrə müşaviri Devid Qrossu qəbul etdi.*

*Dövlətimizin başçısı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini vurğuladı. İki ölkənin müxtəlif sahələr üzrə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin bu münasibətlərin daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirən prezident İlham Əliyev cənab Devid Qrossun ölkəmizə səfərinin rabitə və informasiya sahəsində də əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Devid Qross Azərbaycana səfərindən məmnun olduğunu bildirdi və ölkələrimiz arasında rabitə və informasiya sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı.*

## TƏZƏPİR MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARİLAN TƏMİR-TİKİNTİ VƏ ABADLIQ IŞLƏRİ İLƏ TANIŞLIQ

*21 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Təzəpir məscidində və onun ərazisində aparılan təmir-tikinti və abadlıq işləri ilə tanış olmuşdur. Dövlətimizin başçısını burada Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə ehtiramla qarşıladı.*

*Prezidentə məlumat verildi ki, məscidin ərazisində aparılan təmir-tikinti işlərinə bu il iyunun 10-dan başlanmışdır. Burada Qafqaz Müsəlmanları İdarəsinin və İslam Universitetinin inzibati binaları, qonaq evi yerləşəcəkdir. Üç korpusdan ibarət olacaq yeni kompleksin mərkəzində 900 kvadratmetrlik konfrans salonu tikiləcəkdir. Qurbangah, namazgah və yardımçı otaqlar da olacaqdır. Dördmərtəbəli kompleksin ümumi sahəsi 40 min kvadratmetrdir. «İnam H» şirkəti tərəfindən hazırda 6 min kvadratmetr ərazidə tikinti işləri yerinə yetirilir.*

*Prezident İlham Əliyev əvvəlcə Təzəpir məscidinin daxilində aparılacaq təmir işləri ilə maraqlandı, milli memarlıq üslubunda hazırlanmış ayrı-ayrı layihələrə baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, məscidin daxilindəki əsas çilçırağın çəkisi çox ağır olduğu üçün dəyişdiriləcək, işıqlandırma sistemi müasir üslubda qurulacaqdır. Tavan və divar suvaqları ilkin memarlıq nümunələri saxlanılmaqla, yeni texnologiyalar əsasında müasirləşdiriləcək, Qurani-Kərimin ayələrindən yazı-naxışlar, xüsusi dini emblemlər və rəmzlərlə bəzədiləcəkdir. Qapı-pəncərələr də dəyişdiriləcəkdir. Bildirildi ki, 1926-cı ildən məscid kinoteatr kimi istifadə olunduğu üçün binanın daxili quruluşu dəyişdirilmiş, qədimilik əlamətləri*

*itirilmişdi. Ölkəmiz müstəqillik qazandıqdan sonra məscid bir neçə dəfə təmir edilmiş, lakin Bakıda baş vermiş sonuncu güclü zəlzələ nəticəsində divarlarda çatlar əmələ gəlmişdir.*

*Dövlətimizin başçısı məscidin bütünlüklə əsaslı təmir olunmasının, işıqlandırma sisteminin milli üslub qorunub saxlanılmaqla dəyişdirilməsinin zəruriliyini bildirdi.*

*Sonra Azərbaycan prezidenti məscidin ərazisində aparılan tikinti işlərinin gedişi ilə maraqlandı.*

*Şeyxülislam Allahşükür Paşazadə prezident İlham Əliyevin milli, mənəvi və islami dəyərlərin qorunub saxlanılmasına, ölkəmizdə dini ocaqlara diqqət və qayğısını yüksək qiymətləndirdi. Eyni zamanda bildirdi ki, Qafqaz Müsəlmanları İdarəsinin burada yerləşən əvvəlki binası, mədrəsə və ətrafdakı bəzi evlər sökülmüşdür. Üç aydan artıqdır inşaat işləri aparılır. Bütün işlər 2008-ci ilin birinci rübünədək başa çatdırılacaqdır. Təmir-tikinti işlərinə 8,2 milyon dollar sərf olunacaqdır. Əlavə layihələr də nəzərdə tutulubdur. Universitet binası genişləndiriləcək, ərazidə bütün kommunikasiya sistemi yenidən qurulacaqdır. Bütün bu işlər dövlətimizin başçısının təşəbbüsü və dəstəyi ilə aparılır.*

*Prezident İlham Əliyev ətraf ərazini gəzdi, yolların, küçələrin genişləndirilməsinin, məscidin xarici görünüşünə xüsusi diqqət yetirilməsinin zəruriliyini söylədi.*

*Sonra dövlətimizin başçısı məscidin ərazisində tikilən sahələrin layihəsinə, məscidin əvvəlki və üç tərəfdən yeni görünüşünün şəkillərinə, tikintidə istifadə olunan mərmər və daşların nümunələrinə baxdı.*

*Qafqaz Müsəlmanları İdarəsinin, İslam Universitetinin inzibati binaları və qonaq evi bir-birinə bitişik olacaqdır. Burada 100-dək avtomobilin saxlanması üçün yeraltı dayanacaq da tikiləcəkdir.*

*Prezident İlham Əliyev bütün fasadların xüsusi daşlarla üzlənməsinin, əsasən yerli materiallardan istifadə olunmasının, məscid-kompleksin, eləcə də şəhərdə tikilən binaların daha yaraşıqlı görünməsinə xüsusi fikir verilməsinin vacibliyini*

*bildirdi. O, Təzəpir məscidinin ümumi görünüşünün xüsusi əhəmiyyət daşıdığını vurğuladı, məscidin günbəzinin yenidən qurulması, bu istiqamətə gələn əsas yolların genişləndirilməsi, müasir işıqlandırma sistemi ilə təmin olunması, ətrafdakı bəzi sakinlərin köçürülməsi və abadlıq işlərinin aparılması üçün Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyinə müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BERLİN ŞƏHƏRİNDƏ KEÇİRİLƏCƏK «BEYNƏLXALQ BERTELSMANN– 2006» FORUMUNDA İŞTİRAK ETMƏK ÜÇÜN ALMANİYAYA SƏFƏRİ

*22 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Berlin şəhərində keçiriləcək «Beynəlxalq Bertelsmann–2006» Forumunda iştirak etmək üçün sentyabrın 22-də Almaniyaya səfərə yola düşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Almaniyanın paytaxtı Berlinə gəldi. Dövlətimizin başçısını «Tegel» hava limanında Almaniya hökumətinin yüksək vəzifəli şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

***

*Sentyabrın 22-də Karl Bertelsmann Fondunun binasında «Beynəlxalq Bertelsmann–2006» Forumu iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.*

***

*Azərbaycan prezidenti İlham Əliyev, Çernoqoriyanın Baş naziri Milo Cukanoviç və Polşanın keçmiş prezidenti Aleksandr Kvasnevski sentyabrın 22-də, günün sonunda Karl*

*Bertelsmann Fondunun binasında «Demokratiya çağırışı» mövzusunda keçirilən tədbirdə iştirak etmişlər.*

*Azərbaycan prezidenti İlham Əliyev tədbirdə çıxış etmişdir.*

***

*Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Berlində onun üçün ayrılmış iqamətgahda – «Adlon» mehmanxanasında Gürcüstan parlamentinin sədri Nino Burcanadze ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qlobal layihələrin, o cümlədən Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz, Qars–Axalkalaki–Bakı dəmir yolu layihələrinin həyata keçirilməsinin regionda əməkdaşlığa və bölgədə sabitliyə xidmət etdiyi bildirildi.*

*Xanım Burcanadze Gürcüstan prezidenti Mixeil Saakaşvilinin səmimi salamlarını, hörmət və ehtiramını dövlətimizin başçısına çatdırdı, enerji böhranı ilə əlaqədar çətin vəziyyətə düşdüyü zaman Gürcüstana göstərdiyi köməyə görə Azərbaycan prezidentinə və hökumətinə dərin minnətdarlığını bildirdi. O, Azərbaycanda bütün sahələrdə olan böyük inkişafın Gürcüstanda məmnunluqla qarşılandığını söylədi. Prezident İlham Əliyev onun da səmimi salamlarını prezident Saakaşviliyə çatdırmağı xanım Burcanadzedən xahiş etdi. Görüşdə GUAM təşkilatı çərçivəsində əməkdaşlığın, eləcə də ölkələrimizin parlamentləri arasında əlaqələrin möhkəmlənməsi və genişlənməsinin əhəmiyyətli olduğu bildirildi.*

## BERLİNDƏ «BEYNƏLXALQ BERTELSMANN–2006» FORUMUNUN AÇILIŞ MƏRASİMİ

*Almaniya, Berlin şəhəri*

*22 sentyabr 2006-cı il*

*Almaniyanın paytaxtı Berlində sentyabrın 22-də «Beynəlxalq Bertelsmann–2006» Forumunun açılışı oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev forumda iştirak etmək üçün Almaniya Xarici İşlər Nazirliyinin binasına gəldi.*

*Forumu Karl Bertelsmann Fondunun İcraiyyə Komitəsinin üzvü Verner Veidenfeld açaraq iştirakçıları salamladı və gündəlik barədə məlumat verdi. Bildirildi ki, forum hər iki ildən bir Karl Bertelsmann Fondu tərəfindən təşkil edilir. Forumun məqsədi Avropanın ali siyasi, iqtisadi, mədəni və mətbuat dairələri arasında qitənin gələcəyinə dair dialoqun keçirilməsidir. İndiki forumda isə genişlənmiş Avropanın siyasi-iqtisadi perspektivləri müzakirə ediləcəkdir. Almaniyanın Avropa İttifaqına sədrliyi ərəfəsində belə bir forumun təşkili Ümumavropa təşəbbüslərinin həyata keçirilməsinə mühüm təkan olacaqdır. Forumda 20-dək ölkənin dövlət və hökumət başçıları, parlament sədrləri və xarici işlər nazirləri iştirak edir.*

*Sonra Almaniyanın federal kansleri Angela Merkel, Fransanın Baş naziri Dominik de Vilpen, Belçikanın Baş naziri Gi Verhofştadt, Macarıstanın Baş naziri Ferents Dyurçan və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu çıxış etdilər.*

***

*Fasilədən sonra forumun «Balkanlar və Qara dəniz bölgəsi Avropa üçün lakmus kağızı kimi» mövzusunda birinci iclası keçirildi.*

*Azərbaycan prezidenti İlham Əliyev islasda çıxış etdi.*

**İ l h a m  Ə l i y e v:** Cənubi Qafqaz regionu hazırda Avropa üçün mühüm rol oynayır. Xüsusilə, Xəzər dənizinin enerji ehtiyatlarının Avropa bazarlarına çatdırılması indi ciddi əhəmiyyət daşıyır. Ancaq regionda mövcud olan Dağlıq Qarabağ münaqişəsi Avropa–Cənubi Qafqaz əlaqələrinə böyük maneədir. Avropa bu münaqişənin həllində ciddi rol oynayaraq, regionda sülhün bərqərar olmasına çalışmalıdır. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan hazırda neft və qaz hasilatçısına çevrilmişdir. Avropa üçün isə enerji təhlükəsizliyi zamanın tələbidir. Belə olan halda, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş oynamağa hazırdır.

**P i t e r  F r e y** (*Almaniyanın ZDF televiziyasının Berlin ofisinin direktoru)*: Hesab edirəm ki, bu gün çox səmərəli müzakirələr keçiriləcəkdir. Bugünkü müzakirələrdə üç ölkə rəhbərinin iştirak etməsindən şərəf duyuruq. Burada Qara dəniz regionunun gələcəyi ilə bağlı məsələlər müzakirə olunacaqdır. Qara dəniz regionunun təhlükəsizliyi və sabitliyi Avropanın təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edir. Avropa bu region üçün nə edə bilər, Balkanların təcrübəsi Qara dəniz regionu üçün faydalı ola bilərmi? Burada istifadə edə biləcəyimiz siyasi vasitələr mövcuddurmu?

*Müzakirələrdə Rumıniya prezidenti Troyan Besesku, Bolqarıstan prezidenti Georgi Pirvanov, Çernoqoriyanın Baş naziri, Ermənistanın Xarici İşlər naziri iştirak edirdilər.*

*Aparılan geniş müzakirələrdə prezident İlham Əliyev bir çox suallara cavab verdi.*

**P i t e r  F r e y:** İndi isə söz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə verilir.

**Sizin həmkarınız Rumıniya prezidenti Besesku deyir ki, Avropanın Qara dəniz regionu ilə bağlı siyasəti mövcud deyildir. Bununla razılaşırsınızmı? Keçirilən ilk müzakirələrdə Almaniya kansleri Angela Merkel genişləndirmənin dayandırılması ilə bağlı sərt mövqeyini, Fransanın Baş naziri Domi-**

**nik de Vilpen enerji məsələləri ilə bağlı xüsusi mövqeyini bildirdilər. Bu mövqelərdən hansı ilə razılaşırsınız?**

**İ l h a m Ə l i y e v:** Günün ilk yarısında keçirilmiş bütün çıxışlar maraqlı oldu və genişlənmə, enerji, təhlükəsizlik, müdafiə məsələləri ilə bağlı Avropanın qəti siyasətinin müəyyənləşdirilməsi üçün çox əməli xarakter daşıyırdı. Almaniya və Fransanın Baş nazirləri tərəfindən deyilənlər bir-birinə zidd deyildi. Bunlar, sadəcə, Avropanın ehtiyacları və tərəfdaşlarının yeni formada anlaşılması fonunda deyilmiş sözlərdir. Rumıniya və Bolqarıstan Avropa İttifaqının tamhüquqlu üzvlərinə çevrildikdən sonra İttifaqın sərhədləri bizim Xəzər regionuna daha da yaxınlaşacaqdır. Eyni zamanda, sizin də bildiyiniz kimi, biz Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nin həyata keçirilməsinin başlanmasını gözləyirik. Ehtimal ki, bu iki aspekt yeni vəziyyət yaradacaq və hamımız bunu həll etməliyik. Avropa İttifaqı qonşularına, qonşular isə Avropa İttifaqına münasibətdə siyasətlərini müəyyən etməlidirlər.

**P i t e r F r e y: Avropa Sizin regionun təhlükəsizliyinə necə töhfə verə bilər?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, töhfə, ilk növbədə, regionda mövcud olan münaqişələrin həllinə kömək etmək formasında ola bilər. Biz Avropanın qonşularıyıq və bizim ölkələrdə separatçı hərəkatlar mövcuddur. Söhbət Dağlıq Qarabağ, Abxaziya, Dnestryanı və Cənubi Osetiyada mövcud olan separatçı hərəkatlardan gedir. Bütün bu hərəkatların mənşəyi birdir. Onların nəticələri də eynidir: bu separatçı hərəkatlar suveren dövlətlərin ərazilərinin işğal olunmasına gətirib çıxarmışdır. Avropa bizə ərazi bütövlüyünün və beynəlxalq hüquq normaları və prinsiplərinin bərpasına kömək etməklə münaqişələrin həllində əməli rol oynaya bilər. Azərbaycan ərazilərinin 20 faizini işğal etmiş Ermənistan indi özünü çox rahat hiss edir. Belə ki, ona qarşı Avropa tərəfindən heç bir ciddi siyasi təzyiq edilmir. Buna görə də münaqişələrin qiymətləndirilməsi ilə bağlı açıq siyasi mesajlar

verilməli, münaqişələrin həlli üçün tərəfdaşlara kömək edilməli və regionda sülh bərpa olunmalıdır.

**P i t e r F r e y: Bu məsələ Balkanlarda olan vəziyyətlə müqayisə oluna bilər. Bu region ilə bağlı Avropa İttifaqı son 10–15 il ərzində öz siyasətini həyata keçirmişdir. Sizin fikrinizcə, Avropanın keçmiş Yuqoslaviyada tətbiq etdiyi vasitələr sizin regionunuz üçün də faydalı ola bilərmi?**

**İ l h a m Ə l i y e v:** Bunu demək çox çətindir. Hər bir regionun özünün spesifik xüsusiyyətləri var. Keçmiş Yuqoslaviya təcrübəsini Cənubi Qafqazda tətbiq etmək çox çətindir. Çünki bunlar fərqli regionlardır. Əsas odur ki, burada açıq siyasət olsun. Bizim region Avropa üçün həqiqətən də mühüm regiona çevrilir. Rumıniya prezidenti Besesku enerji təchizatının çoxşaxəliliyi və enerji təhlükəsizliyi barədə danışdı. Xəzər dənizinin enerji ehtiyatları haqqında danışanda bilməliyik ki, Azərbaycanın enerji ehtiyatlarından söhbət gedir. Azərbaycanın nefti və qazı Azərbaycan tərəfindən inşa edilmiş boru kəmərləri vasitəsilə Avropaya nəql olunacaqdır. Sonra Xəzər hövzəsində olan digər dövlətlər bu kəmərlərə qoşula bilər və əgər bu, baş verərsə, tamamilə yeni vəziyyət yaranacaqdır. Beləliklə, Xəzər regionunun Azərbaycan və Cənubi Qafqazın təhlükəsizliyi, enerji ehtiyatlarının nəqli və onun şaxələndirilməsi məsələlərində əhəmiyyəti artmaqdadır. Buna görə də regiona olan diqqət daha da artmalıdır.

Azərbaycanın öz maraqları var. Bu gün Fransanın Baş naziri bildirdi ki, avropalıların maraqları onlar üçün ilkin əhəmiyyət daşıyır. Mən bu fikri dəstəkləyirəm. Avropalılar üçün bu, düzgün yanaşmadır. Bununla yanaşı, Azərbaycan üçün də onun maraqları ilkin əhəmiyyət daşıyır. Ermənistan tərəfindən pozulmuş ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın marağındadır. Avropanın da region ilə bağlı öz maraqları var. Bu maraq enerji mənbələrinin şaxələndirilməsi və regionun təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır.

Gəlin bunların hamısını birləşdirək. Bu halda, əməkdaşlığımız hər iki tərəfə fayda gətirəcəkdir.

**P i t e r F r e y:** Prezident Əliyev, Sizə təşəkkür edirəm.

***

*Bütün çıxışlarda münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin əsas şərt olduğu birmənalı şəkildə vurğulandı. Bu məntiq qarşısında aciz qalan Ermənistanın Xarici İşlər naziri Vardan Oskanyanın saxta, yalan və böhtan dolu uzun uydurmaları salonda gülüş doğurdu və tədbirin aparıcısı Ermənistanın xarici siyasət idarəsinin rəhbərinin çıxışını yarımçıq kəsməli oldu.*

*Milo Cukanoviç (Çernoqoriyanın Baş naziri) keçmiş Yuqoslaviyaya daxil olmuş ölkələrdəki milli-etnik qarşıdurmaların həlli təcrübəsindən danışdı, münaqişələrin həll edilməməsinin ölkələrin inkişafına ciddi maneə törətdiyini vurğuladı, ərazi iddiaları ilə bağlı problemlərin sülh yolu ilə həllinin ən optimal yol olduğunu söylədi.*

*Bolqarıstan prezidenti Georgi Pirvanov isə əsasən, Qara dəniz regionunda təhlükəsizlik məsələləri ilə bağlı sualları cavablandırdı.*

**P i t e r F r e y: Prezident Əliyev, Sizinlə «Yeni qonşuluq siyasəti» barədə danışmaq istərdim. Sizin fikrinizcə, bu siyasətin zəruri elementləri hansılar olmalıdır?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, Avropa İttifaqının bütün tərəfdaşları və Avropaya inteqrasiya prosesinə cəlb olunmuş bütün dövlətlər üçün müəyyən mərhələdə, mümkün qədər tez bir vaxtda, Avropa İttifaqından onun gələcək strategiyası barədə açıq mesaj almaları olduqca vacibdir. Bu gün biz Avropa İttifaqının genişlənməsi prosesinin dayandırılması barədə fikirlər eşitdik. Buna işarə olan başqa fikirlər də söylənildi. Gələcək strategiyamızı müəyyən etmək üçün burada açıq anlaşma olmalıdır. Azərbaycan kimi ölkələr çoxşaxəli xarici siyasət həyata keçirir. Biz eyni zamanda,

qısa və uzunmüddətli xarici siyasətimizi müəyyənləşdiririk. Ona görə də bizim üçün Avropa İttifaqı ilə münasibətlərdə hazırda hansı mərhələdə olduğumuzu, perspektivlərimizi və bu münasibətlərin gələcəyini bilmək çox vacibdir. Əgər bu münasibətlər yalnız «Yeni qonşuluq siyasəti» üzərində qurulacaqsa, bunu indidən bilməli və siyasətimizi buna uyğun müəyyənləşdirməliyik. Əgər Avropa İttifaqına üzvlük üçün imkan varsa, bu tamamilə fərqli vəziyyət yaradır. Bu baxımdan potensial qonşular və ya üzvlər olaraq gələcək münasibətlərimizin perspektivlərini bilməliyik ki, əlaqələrimizi proqnozlaşdıra bilək, möhkəm əsaslar üzərində quraq və bundan qarşılıqlı surətdə faydalanaq.

* * *

*Rumıniya prezidenti Troyan Besesku münaqişələrin həllində beynəlxalq təcrübənin tətbiqinin mümkünlüyü ilə bağlı sualı cavablandırarkən Vardan Oskanyanın millətlərin öz müqəddəratını təyin etməsi barədə beynəlxalq hüquq normalarının müddəalarını təhrif olunmuş şəkildə izah etmək cəhdi də çox uğursuz alındı. Troyan Besesku buna cavab olaraq həmin məsələyə bir daha qayıtdı.*

**Troyan Besesku:** Avropadakı səlahiyyətlərin həvalə edilməsi prinsipi, ehtimal ki, Sizin danışdığınız icmalarda istifadə olunmur. Bütün Avropaya nəzər salsanız görərsiniz ki, azlıqlar müxtəlif ölkələrin daxilində muxtariyyətə malik olur, lakin beynəlxalq hüquq normaları və Avropa standartları imkan vermir ki, hər hansı bir ərazidə yığcam şəkildə yaşayan azlıq öz dövlətini yaratsın. Müxtəlif yerlərdə yaşayan azlıqlara müstəqil respublika yaratmaq imkanı verilsəydi, Avropanın indiki halını təsəvvür etmək çətin olardı. Mən hesab edirəm ki, əgər biz səlahiyyətlərin həvalə edilməsi prinsipini anlamasaq, yəni milli azlıqlara özünüidarə hüququnun verilməsini başa düşməsək, onda biz bütün Avropa üçün ümumi problem yaratmış olacağıq.

**İ l h a m Ə l i y e v:** Ermənistan istisna olmaqla, Avropanın hər bir ölkəsində azlıqlar yaşayır. Ermənistan azlıqların yaşamadığı yeganə monoetnik ölkədir. Bunun səbəbini onların özlərindən soruşmaq yaxşı olardı. Milli azlıq olmaq yaşadığın ərazini dövlətdən ayırmaq, başqa bir dövlətin ərazi bütövlüyünü pozmaq hüququna malik olmaq demək deyildir. Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanıda təcavüzkar separatizm həyata keçirilmişdir. Bu gün tanınmamış, qanunsuz Dağlıq Qarabağ kimi qondarma qurumlar hamımız üçün böyük təhlükə yaradır. Bu ərazilər hər cür nəzarətdən kənarda qalıb, burada heç bir beynəlxalq hüquq norması işləmir. Bu ərazilərdə bütün növ qanunsuz hərəkətlər həyata keçirilir. Buna görə də tanınmamış bu qondarma qurumlar Avropa üçün ən böyük təhlükədir. Onlar özlərini «dövlət» adlandırırlar. Ermənistanda Dağlıq Qarabağın «müstəqilliyi» qeyd edilərkən iki erməni dövlətinin mövcudluğu barədə danışılırdı. Bu, yalnız başlanğıcdır. Təsəvvür edin ki, bu prinsip təsbit edilərsə, nələr baş verə bilər! Dünyada nə qədər erməni dövləti yaranacaq və bu bizi haraya gətirib çıxaracaq?

***

*Növbəti sual Avropanın genişləndirilməsi mövzusuna həsr olundu. Bolqarıstan prezidenti Georgi Pirvanov öz ölkəsinin bu məsələyə münasibətini açıqladı. Suala Azərbaycan prezidenti İlham Əliyev də cavab verdi.*

**İ l h a m Ə l i y e v:** Azərbaycana gəlincə, deməliyəm ki, biz hələ Avropa İttifaqına üzvlük məsələsini müzakirə etmirik. Ölkəmiz «Yeni qonşuluq siyasəti»nin həyata keçirilməyə başlanılması mərhələsindədir. Bu, 5 il müddət üçün nəzərdə tutulmuşdur. Qonşuluq siyasətinin həyata keçirilməsi bizə cəmiyyətimizin bütün sahələrini təkmilləşdirməyə, siyasi islahatları, demokratikləşmə prosesini davam etdirməyə, vətəndaş cəmiyyəti qurmağa, bütün azadlıqları təmin etməyə

kömək edəcəkdir. Bununla Azərbaycan Avropa İttifaqının üzvləri üçün tələb edilən meyarlar səviyyəsinə qalxacaqdır. Biz həmçinin Avropa İttifaqının əhalisinin fikirlərini də anlamalı və nəzərə almalıyıq. Onlar yeni üzvlərin Avropa İttifaqına qəbul olunmasını istəyirlərmi və ya İttifaqın sərhədlərinin genişləndirilməsi haraya qədərdir?! Avropa İttifaqı daim genişlənə bilməz. Əks halda, bu qurumun normal fəaliyyəti mümkün olmayacaqdır. Buna görə də, əvvəldə qeyd etdiyim kimi, potensial üzvlər öz perspektivlərini qabaqcadan bilməlidirlər. Bizim tərəfimizdən də açıq mesaj olmalıdır ki, Avropa qarşısında öhdəliklərimizin hüdudu nə dərəcədədir. Bu iki şeyi birləşdirsək, münasibətlərimizin hansı mərhələdə olduğunu görərik. Bütün işlər qarşılıqlı fayda, anlaşma və hörmət əsasında qurulmalıdır.

***

**S u a l: Zəngin təbii sərvətlərə malik olan Azərbaycan üçün Avropaya inteqrasiya nə qədər vacibdir?**

**İ l h a m Ə l i y e v:** İlk növbədə, onu deməliyəm ki, Azərbaycan Avropada mövcud olan demokratiya səviyyəsinə catmasa, enerji ehtiyatlarının ölkəmizin bütün tələbatlarını ödəməsi mümkün olmayacaqdır. Biz neft hasil edən ölkələrin təcrübəsini araşdırmışıq. Bu ölkələrin əksəriyyətində iri enerji ehtiyatlarının olmasına baxmayaraq, onlar uğur əldə edə bilməmişlər. Burada çox güclü ictimai nəzarət, şəffaflıq və cavabdehlik təmin olunmalıdır. Biz bunu Avropanın inkişaf etmiş ölkələrində görürük. Ona görə də «Yeni qonşuluq siyasəti»nə qoşulmaq, Avropaya inteqrasiya etmək bizim daxili tələbatımızdan irəli gəlir.

Əlbəttə, Azərbaycan çox zəngin bir ölkəyə çevriləcəkdir. Ermənistanın Xarici İşlər nazirini məyus etmək istəməzdim, lakin deməliyəm ki, Dünya Bankının proqnozlarına görə, qarşıdan gələn 20 il ərzində, neft qiymətləri normal götürüldükdə belə, Azərbaycan 140 milyard dollar vəsait qaza-

nacaqdır. Bu vəsait bizə çox işləri görməyə kömək edəcəkdir. Lakin eyni zamanda, biz bu kapitalı insan kapitalına çevirməyi bacarmalıyıq. Biz təhsil sahəsinə sərmayələri artırmaq, yaxşı səhiyyə xidmətinə malik olmaq, başqa sözlə, Avropa ölkələrinin əldə etdikləri nailiyyətlərə çatmaq istəyirik.

Beləliklə, Avropaya inteqrasiya etməyimizin bünövrəsində möhkəm əməli əsaslar durur. Eyni zamanda, bu, qonşularla aramızda mövcud olan mühüm məsələləri həll etməyə də imkan verəcəkdir. Siyasətimizin Avropa istiqaməti çox vacibdir, ABŞ-la gözəl əlaqələrimiz mövcuddur. Ərazilərimizi işğal etmiş Ermənistan istisna olmaqla, bütün qonşularımızla yaxşı münasibətlərimiz var, islam ölkələri arasında mövqelərimiz güclüdür. Eyni zamanda, Avropa ölkələri ilə də yaxşı əlaqələrimiz var. Bütün bunlar Azərbaycanın sürətli inkişafı üçün çox gözəl şərait yaradır.

**S u a l: Mən ABŞ-ın Avropa İttifaqındakı sabiq səfiriyəm. Bu vəzifəyə qədər Qafqaz və Xəzər dənizi regionu ilə bağlı işlərdə çalışmışam. Sualım enerji ilə bağlıdır. Biz Rusiyadan Avropaya çəkilmiş boru kəmərləri barədə çox dinlədik. Bakı–Tbilisi–Ceyhan neft boru kəməri bu il istismara verilmişdir. Tezliklə qaz kəməri Azərbaycan ilə Türkiyəni birləşdirəcəkdir. İndiyə qədər enerji ehtiyatlarının Qara dənizlə ya Rumıniya, yaxud da Bolqarıstan vasitəsilə Avropaya nəqli ilə bağlı konkret plan olmayıbdır. Avropa sizin regionun enerji ehtiyatlarının nəqli məsələsi ilə bağlı fəal olubmu və hörmətli prezidentlərin fikrincə, Avropa alternativ mənbə kimi sizin regionun enerji ehtiyatlarının inkişafı üçün nə etməlidir?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə ki, Azərbaycanın tərəfdaşları ilə əldə etdiyi nailiyyətlər bütünlükdə regionun inkişafına təsir göstərmişdir. Burada məsələ sadəcə, boru kəmərləri, Azərbaycan nefti və qazının dünya və Avropa bazarlarına nəqli məsələsi deyildir. Geniş regional əməkdaşlıq həyata keçirilir. Bu sahədə Qazaxıstan ilə hökumətlərarası saziş

imzalanmışdır. Bu amillər bütün siyasi və iqtisadi şəraiti dəyişmişdir.

Avropanın enerji strategiyasına gəlincə, təəssüf ki, burada vahid siyasət görmürük. Belə ki, Avropada neft və qazdan danışanda hər kəs öz maraqlarını düşünür. Azərbaycan uzun müddət Avropa İttifaqının enerji siyasəti proqramına cəlb olunmaq üçün çox çalışmışdır. Yalnız keçən qış fəslində baş vermiş hadisələrdən sonra biz bu sahədə müəyyən təkliflər alırıq və bu da Avropa İttifaqının bizə marağını göstərir. Neft və qaz sahəsində qarşılıqlı əməkdaşlıq üçün çox gözəl potensialımız mövcuddur. Azərbaycan Avropaya qazı nəql edəcək yeganə yeni alternativ mənbəyə çevrilir. Çünki bütün digər alternativlər artıq fəaliyyət göstərir. Əlbəttə ki, bu bizim ölkənin, regionun əhəmiyyətini artırır. Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa ölkələri böyük bir layihəyə cəlb olunublar və bu, regionu daha da sabit və təhlükəsiz edəcəkdir.

**Piter Frey:** Sizin hamınıza təşəkkürümü bildirirəm.

## Karl Bertelsmann Fondunda «Demokratiya çağırışı» mövzusunda müzakirələr

*Azərbaycan prezidenti İlham Əliyev, Çernoqoriyanın Baş naziri Milo Cukanoviç, Polşanın keçmiş prezidenti Aleksandr Kvasnevski və İsveçin keçmiş Baş naziri Karl Bildt sentyabrın 22-də Karl Bertelsmann Fondunun binasında «Demokratiya çağırışı» mövzusunda müzakirələrdə iştirak etmişlər.*

**Aleksandr Kvasnevski:** Prezident Əliyev mənim yaxın dostumdur. Biz ilk dəfə prezident kimi deyil, vacib qurum sayılan milli olimpiya komitələrinin rəhbərləri kimi görüşmüşük.

**İlham Əliyev:** Mən hələ də həmin komitənin prezidentiyəm.

**A l e k s a n d r   K v a s n e v s k i:** Cənab İlham Əliyev hələ də Azərbaycan Milli Olimpiya Komitəsinin sədridir. Mən isə yox. Artıq təqaüddəyəm. Fərq məhz bundadır.

İndi isə mən Azərbaycan mövzusuna keçmək istəyirəm. Ölkəniz müxtəlif dövrlər yaşamışdır – qədim dövr, sonralar Sovetlər Birliyinin tərkibində olmusunuz, hazırda demokratik dövlət qurursunuz və qarşınızda yeni imkanlar açılır. İndi isə biz sual və cavablardan ibarət müzakirəyə keçəcəyik. Lakin bunu etməmişdən əvvəl xahiş edirəm, ölkənizin bu günü haqqında bizə qısa məlumat verəsiniz. Bir prezident kimi, Sizin fikrinizcə, gələcək 5 il üçün ölkənizin qarşısında duran ən vacib məsələlər hansılardır?

**İ l h a m   Ə l i y e v:** Bilirsiniz, bugünkü Azərbaycan haqqında qısa danışmaq olduqca çətindir. Xüsusən də qarşıdakı 5–10 il ərzində ölkədə hansı işlərin yerinə yetirilməsi ilə bağlı planlar haqqında danışmaq üçün çox vaxt lazımdır.

İlk növbədə, mən burada çox yaxşı dostum Aleksandrı salamlamaq istəyirəm, sonuncu dəfə biz görüşəndə o hələ prezident idi. Amma artıq o, prezident deyil, lakin mən onu yaxşı əhval-ruhiyyədə görməyə çox şadam. O həmişəki kimi çox enerjilidir, ideyaları çoxdur.

**A l e k s a n d r   K v a s n e v s k i:** Həyat davam edir.

**İ l h a m   Ə l i y e v:** Hazırda bizim ölkəmiz müstəqilliyinin ilk və ən vacib mərhələsini yaşayır. Müstəqilliyimizin 15 ilindən sonra deyə bilərik ki, ölkəmizin əsas problemlərinin əksəriyyəti artıq arxada qalıbdır. Bu gün siyasi və iqtisadi baxımdan Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Hazırda bizim ümumi daxili məhsulumuzun artımı dünyada ən yüksək göstəricidir. Son il bu rəqəm 26 faiz, bu ilin 8 ayı ərzində 36 faiz təşkil etmişdir. Son üç il ərzində Azərbaycanda təqribən 500 minə yaxın yeni iş yeri açılmışdır. Hazırda biz, əsasən təbii sərvətlərimizin insan kapitalına çevrilməsi üzərində işləyirik.

Biz təhsil, yeni texnologiyalar kimi sahələrə sərmayələrin necə qoyulması üzərində işləyirik. Bu addımları ona görə

atırıq ki, gələcəkdə neft və qaz hasilatından və enerji daşıyıcılarının qiymətlərindən asılı olmayaq və müasir cəmiyyət quraq. Azərbaycan Avroatlantik strukturlarına sürətlə inteqrasiya etməkdədir. Biz Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»ndə, NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı»nda fəal iştirak edirik. Ölkəmizdə demokratikləşmə prosesi gedir. Azərbaycan dünyəvi dövlətdir. Ölkəmizdə dini dözümlülük çox yüksək səviyyədədir. Mühüm coğrafi mövqedə yerləşən Azərbaycan bir sıra böyük beynəlxalq və regional layihələrin təşəbbüskarıdır.

Biz hazırda nəhəng enerji layihələrini başa çatdırmaq üzrəyik. Xəzər dənizindən Aralıq dənizinə qədər çəkilmiş boru kəməri artıq istismara verilib və beləliklə, biz Avropa bazarlarına çıxış əldə etmişik. Bütün bunlar inkişaf üçün çox möhkəm, hərtərəfli əsaslar yaradır. Biz iqtisadi inkişaf və enerji təchizatı baxımından müstəqilik. Bu o deməkdir ki, biz əsl müstəqil ölkəyik, əhalinin ehtiyac və tələbatlarının ödənilməsinə yönəlmiş müstəqil siyasət həyata keçiririk. Əminəm ki, qarşıdakı beş il ərzində güclü siyasi və iqtisadi sistemə malik olacaq ölkəmiz davamlı, demokratik və açıq cəmiyyət yolu ilə inkişaf edəcəkdir.

**A l e k s a n d r   K v a s n e v s k i:** Hesab edirəm ki, bu tədbirdə bəzi formalaşmış stereotipləri aradan qaldırmaq üçün yaxşı imkan yaranıbdır. Bunlardan bəzilərinə cavab olaraq demək istəyirəm ki, əlbəttə, Siz heç də atasını prezident vəzifəsində əvəz edən ilk şəxs deyilsiniz. Bu cür hallar digər ölkələrdə də olur. Bəzi Avropa ölkələrində belə bir stereotip mövcuddur ki, Azərbaycanda hələ də siyasi partiyalar sistemi yetkin deyil, onlar hələ də nəzarət altındadır.

**İ l h a m   Ə l i y e v:** Əlbəttə ki, bizdə siyasi sistem keçid dövrünü yaşayır. 15 il bundan əvvəl biz tamamilə başqa sistemdə yaşamışıq. İndi biz inteqrasiyaya doğru addımlayırıq. Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»ndə iştirak etmək, Avropa Şurası kimi təşkilatlardakı fəaliyyət nəyə görə bizim üçün vacibdir? Çünki bu bizə Avropa İttifaqında olan

dəyərlərə uyğunlaşmağa, ən azı, bu dəyərlərə yaxın olmağa və onları təkmilləşdirməyə kömək edir. Belə ki, dünyada digər ölkələrin müsbət və mənfi təcrübəsinə nəzər yetirsəniz görərsiniz ki, bu sahədə ən yaxşı nailiyyətlər, demək olar, Avropada əldə olunub: açıq və demokratik cəmiyyət, güclü iqtisadiyyat və sair. Nəyə görə biz bu gün Avropa İttifaqı ölkələri tərəfindən bir sıra problemlərə dair bəyanatlar eşidirik? Bunlardan biri də miqrasiya problemidir. Nə səbəbdən belə bir problem yaranır? Çünki Avropa cəmiyyəti cəlbedicidir. Bizim qarşımızda bu cür yaxşı nümunə mövcuddur. Biz də öz siyasi sistemimizi təkmilləşdiririk. Siyasi sistemimiz hələ tam formalaşmayıb və bu da təbiidir, başqa cür ola da bilməz. Çünki bizdə siyasi sistemin heç bir ənənəsi də olmayıbdır. Bu nə sovet vaxtlarında, nə də ondan əvvəldə mövcud olubdur. Ona görə də, hesab edirəm ki, Avroatlantik məkana inteqrasiya və əməkdaşlıq prosesləri bizə çox güclü siyasi sistemi qurmağa kömək edəcəkdir.

O ki qaldı bayaq söylədiyiniz məqama, mənim dostum, sizin ölkənizdə ailə hökuməti var.

**Aleksandr Kvasnevski:** Əlbəttə, hətta bizdə hakimiyyətdə əkizlər var.

İcazənizlə, mən son sualımı verim, çünki sonra biz müzakirələrin yeni mərhələsinə keçəcəyik. Qarşıdakı 5 ildə ölkənizdə siyasi vəziyyəti proqnozlaşdırsaq, Azərbaycanda hansı siyasi partiyaları görürsünüz, ümumiyyətlə, onların ideoloji konsepsiyasını necə görürsünüz?

**İlham Əliyev:** Əminəm ki, bizim partiya həmişə qalib gələcək.

**Aleksandr Kvasnevski:** Mənim prezident Əliyevə növbəti sualım Cənubi Qafqazdakı vəziyyətlə bağlıdır. Sualımın birinci hissəsi belədir: regionda vəziyyəti necə görürsünüz? İkincisi, Rusiya ilə münasibətləriniz nə yerdədir?

**İlham Əliyev:** Qafqazdakı vəziyyət mürəkkəbdir. Nəyə görə? Çünki bu kiçik məkanda üç münaqişə var, yəni Cənubi Qafqaz ölkələrində üç separatçı hərəkat mövcuddur:

Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiyada. Onların hamısının eyni kökləri var, yəni təcavüzkar separatizm. Onların nəticələri də eynidir. Həmin münaqişələr nəticəsində Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü pozulubdur. Bunun nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşərək, əziyyət çəkməkdədir. Azərbaycanlılara və gürcülərə qarşı etnik təmizləmə siyasəti aparılmış və ölkələrimiz bu cür humanitar fəlakətdən əziyyət çəkmişlər. Hazırda biz danışıqlar prosesindəyik və çalışırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Beynəlxalq ictimaiyyət bizi bu münaqişəni dinc yolla həll etməyə çağırır, amma bu çox çətindir. Çünki siz bunu yalnız o vaxt həll edə bilərsiniz ki, qarşı tərəfin buna həvəsi və ya arzusu olsun. Lakin əgər qarşı tərəf mövcud olan status-kvonu qanuniləşdirməyə çalışırsa, hərbi əməliyyatların ilkin mərhələsini leqallaşdırmaq istəyirsə, onda lazımi nizamlanmaya nail olmaq çox çətindir.

Biz hesab edirik ki, Cənubi Qafqazdakı münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmalıdır. Bizim arzularımız ola bilər, Ermənistan tərəfinin arzuları ola bilər. Lakin bu, nizamlanma üçün əsas ola bilməz. Məsələnin aradan qaldırılmasının yalnız hüquqi əsasları olmalıdır. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycan Dağlıq Qarabağ ərazisi də daxil olmaqla, BMT-yə üzv qəbul edilibdir.

Dağlıq Qarabağ tarixi nöqteyi-nəzərdən Azərbaycanın ərazisidir. Ermənilər Dağlıq Qarabağa XIX əsrin birinci yarısında gəliblər. Bu, məlum faktdır. Hüquqi baxımdan bu region Azərbaycanın ərazisidir. Ona görə də biz bu məsələni yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etmək istəyirik. Biz Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusunun verilməsini təklif etmişik. Bu bizim tərəfimizdən ediləcək maksimum güzəştdir. Lakin onlar, sadəcə olaraq, Azərbaycandan ayrılmaq və qondarma «müstəqilliyini» bəyan etmək arzusu

ilə yaşayır və beləliklə, ölkəmizin ərazi bütövlüyünün parçalanmasına nail olmaq istəyirlər. Bu da mümkün deyildir.

Bir sözlə, tarixi həqiqət, eləcə də siyasi vəziyyət bizim tərəfimizdədir. Yenə deyirəm, hüquqi baxımdan bu bölgə Azərbaycan ərazisidir. İqtisadi baxımdan Ermənistan üçün Azərbaycanla ayaqlaşmaq get-gedə çətin olacaqdır. Bizim bugünkü iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından 6 dəfə böyükdür. Gələn il 10 dəfə çox olacaq və bu, get-gedə daha da artacaqdır. Bəzən Avropadakı siyasətçilər bizə irad tutur ki, hərbi büdcəmizi artırırıq. İlk növbədə, onu demək istəyirəm ki, bu bizim suveren hüququmuzdur. İkincisi, bizim büdcəmiz ümumi həcmlə artır. Son üç il ərzində Azərbaycanın büdcəsi 4 dəfə artmışdır. Təbii ki, belə olan halda, hərbi xərclərimiz də artır.

Mən bir daha demək istəyirəm ki, biz problemi dinc yolla həll etmək istəyirik. İqtisadi baxımdan Azərbaycan olduqca güclü ölkəyə çevrildikdən sonra, hərbi əməliyyatlar haqqında düşünmək mütləq xarakter daşımayacaqdır. Yəni ərazi bütövlüyümüzün bərpa edilməsi üçün bir çox digər vasitə və yollar mövcud olacaqdır. Ermənistan rəhbərliyi bunu nə qədər tez başa düşsə, onların özləri üçün bir o qədər yaxşı olacaqdır. Vaxt ötdükcə bizim mövqeyimiz daha da möhkəmlənəcək və sərtləşəcəkdir. Prinsip etibarilə bu münaqişə regional inkişafa olan əsas təhlükədir. Xüsusən də regionumuzda son illər ərzində aparılan böyük əməkdaşlıq layihələrini nəzərə alsaq, bu münaqişə ən böyük potensial təhlükədir.

Regionumuzda böyük həcmdə neft və qaz hasilatı başlanır. Hazırda Xəzər dənizində neft ehtiyatlarının dünyanın neft şirkətləri ilə əməkdaşlıq edən Azərbaycan tərəfindən işlənilməsi nəticəsində enerji daşıyıcıları Aralıq dənizi vasitəsilə dünya və Avropa bazarlarına çıxarılır. Bu çox milyardlıq sərmayələrdir. Bu layihə nəinki regionda aparılan əməkdaşlığa, o cümlədən regionda və ondan kənarda cərəyan edən siyasi proseslərə də təsir göstərir. Ona görə də biz

həmin potensial təhlükənin aradan qaldırılması üçün birgə çalışmalıyıq. Hesab edirik ki, Avropa İttifaqı da bu baxımdan daha fəal rol oynaya bilər.

ATƏT problemi həll etmək mandatına malikdir. BMT-nin Təhlükəsizlik Şurası erməni qüvvələrinin Azərbaycanın zəbt olunmuş torpaqlarından qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul etmişdir. Onlar hələ də yerinə yetirilməyibdir. Avropa İttifaqının bu baxımdan mövqeyi vacibdir, çünki Avropa İttifaqı artıq bizim qonşumuzdur. Biz də öz tərəfimizdən Avropa İttifaqına daha da yaxınlaşırıq və onun «Yeni qonşuluq siyasəti»ndə iştirak edirik. Ona görə də, digər təşkilatlardan fərqli olaraq, Avropa İttifaqı regionda təhlükəsizliyin olmasında daha da maraqlıdır. Çünki biz qonşuyuq. Bu münaqişə olduqca ciddi təhlükədir. Münaqişənin dondurulmuş vəziyyətdə olması bizdə yanlış təsəvvür yaratmamalıdır. Bəzi hallarda dondurulmuş münaqişələr, ümumiyyətlə, yaddan çıxarılır. İnsanlar hesab edir ki, hər şey normaldır, tərəflər danışıqlar aparır. Lakin belə hesab etmək lazım deyildir. Çünki sülh çox kövrəkdir və onun pozulması çoxlu təhlükələr yarada bilər.

**Aleksandr Kvasnevski:** Mən, eyni zamanda, Rusiya ilə bağlı sual verdim. Xahiş edərdim, bu haqda da danışasınız.

**İlham Əliyev:** Bizim Rusiya ilə yaxşı münasibətlərimiz var. Biz qonşuyuq. Mən sizə deyə bilərəm ki, təqribən 10 il bundan əvvəl Rusiya ilə Azərbaycan arasında olan münasibətlər çox pis idi. Həmin vaxt Rusiya açıq formada erməni separatçılarını dəstəkləyirdi. Rusiya 1 milyard dollar həcmində hərbi avadanlıq və texnikanı qeyri-qanuni olaraq Ermənistana ötürmüşdü. Bu məsələ ilə bağlı Rusiya Dövlət Dumasında böyük qalmaqal yarandı və beləliklə, bizim Rusiya ilə münasibətlərimiz çox gərgin xarakter aldı. Lakin birgə səylərlə biz ziddiyyətli məsələlərdə razılığa gələ bildik və indi ölkələrimizin münasibətləri, demək olar ki, qonşular arasında olan münasibətlərə nümunə ola bilər. Rusiya kimi

böyük ölkə ilə Azərbaycan arasındakı münasibətlər qarşılıqlı hörmət, daxili işlərə qarışmamaq və dostluq prinsiplərinə əsaslanır.

Biz, Azərbaycan xalqının tələbatlarına və maraqlarına uyğun siyasət aparırıq. Siyasətimiz müstəqildir. Siyasi, iqtisadi münasibətlərdə, o cümlədən dünya ictimaiyyəti ilə qurduğumuz əlaqələrdə siyasətimiz müstəqildir. Mən sizə deyə bilərəm ki, bu siyasət özünü doğruldur. Bizim ABŞ-la strateji tərəfdaşlıq münasibətlərimiz də mövcuddur. Eyni zamanda, bizim İKT-yə üzv olan ölkələrlə də yaxşı münasibətlərimiz var. Bizim qonşularla olan münasibətlərimiz müsbətdir. Rusiyadan başqa, bizim İranla da yaxşı münasibətlərimiz var. Bir sözlə, bütün bunlar mümkündür. Həmin amillər regionda təhlükəsizliyin və sabitliyin bərqərar olmasına xidmət edir. Çünki bizim yerləşdiyimiz region olduqca mürəkkəbdir.

Bəzən Avropada mövcud olan meyarlar avtomatik qaydada bizim regiona tətbiq edildikdə, nəticələr fərqli olur. Burada, Avropada sizin öz qonşularınız var. Bizim qonşularımız var və onlar da fərqlidir. Təbii ki, qonşular da həmsərhəd olan ölkələrdə gedən proseslərə təsir göstərir. Bizim də əldə etdiyimiz nailiyyətlər qonşu ölkələrdə gedən proseslərə təsir göstərir. Bu, nəzərə alınmalıdır.

Son 15 il ərzində Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması bizim üçün prioritet xarakterli məsələ olmuşdur. Çünki ölkəni, sadəcə, müstəqil elan etmək və müstəqilliyə aid olan müəyyən qanuni atributların olması kifayət deyildir. Biz hər gün müstəqilliyimizi möhkəmləndirməli idik. İndi isə bu proses artıq başa çatıbdır. Ölkəmiz bu gün güclüdür və biz qonşularımızla yaxşı münasibətdə olmalıyıq. Zənnimcə, digər ölkələr də bunu arzulamalıdır. Aleksandr, siz bu məsələni iki dəfə qaldırdığınıza görə, çalışdım ki, bu suala hərtərəfli cavab verim.

**A l e k s a n d r K v a s n e v s k i:** Bəli, Rusiya böyük ölkədir, ona görə də mən bu məsələni xüsusi qaldırdım. Bəs

Avropa və ABŞ-a gəldikdə, Sizin bunlarla münasibətləriniz nə yerdədir?

**İ l h a m Ə l i y e v:** Bir ölkə olaraq, biz bu gün həmin əməkdaşlığı davam etdirmək istəyirik. Həmin əməkdaşlıq qarşılıqlı surətdə olduqca faydalıdır və artıq yaxşı tarixə malikdir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bizə elə gəlirdi ki, kimsə gəlib bizə dərhal kömək edəcəkdir. Kimsə gəlib bizə mütləq qaydada yardım etməlidir. Bəlkə də bu cür münasibət Azərbaycanın keçmişdə uzun illər və əsrlər boyu digər ölkənin tərkibində olması ilə bağlı idi. Bəlkə də bunun başqa səbəbləri var idi. Ola bilsin, kimsə düşünürdü ki, bütün dünya Azərbaycanın müstəqil olması ilə əlaqədar ölkəmiz haqqında və orada baş verən hadisələr barədə düşünməlidir. Lakin vaxt keçdikcə biz anladıq ki, bütün işlər yalnız özümüzdən asılıdır. Əgər bizim imkanlarımız böyük olsa, güclü olsaq, müdrik addımlar atsaq, onda biz yaxşı əməkdaşlıq qura biləcəyik. Əgər belə olmasa, biz öz yerimizi tuta bilməyəcəyik. Biz hesab edirik ki, gələcəyimiz və taleyimiz yalnız özümüzdən asılıdır. Ona görə biz ölkəmizi sıfır səviyyəsindən qurmağa başladıq. Hətta mən deyərdim ki, bu səviyyədən də aşağı, çünki Azərbaycan olduqca acınacaqlı vəziyyətdə idi. Ölkəmizdə vətəndaş müharibəsi, işğal, siyasi və iqtisadi böhran mövcud idi. Vaxt keçdikcə Azərbaycan gücləndi və apardığı əməkdaşlığın səviyyəsi artmağa başladı. İndi isə həmin əməkdaşlıq birtərəfli deyil, artıq ikitərəfli qaydada aparılır.

Azərbaycan dünyada enerji təchizatı və təhlükəsizliyi sahəsində mühüm ölkəyə çevrilməyə başlayır. Biz ABŞ-la beynəlxalq terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq edirik və dünyanın müxtəlif yerlərində aparılan sülhməramlı əməliyyatlarda iştirak edirik. Biz Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizi rolunu oynayırıq. Bir çox layihələrin təşəbbüskarıyıq və onları amerikalı və avropalı dostlarımızla həyata keçiririk. Biz ABŞ-la, Avropa İttifaqı ilə qarşılıqlı fayda verən əməkdaşlığı genişləndirmək arzusundayıq. Xü-

susən də «Yeni qonşuluq siyasəti»nə gəldikdə, hesab edirəm ki, biz bir çox praktiki məsələləri qonşuluq proqramına daxil etməliyik. Azərbaycan xalqı üçün maraqlı ola biləcək konkret məsələlərin ortaya qoyulması olduqca vacibdir. Biz burada yardım və ya maliyyə dəstəyindən danışmırıq. Bizə bu mərhələdə həmin yardım lazım deyil. Biz indi Azərbaycanda həyat tərzi standartlarını Avropadakı standartlara yaxınlaşdırmaq istəyirik. Bu baxımdan, Avropa İttifaqı və ABŞ ilə əməkdaşlığımız Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir.

Hazırda beynəlxalq ictimaiyyətin iştirakına ehtiyac duyulan yeganə məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasıdır. Əgər beynəlxalq ictimaiyyət münaqişənin həllində mühüm rol oynamasa, hadisələr gözlənilməz istiqamətdə cərəyan edə biləcəkdir. İndi Ermənistanla Azərbaycan arasında olan qüvvələr tarazlığı artıq mövcud deyildir.

İndi Ermənistanla Azərbaycan arasında inkişaf sahəsində mövcud olan fərq get-gedə artır və bu, hər il artacaqdır. Bir sözlə, qüvvələrin tarazlıqda olması bir növ sabitliyin amili idi. Lakin bu gün bu, artıq mövcud deyildir. Ona görə də əgər bu məsələnin həllində bizə yardım edilməsə və beynəlxalq ictimaiyyət münaqişənin aradan qaldırılmasında lazımi dərəcədə fəal olmasa, onda hadisələr öz məntiqi ilə inkişaf edə bilər və Azərbaycandakı vəziyyət bu cür davam etsə, gələcəkdə ona nəzarət etmək çətin olacaqdır. Bu ən əsas təhlükədir. Bu elə bir sahədir ki, biz burada Avropa İttifaqı və Birləşmiş Ştatlar tərəfindən olduqca böyük diqqətin və əməkdaşlığın şahidi olmalıyıq. Çünki bu bizim ümumi təhlükəsizliyimizə aid olan məsələdir.

**Aleksandr Kvasnevski:** Əgər sizin ölkədə güclü iqtisadiyyat və maliyyə imkanlarınız olarsa, onda gələcəkdə vəziyyət nəzarət altından necə çıxa bilər? Bunu necə təsəvvür etmək olar?

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, ölkə torpaqları 10 ildən çox müddət ərzində işğal altında olduğu zaman, ölkədə 1 milyondan çox qaçqın və məcburi köçkün olan təqdirdə və zəbt edilmiş ərazilərdə hər bir şeyin dağıdıldığı halda, vəziyyət daha da mürəkkəbləşir. Ötən il ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal edilmiş ərazilərində olmuş və hesabat hazırlamışdır. Orada deyilir ki, zəbt olunmuş torpaqlarda, xüsusən də Azərbaycanın işğal edilmiş 7 rayonunda bütün evlər yerlə-yeksan olunubdur. Belə olan halda, xalqın səbri tükənir, iqtisadi və hərbi nöqteyi-nəzərdən ölkə gücləndikcə, bizim imkanlarımız da artır.

Gələn il bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır. Belə olan halda, Ermənistanın sülh prosesini pozması ilə barışmaq çətin olacaqdır. Mən əvvəldə də qeyd etdim ki, Ermənistan bu gün razılığa gəlməlidir. Çünki hazırda biz danışıqlar masası arxasında ən münasib təklifi irəli sürmüşük. Azərbaycanın imkanları genişləndikcə, bizim mövqeyimiz də sərtləşəcəkdir.

**A l e k s a n d r  K v a s n e v s k i:** Mən isə belə düşünürəm ki, iqtisadiyyatda, büdcədə və hərbi xərclərdə bu cür yaxşı imkanlar artdıqca, məhz sülh yolu ilə məsələnin çözülməsi də mümkün olacaqdır. Yəni kompromisin tapılması üçün bu, ən münasib vaxt olacaqdır. Bu Sizin təşəbbüsünüzdür və Sizin tərəfdən beynəlxalq ictimaiyyətə təklif edilə bilər. Bu imkandan istifadə etmək lazımdır. Çünki 3-4 ildən sonra nəyin baş verəcəyini, yəni neft və qazın qiymətinin hansı səviyyədə olacağını demək çətindir. Hesab edirəm ki, məsələnin Sizin təşəbbüsünüz əsasında həlli üçün münasib vaxtdır.

**İ l h a m  Ə l i y e v:** Siz haqlısınız və biz mümkün olan ən yaxşı təklifi irəli sürmüşük. Əgər digər oxşar vəziyyətlə bu münaqişəni müqayisə etsək görərik ki, yalnız biz bu cür ən yüksək statuslu muxtariyyətin verilməsini təklif etmişik. Bu bizim edə biləcəyimiz maksimum təklifdir. Biz ermənilərin Dağlıq Qarabağı Ermənistana vermək arzusu ilə razılaşa

bilmərik. Bu heç vaxt baş tutmayacaqdır. Lakin biz güzəştlərə əsaslanan konstruktiv və düzgün təklifimizin rədd edildiyini və sülh prosesinin Ermənistan tərəfindən pozulduğunu gördükdə, bundan çox məyus oluruq.

Bu yaxınlarda Ermənistanın Xarici İşlər naziri bizim nazirimizlə görüşməkdən imtina etdi. Bilirsiniz nə səbəbə görə? Çünki GUAM ölkələri BMT çərçivəsində dondurulmuş münaqişələri müzakirə etmək təklifi ilə çıxış etmişdir. Onlar isə dedilər: «Əgər siz bunu etsəniz, biz sizinlə görüşməyəcəyik». Yaxşı, bir tərəf danışıqlar prosesindən imtina etdikdə, biz nə edə bilərik? Ermənistan tərəfi daimi olaraq sülh prosesini pozur. Keçmişdə bir neçə dəfə belə hadisələr baş vermişdir, yəni hər iki tərəf məsələnin həllinin sonuna yaxınlaşdığı bir anda, Ermənistanda nə isə baş verirdi. Birinci dəfə Ermənistan prezidenti Ter-Petrosyan sazişi imzalamağa razı olduqda, ona qarşı dövlət çevrilişi edildi. Ermənistanın bugünkü prezidenti o vaxt Baş nazir idi. Sonra o, birdən-birə prezident oldu və Ter-Petrosyanı bu işlərdən uzaqlaşdırdı. İkinci dəfə, Aleksandr, hadisə Sizin Bakıda olduğunuz zaman baş verdi. Ermənistan parlamentində terror aktları törədildi. Hər zaman biz məsələnin vacib nöqtəsinə yaxınlaşdığımız halda, Ermənistanda nə isə baş verir və danışıqlarda əldə olunan irəliləyiş heçə endirilir. Biz iki il ərzində Praqa prosesi formatında işlədik və sazişin imzalanmasına yaxın olduq. Sonra Ermənistan tərəfi Fransada, Rambuyedə oxşar münasibət nümayiş etdirdi. Ermənistan tərəfi, sadəcə, danışıqları tərk etdi. Onlar fiziki mənada danışıqları tərk etdilər. Belə bir halda biz nə edə bilərik?

**Aleksandr Kvasnevski:** Mən hesab edirəm ki, yaxşı bir görüş alındı və fikrimcə, bu məsələnin həlli üçün Sizin şəxsən yaxşı imkanlarınız var. Hazırda bu məqsəd üçün ən münasib şərait yaranıbdır. Bir çox məsələlər Sizdən asılıdır və əgər bu məsələni həll etsəniz, biz hamımız Sizə Nobel mükafatının verilməsinə səs verəcəyik. Bunu mütləq

qaydada etmək lazımdır. Sizi inandıra bilərəm ki, hazırda bu kiçik imkan Sizin əlinizdədir.

***

*Müzakirələrdə İsveçin keçmiş Baş naziri Karl Bildt dünya siyasətində Avropanın aparıcı rolunun saxlanılması və gücləndirilməsi məsələlərindən danışdı. O, xalqların bir-birinə daha çox yaxınlaşmasının və demokratik dəyərlərə sadiqliyinin Avropa məkanında sabitliyə və tərəqqiyə ən etibarlı zəmanət olduğunu bildirdi.*

*Çernoqoriyanın Baş naziri Milo Cukanoviç müstəqillik qazanmış ölkəsində gedən proseslərdən söhbət açdı, demokratik təsisatların bərqərar olması üçün Avropa təcrübəsindən bəhrələnmək baxımından belə tədbirlərin əhəmiyyətini vurğuladı.*

## ÖLKƏMİZİN ALMANİYADAKI SƏFİRLİYİNİN YENİ BİNASI İLƏ TANIŞLIQ

*23 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də ölkəmizin Almaniya Federativ Respublikasındakı səfirliyinin yeni binası ilə tanış olmuşdur.*

*Səfirliyin əməkdaşları dövlətimizin başçısını ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev səfirlik binasının baş planı ilə tanış oldu.*

*Məlumat verildi ki, 1910-cu ildə tikilmiş və əvvəllər şəxsi yaşayış evi olmuş bina səfirliyin fəaliyyəti üçün çox münasibdir. Onun bundan sonra 60 il ərzində texniki təhlükəsizliyinə təminat verilmişdir. Üçmərtəbəli, alman memarlığı üslubunda tikilmiş binada yaxın vaxtlarda təmir işlərinə başlanacaqdır. Həyətyanı ərazisi ilə birlikdə ümumi sahəsi 1500 kvadratmetrdir.*

*Almaniya paytaxtının qərb hissəsində mənzərəli ərazidə yerləşən binanın rəsmi açılışı gələn ilin sonuna nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev ayrı-ayrı mərtəbələri gəzdi, aparılacaq təmir-bərpa işləri ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

***

*Berlin şəhərində keçirilən «Beynəlxalq Bertelsmann–2006» Forumunda iştirak etmək üçün Almaniyada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Vətənə yola düşdü.*

*Prezident İlham Əliyevi «Tegel» hava limanında Almaniya hökumətinin yüksək vəzifəli şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

*Prezident İlham Əliyev sentyabrın 23-də Bakıya gəldi.*

## MƏŞHUR NEFTÇİ-GEOLOQ FƏRMAN SALMANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Moskvada yaşayan görkəmli həmyerlimiz, məşhur neftçi-geoloq, tanınmış alim Fərman Salmanovu qəbul etmişdir.*

*Yenidən doğma vətənə gəlməsindən, dövlətimizin başçısı ilə görüşməsindən böyük sevinc və şərəf duyduğunu söyləyən Fərman Salmanov ulu öndər Heydər Əliyev ilə görüşlərini daim məmnunluqla xatırladığını bildirdi. O, müstəqil Azərbaycanın hərtərəfli inkişafından qürur hissi keçirdiyini vurğuladı.*

*Fərman Salmanov 75 illiyi münasibətilə təbrikə görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev keçmiş SSRİ-də neft sənayesinin inkişafında misilsiz xidmətlər göstərmiş Fərman Salmanovun bu gün də Rusiyada Azərbaycanı və xalqımızı layiqincə təmsil etdiyini vurğuladı. Dövlətimizin başçısı görkəmli həmyerlimizə möhkəm cansağlığı, uğurlar arzuladı.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB XU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Milli bayramınız – Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Çin arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Çox şadam ki, qədim tarixi ənənələri olan münasibətlərimiz bu gün sabit inkişaf yolundadır. Əminəm ki, dost ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, əlaqələrimizin hərtərəfli genişləndirilməsi naminə qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 sentyabr 2006-cı il*

## NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Nigeriya xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 sentyabr 2006-cı il*

## QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LANSANA KONTEYƏ

Hörmətli cənab Prezident!

Qvineya Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qvineya arasında təşəkkül tapmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 25 sentyabr 2006-cı il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİNZO ABEYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Yaponiya münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı dostluq əlaqələri, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2006-cı il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HÖRST KOLERƏ**

Hörmətli cənab Federal Prezident!

Ölkənizin milli bayramı – Alman Birliyi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan–Almaniya əlaqələrinin hazırkı səviyyəsi dost ölkələrimiz arasında çoxşaxəli əməkdaşlıq münasibətlərinin mövcudluğunu bariz şəkildə ifadə edir. Əminəm ki, bu münasibətlər zəminində əldə etdiyimiz nailiyyətlər bundan sonra da xalqlarımızın və ölkələrimizin rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2006-cı il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Almaniya arasındakı münasibətlərin inkişafına xüsusi əhəmiyyət veririk.

Əlaqələrimizin əhatə dairəsinin gündən-günə genişlənməsi, həm ikitərəfli qaydada, həm də beynəlxalq formatda əməkdaşlığımızın uğurla davam etməsi böyük məmnunluq doğurur.

Bu günlərdə ölkənizdə keçirilmiş «Beynəlxalq Bertelsmann–2006» Forumu çərçivəsində aparılan geniş müzakirələr, ətraflı fikir mübadiləsi Ümumavropa proseslərinə və təşəbbüslərinə dair baxışlarımızın və mövqelərimizin üst-üstə düşdüyünü bir daha təsdiq etdi. Fürsətdən istifadə edərək forumda iştirak etmək üçün ölkənizə səfərim zamanı göstərilən qonaqpərvərliyə, diqqət və qayğıya görə Sizə təşəkkür edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2006-cı il*

## QƏTƏRİN «ƏL-CƏZİRƏ» TELEYAYIM KORPORASİYASININ ƏMƏKDAŞLARINA MÜSAHİBƏ

*Prezident sarayı*

*27 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Qətərin «Əl-Cəzirə» teleyayım korporasiyasının Moskva bürosunun əməkdaşları Əbdülmunim Salim Adilə və Hüda Xəlil Rahməyə müsahibə vermişdir. Bu müsahibə oktyabrın 15-də «Əl-Cəzirə» telekanalı ilə yayımlanmışdır.*

**– Cənab Prezident, icazə verin, müsahibəmizə çox mühüm hesab etdiyim sualla başlayım. Artıq üç ilə yaxındır ki, atanız, prezident Heydər Əliyev haqq dünyasındadır. Onun rəhbərliyi illərində Azərbaycan irəliyə doğru addımladı. O, yenidən əldə edilmiş dövlətçiliyin təşəkkülü sahəsində ilk tədbirlərə başladı. İndi, respublikaya Sizin başçılıq etdiyiniz vaxtda özünüzü atanızın dövlətçiliyi möhkəmləndirməsi işinin davamçısı hesab edirsinizmi və bu gün Sizin üçün ən önəmli məqsəd hansıdır?**

– Təbii ki, özümü Heydər Əliyevin işlərinin davamçısı hesab edən təkcə mən deyiləm, indi baş verənləri Azərbaycan xalqı da məhz belə qəbul edir. Mən bu vəzifəyə başlayanda bildirmişdim ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə bir çox illər ərzində həyata keçirilmiş nə varsa, hamısını davam etdirəcəyəm. O illər Azərbaycan üçün həlledici illər olmuşdur, çünki dövlətimizin özünün varlığı sual altında idi. Azərbaycanda cərəyan etmiş mənfi proseslər ölkəmizin dövlətçiliyinə, əslində, son qoya bilərdi. Heydər Əliyevin xidməti, ilk növbədə, ondadır ki, o, müstəqilliyimizi

qoruyub saxladı, möhkəmləndirdi və Azərbaycanı elə bir səviyyəyə çıxardı ki, ölkəmizin hərtərəfli inkişafı heç kimdə heç bir sual və şübhə doğurmur.

İndi qarşımızda duran vəzifə bu möhkəm təməl əsasında inkişaf etmiş iqtisadiyyata və siyasi sistemə malik müasir dövlət, bizim hamımızın fəxr edə biləcəyimiz ölkə yaratmaqdan ibarətdir. Son üç ildə bu istiqamətdə böyük uğurlara nail olmağımız məndə məmnunluq hissi və atamın başladığı və həyata keçirdiyi və indi bizim müvəffəqiyyətlə davam etdirdiyimiz işlərə görə qürur hissi doğurur.

**– Cənab Prezident, təbii ki, Azərbaycan üçün ən ağrılı problemlərdən biri təkcə Dağlıq Qarabağın deyil, həm də onun hüdudlarından kənarda 7 rayonun işğalıdır. Hazırda Azərbaycanın ATƏT və digər beynəlxalq təşkilatlar, o cümlədən BMT Baş Məclisi vasitəsilə göstərdiyi diplomatik səylərin uğuruna inanırsınızmı?**

– Bizim göstərdiyimiz səylər hələlik əməli nəticə verməmişdir. Əlbəttə, bu bizdə, Azərbaycan rəhbərliyində və ictimaiyyətində böyük narahatlıq doğurur. Çünki bu vəziyyət 10 ildən çoxdur davam edir. Azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə Dünya Birliyi tərəfindən pislənməmişdir. Halbuki 1 milyondan çox adam Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmışdır. Sərhədləri bütün dünya tərəfindən tanınan suveren dövlətin ərazisinin – bizim ərazi bütövlüyümüz BMT tərəfindən də tanınır – işğalına Dünya Birliyi tərəfindən lazımi münasibət göstərilməmişdir. Bu işğal nəticəsində torpaqların 20 faizi zəbt olunmuş, 1 milyondan çox azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilmişdir. Başqa sözlə, bütün bunlar uzun illər davam edən ən böyük ədalətsizlikdir. Təəssüf ki, Dünya Birliyi bu işğala son qoymaq üçün təcavüzkara lazımi təsir göstərmir. Biz münaqişənin sülh yolu ilə həlli üçün səy göstəririk, lakin eyni zamanda əmin oluruq ki, ciddi hərbi, siyasi, diplomatik və iqtisadi vasitələr olmasa, işğala son qoymaq çətin, bəlkə də qeyri-mümkün olacaqdır. Buna görə də ATƏT çərçivəsin-

də danışıqlar prosesini davam etdirərək, habelə bu məsələnin müzakirəsinə yeni qurumları, o cümlədən BMT Baş Məclisini, Avropa Şurasını, İslam Konfransı Təşkilatını və digər təşkilatları cəlb etməklə biz dinc yolla nizamasalma üçün bütün imkanlardan istifadə etmək istəyirik ki, problemin sülh yolu ilə həlli üçün hər şeydən istifadə edib-etmədiyimiz barədə gələcəkdə heç bir şübhəmiz qalmasın.

Bununla yanaşı, biz ölkəmizi möhkəmləndiririk, iqtisadiyyatımızı, müdafiə sahəsini möhkəmləndiririk. Azərbaycana yatırılan çox böyük məbləğdə sərmayələr ona gətirib çıxartdı ki, bu gün bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından 6 dəfə üstündür, gələn il isə 10 dəfə artıq olacaqdır. Təbii ki, bütün bunlar məsələnin həlli üçün bizdən ötrü getdikcə daha əlverişli şərait yaradacaqdır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin birinci yarısında köçürülmüşlər. Dağlıq Qarabağın hüdudlarından kənardakı ərazilərin əhalisi yüz faiz azərbaycanlılar idi. Dağlıq Qarabağ əhalisinin təxminən 30 faizi azərbaycanlılar idi. Bu kifayət qədər çoxdur. Bir sözlə, həm tarixi, həm də hüquqi baxımdan ədalət bizim tərəfimizdədir. İqtisadi potensial baxımından Ermənistan bizim üçün artıq rəqib deyildir. Hərbi potensial nöqteyi-nəzərindən bu gün Azərbaycan ordusu Qafqazda ən güclü ordudur və onun gücü artır, çünki biz hərbi büdcəmizi hər il artırırıq. Gələn il isə bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır.

Bütün energetika, iqtisadi layihələrimiz tamamilə həyata keçirildikdən sonra Azərbaycan çox güclü dövlətə çevriləcəkdir. Ermənistan bizimlə yarışa bilməyəcəkdir. Ona görə də Ermənistan rəhbərliyi bu yolun fəlakətliliyini, perspektivsizliyini və münaqişə sülh yolu ilə nizama salınmasa, Dağlıq Qarabağ və Ermənistan əhalisini necə bir təhlükəyə məruz qoyacaqlarını başa düşməlidir.

**– Bir halda ki, Azərbaycanın hərtərəfli – iqtisadi, sənaye və hərbi baxımdan möhkəmləndiyindən danışırıq, onda demək**

**olarmı, elə bir hədd, elə bir sərhəd varmı ki, artıq ondan sonra Siz belə qənaətə gələcəksiniz ki, bütün sülh və diplomatiya imkanları tükənmişdir?**

– Bilirsiniz, danışıqlar prosesinin lap əvvəlindən, 1994-cü ildən bu proses hansısa formatda gedirdi, hansısa təkliflər müzakirə edilirdi. Tərəflər əsasən ATƏT-in Minsk qrupundan gələn təkliflər ətrafında dialoq aparırdılar. Lakin hansısa mərhələdə, nizamasalma prinsiplərinin az-çox hansısa ümumi anlaşmasına gəlib çıxdıqda, danışıqlar pozulurdu. Özü də erməni tərəfinin təqsiri üzündən pozulurdu. Əvvəlcə Ermənistanda çevriliş oldu və rəhbərlik zorakılıq yolu ilə dəyişdi və danışıqlar pozuldu. Sonra Ermənistan parlamentində dövlət terrorizmi aktı törədildi, Ermənistan hakimiyyətinin nümayəndələri öldürüldü və beləliklə, danışıqlar yenidən pozuldu, sonrakı mərhələlər də həmçinin. Ermənistan tərəfi son anda həmişə danışıqlardan yayınır.

İndiki danışıqlar formatı mərhələli həlli nəzərdə tutan Praqa prosesi formatıdır, yəni Ermənistanın işğalçı qüvvələrinin ərazilərimizdən çıxarılmasını, Dağlıq Qarabağın statusunun müzakirə edilməsini və təhlükəsizliyi möhkəmlətmək sistemini, habelə sülhyaratma əməliyyatını nəzərdə tutur. Ümumən, söhbət bundan gedir. Yəni, bu əslində yekun mərhələsidir və əgər o, erməni tərəfinin qeyri-konstruktiv mövqeyi ilə pozulsa, onda nə Minsk qrupu həmsədrlərinin, nə də münaqişə tərəflərinin danışıqları davam etdirmək üçün daha imkanları, sadəcə, qalmayacaqdır. Yəni, gələcəkdə danışıqlar nəyin ətrafında aparılacaqdır? Ona görə də biz hesab edirik ki, indiki mərhələdə danışıqlar prosesini erməni tərəfinin pozması danışıqların dayandırılmasına gətirib çıxara bilər. Lakin biz başa düşürük ki, danışıqlar dayanarsa, onda bundan sonra nəsə baş verməlidir. Biz oturub heç nə etməyə bilmərik, nə vaxtsa nə isə baş verəcəyini gözləyə bilmərik. Biz ya danışıqlar prosesində, ya da bu prosesdən kənarda olmalıyıq. Əgər biz danışıqlar prosesindən kənarda olsaq, onda Azərbaycan danışıqların aparılmasına dair bütün

öhdəlikləri öz üzərindən götürəcəkdir və bu məsələdə öz strategiya və taktikamızı dəyişəcəyik. Əlbəttə ki, onda istənilən digər variantlar müzakirə ediləcəkdir.

Dediyim kimi, Azərbaycanın güclü iqtisadi potensiala malik olduğu və Azərbaycanla müqayisədə Ermənistanın zəif ölkə olduğu bir şəraitdə dərhal hərbi əməliyyat barədə düşünmək zəruri deyildir.

Hərbi əməliyyat sonuncu addımdır. Yəni Azərbaycanın çox böyük maliyyə, insan ehtiyatları, nəhəng intellektual potensialı olduğu halda, məqsədə çatmağımız üçün bizim çox imkanlarımız olacaqdır. Sadəcə olaraq, Ermənistanda anlamalıdırlar ki, proses bizim xeyrimizə inkişaf edir.

Bəli, əlbəttə, prosesin uzanması bir milyon qaçqın-köçkünümüzün əzab-əziyyəti ilə müşayiət olunur. Lakin biz onlara kömək etməyə çalışırıq, onlar üçün yeni müasir şəhərlər və qəsəbələr salırıq. Biz qaçqın-köçkünləri cəmiyyətin gündəlik həyatına inteqrasiya etməyə çalışırıq. Onlar üçün müvəqqəti də olsa, normal həyat şəraiti yaratmağa çalışırıq, çünki əminik ki, onlar öz torpaqlarına qayıdacaqlar. Buna görə də münaqişənin uzanması üzündən insanlarımız narahatlıq və əziyyət çəkirlər. Lakin Ermənistanda anlamalıdırlar ki, prosesin inkişafı baxımından onların tutduğu yol heç yerə aparmır. Onların mövqeyi yalnız özlərinin təsəvvürlərinə və arzularına əsaslanır. Bizim mövqeyimiz isə beynəlxalq hüquq normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü hamı tərəfindən – ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransa, Avropa İttifaqı və islam aləmi, bütün dünya tərəfindən tanınmışdır. BMT Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanımışdır. Ona görə də Ermənistan ya diasporun, ya da dünyanın müxtəlif ölkələrində Ermənistanı qurban kimi qələmə verməyə cəhd göstərən satqın, riyakar siyasətçilərin köməyinə uzun müddət arxalana bilməz. Bu çox davam etməyəcəkdir. Bizim aramızda qüvvələr tarazlığı olanda, hərbi və iqtisadi potensialımız müəyyən dərəcədə təxminən

bərabər olanda, onlar belə fəaliyyəti davam etdirə bilirdilər. Biz bu tarazlığı pozduq. Bu tarazlıq daha yoxdur və aramızdakı fərq artacaqdır.

Dağlıq Qarabağ məsələsi bizim bir nömrəli problemimizdir. Bizim maliyyə imkanlarımız, siyasi qüvvəmiz, bizim regiondakı mövqeyimiz şəraitində, enerji ehtiyatları baxımından Azərbaycanın region üçün, Avropa üçün vacibliyi şəraitində Ermənistan bizimlə rəqabət apara bilməz. Onlar bunu anlamalıdırlar. Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyi naminə, Ermənistan əhalisinin təhlükəsizliyi naminə onlar işğal olunmuş ərazilərdən könüllü surətdə çıxmalıdırlar.

**– Biz eşidirik ki, Rusiya strateji tərəfdaşdır, Birləşmiş Ştatlar da Sizə yaxındır, hələ Türkiyəni demirik. Siz hansı xarici siyasəti yeridirsiniz?**

– Bilirsinizmi, daxili siyasət kimi, xarici siyasət də elə bir amildir ki, hamının gözü qarşısındadır. Biz Azərbaycanda səmimi siyasət yeridirik. Başqa sözlə, siyasətimizdə heç bir ikimənalılıq yoxdur – həm rəsmi görüşlərdə, həm bəyanatlarımızda, həm qəbul etdiyimiz qərarlarda biz daim həm ictimaiyyət üçün, həm də xarici tərəfdarlarımız üçün düzgün, açıq siyasət yeridirik. Çünki biz dünyada yalnız o vaxt nüfuz və hörmət qazana bilərik ki, prioritetlərimiz haqqında açıq danışaq, bütün məsələlərə dair mövqeyimizi açıq bəyan edək və tərəfdaşlarımızla əməkdaşlıq etməyə çalışaq. Bəzən, bəlkə də müəyyən amillərin təsiri altında belə təsəvvür yaranır ki, öz aralarında hansısa problemləri olan ölkələrlə normal əməkdaşlıq etmək mümkün deyildir. Azərbaycanın təcrübəsi bunu təkzib edir.

Siz Rusiya ilə strateji tərəfdaşlıq münasibətlərimizi xatırlatdınız. Hazırda bu münasibətlər Azərbaycan müstəqillik qazandığı vaxtdan bəri ən yüksək səviyyəyə çatmışdır və biz bundan çox razıyıq. Bu, Rusiyanın da, bizim də maraqlarımıza cavab verir. Amerika Birləşmiş Ştatları ilə münasibətlərimiz barədə də eyni sözləri demək olar. Strateji tərəf-

daşlıq və müxtəlif sahələrdə əməkdaşlıq münasibətlərimiz qarşılıqlı surətdə faydalı və regionun inkişafı üçün çox vacibdir. Türkiyə bizim ən yaxın tərəfdaşımızdır, Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkədir, bizi möhkəm qardaşlıq və əməkdaşlıq telləri bağlayır. Eyni sözləri bizim digər qonşumuz – Gürcüstan haqqında da deyə bilərəm. Biz Gürcüstanla müxtəlif sahələrdə – siyasi, iqtisadi münasibətlər sahəsində, energetika layihələrində fəal əməkdaşlıq edirik. Bizim digər qonşumuz İrandır. Onunla hazırkı münasibətlərimiz ictimaiyyətin əhval-ruhiyyəsini tam əks etdirir və çox şadıq ki, bu münasibətlər ən yüksək səviyyəyə qalxmışdır və bizim aramızda heç bir problem yoxdur, hərçənd, bəzən onları süni surətdə yaratmağa cəhd göstərirlər.

Avropa İttifaqı ilə münasibətlərimiz bu gün yeni mərhələyə keçir. Avropa İttifaqı Cənubi Qafqaz üçün, o cümlədən Azərbaycan üçün tərəfdaşlıq və qonşuluq proqramı təklif etmişdir. Energetika sahəsində də yaxşı perspektivlər açılır. İslam Konfransı Təşkilatında mövqelərimiz möhkəmlənir. Hazırda Azərbaycan burada nazirlər səviyyəsində həmsədrdir.

Görürsünüz, bütün bunlar ölkənin inkişafı üçün əlverişli imkanlar açır. Bizim başlıca vəzifəmiz Azərbaycanı uğurla inkişaf etdirmək, riskləri minimuma endirmək, bütün ehtiyatlarımızı optimallaşdırmaq və iqtisadi, sosial inkişafa nail olmaqdır. Bunu yalnız sərhədlərimizdə vəziyyət yaxşı olduqda, əsas tərəfdaşlarımızla münasibətlər yaxşı olduqda təmin etmək olar. Biz buna nail ola bilmişik. Bizim təcrübəmiz göstərir ki, ayrı-ayrı ölkələr arasındakı ziddiyyətlər Azərbaycan üçün heç bir rol oynamır. Biz həmişə demişik ki, Azərbaycanın mənafeyi birinci yerdədir. Bura, ölkəmiz rəqabət meydanı deyil, əməkdaşlıq meydanıdır. Biz buna nail ola bilmişik.

Odur ki, bizim xarici siyasət prioritetlərimiz çoxşaxəlidir və bir-birini tamamlayır.

**– Cənab Prezident, bir halda ki, İranı xatırladınız, belə bir sualı verməyə bilmərəm. O cümlədən İran ətrafında, onun nüvə dosyesi ətrafında yaranmış vəziyyət barədə. İran yaxın qonşunuzdur və onun əhalisinin xeyli hissəsi azərbaycanlılardır. Siz bu məsələnin həllini necə təsəvvür edirsiniz?**

– Bəli, İran yaxın qonşumuzdur və siz düzgün qeyd etdiniz ki, İranda çox böyük sayda azərbaycanlılar yaşayırlar və əlbəttə ki, biz onların taleyinə biganə deyilik. Ümumiyyətlə, regional miqyasda qonşunun təhlükəsizliyi sənin təhlükəsizliyin deməkdir. Bu aksiomadır. Bizim yanaşmamız məhz belədir. Ona görə də hesab edirik ki, narahatlıq doğuran hər bir məsələ danışıqlar yolu ilə, sülh yolu ilə həll edilməlidir. Burada təzyiq, hədə-qorxu gəlmək metodları məqbul deyil, onların heç bir xeyri olmayacaqdır.

Dünyanın istənilən digər ölkəsi kimi, İranın da öz atom energetikasını inkişaf etdirmək hüququ var. Burada qanuna zidd bir şey yoxdur. Əgər bu, müəyyən təşkilatlarda və ya ölkələrdə narahatlıq doğurursa, bu məsələni nizama salmaq lazımdır. Elə bir anlaşmaya gəlmək gərəkdir ki, hər iki tərəf mövcud vəziyyətdən razı qalsın. Əgər narahatlıq əsaslıdırsa, o, aradan qaldırılmalıdır. Lakin hər bir dövlətin suveren hüququ da mütləq həyata keçirilməlidir. Ona görə də biz ancaq danışıqlar yoluna tərəfdarıq və hesab edirik ki, bu, yeganə mümkün yoldur.

**– Cənab Prezident, hamımız bilirik ki, İranın Ermənistanla, bu gün düşməniniz olan, Azərbaycan ərazisinin böyük bir hissəsini, təxminən 20 faizini işğal etmiş ölkə ilə də yaxşı münasibətləri var. Bu Sizi narahat edirmi, yoxsa, əksinə, ümid edirsiniz ki, bu münasibətlər vəziyyətin nizama salınması işində kömək edə bilər?**

– Bilirsinizmi, təbii ki, bu məsələlər ictimai qavrayış səviyyəsində, ictimai rəy səviyyəsində Azərbaycanda narahatlıq doğurur. Deyək ki, sənin ərazini işğal etmiş ölkəni təsəvvürə gətirin. Təbii ki, biz bu ölkənin beynəlxalq əlaqələrinə və onunla kimlərin dost olduğuna, kimlərin dost

olmadığına həmişə diqqət yetiririk. Lakin digər tərəfdən, beynəlxalq münasibətlər sistemi mövcuddur. Qonşularımızdan təkcə İranın deyil, başqalarının da Ermənistanla yaxşı münasibətləri var. Yəni bu, Azərbaycan tərəfindən siyasi qərarlar qəbul edilməsinə təsir göstərə biləcək amil olmamalıdır. Əksinə, çalışmalıyıq ki, Ermənistanın yaxşı münasibətləri olan ölkələrlə bizim ondan da yaxşı münasibətlərimiz olsun. Biz buna çalışırıq və belə də edirik.

Bizim regionda və dünyada ənənəvi müttəfiqlərimiz var, onlar Azərbaycanı dəstəklədiklərini daim bəyan edirlər, onlarla kifayət qədər məhsuldar və səmərəli münasibətlərimiz yaranır. Diplomatiyamızın köməyi ilə maksimum dərəcədə səylərimizi bizdə narahatlıq doğuran məqamlar üzərində cəmləşdirməliyik. Başqa sözlə, biz diplomatiyada Ermənistanın meydanında oynamalıyıq.

Biz Los-Ancelesdə Baş konsulluq açdıq. Bu, Birləşmiş Ştatlarda böyük şəhərdir. Əlbəttə ki, orada diplomatik nümayəndəliyimizin olması bizim üçün çox vacibdir. Lakin sirr deyil ki, Kaliforniya ABŞ-da ermənilərin çox yaşadığı ştatdır. Biz orada olmaq və onlarla, erməni lobbisi ilə mübarizə aparmaq üçün orada Baş konsulluq açdıq. Biz Argentinada da səfirlik açırıq. Bildiyiniz kimi, Latın Amerikasında ən güclü erməni lobbisi Argentinadadır. Elə görünə bilər ki, heç bir ciddi əlaqələrimiz olmayan ölkədə səfirlik açmaq Azərbaycanın nəyinə gərəkdir? Ancaq biz orada səfirlik açırıq ki, erməni lobbisi ilə onların ərazisində mübarizə aparaq. Biz daim onları qabaqlamalıyıq. Biz buna nail olmuşuq. Bizim diplomatik təşəbbüslərimiz, siyasi gedişlərimiz, regiondakı inteqrasiya prosesləri, region ölkələri ilə münasibətlərimizin möhkəmlənməsi – bütün bunlar bizim mövqelərimizi gücləndirir.

Bu gün Ermənistan diplomatik baxımdan uduzmuş ölkədir. Onların özlərinə yaxın müttəfiq saydığı ölkələr bu gün Azərbaycanın da yaxın müttəfiqidir. Bu ölkələr üçün mühümlüyü baxımından, Azərbaycan Ermənistandan daha

mühümdür. Ermənistan bir ölkə kimi, heç bir maraq kəsb edə bilməz, çünki o, bir tərəfdən, coğrafi dalandır, digər tərəfdən isə, biz boru kəmərimizi kənardan çəkməklə onu energetika baxımından dalana çevirmişik. Biz Qars–Tbilisi–Bakı dəmir yolunu çəkməklə onu nəqliyyat baxımından da dalana çevirəcəyik. Regionumuzdan, ümumiyyətlə, uzaqda olan təşkilatların və siyasətçilərin etirazlarına baxmayaraq, biz bunu edəcəyik.

Beləliklə, Ermənistan onlar üçün nə ilə cəlbedici ola bilər, Ermənistan region ölkələri üçün nə ilə cəlbedici ola bilər? Yalnız bununla ki, onun müxtəlif ölkələrin siyasətinə təsir göstərən zəngin diasporu var? Bu amildir. Lakin bu amil Azərbaycan amili ilə müqayisədə olduqca kiçikdir.

Bu gün Azərbaycan böyük potensiala – enerji, nəqliyyat potensialına, siyasi potensiala malik ölkədir, İslam aləmində möhkəm mövqeyə malik ölkədir. Biz müstəqillik əldə etdiyimiz vaxtdan bəri, xüsusilə Dağlıq Qarabağ məsələsinin nizama salınması məsələsində Azərbaycanı dəstəklədiklərinə görə İslam aləmindəki qardaşlarımıza çox minnətdarıq.

Azərbaycan Avropaya və dünya bazarlarına enerji ehtiyatları göndərəcək bir ölkədir. Bu, Şərq–Qərb dəhlizinin keçdiyi ölkədir. Tərəzinin bir gözündə Azərbaycanı, o biri gözündə isə Ermənistanı təsəvvür edin. Müqayisəolunmaz çəkilərdir. Biz bütün istiqamətlərdə mübarizə aparmalıyıq. Mən hökumət qarşısında, Azərbaycanın bütün vətənpərvərləri qarşısında vəzifə qoymuşam ki, ermənilər bizim ərazilərdən getməyincə, Ermənistana qarşı bütün cəbhələrdə mübarizə aparılsın. Düşünürəm ki, onlar bizim ərazilərimizdən çıxandan sonra münasibətlərimiz bərpa olunacaq və biz qonşular kimi yanaşı yaşamağı davam etdirəcəyik.

**– Cənab Prezident, Xəzər Azərbaycan üçün firavanlıq və iqtisadiyyatı möhkəmlətmək mənbəyidir. Lakin belə fikir var ki, Xəzər həm də sahilyanı ölkələr arasında nifaq mənbəyidir. Sizin dediyiniz neftin nəqli marşrutlarını nəzərə alsaq, bu,**

**Rusiya kimi ölkələrin mənafelərinə toxunur, çünki bu marşrutlar Rusiyadan yan keçir.**

– Xəzər barəsində Rusiya ilə dənizin sektoral bölgüsü haqqında sazişimiz var. Bu saziş belə həssas məqamla bağlı bütün məsələləri tamamilə aradan götürmüşdür. İkitərəfli sektoral bölgü barədə Qazaxıstanla da belə saziş imzalamışıq. Yeri gəlmişkən, Rusiyanın Qazaxıstanla da sazişi var. Hesab edirəm ki, bu ikitərəfli sazişlər məsələnin çoxtərəfli tənzimlənməsi üçün əsas ola bilər. Bu, Xəzəryanı dövlətlərin əməkdaşlığı baxımından çox vacibdir. Gündəlik həyat baxımından isə, bilirsinizmi, biz artıq 15 ildir müstəqil dövlətik və 15 ildə Xəzərin statusu problemi nizama salınmayıbdır. Sizə açığını deyəcəyəm, bu, praktiki baxımdan bizə mane olmur. Biz Xəzər dənizinin Azərbaycan sektoruna milyardlarla dollar məbləğində sərmayə cəlb etmişik, neft və qazın Xəzər dənizindən nəqli üçün boru kəmərləri tikmişik və onlardan uğurla istifadə edirik. Əlbəttə, Xəzər mövzusunun beştərəfli səviyyədə tənzimlənməsi Xəzərətrafı regionda etimadı möhkəmlətmək üçün çox mühüm elementdir.

O ki qaldı boru kəmərinə, siz də təkrar etdiniz ki, o, Rusiyadan yan keçir. Mən bu tezislə razı deyiləm, çünki biz «yan keçən» boru kəməri çəkməmişik. Biz Aralıq dənizinə boru kəməri çəkmişik. Əgər Aralıq dənizinə boru kəmərini Rusiya ərazisi ilə çəkmək mümkün olsaydı və bu, iqtisadi cəhətdən sərfəli olsaydı, biz bunu edərdik. Bizə dünya bazarına çıxmaq lazım idi. Aralıq dənizi isə dünya bazarı deməkdir. Qara dəniz Avropa bazarı deməkdir. Yeri gəlmişkən, bizim boru kəmərlərindən biri məhz Rusiya ərazisi ilə onun Novorossiysk limanına gedir və demək olar, 10 ildir uğurla fəaliyyət göstərir. Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən və artıq 6 ildən çoxdur fəaliyyət göstərən boru kəməri ilə olduğu kimi, biz bu boru kəməri ilə də neft nəql edirik. Bizə Aralıq dənizinə çıxmaqla gündə bir milyon barrel neft nəql etmək gücü olan boru kəməri lazım idi. Biz onu tikdik və o heç kimə qarşı yönəldilməyib, heç kimin

mənafelərinə toxunmur. Birinci dərəcəli məsələ Azərbaycanın mənafeləridir. Bizim öz enerji ehtiyatlarımızı hasil etmək hüququmuz, istədiyimiz yerə boru kəmərləri çəkmək hüququmuz var. Biz bunu həm öz pulumuza, həm də tərəfdaşlarımızın, maliyyə təsisatlarının puluna həyata keçirdik. Həmin boru kəməri heç kimə qarşı yönəldilməyib, əksinə, ümidvaram, gələcəkdə biz onu genişləndirdikdən, digər paralel boru kəməri çəkdikdən sonra o, qonşularımızın da xeyrinə ola bilər.

**– Cənab Prezident, vaxtınızdan sui-istifadə etmək istəmirəm. İcazənizlə, sonuncu, ənənəvi sualımızı verək. Bu, Azərbaycanın ərəb dünyası ilə qarşılıqlı münasibətləri barədədir. O mənada ki, Azərbaycan İraqda koalisiya qüvvələrində iştirak edir. Cüzi qüvvə ilə iştirak etsə də, bu, hər halda, həssas məqamdır.**

– Ərəb dünyası ilə münasibətlərimiz çox müsbət şəkildə təşəkkül tapır. Biz buna çox böyük əhəmiyyət veririk. Bu, xarici siyasət fəaliyyətimizdə də olduqca mühüm istiqamətdir. Son iki-üç ildə bir çox ərəb ölkələrində öz səfirliklərimizi açmağımız çox mühüm amildir və əməkdaşlığımıza necə böyük əhəmiyyət verdiyimizi göstərir. Mən prezidentliyim dövründə üç dəfə Səudiyyə Ərəbistanında olmuşam – həm rəsmi səfərdə, həm də digər səbəblərlə əlaqədar. Qətərə rəsmi səfər etmişəm. Ərəb dövlətlərinin başçıları Azərbaycana gəlirlər, bizim aramızda İslam Konfransı Təşkilatı çərçivəsində də, ikitərəfli formatda da çox yaxşı əlaqələr var. Biz bu əlaqələri genişləndirmək niyyətindəyik. Dediyim kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində Azərbaycanı dəstəkləyən ərəb ölkələrinə çox minnətdaram. Səudiyyə Ərəbistanı kimi ölkənin Ermənistanla heç bir diplomatik münasibəti yoxdur və onu yalnız buna görə tanımır ki, Ermənistan Azərbaycan ərazisini işğal etmişdir. Bu, qardaşlığın çox yüksək təzahürüdür və bizim üçün çox qiymətlidir.

Ona görə də xarici siyasət doktrinamızda bu istiqamətin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır. Çünki bizi narahat edən məsələlər eynidir. İslama nifrətlə bağlı məsələlər ərəb dünyasını da, bizi də narahat edir. İslamın terrorizmlə eyniləşdirilməsi, müsəlmanlar üçün təhqiramiz olan ifadələr işlədilməsi, həmrəyliyə deyil, əksinə, qarşıdurmaya doğru aparan bəyanatlar verilməsi və hərəkətlər edilməsi narahatlıq doğurur. Bütün bunlar bizi narahat edir, ərəb dünyasını narahat edir. Bizi bu amil də yaxınlaşdırır. Odur ki, biz bu istiqamətdə öz səylərimizi artırmalıyıq. Təsadüfi deyil ki, biz İslam Konfransı Təşkilatının iki mühüm konfransının – xarici işlər nazirləri səviyyəsində və turizm nazirləri səviyyəsində konfranslarının Bakıda keçirilməsinin təşəbbüsçüsü olmuşuq. Bu da əməkdaşlıq etmək niyyətimizin daha bir təzahürüdür. Digər tərəfdən, bu, islam dövlətlərinin yüksək vəzifəli nümayəndələrinin Azərbaycana gəlməsi, indi Azərbaycanın necə bir ölkə olduğunu görməsi və bizi narahat edən məsələləri müzakirə etmək üçün imkandır.

Ona görə də hesab edirəm ki, gələcəkdə biz öz tərəfimizdən bu münasibətlərin möhkəmlənməsi üçün bütün işləri görəcəyik. Bu münasibətlərin böyük tarixi kökləri var, onlar xalqlarımızın birliyinə əsaslanır. Bugünkü siyasi mənafelərimiz də uyğun gəlir.

**– Cənab Prezident, bu cavablara görə çox sağ olun. Onlar ekranımızda əksini tapacaq və başa düşüləcəkdir. Çünki dediyiniz kimi, dünyamız ümumi dünyadır. Bu cavablara görə Sizə çox minnətdarıq.**

## SƏRHƏD MƏSƏLƏLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN SƏRHƏD XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN İŞÇİ QRUPUNUN BAKIDA KEÇİRİLƏN İCLASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın «Şiofok konfransı» sərhəd xidmətləri rəhbərlərinin işçi qrupunun Bakıda keçirilən iclasının nümayəndələrini qəbul etdi.*

*Prezident İlham Əliyev konfransın ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını və Azərbaycanın təhlükəsizlik sahəsində əməkdaşlığa böyük önəm verdiyini bildirdi. Dünyanın terrorizmlə və narkotik maddələrin qaçaqmalçılığı ilə üzləşdiyi indiki narahat vaxtında sərhədlərin mühafizəsini vacib sayan Azərbaycan prezidenti vurğuladı ki, sərhəd xidməti qurumlarının əməkdaşlığı ümumi təhlükəsizlik üçün olduqca zəruridir. Dövlətimizin başçısı dedi ki, hər bir ölkənin sərhədi əməkdaşlıq üçün bir qapıdır. Bu qapı dostların və xoşniyyətli insanların üzünə açıq olmalıdır. Lakin bəzən elə olur ki, bu qapılar potensial təhlükə mənbəyinə çevrilir. Yalnız beynəlxalq təhlükəsizlik tədbirləri yarana biləcək hər hansı təhlükənin qarşısını ala bilər.*

*Konfransda dünyanın bir çox ölkələrindən, o cümlədən Avropa İttifaqı dövlətlərindən nümayəndələrin iştirakını müsbət hal kimi dəyərləndirən prezident İlham Əliyev sərhəd xidməti təcrübəsinin Azərbaycan üçün xüsusi önəm daşıdığını vurğu-*

*ladı. Bildirdi ki, Sovetlər İttifaqı zamanında Azərbaycan yalnız İran və Türkiyə ilə həmsərhəd idi. Müstəqillik qazandıqdan sonra isə ölkəmizin yeni qonşuları yarandı. Bu da istər-istəməz, güclü təhlükəsizlik tədbirlərinin görülməsini zəruri edir. Dövlətimizin başçısı bu baxımdan respublikamızda sərhəd xidmətinin infrastrukturunun yaradılması istiqamətində ciddi tədbirlər görüldüyünü diqqətə çatdırdı.*

*Azərbaycanın sərhəd xidmətinin kifayət qədər güclü olduğunu və getdikcə daha da təkmilləşdiyini bildirən prezident İlham Əliyev xatırlatdı ki, hər bir ölkənin təhlükəsizliyi onun sərhədindən başlayır. Terrorizmin yaratdığı dramatik vəziyyət şəraitində sərhədlərin tam təhlükəsizliyini təmin etmək üçün bütün ölkələrin sərhəd xidmətləri sıx əməkdaşlıq etməli, qarşılıqlı informasiya mübadiləsi aparmalıdırlar. Yalnız belə əməkdaşlıq nəticəsində Avropada və dünyada təhlükəsizliyə tam nail olmaq mümkündür.*

*Görüş iştirakçıları adından danışan Almaniyanın Federal Sərhəd Mühafizəsinin rəisi Udo Burkholder Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildirdi. O, Bakıda keçirilən iclasın əhəmiyyətindən bəhs edərək dedi ki, sərhəd xidmətçiləri vahid bir ailəyə mənsubdur. Azərbaycan sərhədçilərinin bu ailədə xüsusi yeri var. Azərbaycanın sərhəd xidməti Almaniyanın və dünyanın digər ölkələrinin sərhəd xidməti qurumları ilə faydalı əməkdaşlıq edir. Qonaq Azərbaycanda bu xidmətin işinin təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin artıq öz bəhrəsini verdiyini söylədi. Udo Burkholder «Şiofok konfransı»nın rəmzi hədiyyəsini Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

*Görüş iştirakçıları dövlətimizin başçısı ilə xatirə şəkli çəkdirdilər.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ONKOLOQLARI VƏ RADİOLOQLARININ DÖRDÜNCÜ QURULTAYININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Müstəqil Dövlətlər Birliyi onkoloqları və radioloqlarının dördüncü qurultayının iştirakçılarını qəbul etdi.*

*Ölkəmizdə belə mötəbər tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı, Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən səhiyyədə böyük inkişafın olduğunu, respublikada 10 diaqnostika mərkəzinin tikildiyini bildirdi.*

*Dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyi onkoloqları və radioloqlarının dördüncü qurultayının Azərbaycanda keçirilməsinin MDB çərçivəsində humanitar sahədə əlaqələrin genişlənməsi işinə xidmət etdiyini vurğuladı.*

*Nümayəndə heyəti adından danışan Rusiyanın N.Bloxin adına Onkoloji Elmi Mərkəzinin Baş direktoru, Rusiya Tibb Elmləri Akademiyasının prezidenti akademik Mixail Davudov bu qurultayın xüsusi əhəmiyyət daşıdığını qeyd etdi. Prezident İlham Əliyevin qurultayın keçirilməsinə göstərdiyi dəstəyi xüsusi vurğulayan qonaq dövlətimizin başçısına minnətdarlığını bildirdi. O. qeyd etdi ki, keçmiş SSRİ respublikaları arasında Azərbaycan yeganə ölkədir ki, burada onkologiya üzrə iki akademik çalışır.*

## MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 sentyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də MDB-nin İcraiyyə Komitəsinin sədri – icraçı katibi Vladimir Ruşaylonu qəbul etdi.*

*MDB çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində ölkəmizin yaxından iştirak etdiyini bildirən dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyi onkoloqları və radioloqlarının dördüncü qurultayının Bakıda keçirilməsinin əhəmiyyətini vurğuladı.*

*Vladimir Ruşaylo Azərbaycanda belə bir mötəbər tədbirin keçirilməsini yüksək qiymətləndirdi.*

*Görüşdə MDB çərçivəsində əməkdaşlıq və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ONKOLOQLARI VƏ RADİOLOQLARININ DÖRDÜNCÜ QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Respublikasının paytaxtında ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, qurultay ölkələrimizdə tibb elminin və səhiyyənin daha da inkişaf etməsinə sanballı töhfəsini verəcəkdir. Qurultayın Bakıda keçirilməsi Birlik dövlətlərinin vahid elmi məkanının qorunub saxlanması üçün sizin Azərbaycan Milli Onkologiya Mərkəzi ilə uğurlu əməkdaşlığınızın nəticəsi hesab edilir.

Hazırda bəşəriyyət dünyada baş verən qlobal texnogen və ekoloji dəyişikliklərin mənfi nəticələri ilə qarşılaşmışdır. Bütün bunlar onkoloji xəstəliklərin dinamikasına da öz təsirini göstərmişdir.

Müasir təbabət bu dəhşətli xəstəliyin müalicəsi yolları və üsullarını axtarıb tapmaq üçün geniş imkanlara malikdir. Hazırda dövlətimiz təsirli sosial siyasətin həyata keçirilməsinə hər cür lazımi şərait yaradır. Səhiyyə sahəsində dövlət siyasəti getdikcə daha effektli şəkil alır, həm müalicə problemlərinin səmərəli həllinə, həm də onkoloji xəstələrə zəruri sosial yardım göstərilməsinə yönəldilir.

Tibb aləmində onkoloqlar həmişə xüsusi yer tutmuşlar. Cəmiyyət insana yalnız fiziki sağlamlığın qaytarılmasına deyil, həm də özündə xeyirxahlıq və ədalət, inam və ümid hissi aşılamağa xidmət edən fədakar əməyinizi son dərəcə yüksək qiymətləndirmişdir.

Sizə bu nəcib işinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 sentyabr 2006-cı il*

## MİLLİ MƏCLİSİN 2006-cı il PAYIZ SESSİYASININ AÇILIŞINDA NİTQ

*2 oktyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə Milli Məclis binasının bayır tərəfində və daxilində aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış oldu. Məlumat verildi ki, binanın bayır tərəfi tamamilə yeni görkəm almış, 1500 kvadratmetrlik iclas salonu, 500 kvadratmetrlik holl yenidən qurulmuş və müasir standartlara uyğunlaşdırılmış, çilçıraqlar dəyişdirilmişdir. Yenidənqurma işlərində Türkiyənin və Azərbaycanın tanınmış mütəxəssis dizaynerləri iştirak etmişlər. Binanın istilik, kondisioner, işıqlandırma, ventilyasiya sistemləri də müasir tələblər səviyyəsində yenidən qurulmuş, elektron səsvermə sistemi, monitorlar yeniləşdirilmişdir. Milli Məclisin iclaslarının gedişinin videoçəkilişləri robot telekameralar vasitəsilə aparılacaqdır.*

*Prezident İlham Əliyev yenidənqurma və təmir işlərinin yüksək keyfiyyətlə və qısa bir vaxtda görülməsindən, binanın xarici və daxili görünüşünün müasir səviyyəyə uyğunlaşdırılmasından razılığını bildirdi.*

***

*Parlamentin deputatları prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Milli Məclisin 2006-cı il payız sessiyası açıq elan olundu.*

*Azərbaycanın dövlət himni səsləndi.*

**O q t a y  Ə s ə d o v** (*Milli Məclisin sədri*): Möhtərəm cənab Prezident!

Hörmətli deputatlar!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi Milli Məclisdə ürəkdən salamlayırıq.

Dövlətimizin başçısının parlamentə göstərdiyi diqqət və qayğı ölkəmizdə qanunvericilik fəaliyyətinin inkişafında və təkmilləşməsində böyük rol oynayır. Azərbaycanda həyata keçirilən fəal idarəçilik sistemi, xalqın mənafeyinə xidmət edən daxili və xarici siyasətin ölkəmizi qüdrətli bir dövlətə çevirəcəyinə əminlik yaradır. Nəhəng potensialını xalqın mənafeləri naminə inkişaf etdirən Azərbaycan gələcəyə inamla baxan perspektivli bir dövlətdir. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada dirçəliş, yenilik, quruculuq olmasın.

Bu nümunələrdən biri bu gün bizim iclasa başladığımız müasir standartlara uyğun qurulan salondur. Gördüyünüz kimi, parlamentin binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Əlbəttə, dövlətimizin başçısının böyük dəstəyi və köməyi olmasaydı, bu işləri yüksək keyfiyyətlə və qısa bir vaxtda həyata keçirmək mümkün olmazdı.

Biz bilirik ki, möhtərəm prezidentimiz bütün sahələrdə görülən işlərə belə yüksək tələblər qoyur. Milli Məclisdə görüləcək işlər qarşısında da belə yüksək tələblər irəli sürmüşdü. Yenidənqurma işlərinin hələ layihə mərhələsində cənab prezident tərəfindən çox dəyərli təkliflər və tövsiyələr verilmişdi. Biz də çalışdıq ki, bunları layiqincə yerinə yetirək. Parlamentdə deputatların iş şəraitinin yaxşılaşdırılması qanunvericilik fəaliyyətinin keyfiyyətinin yaxşılaşmasına da kömək göstərəcəkdir.

Cənab Prezident, Milli Məclis Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın gözəl gələcəyi naminə öz öhdəsinə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə söz verilir.

Möhtərəm cənab Prezident, buyurun!

**İ l h a m Ə l i y e v:** Hörmətli deputatlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün çox gözəl və əlamətdar bir gündür. Həm Milli Məclis öz işinə başlayır, eyni zamanda, Milli Məclisin binası tam yeni görkəm almışdır. Həm xarici görünüşü, həm də daxili interyeri ən yüksək standartlara cavab verir. Burada deputatlar üçün çox gözəl iş şəraiti yaradılmışdır. Qısa bir müddət ərzində çox əsaslı təmir işləri aparılmışdır. Bu gün bu gözəl salonda işləmək, əlbəttə, çox rahatdır və əminəm ki, deputatlarımız üçün çox uğurlu olacaqdır. İndi Azərbaycanda gedən abadlıq, quruculuq işləri bütün sahələri əhatə edir, binalar abadlaşır, yeni xiyabanlar salınır, inzibati binalar təmir olunur. Biz hamımız istəyirik ki, təmir olunmuş bütün binalar ən yüksək standartlara cavab versin. Əminəm ki, Milli Məclisin fəaliyyəti Azərbaycanın hərtərəfli inkişafı üçün öz töhfəsini verəcək və iş şəraitinin yaxşı olması, Milli Məclis binasının yeni, müasir avadanlıqla təchiz olunması, əlbəttə ki, işin səmərəliliyini də artıracaqdır.

Parlament seçkilərindən artıq bir il keçibdir və demək olar ki, yeni seçilmiş Milli Məclis Azərbaycanın inkişafında çox mühüm rol oynayır. Yeni qanunlar qəbul olunur, Milli Məclisin beynəlxalq fəaliyyəti möhkəmlənir və deputatların seçicilərlə görüşləri çox mütəmadi xarakter alır. Bu çox önəmlidir, çünki seçicilərin qayğıları, onların arzuları ilk növbədə yerinə yetirilməlidir. Bu baxımdan Milli Məclis üzvlərinin fəaliyyətindən çox şey asılıdır. Bütün görülən işlər, ölkədə gedən inkişaf meylləri bir məqsədə qulluq edir: Azərbaycanı hərtərəfli inkişaf etdirmək, zəngin, qüdrətli dövlətə çevirmək, sosial ədalət prinsiplərini tam şəkildə bərqərar etmək və ölkəmizi müasirləşdirmək.

Siz tez-tez bölgələrdə olursunuz, seçicilərlə görüşürsünüz və onların əhval-ruhiyyəsini yaxşı bilirsiniz. Biz də bunu bilirik. Biz birlikdə çalışmalıyıq, mövcud olan nöqsanları da birlikdə aradan qaldırmalıyıq, öz diqqətimizi çatışmayan cəhətlərə yönəltməliyik ki, Azərbaycanda bir dənə də problem

qalmasın. Bunu etmək mümkündür. Azərbaycanda hökm sürən ictimai-siyasi vəziyyət, iqtidarla xalq arasında inam, Milli Məclisin uğurlu fəaliyyəti – bütün bunlar bizim qısamüddətli və uzunmüddətli inkişaf strategiyamızı müəyyən edir.

Parlamentin Azərbaycan cəmiyyətindəki rolu artır, artmalıdır və bu da təbiidir. Bu, bir prezident kimi, məni çox sevindirir. Çünki parlamentin üzərinə düşən vəzifələr yerinə yetirilərsə, əlbəttə, cəmiyyətimizin hərtərəfli inkişafı təmin olunar. Biz Azərbaycanda hüquqi dövlət qururuq. Qanunun aliliyi tam şəkildə bərqərar olmalıdır. Azərbaycan Dünya Birliyinə daha da sürətlə inteqrasiya etməlidir və ölkəmizdə bütün sahələrdə çox ciddi islahatlar davam etdirilməlidir. Çox sevindirici haldır ki, ölkəmizdə həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə aparılır və bu islahatların gözəl nəticələri var. Bu işlərdə Milli Məclisin üzərinə düşən vəzifəsi var və əminəm ki, sizin səmərəli fəaliyyətiniz ölkəmizin hərtərəfli inkişafı, möhkəmlənməsi işində mühüm rol oynayacaqdır.

Bir daha demək istəyirəm ki, son parlament seçkilərindən bir il vaxt keçir. Bu bir il ərzində Azərbaycan öz mövqelərini daha da möhkəmləndirə bilmişdir. Bir il ərzində ölkəmizdə gedən proseslər müsbət istiqamətdə inkişaf etmişdir. İstər xarici siyasətdə, istər daxili siyasətdə, istərsə də iqtisadi inkişaf baxımından – bütün sahələrdə. Parlament seçkilərinin uğurla keçirilməsi, Azərbaycan xalqının iradəsinin təntənəsi, əlbəttə, ölkəmiz qarşısında yeni imkanlar açır, yeni üfüqlər açır. Parlament seçkiləri yeni bir dövrün başlanğıcıdır. Azərbaycanın müasir tarixində bir neçə dövr olmuşdur. 1991–93-cü illəri biz yaxşı xatırlayırıq. O dövr Azərbaycan üçün məğlubiyyət dövrü kimi yadda qaldı. O dövr Azərbaycana böyük çətinliklər gətirdi, ölkəmiz böyük problemlərlə üzləşdi və əfsuslar olsun ki, həmin problemlərin bir hissəsi bu günə qədər də bizim üçün aktualdır.

1993–2003-cü illər ərzində Azərbaycanda sabitlik və inkişaf dövrü yaşandı. Azərbaycan prezidenti Heydər Əliyevin rəhbərliyi altında ölkəmiz çətin böhran vəziyyətindən uğurla

çıxa bilmişdir. Beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilmişdir. Ölkə daxilində islahatların aparılması üçün gözəl şərait yaradılmışdır. Bütövlükdə, vəziyyət sabitləşmişdir. Nəzərə alsaq ki, 1993-cü ildə bizim müstəqilliyimiz artıq sual altında idi, Azərbaycanın müstəqilliyi çox böyük dərəcədə möhkəmlənmişdir.

İndi isə yeni dövr başlayır. Bu dövr Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyən edəcək, uzunmüddətli inkişafımız bu dövrün uğurlu olmasından asılıdır. Parlament seçkilərinin uğurla keçirilməsi və seçkilərdən sonra ölkəmizin güclənməsi, əlbəttə, Azərbaycan üçün yeni imkanlar yaradır. Biz çalışırıq ki, bütün sahələrdə öz fəaliyyətimizi proqram şəklində quraq. İstər xarici siyasət məsələlərində, istərsə də daxili siyasət məsələlərində. Azərbaycanı narahat edən bütün problemlər diqqət mərkəzindədir. Regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Siz bölgələrdə tez-tez olursunuz, yəqin özünüz də görürsünüz ki, bizim rayonlarımızın siması dəyişir. Yeni binalar, məktəblər, xəstəxanalar, idman qurğuları, sənaye müəssisələri tikilir, sahibkarlıq inkişaf edir. Miqrasiya, yəni rayonlardan şəhərə miqrasiya meylləri azalır və ümid edirəm, vaxt gələcək ki, bu, tam dayanacaqdır və bəlkə də şəhərdən rayonlara miqrasiya başlana bilər.

İqtisadi potensialımız artır. Bunu həm makroiqtisadi göstəricilər, həm də insanlarımızın gündəlik həyatı və ölkəmizin gündəlik həyatı sübut edir. Makroiqtisadi göstəricilər bəlkə də adi vətəndaşlar üçün o qədər də vacib məsələ deyildir. Ancaq əgər bizim iqtisadiyyatımız 30 faiz artmasa, əlbəttə ki, bütün problemləri həll etmək çətin olacaqdır. Büdcəmiz artır. Qısa müddət ərzində Azərbaycanın dövlət büdcəsi bir neçə dəfə artmışdır. Bəziləri deyir ki, bu, neftin hesabına olubdur. Ancaq siz, Milli Məclisin deputatları bunu yaxşı bilirsiniz.

Əlbəttə, neft amilinin Azərbaycanın iqtisadiyyatında böyük əhəmiyyəti var. Amma Azərbaycanda qeyri-neft sektoru da sürətlə artır. İndi bizim əsas diqqətimiz məhz bu sahəyə

yönəldilibdir. Neftdən əldə olunan gəlirləri qeyri-neft sektoruna yönəltmək, insan kapitalına çevirmək, humanitar məsələlərin həllinə yönəltmək ki, Azərbaycan hərtərəfli inkişaf etsin və gələcəkdə neft amilindən asılı olmasın, yaxud da bu asılılıq aşağı düşsün. Büdcənin artımı, öz növbəsində, ölkə qarşısında duran bütün problemlərin, iqtisadi problemlərin həlli üçün gözəl imkanlar yaradır. 2007-ci ilin büdcə layihəsi yəqin ki, tezliklə Milli Məclisə göndəriləcəkdir. Büdcə qəbul ediləndən sonra 2007-ci ildə çox böyük işlər görmək mümkün olacaqdır.

Azərbaycanda əsas infrastruktur layihələr 2007–2008-ci illərdə başa çatmalıdır. Elektrik stansiyalarının tikintisi, yolların, qaz xətlərinin, su kəmərlərinin, məktəb və xəstəxanaların tikintisi – bütün bunlar 2007–2008-ci illərdə başa çatmalıdır. Beləliklə, 2003-cü ildən 2008-ci ilə qədər nəzərdə tutulan bütün məsələlər öz həllini tapmalıdır. Bizim bu sahədə siyasətimiz çox açıqdır, aydındır. Prezident kimi, mən çox istəyirəm ki, biz qısa müddət ərzində bütün o məqsədlərə çataq. Bunu etmək üçün bütün imkanlar var. Bir daha deyirəm, iqtisadi potensial bizə imkan verir, əlbəttə, ölkədə hökm sürən çox müsbət ictimai-siyasi mühit də öz tərəfindən buna imkan yaradır. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi ölkəmizdə və kənardan mövcud olan risklərin azaldılmasına gətirib çıxarır. Bu da bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Biz ölkəmizi qorumalıyıq, riskləri azaltmalıyıq, öz siyasətimizlə Azərbaycanda və Azərbaycanın ətrafında əməkdaşlıq məkanı yaratmalıyıq. Yalnız belə olan təqdirdə ölkəmiz sürətlə inkişaf edə bilər, biz öz istədiyimizə nail ola bilərik.

Bundan sonrakı dövr ərzində Azərbaycanda hüquqi dövlət quruculuğu davam etdirilməlidir. Demokratikləşmə prosesləri daha da sürətlə aparılmalıdır. Bizi çox gözəl gələcək gözləyir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və uğurla icra olunan Azərbaycanın neft strategiyası öz bəhrələrini verməkdədir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi tarixi nailiyyətdir. Bu kəmərin tikintisi Azərbaycanın

uzunmüddətli iqtisadi strategiyasını müəyyən edəcəkdir. Belə olan halda, ölkəmizdə siyasi islahatların aparılması ön plana çıxmalıdır. Çünki çox güclü iqtisadi potensial, ölkəmizə böyük maliyyə axınları, əlbəttə, iqtisadi cəhətdən ölkəmizi gücləndirəcəkdir. Digər tərəfdən, böyük valyuta axınlarına çox ciddi nəzarət olmalıdır. Əlbəttə, həm dövlət, hökumət, Milli Məclis tərəfindən, digər tərəfdən isə ictimaiyyət tərəfindən. Çünki əgər ciddi ictimai nəzarət olmasa, onda bizim nəzərdə tutduğumuz proqramlar çətinliklərlə üzləşə bilər.

Ona görə vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir. Ona görə siyasi və iqtisadi islahatların davam etdirilməsi zəmanənin tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə həm dövlətin üzərinə böyük vəzifələr düşür, eyni zamanda, Milli Məclisin üzərinə də böyük məsuliyyət düşür. Biz birlikdə buna nail olmalıyıq.

Mən hesab edirəm ki, 2008-ci ilə qədər Azərbaycanın qarşısında duran əsas siyasi və iqtisadi, o cümlədən sosial məsələlər öz həllini tapacaqdır. Çünki bir daha demək istəyirəm ki, biz fəaliyyətimizi çox konkret proqramlar əsasında qururuq. Mən artıq qeyd etdim ki, regionların sosial-iqtisadi inkişafı proqramı bölgələrdə həyat səviyyəsinin yaxşılaşmasına, yeni müəssisələrin yaradılmasına, iş yerlərinin yaradılmasına gətirib çıxaracaqdır. Bildiyiniz kimi, artıq 500 minə qədər yeni iş yeri açılıbdır. Makroiqtisadi sabitlik və iqtisadi siyasətimizin bu istiqaməti ölkəmizdə xoşagəlməz halların qabaqlanmasına gətirib çıxaracaqdır. Bildiyiniz kimi, hər bir ölkədə əgər birdən-birə çox böyük iqtisadi imkanlar yaranırsa, deməli, inflyasiya riskləri də artır. Ona görə bizim mak-

roiqtisadi siyasətimiz elə olmalıdır ki, bir tərəfdən, ölkəmiz qarşısında duran vəzifələr icra olunsun, digər tərəfdən, makroiqtisadi sabitlik pozulmasın. Bu çox ciddi məsələdir. Bəlkə də Azərbaycanın müasir tarixində ilk dəfədir ki, biz bu problemlə üzləşirik. Çünki bundan əvvəlki illərdə həmişə biz çalışırdıq ki, yeni maliyyə mənbələrini aşkar edək, maliyyə intizamını möhkəmləndirək və əlavə gəlir mənbəyi axtaraq. İndi isə neft strategiyamızın icrası nəticəsində Azərbaycana çox böyük həcmdə valyuta ehtiyatları gələcək və o, makroiqtisadi vəziyyətə mənfi təsir göstərə bilər. Bu da çox önəmli məsələdir.

İnfrastruktur layihələrin həyata keçirilməsi sistemli xarakter almışdır. Biz bütün əsas infrastruktur layihələri 2008-ci ilə qədər başa çatdırmalıyıq. Çünki bu sahədə böyük işlər görülməlidir. Uzun illər maliyyə çətinlikləri ilə üzləşərək, bu sahəyə kifayət qədər vəsait ayrılmamışdır. Bu illərdə və növbəti illərdə bu sahəyə böyük vəsait ayrılmalıdır. Məktəb tikintisi – son iki il ərzində Azərbaycanda 600 məktəb tikilibdir, hamısı da çox müasir. Xəstəxanaların, sosial obyektlərin tikintisi. Ekoloji proqram qəbul edilibdir. Biz çox zəngin ölkəyə çevriləcəyik. Amma əgər ekoloji vəziyyət yaxşı olmasa, bizim insanlarımız böyük çətinliklərlə üzləşə bilərlər və onların sağlamlığına çox böyük zərər dəyə bilər. Yəni bütün bu sahələrdə 2008-ci ilə qədər əsas problemlər, məsələlər öz həllini tapmalıdır, Azərbaycan öz mövqelərini daha da möhkəmləndirməlidir.

Beynəlxalq aləmdə bizim siyasətimiz uğurludur. Siyasətin uğurlu olması onu göstərir ki, bütün beynəlxalq təşkilatlarda bizim fəaliyyətimiz, eyni zamanda, ikitərəfli müstəvidə müxtəlif ölkələrlə əlaqələrimiz Azərbaycan xalqının maraqlarına cavab verir. Burada ilk yerdə Azərbaycan xalqının və dövlətinin maraqları dayanır. Biz bu maraqları maksimum dərəcədə qoruyuruq. Bizim ikitərəfli münasibətlərimiz ölkəmizi daha da möhkəmləndirir. Beynəlxalq təşkilatlarda, habelə regional təşkilatlarda Azərbaycanın rolu artır. Regionda gedən işlərdə Azərbaycan artıq həlledici sözə malik olur və bir çox hallarda biz region üçün çox önəmli layihələrin təşəbbüskarı və iştirak-

çısıyıq. Azərbaycanın iştirakı, bizim razılığımız olmadan artıq heç bir regional layihə mümkün deyildir.

Əlbəttə ki, ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənir. Bizim beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlığımız var. Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir də keçirilmişdir. Üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Azərbaycan fəal iştirak edir, öz maraqlarını təmin edir. Eyni zamanda, təşkilatların ümumi inkişafına da öz töhfəsini verir. Azərbaycan getdikcə daha da önəmli ölkəyə çevrilir və bu, artıq reallıqdır. İndiki Azərbaycan beş-on il əvvəlki Azərbaycandan çox fərqlənir. Bunu artıq bizimlə işləyən beynəlxalq təşkilatların nümayəndələri də görürlər. Biz bu imkanlardan ancaq və ancaq Azərbaycan xalqının maraqlarının təmin olunması üçün istifadə etməliyik. Biz bütün ölkələrlə əməkdaşlığa açığıq, xarici siyasətimiz səmimidir, dürüstdür. Bizim bütün bəyanatlarımız həyatda öz əksini tapır. Heç vaxt konyunktura naminə, yaxud da hansısa qısamüddətli nailiyyət naminə heç bir addım atmamışıq. Özümüzü çox ləyaqətli aparırıq.

Eyni zamanda, əməkdaşlıq üçün də açığıq, artıq bu reallıqdır. Azərbaycanın adı artıq beynəlxalq təşkilatlarda və bütövlükdə dünyanın siyasi icmasında çox böyük hörmətlə çəkilir. Ölkəmizin önəmi artır. Bunun səbəbi təkcə neft-qaz layihələri, təkcə Azərbaycanın əlverişli coğrafi vəziyyəti deyil. Azərbaycanda neft-qaz həmişə var idi. Çox çətin şəraitdə, çox böyük maneələrlə üzləşərək bu nefti, qazı çıxarmaq, xarici investorları cəlb etmək, neft kəmərlərini yaratmaq, dünya bazarına çıxarmaq çox böyük cəsarət, çox böyük müdriklik tələb edirdi. Bir də demək istəyirəm ki, bütün bu işlərin təşəbbüskarı prezident Heydər Əliyev olmuşdur.

Azərbaycanın coğrafi vəziyyəti də, sadəcə olaraq, özlüyündə böyük əhəmiyyət kəsb etmir. Əgər bizim düşünülmüş siyasətimiz olmasaydı, əgər Azərbaycanı bir regional mərkəzə çevirmək cəhdlərimiz baş tutmasaydı, coğrafi vəziyyətin heç bir əhəmiyyəti olmazdı. Dünyada bir çox ölkələr var ki, onların daha da əlverişli coğrafi vəziyyəti var.

Əfsuslar olsun ki, Azərbaycan dünya bazarlarına birbaşa çıxışa malik deyildir.

Bizim bütün nəqliyyat və enerji layihələrimiz kəmərlər vasitəsilə, yaxud da tranzit vasitəsilə həyata keçirilir. Buna baxmayaraq, Azərbaycanda güclü nəqliyyat infrastrukturunun yaradılması bizim önəmimizi artırır. Biz bir neçə beynəlxalq layihələrin təşəbbüskarıyıq. Bu yaxınlarda başlayacağımız Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ölkədə yeni bir vəziyyət yaradacaqdır. Azərbaycan Avropa ilə Asiyanı dəmir yolu vasitəsilə birləşdirən ölkəyə çevrilir və əlbəttə ki, regional işlərdə bizim önəmimiz artır.

Biz Avropa Birliyi ilə çox işgüzar münasibətlər yaradırıq. İslam dünyasında mövqelərimiz həddindən artıq möhkəmdir. Bu əməkdaşlıq bizim üçün çox önəmlidir. Regional təşkilatlarda və başqa təşkilatlarda Azərbaycanın əvəzolunmaz rolu var. Yəni biri o birini istisna etmir. Əksinə, biri digərini tamamlayır. Azərbaycanın belə siyasəti bölgə üçün də çox böyük əhəmiyyət kəsb edir. Heç kim maraqlı deyil ki, bölgədə vəziyyət gərginləşsin. Heç kim maraqlı deyil ki, bölgədə mövcud olan problemlər hansısa xoşagəlməz nəticəyə gətirib çıxarsın. Biz siyasəti təmkinlə aparırıq. Bizim məqsədimiz var, bu məqsədə doğru gedirik və ona çatmaq üçün nə lazımdırsa edirik və edəcəyik.

Bir sözlə, əgər biz perspektivə baxsaq, Azərbaycanın qarşısında elə bir ciddi məsələ görmürük. Şəxsən mən görmürəm. Çünki hələ ki, əldə etmədiyimiz uğurlara bir neçə ildən sonra nail olacağıq. Hər halda, hər bir istiqamət üzrə proqram olduğu üçün bunu deməyə bütün əsaslarımız var.

Ölkəmiz qarşısında duran yeganə problem var ki, onun həlli təkcə bizdən asılı deyil, o da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bu, yeganə məsələdir ki, təkcə bizdən asılı deyildir. Halbuki, biz əlimizdən gələni edirik və Azərbaycanın diplomatik səyləri də buna yönəldilibdir ki, bu məsələnin də həllinə nail olaq. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe barəsində dəfələrlə rəsmi bəyanatlar da verilibdir. Mən də öz çıxışlarımda bəyan etmişəm –

Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu, başlıca şərtdir. Bunun kənarında heç bir razılaşma, heç bir saziş mümkün deyildir. İşğalçı qüvvələr zəbt olunmuş torpaqlardan çıxmalıdır. Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi icra olunmalıdır və işğala son qoyulmalıdır. Azərbaycan vətəndaşları, etnik təmizləmədən əziyyət çəkən vətəndaşlar öz torpaqlarına qayıtmalıdırlar. Bölgədə təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi mümkündür, biz də bunun tərəfdarıyıq və Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət statusu verilməlidir. Bu bizim mövqeyimizdir. Bu mövqe həm tarixə əsaslanır – çünki yaxşı bilirik ki, biz erməniləri öz torpağımıza qonaq kimi qəbul etmişik. Bu mövqe həm də siyasi vəziyyətə əsaslanır – çünki siyasi vəziyyət artıq bizim xeyrimizə işləyir və getdikcə Azərbaycanın önəmi daha da artacaqdır. Əgər Ermənistanla Azərbaycanı tərəziyə qoysaq görərik ki, hansı ölkə daha da böyük önəm kəsb edir, hansı ölkənin potensialı nədir və hansı ölkəni nələr gözləyir. Yəni siyasi proseslərin inkişafı baxımından bizim vəziyyətimiz əlverişlidir.

Məsələnin hüquqi cəhətini deməyə də ehtiyac yoxdur. Biz hamımız yaxşı bilirik ki, hüquqi cəhətdən məsələ məhz bizim mövqeyimizin əsasında həll olunmalıdır.

Yəni bütün bu amilləri nəzərə alsaq və eyni zamanda, Azərbaycanın artan iqtisadi potensialını nəzərə alsaq görərik ki, məsələnin həlli üçün gözəl imkanlar var. Biz sadəcə, danışıqlar prosesinə sadiq qalaraq, eyni zamanda, öz işimizi, öz siyasətimizi və tədbirlərimizi davam etdirməliyik. Onlar da nədən ibarətdir: ilk növbədə, Azərbaycan güclənməlidir. Azərbaycan bütün iqtisadi, diplomatik, siyasi imkanlardan istifadə edib öz mövqelərini möhkəmləndirməlidir və Ermənistana qarşı siyasətimiz bundan sonra da çox fəal olmalıdır. Biz artıq informasiya hücumuna keçmişik. Biz iqtisadi hücuma keçməliyik və bütün beynəlxalq təşkilatlarda, bütün forumlarda ikitərəfli formatda bu məsələ daim gündəlikdə olmalıdır. Ermənistanın işğalçı siyasətini ifşa etməliyik və bunu etməyə kifayət qədər dəlillər də, əsaslar da var.

Hərbi potensialımızı möhkəmləndirməliyik və bilirsiniz ki, mən prezident seçiləndən sonra ilk günlərdən bu məsələ diqqət mərkəzində olmuşdur. Mən o vaxt da demişdim ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və yəqin ki, gələn il biz buna nail olacağıq. Biz bu təzyiqləri davam etdirməliyik. Əgər Ermənistan tərəfi bu təzyiqləri görməsə və bu təzyiqlərdən ehtiyatlanmasa, Azərbaycanın artan imkanlarından narahat olmasa, onlar işğal olunmuş torpaqlardan çətin ki, öz xoşları ilə çıxsınlar. Çünki bütün beynəlxalq normalara məhəl qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq təşkilatlar tərəfindən qınaq obyektinə çevrilmir. Bunun müxtəlif səbəbləri var. Siz bunların hamısını yaxşı bilirsiniz, bilirsiniz ki, bu səbəblər nədən ibarətdir. Amma bu reallıqdır. Biz gərək bu reallığı bilək və bunun qarşısında öz reallığımızı, Azərbaycan reallıqlarını qoymalıyıq. Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır.

Mən bunu bir dəfə demişəm, bir də demək istəyirəm ki, bəzən Azərbaycanın ordu quruculuğu prosesi kimdəsə narahatlıq doğurur. Doğurmamalıdır, bu bizim suveren hüququmuzdur. Biz neçə ildir ki, bu işğala dözürük. Bizim ən böyük güzəştimiz sülh danışıqlarına sadiqliyimizdir. Ancaq biz bütün bu imkanlardan istifadə edib yeni vəziyyət yaratmalıyıq. Bir də demək istəyirəm ki, hərbi potensialın möhkəmlənməsi avtomatik olaraq müharibənin başlamasına gətirib çıxarmır. Bu ən son variantdır. Biz buna hazır olmalıyıq. Hər bir ölkə hazır olmalıdır, o cümlədən ərazisi işğal edilmiş və müharibə vəziyyətində yaşayan ölkə. Ancaq bununla bərabər, əminəm ki, biz bütün siyasi, iqtisadi, diplomatik və regional amillərdən istifadə edib Ermənistana çox güclü təzyiq edə biləcəyik. Artıq bunlar görünməkdədir.

Biz daim hücum etməliyik. İstəyimizə nail olmaq üçün hamımız bütün sahələrdə, bütün təşkilatlarda fəal olmalıyıq. İqtisadi amillərdən istifadə etməliyik və bu imkanlar getdik-

cə daha da artacaqdır. Bu məsələ ilə əlaqədar hökumətə tapşırıqlar verilibdir. Yəni Azərbaycan Ermənistandan yüz dəfə zəngin ölkə olandan sonra, bəlkə də müharibə variantına heç ehtiyac qalmayacaqdır. Yəni biz bütün imkanlardan istifadə etməliyik ki, öz hüququmuzu bərpa edək. Bu bizim hüququmuzdur. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik. Bu işdə bütün ictimaiyyət bir olmalıdır. Bu birlik bu gün var. Mən çox şadam ki, Azərbaycan cəmiyyətində bu məsələ ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Bəzi hallarda opponentlərimiz istəyirlər bizi tənqid etsinlər ki, Qarabağ məsələsi niyə həll olunmur. Ona görə həll olunmur ki, Azərbaycan bizi qane etməyən razılaşmaya heç vaxt getməyəcəkdir. Ona görə həll olunmur ki, bütün təzyiqlərə baxmayaraq, prezident kimi, mən Azərbaycan dövlətinə, Azərbaycan xalqına sərf etməyən razılaşmaya getməyəcəyəm.

Mən demişəm, bu elə məsələdir ki, təkcə bizim istəyimizdən asılı deyildir. Ona görə biz işləməliyik, fəal olmalıyıq. Yenə də deyirəm, bütün gücümüzü səfərbər etməliyik. Bu məsələdən başqa, bizim qarşımızda ciddi məsələ yoxdur. Bu, bir nömrəli məsələdir və əlbəttə ki, biz bütün imkanlarımızı bu məsələnin həllinə yönəltməliyik, yönəldəcəyik və hamı bunu bilməlidir. Biz bu məsələnin həllinə çalışırıq, ədalətli həllinə çalışırıq və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Mən buna şübhə etmirəm.

Biz bununla bərabər, məsələnin həlli işində beynəlxalq təşkilatlarla əməkdaşlığımızı davam etdirmək niyyətindəyik. Minsk qrupunun həmsədrləri bu gün yenidən Bakıya gəlmişlər. Biz Minsk qrupunun formatından imtina etmək fikrində deyilik. Eyni zamanda, hesab edirik ki, başqa təşkilatların da iştirakı bu məsələnin həllinə kömək göstərə bilər. Düzdür, Ermənistan tərəfi çalışır ki, BMT-də məsələnin müzakirəyə çıxarılmasını əsas tutub danışıqları pozsun. Ancaq bu onların öz işidir, onlar danışıqları poza bilərlər. Əgər bəhanə axtarırlarsa, bu bəhanəni tapmaq çətin deyildir. Azərbaycan

özünü konstruktiv aparır, danışıqlarda iştirak edir və ümid edir ki, danışıqlar nəticəsində məsələ öz həllini tapa bilər.

Əziz dostlar, bir daha demək istəyirəm ki, ölkəmizin gələcək inkişafını mən çox açıq və parlaq görürəm. Azərbaycan hansı ölkəyə çevriləcək, beş ildən, on ildən, iyirmi ildən sonra Azərbaycanın mövqeləri necə olacaq, Azərbaycanın iqtisadi potensialı necə olacaq, insanların həyat səviyyəsi necə olacaq – bütün bunlar bizi düşündürür. Çünki biz ölkəmizin gələcəyi üçün, Azərbaycanın hərtərəfli inkişafı üçün işləyirik.

Hamımız istəyirik ki, ölkəmiz müasir, zəngin, qüdrətli dövlətə çevrilsin. Azərbaycanda insanlar yaxşı yaşasınlar, zəngin olsunlar, iqtisadiyyatımız güclü olsun, siyasi imicimiz güclü olsun, bölgədə gedən proseslərə təsir imkanlarımız daha da artsın. Biz bunu istəyirik. Yəqin ki, hər bir ölkə bunu istəyər. Amma istəmək və bunu etmək başqa-başqa məsələlərdir. Bunu etmək üçün, arzularımızı həyata keçirmək üçün bizim imkanlarımız var.

Deyə bilərəm ki, indi bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq – bu bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək və beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi – bu bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir. Bütün istiqamət üzrə bizim proqramımız var. Hər bir istiqamət üzrə bizim baxışlarımız var, bilirik ki, nə istəyirik, haraya gedirik və təxminən bilirik ki, bunun nəticəsi nə olacaqdır. Nəticədə isə güclü ölkə olacaq, güclü Azərbaycan olacaq və Azərbaycan xalqı bundan sonra daha da yaxşı yaşayacaqdır. Bütün bu məqsədlərimizə çatmaq üçün biz gərək səmərəli işləyək.

Milli Məclisin yeni təmir olunmuş binasında səmərəli işləmək üçün çox böyük imkanlar var. Mən bu gün səhər buraya

gələrkən əvvəlki vəziyyəti xatırlayırdım və əlbəttə, siz də bunu görürsünüz ki, çox böyük fərq var. Hətta dedim ki, kaş mən burada işlədiyim dövrdə də belə bir təmir olaydı, amma eybi yoxdur, yəqin ki, bundan sonra tez-tez görüşəcəyik. Mən sizə uğurlar arzulayıram. Bir daha demək istəyirəm, çox şadam ki, Milli Məclisin deputatları öz işlərinə çox böyük məsuliyyətlə yanaşırlar. Seçicilərlə daim təmasdadırlar. Azərbaycanda mütərəqqi qanunların qəbul olunmasında fəal iştirak edirlər. Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edirlər və beləliklə, Milli Məclisin rolu, nüfuzu artır. Cəmiyyət də bunu görür və buna təqdirlə yanaşır. Mən də bunu görürəm. Mən də buna sevinirəm və bu kürsüdən sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, biz gələcəkdə də birlikdə işləyəcəyik, ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik. Sağ olun.

***

*Milli Məclisin sədri Oqtay Əsədov dərin məzmunlu nitqinə görə prezident İlham Əliyevə deputatlar adından minnətdarlığını bildirdi.*

## TÜRKİYƏNİN RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2006-cı il*

*Azərbaycan və Türkiyə arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları sahəsində uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev oktyabrın 3-də Bakıda keçiriləcək Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransının da əhəmiyyətini qeyd etdi.*

*Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolu xəttinin həm ölkələrimiz arasında əlaqələrin, həm də regional əməkdaşlığın genişləndirilməsi işində mühüm rol oynayacağını bildirən prezident İlham Əliyev dedi ki, Azərbaycan bu əhəmiyyətli nəqliyyat xəttinin tikintisi üçün özünün maliyyə öhdəliyini yerinə yetirməyə hazırdır.*

*Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin durmadan inkişaf etməsindən məmnunluqla bəhs edən cənab Binəli Yıldırım Bakıda Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransının keçirilməsinin böyük əhəmiyyət daşıdığını söylədi.*

*Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolunun region ölkələrinin qarşılıqlı surətdə faydalı əməkdaşlığında mühüm rol oynayacağını vurğulayan qonaq bu mühüm layihənin uğurla həyata keçirilməsinə Azərbaycanın xüsusi diqqət yetirməsinin Türkiyədə yüksək qiymətləndirildiyini bildirdi.*

## BMT-nin İQTİSADİ VƏ SOSİAL İŞLƏR DEPARTAMENTİNİN YARDIM VƏ ƏLAQƏLƏNDİRMƏ BÖLMƏSİNİN İCRAÇI KATİBİ SARBULAND XAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 2-də BMT-nin İqtisadi və Sosial İşlər Departamentinin yardım və əlaqələndirmə bölməsinin icraçı katibi Sarbuland Xanı qəbul etmişdir.*

*Vaxt tapıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən cənab Xan Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annanın salamlarını prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycanın informasiya və telekommunikasiya sahəsindəki inkişafının Baş katib tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.*

*BMT nümayəndəsi dedi ki, onun rəhbərlik etdiyi qurumun əsas məqsədlərindən biri məşğul olduğu sahə üzrə ölkələr arasında dialoq yaratmaq və əlaqələrə istiqamət verməkdir. Qonaq dedi: «Cənab Prezident, biz bilirik ki, Azərbaycan sizin fəal və uzaqgörən rəhbərliyiniz altında milli informasiya və kommunikasiya texnologiyaları strategiyasının hazırlanmasında inkişafa nail olmuşdur».*

*Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annanın salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev informasiya və kommunikasiya texnologiyalarının nəinki ölkəmizin, eləcə də bütün dünyanın gələcək inkişafında xüsusi rolu olduğunu bildirdi. Dövlətimizin*

*başçısı ölkəmizin bu sahəyə böyük əhəmiyyət verdiyini, informasiya və kommunikasiya texnologiyaları ilə bağlı konkret layihələrimizin mövcud olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev dedi ki, biz Azərbaycanın bu sahədə dünyanın aparıcı ölkələrindən biri olmasını arzulayırıq.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## «BAKUTEL–2006» XII BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİ-KONFRANSININ* TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Heydər Əliyev adına İdman və Sərgi Kompleksi*

*3 oktyabr 2006-cı il*

*Oktyabrın 3-də Heydər Əliyev adına İdman və Sərgi Kompleksində «Bakutel–2006» XII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi-konfransının təntənəli açılışı olmuşdur.*

*Əvvəlcə Azərbaycanda İKT-nin inkişafına həsr olunmuş videofilm nümayiş etdirildi.*

*Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları və İqtisadi İnkişaf nazirliklərinin, Ticarət və Sənaye Palatasının, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəsmi dəstəyi ilə keçirilən sərgidə dünyanın 23 ölkəsindən 110 şirkət təmsil olunur və ekspozisiya sahəsi 30 faiz artmışdır. «Microsoft», HP, Siemens, «ALCATEL», «Cisco, Sustems», «Huavei», «ORACLE» və s. kimi nəhəng şirkətlərin sərgidə iştirakı dünya istehsalçıları və layihəçiləri tərəfindən Azərbaycan bazarına olan böyük maraqdan və ölkəmizdə İKT sektorunun inkişafında fəal iştirak etmək niyyətindən xəbər verir. Bu il sərgidə Azərbaycanın yeni yaranmış «AB Skybell», «İsetech», «Rapid Solutions» və «Softline» şirkətləri də iştirak edir. Kompüter və ofis avadanlığı istehsal edən və bu il sərginin texniki dəstək provayderi kimi çıxış edən milli «Kür» şirkətinin ilk dəfə olaraq sərgidə xüsusi guşəsi yaradılmışdır.*

---

* Sərgi-konfransı Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov açmışdır.

*Sərgi-konfransın təşkilatçıları Britaniyanın «İTE Group PLC» və onun Qafqazdakı nümayəndəliyi olan «İteca Caspian» şirkətləridir.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və informasiya texnologiyaları üzrə Beynəlxalq konfransın və sərginin açılışı münasibətilə təbrik edirəm. Bu çox əlamətdar hadisədir və artıq Azərbaycanda bu konfransın və sərginin keçirilməsi ənənəvi xarakter alıbdır. Ancaq indiki konfrans əvvəlkilərdən fərqlənir, həm konfransa maraq artır, eyni zamanda, Azərbaycanın indi keçdiyi yol, xüsusilə informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə apardığımız siyasət deməyə əsas verir ki, Azərbaycan bu istiqamətdə regionda öz mövqelərini möhkəmləndirir. Bizim arzumuz bundan ibarətdir ki, Azərbaycan bölgədə İKT üzrə lider dövlətə çevrilsin. Biz çox istəyirik ki, qabaqcıl dünya şirkətlərini Azərbaycana cəlb edək və burada İKT üzrə ən mütərəqqi təcrübəni tətbiq edək. Bunu etmək üçün bütün imkanlar var.

Burada nümayiş etdirilən filmdə göstərildi ki, hələ 2003-cü ilin əvvəlində xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə İKT üzrə milli strategiya təsdiq edilmişdir. Ondan sonra müvafiq qanunvericilik bazası möhkəmlənmişdir, qanunlar qəbul olunmuşdur. 2004-cü ildə Azərbaycanda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yarandı. Yəni bu göstərir ki, dövlət tərəfindən bu sahənin inkişafına böyük diqqət var, böyük maraq var. Bu, bir tərəfdən, Azərbaycanın hərtərəfli inkişaf etməsi üçün çox önəmli amildir, digər tərəfdən, bu, Azərbaycana yenilik gətirən sahədir. Ölkəmiz inkişaf edir, müasirləşir, biz öz iqtisadi potensialımızı möhkəmləndiririk. Belə olan halda, dünyada mövcud olan ən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi bizim qarşımızda duran əsas vəzifələrdən biridir.

Bu sahənin həm Azərbaycan üçün, həm də dünya üçün

çox böyük perspektivləri var. İndi dünyada elmi-texniki tərəqqi ilk növbədə İKT sahəsində müşahidə olunur. Bu da təbiidir. Çünki bu sahənin həm gözəl perspektivləri var, həm də insanların gündəlik həyatında İKT-nin müasir məhsulları çox geniş şəkildə tətbiq olunur. Azərbaycanın hərtərəfli inkişafı, müasirləşməsi bizdən tələb edir ki, İKT sahəsində dünyada gedən ən qabaqcıl təcrübəni Azərbaycana gətirək, burada tətbiq edək və geniş şəkildə yayaq.

Bilirsiniz ki, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi məsələləri də bizim prioritet məsələlərimizdən biridir. Bizim iqtisadiyyatımız çoxşaxəli olmalıdır. Qeyri-neft sektorunun inkişafı indi iqtisadi sahədə qarşıda duran ən vacib məsələlərdən biridir. Neft sahəsində Azərbaycan çox böyük uğurlar əldə etmişdir. Azərbaycanın uğurlu neft strategiyası bu gün ölkəmiz üçün, onun inkişafı üçün çox gözəl zəmin yaradır. Biz iqtisadi cəhətdən müstəqil ölkəyik. Enerji təhlükəsizliyi baxımından müstəqil ölkəyik və bundan əlavə, bölgə üçün, geniş mənada Avropa üçün enerji təhlükəsizliyi məsələlərində öz rolumuzu oynayırıq və bu rol getdikcə artacaqdır. Bizim uğurlu neft strategiyamız Azərbaycanın iqtisadi potensialının hərtərəfli inkişafının təməlini qoyur.

Azərbaycan iqtisadiyyatı keçən il 26 faiz, bu ilin 8 ayında isə 30 faizdən çox artmışdır. Bu, dünyada analoqu olmayan göstəricidir, həmin göstəriciyə görə Azərbaycan dünyada birinci yerdədir. Yəni bütün bunlar çox gözəl iqtisadi potensial yaradır. Biz öz potensialımızı, o cümlədən maliyyə resurslarımızı yeni sahələrin inkişafına yönəltməliyik. Azərbaycanda yeni sənaye kompleksləri yaradılmalıdır, sənayenin yeni istiqamətləri inkişaf etməlidir. Biz bilməliyik ki, beş ildən, on ildən sonra güclü iqtisadi potensialımızdan, neft sektorundan əldə olunan gəlirlər sərmayə kimi hansı sahələrə qoyulacaqdır. Bir çox sahə var, amma bunların içində İKT ən böyük önəm daşıyır. Bir tərəfdən, iqtisadi inkişaf baxımından, iqtisadiyyatımızın şaxələndirilməsi baxımından, biznes baxımından, eyni zamanda, Azərbaycanın hərtərəfli inkişafı baxımından. Çünki İKT sahəsi təhsilə çox böyük təsir göstərir.

İnsanların savad, bilik almasına çox böyük təsir göstərir.

Bizdə çox gözəl gənc nəsil yetişir. Bilirsiniz ki, Azərbaycanda təhsil sahəsinə çox böyük diqqət göstərilir. Son iki il ərzində Azərbaycanda 600-dən çox yeni məktəb tikilibdir və bütün məktəblərdə kompüter sinifləri var. Azərbaycanda qəbul edilmiş proqrama əsasən, 2008-ci ilin sonuna qədər bütün ümumtəhsil məktəblərində kompüter sinifləri olmalıdır və onlar bilavasitə internetə qoşulmalıdır. Bizim gənc nəslimiz bilikli, dünyaya açıq olmalıdır, dünyada gedən proseslərə bələd olmalıdır, onlar izləməlidir. Ən qabaqcıl texnologiyalar Azərbaycana gəlməlidir. Bir sözlə, ölkənin inkişafı məhz bu istiqamətdə davam etməlidir. Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbləri təbii ehtiyatlar deyil, yaxud da hansısa başqa iqtisadi nailiyyətlər deyildir. Məhz bilik, məhz savad, yeni texnologiyalar – bunlar ölkəyə uğur, rifah gətirir, inkişaf, müasirlik gətirir.

Azərbaycanda İKT sahəsinin inkişafına biz məhz bu prizmadan yanaşırıq. Bu, bir tərəfdən, biznes üçün çox əlverişli və ümidverici sahədir, Azərbaycanda dövlət və hökumət özəl sahibkarlığın inkişafı üçün dəstəyini əsirgəmir. Digər tərəfdən, bu, iqtisadi potensialın möhkəmlənməsi üçün çox önəmli amildir. Bu, insanların maarifləndirilməsi, bilik səviyyəsinin qaldırılması üçün, təhsil sisteminin təkmilləşməsi üçün çox önəmli məsələdir. Yəni İKT sahəsinin ölkəyə təsiri çox genişdir. Əgər biz bunun hamısını nəzərdən keçirsək, görərik ki, Azərbaycan bu sahədə uğur qazana bilsə, bu, ölkəmizin inkişafına çox müsbət təsir göstərəcəkdir.

Bir daha deyirəm, bunu etmək üçün bütün imkanlar var. İlk növbədə, bizim öz maliyyə resurslarımız var və biz onları sərmayə şəklində İKT sahəsinin inkişafı üçün yönəltməliyik. Digər tərəfdən, Azərbaycanda çox gözəl sərmayə mühiti var. Bu baxımdan, adambaşına düşən birbaşa xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə lider dövlətdir. Azərbaycanda artıq genişmiqyaslı, dünya əhəmiyyətli transmilli layihələr həyata keçirilir. Azərbaycan beynəlxalq maliyyə qurum-

ları ilə uzun illərdir çox səmərəli əməkdaşlıq edir. Biz çox etibarlı tərəfdaşıq və çox gözəl biznes nüfuzuna malik olan ölkəyik. Belə olan halda, xarici sərmayənin cəlb edilməsi, əminəm ki, bizim üçün daha da asan olacaqdır. Artıq biz bunu görürük. İKT sahəsinin ümumdaxili məhsuldakı çəkisi artır. Bu sahəyə qoyulan sərmayələr artır. Tanınmış, qabaqcıl xarici şirkətlər Azərbaycana maraq göstərirlər, Azərbaycana gəlirlər və bizimlə işləmək istəyirlər. Biz də bunu istəyirik. Yəni bu sahədə də Azərbaycan öz imkanlarından istifadə edib İKT üzrə bölgədə qabaqcıl mövqelərə malik olmalıdır.

Əlbəttə ki, bu sahədə dövlətin dəstəyi də çox böyük əhəmiyyət kəsb edir. Bu dəstək də var. Mən artıq qeyd etdim ki, hansı məsələlər öz həllini tapıb, hansı qərarlar verilibdir. Əlbəttə, dövlət tərəfindən verilən dəstək bu sahədə çalışan insanları da ruhlandırır. Prezident kimi, mən bu sahəyə çox böyük diqqət göstərirəm, çox böyük önəm verirəm. Əminəm ki, bizim birgə səylərimiz nəticəsində Azərbaycan İKT üzrə dünyada məşhur ölkə olacaqdır. İndiki dövrdə həyata keçirilən nəhəng enerji layihələri Azərbaycanı bir neft-qaz ölkəsi kimi dünyaya tanıtdı. Azərbaycan etibarlı tərəfdaş kimi, həm iqtisadi, həm texniki, həm də siyasi baxımdan ən çətin enerji layihələrini həyata keçirmək iqtidarında olan ölkə kimi tanınır. Mən çox istərdim ki, beş-on ildən sonra Azərbaycan dünyada İKT üzrə qabaqcıl ölkə kimi tanınsın. Yenə deyirəm, bunu etmək üçün bütün imkanlar var.

Mən hesab edirəm ki, bir tərəfdən, dövlət dəstəyi, digər tərəfdən, İKT üzrə qəbul edilmiş milli strategiyanın icrası nəticəsində, eyni zamanda, xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq, yerli sahibkarların bu sahəyə diqqət yetirməsi nəticəsində biz bu məqsədlərə nail olacağıq. Bir tərəfdən, dövlət dəstəyi, digər tərəfdən, düşünülmüş siyasət, milli strategiyanın həyata keçirilməsi, xarici sərmayələrin cəlb olunması, ən qabaqcıl texnologiyaların tətbiqi, yerli sahibkarların dəstəklənməsi – bütün bu amillər bizim uğurumuzu şərtləndirəcəkdir.

Bugünkü konfrans və sərgi, ölkələri təmsil edən şirkətlərin sayının artması onu göstərir ki, Azərbaycan yavaş-yavaş

bu sahədə də qabaqcıl mövqelərə malik olur. Bu məni çox sevindirir və əminəm ki, bundan sonrakı dövrdə də buna bənzər konfranslar, digər beynəlxalq tədbirlər keçiriləcəkdir. Hesab edirəm ki, biz burada, Azərbaycanda beynəlxalq əməkdaşlığı yalnız bu konfranslar çərçivəsində həll etməməliyik. İl ərzində mütəmadi tədbirlər, konfranslar, simpoziumlar keçirilməlidir, fikir mübadiləsi, təcrübə mübadiləsi aparılmalıdır ki, Azərbaycanda bu sahə çox sürətlə inkişaf etsin.

Əlbəttə, gənc nəsil üçün bu sahə çox cəlbedicidir. Biz çox istəyirik ki, yetişən gənc nəsil bilikli olsun, savadlı olsun, dünyada olan ən qabaqcıl texnologiyaları mənimsəyə və Azərbaycanda tətbiq edə bilsin. Belə olan halda, Azərbaycan uzun illər ərzində uğurla inkişaf edən ölkə olacaqdır. Belə olan halda, Azərbaycan iqtisadiyyatı gələcəkdə – on il, iyirmi il, otuz il bundan sonra neft amilindən asılı olmayacaqdır. Bizim məqsədimiz bundan ibarətdir. Bu gözəl imkanlardan istifadə edib, neft-qaz amilindən istifadə edib güclü iqtisadiyyat, güclü sənaye potensialı yaratmaq və Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını müəyyən etməkdir. Bu günlərdə, bu illərdə Azərbaycanın uzunmüddətli inkişaf perspektivləri müəyyən olunur. Bunların necə olacağı bizdən asılıdır.

Mən gələcəyə böyük ümidlərlə baxıram. Çox şadam ki, qısa müddət, demək olar, son üç il ərzində İKT sahəsində görülən işlər çox gözəl nəticələrini verməkdədir. Əgər üç il ərzində belə böyük işlər görə bilmişiksə, demək, növbəti illərdə daha da böyük işlər görüləcəkdir.

Əziz dostlar, mən sizin hamınızı bir daha salamlayıram. Bakıya sərgi və konfransda iştirak etmək üçün gəlmiş bütün qonaqları salamlayıram və onlara öz minnətdarlığımı bildirir, sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

***

*«İTE Group PLC» şirkətinin direktoru Ceremi Hanli sərgi-konfransın təşkilatçıları adından prezident İlham Əliyevə təşəkkür edərək dedi: «23 ölkədən gəlmiş şirkətlərin burada*

*iştirakının əsas səbəbi Azərbaycanın gündən-günə yüksələn iqtisadiyyatı və gələcək perspektivləridir. Sizin rəhbərliyinizlə Azərbaycanda çox güclü və gözəl siyasət həyata keçirilir ki, bu da Azərbaycanın parlaq gələcəyinin zəminidir. Builki sərgi-konfrans da Sizin siyasətinizin yerinə yetirilməsi sahəsində atılan bir addım olacaqdır. Dəyərli nitqinizə görə çox sağ olun».*

***

*Prezident İlham Əliyev «Aztelekom» İstehsalat Birliyinin təşkil etdiyi video-konfrans vasitəsilə Naxçıvan Dövlət Universiteti ilə birbaşa əlaqə yaratdı.*

**İsa Həbibbəyli** (*Universitetin rektoru, Milli Məclisin deputatı*): Cənab Prezident, biz Sizi salamlayırıq. Sizin yüksək dəstəyinizlə Bakı şəhərində açılan Beynəlxalq sərgi-konfrans informasiya cəmiyyətinə doğru aparan yolda müstəqil Azərbaycanın əldə etdiyi mühüm nəticələri və gələcək perspektivləri cəmiyyətimizə və dünya ictimaiyyətinə təqdim etmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Cənab Prezident, Sizə məlumat verməyi özümə borc bilirəm ki, Naxçıvan Muxtar Respublikasında informasiya texnologiyalarının həyata keçirilməsi sahəsində görülən böyük işlər, o cümlədən Naxçıvan Dövlət Universitetində elektron kitabxananın yaradılması, «Elektron Naxçıvan» proqramının, habelə humanitar informasiya ilə əlaqədar tədbirlərin həyata keçirilməsi, Avropa universitetləri ilə video-konfransların təşkili regionda informasiya texnologiyaları ilə bağlı yeni təfəkkürün formalaşmasına və ən müasir texnologiyanın tətbiqinə marağın artmasına ciddi təkan verir.

Cənab Prezident, Sizin böyük köməyinizlə, qayğınızla çətin şəraitdə suqroptik magistralın Naxçıvan Muxtar Respublikasına çatdırılması regionun iqtisadi blokadadan çıxmasına və universitetimizin beynəlxalq əlaqələrinin genişlənməsinə, hətta burada elektron təhsilin də həyata keçirilməsinə tam təminat verir. Bütün bunlara görə Sizə universitetimizin professor-müəllim heyətinin və tələbə kollekti-

vinin ürəkdən gələn dərin minnətdarlığını çatdırıram. Sizi əmin edirəm ki, universitetimiz regionda informasiya cəmiyyətini yaradacaq yüksək ixtisaslı yeni nəsil formalaşdırmaq üçün bundan sonra da var qüvvə ilə çalışacaqdır.

Cənab Prezident, çoxcəhətli və məqsədyönlü fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq.

**İlham Əliyev:** Sağ olun. Bütün naxçıvanlılara mənim salamlarımı çatdırın.

***

*Sonra prezident İlham Əliyev sərginin pavilyonlarını gəzdi.*

*Məlumat verildi ki, sərginin ənənəvi iştirakçıları sırasında «Azercell Telecom», «Azel», «AzEuroTel», «Az.StarNet», «AzTech», «AzTelekom», «Bakcell», «BakTelekom», «CATEL», «Delta Telekom», «İnfoSystems Jet», «İntrans», «Logo», «RSCC», «The İnternational bank of Azerbaijan», «Sinam», «Smart Systems», «Soliton», «Teleradio və Ultra Computers» şirkətləri vardır. İştirakçı şirkətlər İKT sahəsində son nailiyyətləri təqdim edərək, istehlakçı ilə ən yeni məlumatları paylaşırlar.*

*Builki sərgidə ABŞ şirkətlərinin fəallığı xüsusi hiss edilir. Belə ki, ABŞ telekommunikasiya sənayesində fəaliyyət göstərən 15 şirkətlə təmsil olunmuşdur. Bu şirkətlərin eksponatları ABŞ–Azərbaycan Ticarət və Sənaye Palatası tərəfindən təşkil olunmuş «ABŞ guşəsi»ndə nümayiş etdirilir.*

*Dövlətimizin başçısı sərginin əsas bölmələri – Telekommunikasiya və şəbəkələr, İKT və ofis texnologiyaları, simli və simsiz rabitə, Peyk rabitəsi və texnologiyaları, Proqram təminatı və avtomatlaşdırma sistemləri, Elektron Biznes, Elektron Hökumət, Elektron Təhsil və s. ilə yaxından tanış oldu, «BEKO» şirkətinin hazırladığı, çəkisi 1 kiloqram olan və barmaq izləri ilə işləyən özəl nootbuka maraqla baxdı, bunun ölkəmizdə istehsalına və tətbiqinə ehtiyac duyulduğunu bildirdi.*

*Respublikamızın rəhbəri informasiya texnologiyaları sahəsində xidmət göstərən və telefon aparatları istehsal edən Rusi-*

*yanın «İnfosistem Jet», «Cisco Systems», Çinin telekommunikasiya avadanlığı istehsal edən «Huavei Texnologies», dünyada məşhur olan «Siemens» şirkətinin elektron avadanlığına, «Aztex»in nootbuk kolleksiyasına və digər firmaların məhsullarına maraqla tamaşa etdi.*

*Prezident İlham Əliyev Mingəçevir şəhərindəki «Kür» elektron avadanlığı istehsalı müəssisəsinin xüsusi guşəsi ilə də maraqlandı, əsginasların ödənişi üçün kiosk aparatı vasitəsilə aparılan əməliyyat prosesini izlədi. Bildirildi ki, əsasən mobil, şəhərlərarası rabitə, internet və digər əməliyyatlarda istifadə olunan bu aparat «Sinam» şirkətində sınaq nümunəsi kimi düzəldilmişdir və onun kütləvi istehsalına başlanacaqdır. 2005-ci ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və «Sinam» şirkəti tərəfindən yaradılmış «Kür» müəssisəsi Cənubi Qafqaz və Mərkəzi Asiyada konveyer üsulu ilə kompüter istehsal edən ilk müəssisədir. Burada istehsal prosesinin təşkili və yeni yüksək texnoloji məhsulun bazara çıxarılması üzrə Avropa və Tailand təcrübəsi yaxından öyrənilmişdir. Müəssisənin istehsal gücü gündə 140 kompüter yığmağa imkan verir. Hazır kompüterlərin testdən keçirilməsi üçün termik kamera quraşdırılmışdır. Hazırda «Kür» və «Hevlett Packard» ticarət markaları altında dünya standartlarına uyğun kompüterlər yığılır. Məhz buna görə də 2006-cı ilin birinci yarısında müəssisə İSO 9001:2000 keyfiyyət sertifikatına layiq görülmüşdür. Yaxın gələcəkdə digər avadanlığın da istehsalı nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı ölkəmizdə informasiya texnologiyaları sahəsində yaradılan yeni müəssisələrin dünya standartlarına uyğun avadanlıq istehsal etməsini yüksək qiymətləndirdi, daxili tələbat ödənildikdən sonra məhsulun xarici bazara da çıxarılmasının zəruriliyini vurğuladı və bildirdi ki, İKT sektorunun inkişafına dövlət tərəfindən hər cür kömək göstəriləcəkdir.*

## ABŞ–AZƏRBAYCAN TİCARƏT PALATASININ HƏMSƏDRİ CEYMS BEYKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də ABŞ–Azərbaycan Ticarət Palatasının həmsədri Ceyms Beykerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı XII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi-konfransının Bakıda çox yaxşı səviyyədə keçməsindən məmnunluğunu bildirdi. Azərbaycanda informasiya və telekommunikasiya texnologiyaları sahəsinin inkişafına böyük maraq göstərildiyini vurğulayan prezident İlham Əliyev ölkəmizin bu sahədə inkişafın yeni mərhələsinə qədəm qoyduğunu nəzərə çatdırdı. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan telekommunikasiya və informasiya texnologiyaları sahəsində uğurlar əldə edəcəkdir.*

*Təmsil etdiyi təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlıq edən cənab Ceyms Beyker Bakıda keçirilən tədbirin əhəmiyyətli olduğunu bildirdi. O bir sıra ölkələrin, o cümlədən ABŞ şirkətlərinin bu tədbirə cəlb olunmasını məmnunluqla vurğuladı.*

## AVROPA BİRLİYİ «ÜÇLÜYÜ»nün (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Avropa Birliyi «Üçlüyü»nün (Troyka) nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qonaqları salamlayaraq dedi ki, sizin ölkəmizə səfəriniz çox əhəmiyyətlidir və Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın inkişafında yeni mərhələnin başlanğıcı deməkdir. Azərbaycanın Avropa Birliyi ilə əlaqələrinin səviyyəsinin yüksək olduğunu vurğulayan prezident İlham Əliyev dedi ki, biz müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək niyyətindəyik. Qonşuluq siyasəti bütün regiona sülh və inkişaf gətirəcəkdir. Ümid edirəm ki, aparılan müzakirələr Avropa Birliyi ilə Cənubi Qafqaz münasibətlərinin inkişafında faydalı olacaqdır.*

*Prezident İlham Əliyevin fikirləri ilə şərik olduqlarını söyləyən Finlandiyanın Xarici İşlər naziri Erkki Tuomioya Azərbaycanda qonşuluq siyasətinin fəaliyyəti barədə müzakirələr apardıqlarını bildirdi. Bakıya səfərin çox səmərəli olduğunu vurğulayan qonaq ümidvar olduğunu bildirdi ki, qonşuluq siyasəti regionda münaqişələrin həllinə töhfələr verə biləcəkdir. O dedi ki, biz münasibətlərimizin təkcə iqtisadi baxımdan deyil, həm də davamlı siyasi dialoq və əməkdaşlıq çərçivəsində dərinləşəcəyinə ümid edirik.*

**İSPANİYANIN KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

Qədim tarixə malik bayramınız – İspaniyanın Milli günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə İspaniya arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına sülh və sabitlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 oktyabr 2006-cı il*

**İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – İspaniyanın Milli günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, qarşılıqlı səylərimiz sayəsində ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafında yeni-yeni nailiyyətlər əldə edəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 oktyabr 2006-cı il*

## QEYDLƏR

**1. Salyan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1632 $km^2$, əhalisi 95,1 min nəfərdir. – 5–18.

**2. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 5,6,8,15,16,17,20,21,28, 29,30,32,34,35,77–78,88,99,112,114,115,116,167–168,192,204, 205,207,214,216.

3. **Azad Rəhimov,** A z a d  A r i f  o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. –5.

4. **Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 $km^2$, əhalisi 101,6 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 5.

5. **Qusar** (1938-ci ilədək Hil rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1542 $km^2$, əhalisi 83,0 min nəfərdir. – 5.

6. **Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2202 $km^2$, əhalisi 113,3 min nəfərdir. – 5.

7. **Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən

Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara la-

yiq görülmüşdür. – 5,6,8,9,11,15,17,20,23,25,32,33,36,39,77,78, 164,167,168,182,183,186,188,189,190,191,192,198,206,207,214, 215,218,227,259,266,280,304.

**8. Ömər Eldarov,** Ö m ə r  H ə s ə n  o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monimental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 6.

**9. Akif Əsgərov,** A k i f  İ z z ə t u l l a  o ğ l u (d.1940) – heykəltəraş. Əməkdar mədəniyyət xadimi. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru. Xocalı soyqırımı abidəsinin müəllifidir. – 6.

**10. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 7.

**11. Etibar Pirverdiyev** (d.1964) – 2001-ci ildən «Azərenerji» ASC-nin prezidenti vəzifəsində çalışır. – 7.

**12. Neftçala** – Azərbaycan Respublikasında inzibati rayon. 1940-cı ildə təşkil olunmuşdur. 1959-cu ildə ləğv edilərək ərazisi Salyan rayonuna birləşdirilmişdir. 1973-cü ildə yenidən müstəqil rayon statusu almışdır. Ərazisi 1451,70 km$^2$, əhalisi 80,4 min nəfərdir. – 7.

**13. Biləsuvar** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1938-ci ilədək Biləsuvar rayonu, 1938-ci ildən Puşkin rayonu adlanmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi Cəlilabad rayonu ilə birləşdirilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. SSRİ-nin

süqutundan sonra – 1991-ci ildə rayona öz tarixi adı qaytarılmışdır. Sahəsi 1393 km$^2$, əhalisi 78,0 min nəfərdir. – 7,36–39.

**14. Cəlilabad** (1967-ciilədək Astraxanbazar rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Qərbdə İranla həmsərhəddir. Sahəsi 1441 km$^2$, əhalisi 175,9 min nəfərdir. – 7.

**15. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 292 km$^2$, əhalisi 178,8 min nəfərdir. – 7.

**16. «Azenko»** – Azərbaycanda tikinti şirkəti. 2006-cı ildən fəaliyyətə başlamışdır. «Azenko Holdinq»in tərkibinə beş tikinti şirkəti daxildir. Yarandığı vaxtdan «Azenko» hotel binalarının, hündürmərtəbəli evlərin, biznes mərkəzlərinin tikinti işləri ilə məşğul olur. – 7.

**17. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 7,91, 165.

**18. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 7,11,14,23,25,46,55,81,92, 93,94,124,125,183,185,219,234,243.

**19. Bakı–Tbilisi–Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm,

uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 7,38, 46,93,219,234,289.

**20. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 12.

**21. Kuba,** K u b a R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleyadır. Dövlətin və hökumətin başçısı – Dövlət Şurasının sədridir. – 19

**22. Fidel Kastro,** K a s t r o R u s (d.1926) – 1960–2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin sədri, 1965-ci ildən Kuba KP MK-nın Birinci katibi və Kuba Silahlı Qüvvələrinin Baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. – 19.

**23. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 15,16,28,32,34,77,78, 167–168,192,207.

**24. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 15,28,32,33,78,167,168,215.

**25. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə fəaliyyəti, xüsusilə kimya və elektron sənaye sahələrində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 16,164.

**26. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 17,205.

**27. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 146,9 min nəfərdir. – 20-34.

**28. Həzi Aslanov,** H ə z i  Ə h ə d  o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanovun 55-ci əlahiddə tank polku Stalinqrad vuruşmasında feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H.Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitava şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 20.

**29. Tofiq İsmayılov,** T o f i q  K a z ı m  o ğ l u (1933–1991) – texnika elmləri doktoru, professor. 1982-ci ildən ömrünün sonuna qədər Kosmik Tədqiqatlar Elm İstehsalat Birliyinin Baş konstruktoru və Baş direktoru vəzifəsində çalışmışdır.

SSRİ Baş Kosmos İdarəsinin Elmi-Texniki Şurasının, SSRİ Elmlər Akademiyası Elmi Şurasının və Dövlət Elm və Texnika Komitəsinin üzvü, Azərbaycan Respublikası Kosmonavtika Federasiyasının sədri olmuşdur.

1989-cu ildən SSRİ Xalq deputatı, SSRİ Ali Soveti Rəyasət Heyətinin, Sov.İKP MK və Azərbaycan KP MK-nın üzvü olmuşdur.

1991-ci il noyabrın 20-də Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov Qarabağın Qarakənd kəndi üzərində «Mİ-8» helikopterinin ermənilər tərəfindən vurulması nəticəsində faciəli surətdə həlak olmuşdur. – 21.

**30. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 21,23,146, 154,165,227.

**31. Almaniya,** A l m a n i y a  F e d e r a t i v  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$,

əhalisi 81,9 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 21,194,205,233–258,264, 265,280.

**32. «Siemens» –** alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektroavadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 21,22,303.

**33. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 23.

**34. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$-dir. Əhalisinin sayına görə (400 minə yaxın) Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 25.

**35. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 $km^2$, əhalisi 109,3 min nəfərdir. – 25.

**36. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq

Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 28,49,50,101,103,104,105,106,109,111, 149,151,155,182,196,236,237,241,247,248,253,254,267,268,269, 271,275,277,289,292,293,294,296,302.

**37. «Azərbaycan Mədəniyyətinin Dostları»** – xeyriyyə fondu. 1995-ci ildə xeyriyyəçi, ictimai və siyasi xadim Mehriban xanım Əliyeva tərəfindən yaradılmışdır. Fəaliyyətə başladığı ilk günlərdən fond milli mədəniyyətimizin təbliği, inkişafı, tanınması üçün çox böyük işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə təbliğ etmək üçün Azərbaycan, rus, ingilis dillərində «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. – 28.

**38. Lənkəran Dövlət Universiteti** – Lənkəran şəhərində ali təhsil müəssisəsi. 1991-ci ildə Bakı Dövlət Universitetinin filialı kimi fəaliyyətə başlamış, 1992-ci ildən müstəqil Dövlət Universitetinə çevrilmişdir. Universitetdə 4 – humanitar elmlər, təbiət, iqtisadiyyat və pedaqoji fakültə fəaliyyət göstərir. – 28.

**39. «Xəzər-Lənkəran» futbol klubu** – Azərbaycan Premyer Liqasında çıxış edən Lənkəran şəhərinin futbol klubu. 2004-cü ildə yaradılmışdır. – 31.

**40. Mübariz Məsimov,** Mübariz Qurban oğlu (d.1968) – İş adamı, «Palmalı» şirkətlər qrupunun yaradıcısı və prezidenti, həmçinin «Xəzər-Lənkəran» futbol klubunun prezidentidir. – 31.

**41. Osman Mirzəyev,** Osman Mirzə Hüseyn oğlu (1937–1991) – görkəmli jurnalist, yazıçı və publisist. 1991-ci il noyabrın 20-də Xocavənd rayonu yaxınlığındakı Qarakənddə bir sıra digər dövlət xadimləri ilə birgə «Mi-8» helikopterinin ermənilər tərəfindən vurulması nəticəsində şəhid olmuşdur. «Adlarımız», «Bir dəfə yaşayırıq», «Damla

və göl» kitablarının müəllifidir. Azərbaycan Respublikası Prezidentinin Mətbuat Katibi (1990–1991) olmuşdur. –

**42. «Neftçi» –** Azərbaycanda futbol klubu. SSRİ dövründə bir müddət «Neftyanik» adlanmışdı. «Neftçi» ilk rəsmi oyununu 1937-ci ildə keçirmişdir. Azərbaycan futbolunun flaqmanı olan «Neftçi» 1966-cı ildə SSRİ birinciliyinin bürünc medalını qazanmışdır, 2006-cı ildə Müstəqil Dövlətlər Birliyi Kubokunu almışdır. – 32.

**43. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 40-56.

**44. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 41,96,250.

**45. İqtisadi Əməkdaşlıq Təşkilatı** – Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 42.

**46. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədə-

dir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 42,121–129,169–181,251,268,272,277,278.

**47. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 42,43,96,99,104,108,237,238,240, 241,242,243,244,246,247,250,270,272

**48. NATO** (*Şimali Atlantika Müqaviləsi Təşkilatı*) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 42,94.

**49. NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı»** – 2008-ci ildən Azərbaycan Respublikası bu planın həyata keçirilməsində iştirak edir. – 42,94,246.

**50. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 43,46,135,211,281,282,283.

**51. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 43,151,152, 155,234,255.

**52. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hü-

quqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 43,96,246,268.

**53. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun Gürcüstanın Axalkalaki stansiyasından Türkiyənin Qars şəhərinə qədər olacaq hissəsinin uzunluğu 105 km-dir. Yolun çəkilişi təxminən 2015-ci ilin ortalarında başa çatmalıdır. – 46,275,293,299.

**54. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur.–49,63,64,96–105, 248,255,270,296,300–301.

**55. Los-Anceles** – ABŞ-da, Sakit okeanın cənub sahilində şəhər və liman. – 50,274.

**56. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon

nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 50,235,236,237,238,255,270.

**57. Marsel** – Cənubi Fransada Rona çayının mənsəbinə yaxın, Adriatik dənizi sahilində şəhər-port. Fransada turizm və mədəniyyət mərkəzi kimi məşhurlaşmışdır. Əhalisinin sayı 1,3 milyon nəfərdir. Əsası eramızdan əvvəl VI əsrdə qoyulmuşdur. – 50.

**58. Krasnodar** – Rusiya Federasiyasında subyekt. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,1 milyon nəfərdir. – 50.

**59. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 50,95,98,153,194,234,244,272,276.

**60. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazağa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici

ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 50.

**61. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənubqərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 50.

**62. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 50.

**63. Atəşkəs rejimi** – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 51.

**64. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 20,4 milyon nəfərdir. Malayziya fede-

rasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Millətlər Birliyinin üzvüdür. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpurdur. – 57,58.

**65. Tuanku Seyid Siracəddin Putra Camalulai** (d.1943) – Malayziya siyasi və dövlət xadimi və Ali başçısı. – 57.

**66. Abdulla Əhməd Badavi** (d.1939) – 2003–2009-cu illərdə Malayziyanın Baş və Maliyyə naziri olmuşdur. Hakim Milli Cəbhə Partiyasının lideridir. – 58.

**67. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 198,5 min $km^2$, əhalisi 4,53 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 59,215.

**68. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 59.

**69. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Ərazisi 603,7 min $km^2$, əhalisi 45,6 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 60,118, 142–168.

**70. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 60,142–168.

**71. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,36

milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 61.

**72. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 61.

**73. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefektura bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. – 62.

**74. VI Məhəmməd,** B i n  ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sülaləsindən 18-ci kraldır. – 62.

**75. Portuqaliya,** P o r t u q a l i y a  R e s p u b l i k a s ı – Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 63.

**76. Antonio Quterreş** (d.1949) – Portqaliya siyasi və dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. BMT-nin qaçqınlar üzrə Ali Komissarı. – 63-64.

**77. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən,

dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 63,109,250,254,267.

**78. ATƏT-in Lissabon Zirvə görüşü** – 1996-cı il dekabrın 2–4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan–Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 63.

**79. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 65,120,273.

**80. Mehdi Səfəri** (d.1959) – 2001–2005-ci illərdə İranın Asiya –Sakit okean regionu və MDB üzrə İran Xarici İşlər nazirinin müavini olmuşdur. – 65.

**81. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlan-

tik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 66–67,172, 197,209,226,229,243,252,270,271,274,310,312.

**82. Riçard Luqar** (d.1932) – amerikan siyasətçisi, İndiana ştatından senator, Respublikaçılar Partiyasının üzvü. – 66–67.

**83. Vaşinqton** – Amerika Birləşmiş Ştatlarının paytaxtı. Ölkənin siyasi, elm və mədəniyyət mərkəzi. Şəhər 1791-ci ildə salınmış və ABŞ-ın ilk prezidenti C.Vaşinqtonun şərəfinə adlandırılmışdır. – 66,197,209.

**84. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min $km^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 68.

**85. Hüsnü Mübarək,** S e y i d  M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 68.

**86. Qahirə** – Misirin paytaxtı. Nil çayı sahilində yerləşir. Afrikada ən böyük şəhər. Əhalisi 9,9 milyon nəfərdir. Qahirənin əsasını 969-cu ildə Fatimilər sərkərdəsi Cövhər əl-Saqali qoymuşdur. Qahirə memarlıq və arxeoloji abidələrlə zəngindir. Şəhər qədim abidələrlə – İbn Tulun (IX əsr) və Əl-Əzhar məscidləri (X əsr), Səba Bənat (XI əsr) və Umm Gülsüm (1122-ci il) məqbərələri, Səlahəddin qalası (1176–83), Sultan Qait bəy məqbərəsi və məscidi (1472–74) ilə məşhurdur. – 68.

**87. «*bp*–Azərbaycan»** – neft şirkəti. 1994-cü ildə yaradılmışdır. Hazırda ABƏŞ-in əsas operatorudur. – 69,199.

**88. Səngəçal terminalı** – Azərbaycanın neft və qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biri. Terminal dənizdəki yataqlardan hasil olunan nefti və qazı qəbul edir, texnoloji emaldan keçirir, saxlayır və ixrac edir. Səngəçal terminalı 542 hektar ərazini əhatə edir və dünyanın ən böyük neft və qaz terminallarından biridir. Terminalın texniki emal sistemlərinin ümumi gücü gündə 1,2 milyon barel neft və «Şahdəniz» qazı üçün gündəlik 25,5 milyon kubmetr qaz təşkil edir. – 69,199.

**89. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 69.

**90. Byorn Lomborq** (d.1965) – Danimarka iqtisadçısı, ekoloq, ictimai xadim. Byorn Lomborq Kopenhagen biznes məktəbinin professoru, «Kopenhagen konsensus» mərkəzinin direktorudur. – 70.

**91. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km², əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 71–78.

**92. II Abdulla,** Abdulla bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. – 71–78.

**93. Fələstin – İsrail münaqişəsi** – BMT Baş Məclisinin 1947-ci il qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri (İsrail və Fələstin) yaradılmalı idi. 1948–49 və 1967-ci ildə Fələstin Ərəb Dövləti üçün ayrılmış böyük bir ərazini İsrail işgal etdi. İsrail hökuməti Fələstin torpaqlarını bu günədək işğal altında saxlayır. Fələstin xalqının azadlıq və öz müqəddəratını təyin etmək hüququna zidd olaraq İsrail hakim dairələri ancaq İsrail dövləti daxilində Fələstin xalqına «muxtariyyət hüququ» verilməsi planını irəli

sürürlər. Fələstin ərəb xalqının qanuni hüquqları uğrunda mübarizə aparan Fələstin Azadlıq Təşkilatı (FAT) isə bu planı qətiyyətlə rədd edir. FAT-ı 115 ölkə tanıyır, 82 ölkədə nümayəndəliyi var. 1973-cü ildən bəri FAT Fələstin ərəb xalqının yeganə qanuni nümayəndəsi kimi tanınır. – 74.

**94. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km², əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 79,95,130–136,194,210–215,243,247,250,251,259,270,271,276, 281.

**95. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 79.

**96. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km², əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 81,95,121–129,137,178,194,198,216–223,243,244,271,272,284,299.

**97. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km², əhalisi 23,3 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin

başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 82.

**98. İslam Kərimov,** İ s l a m  Ə b d u q ə n i  o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 82.

**99. Liviya,** L i v i y a  Ə r ə b  X a l q  S o s i a l i s t  C ə m a h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min $km^2$, əhalisi 5,4 milyon nəfərdir. Liviyanın rəhbər orqanı inqilabi rəhbərdir. Qanunverici orqanı Umumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripolidir. – 83.

**100. Müəmmər əl-Qəddafi** (d.1942) – Liviyanın dövlət və siyasi xadimi. 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. – 83.

**101. Slovakiya,** S l o v a k i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min $km^2$, əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 84.

**102. İvan Qaşparoviç** (d.1941) – Slovakiya dövlət xadimi, hüquqşünas-alim, 2004-cü ildən Slovakiya Respublikasının prezidenti. – 84.

**103. Qətər,** Q ə t ə r  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11 min $km^2$, əhalisi 59 min nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Doha. – 85,266.

**104. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995-ci ildən Qətər əmiri, 1997-ci ildə regionda – ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. – 85.

**105. Vyetnam,** Vyetnam Sosialist Respublikası (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 322 min $km^2$, əhalisi 76,1 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoydır. – 86.

**106. Nquen Minh Triet** (d.1942) – Vyetnam dövlət xadimi. 2006–2011-ci illərdə Vyetnamın prezidenti olmuşdur. – 86.

**107. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon $km^2$, əhalisi 157,9 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və federativ mahala (paytaxta) bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliyadır. – 87.

**108. Luis İnasiu Lula Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının prezidenti olmuşdur. – 87.

**109. Sloveniya,** Sloveniya Respublikası – Mərkəzi Avropanın cənubunda dövlət. Sahəsi 20,3 min $km^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyanadır. – 88–116,155.

**110. Dimitri Rupel** (d.1946) – Sloveniya siyasətçisi. 2000–2004-cü illərdə Sloveniyanın Xarici İşlər naziri və ATƏT-in sədri olmuşdur. Rupel Pen klubun üzvüdür. – 88,89–90.

**111. Lyublyana** – Sloveniya Respublikasının paytaxtı. Ölkənin mərkəzində yerləşir. Tarixi, mədəni abidələr və turizm şəhəri kimi tanınır. Əhalisi 269,6 min nəfərdir. – 88,112–116.

**112. Yanez Yanşa** (d.1958) – Sloveniya siyasi xadimi. 2004–2008, 2012–2013-cü illərdə Sloveniyanın Baş naziri olmuşdur. –88,89–90,132,133.

**113. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 90,111, 269,270,296,302.

**114. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 92, 124.

**115. İpək Yolu**, Böyük İpək Yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəl-

dilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 92.

**116. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 92.

**117. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində yaratmağa, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsizlik, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 93,94, 237,239,240,241,246,250.

**118. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7249 milyon km$^2$, əhalisi 16,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 94,151,215,243,276.

**119. Georgi Baramidze** (d.1968) – Gürcüstan dövlət və ictimai-siyasi xadimi. 2003–2004-cü illərdə Gürcüstan Daxili İşlər naziri, 2004-cü il 7 iyundan 17 dekabra qədər Müdafiə naziri, 2004-cü ilin dekabrından Avropa və Avroatlantik strukturlara İnteqrasiya məsələləri üzrə Dövlət naziridir. – 98.

**120. Peter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə səfir Semnebey Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 99.

**121. Yanez Drnovşek** (1950–2008) – Yuqoslaviya və Sloveniya siyasətçisi. 1992–2000, 2000–2002-ci illərdə Baş nazir, 1989–1990-cı illərdə Yuqoslaviya Ali Məclisinin sədri, 2002–2007-ci illərdə Sloveniya prezidenti olmuşdur. – 100,101,102–108.

**122. Mehdi Hüseynzadə,** Mehdi Hənifə oğlu (1918–1944) – Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrəmanı. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı. – 104.

**123. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 110.

**124. Jan Lemyer** (d.1950) – fransız iqtisadçısı, hüquqşünas. 1995–99-cu illərdə Fransa Maliyyə və İqtisadiyyat nazirinin şəxsi dəftərxanasının müdiri, 2000-ci ildən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentidir. – 110.

**125. Mətyu Brayza** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 111.

**126. Yan Kubiş** (d.1952) – Sloveniya siyasətçisi və diplomat. 1999–2005-ci illərdə ATƏT-in Baş katibi, 2006–2009-cu illərdə

Sloveniyanın Xarici İşlər naziri, 2012-ci ildən BMT Baş katibinin Əfqanıstan üzrə xüsusi nümayəndəsi və BMT-nin Əfqanıstana kömək missiyasının rəhbəridir. – 111.

**127. Postoyna mağarası** – Sloveniyada Postoyna şəhəri yaxınlığında yerləşən mürəkkəb sistemli karst salon və qalereyalar. Mağaranın uzunluğu 16,4 km, girişin hündürlüyü 554 metrdir. – 115.

**128. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 117.

**129. Roh Mu-Hyun,** H o M u X e y n (1946–2009) – 2003–2008-ci illərdə Koreya Respublikasının prezidenti. Dövlət başçısı olduğu dövr Cənubi Koreyada iqtisadiyyatın inkişafı və artım dövrü olmuşdur. – 117.

**130. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 164,2 min km$^2$, əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 119.

**131. Zeynalabidin ben Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987–2011-ci illərdə Tunis prezidenti. Prezident seçilərkən Zeynalabidin bin Əli öz siyasi proqramını - Tunisdə çiçəklənən, azad, sülhsevər cəmiyyət quracağını vəd etmişdi. – 119.

**132. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 120.

**133. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qo-

şulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Respublikasının prezidenti seçildi. – 122,123,124,129,217,218,223.

**134. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl Tüveyjridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 122.

**135. Bülənt Arınç** (d.1948) – Türkiyə siyasətçisi. 2002–2007-ci illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. Hazırda Bülənt Arınc Türkiyə hökumətində Baş nazirin müavini və hökumət sözçüsüdür. – 123.

**136. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 123,179.

**137. Şövkət Əziz** (d.1949) – Pakistanın dövlət xadimi. 2004–2007-ci illərdə Pakistanın Baş naziri olmuşdur. – 123, 124.

**138. Ekmələddin İhsanoğlu** (d.1946) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. – 123, 181.

**139. Qurani-Kərim,** əl-Quran – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əley-

hüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 123,169,230.

**140. Mixail Zabelin** (d.1946) – on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. –

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür. Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, Azərbaycanda Rus icmasının sədri, «Azərbaycan–Rusiya» cəmiyyətinin vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 132–133.

**141**. **Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 137.

**142. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1958 min km$^2$, əhalisi 91,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar palatası və Senat). Paytaxtı Mexikodur. –138.

**143. Visente Foks Kesada** (d.1942) – Meksikanın ən məşhur prezidentlərindən biri. Müxalifət partiyalarından seçilən ilk prezident (2000–2006). – 138.

**144. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 km$^2$, əhalisi 372 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 139.

**145. Eduard Feneç Adami** (d.1934) – Malta siyasətçisi. 1987–1996,1998–2004-cü illər Maltanın Baş naziri, 2004–2009-cu illərdə Maltanın prezidenti olmuşdur. – 139.

**146. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri – Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 140,141,177,277.

**147. Abdullah ibn Əbdüləziz,** Al Səud (1924–2011) – 2005-ci il Səudiyyə Ərəbistanı kralı. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci kral.. Əbdüləziz ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 140.

**148. Hüseynqulu Bağırov,** Hüseynqulu Seyid oğlu (d.1955) – iqtisadçı. 1993-cü ildən Qərb Universitetinin təsisçisi, prezidenti və rektorudur. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 146.

**149. Boris Tarasyuk** (d.1949) – sovet və Ukrayna diplomatı. 2003-cü ildən Ukrayna Xalq Partiyasının sədridir. 1998–2000 və 2005–2007-ci illərdə Ukrayna Xarici İşlər naziri olmuşdur. – 146.

**150. Odessa–Brodi** – Odessa və Brodi şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. 2001-ci ildə axıdılan neftin miqdarı 14,5 milyon ton olmuşdur. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması da nəzərdə tuturdu. – 151,153,154.

**151. Babi Yar faciəsi** – Kiyevin şimal-qərbində 1941–43-cü illərdə alman-faşist işğalçıları tərəfindən kütləvi surətdə dinc əhalinin, xüsusilə yəhudi və hərbi əsirlərin qətlə yetirildiyi yarğan. – 157.

**152. «Holokost»** (*yəhudilərin İkinci dünya müharibəsində kütləvi surətdə soyqırımı*) – xatirə muzeyi. 1963-cü ildə Vaşinqtonda yaradılmışdır. Muzeyin məqsədi İkinci dünya müharibəsi illərində və əvvəllər yəhudi xalqına qarşı soyqırımın tarixini sənədləşdirmək, öyrənmək və informasiya yaymaqdır. Muzeyin divarındakı saxsı lövhədə soyqırıma məruz qalmış milyon yarım yəhudi uşağının xatirəsi anılır. – 157.

**153. Qolodomor** – 1932–33-cü illərdə bütün Ukrayna ərazisini burümüş və xeyli insan ölümünə səbəb olmuş kütləvi aclıq. Bu zaman SSRİ ərazisinin digər yerlərində də kütləvi aclıq olmuşdur.

2006-cı ildə Ukrayna Ali RADA-sı Qolodomoru Ukrayna xalqına qarşı genosid kimi tanımışdır. – 157.

**154. Xələf Xələfov,** X ə l ə f  A l ı  o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. Moskvada ikiillik Ali Diplomatiya Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 164.

**155. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 164,165.

**156. Qara yanvar**, 1990-cı ilin 20 yanvarı – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdir. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 164.

**157. Şəhidlər xiyabanı** – Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 164.

**158. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti və «Neftçi» futbol klubunun prezidentidir.

Rövnəq Abdullayev Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 165.

**159. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman-alman filologiyası öyrənilir. Univer-

sitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın fəlsəfə doktoru fəaliyyət göstərir, üç min tələbə təhsil alır. – 165,212,214.

**160. Kamal Abdulla,** Kamal Abdullayev Mehdi oğlu (d.1950) – Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri. Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın akademiki. Azərbaycan Yaradıcılıq Fondunun sədri, Bakı Slavyan Universitetinin sabiq rektoru (2000–2004), dilşünas, ədəbiyyatşünas. – 166.

**161. Seneqal,** Seneqal Respublikası – Cənubi Afrikada dövlət. Sahəsi 196,2 min km², əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakardır. – 169,175.

**162. Atilla Koç** (d.1946) – Türkiyənin Mədəniyyət və Turizm naziridir. TBMM-də Ədalət və İnkişaf Partiyasından millət vəkilidir. – 178.

**163. Ümumdünya Turizm Təşkilatı** (ÜTT) – Birləşmiş Millətlər Təşkilatında idarə. Turizm sahəsində fəaliyyət göstərən aparıcı beynəlxalq təşkilat. 1925-ci ildə Beynəlxalq Rəsmi Turizm Assosiasiyası kimi, Haaqada yaradılmışdır. Ümumdünya Turizm Təşkilatı sabit və əlverişli turizmin inkişafı ilə məşğul olur. ÜTT-na 155 dövlət daxildir. Mənzil-qərargahı Madriddədir. – 180.

**164. Səlhab Məmmədov** – Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru, Azərbaycan Respublikası Rəssamlar İttifaqı sədrinin birinci müavini, professor, Azərbaycanın Xalq rəssamıdır. – 188.

**165. Balaxanı** – Şəhər tipli qəsəbə (1936-cı ildən). Əhalisi 10,3 min nəfərdir. Balaxanı qəsəbəsində orta əsrlərə aid dörd memarlıq abidəsi – 1385-ci ildə Ustad Arif tərəfindən inşa

edilmiş Hacı Şəhlə binası, 1427–28-ci ildə tikilmiş Şakirağa türbəsi, 1636-cı ildə tikilmiş karvansara, XVII əsrə aid ovdan qorunub saxlanılır. – 190.

**166. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 191.

**167. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 192,205,263.

**168. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 195,236,237,241,243.

**169. Jelyu Jelev** (d.1935) – Bolqarıstan filosofu və siyasətçisi. 1990–97-ci illərdə Bolqarıstan Respublikasının prezidenti olmuşdur. – 195.

**170. Avstriya,** A v s t r i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Milli Şura və Federal Şura) parlamentdir. Paytaxtı Vyanadır. – 196.

**171. Mustafa Kamal Atatürk,** Q a z i  M u s t a f a  K a m a l (1881–1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 207,218.

**172. İTAR-TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 210,213.

**173. Puşkin,** A l e k s a n d r  S e r g e y e v i ç (1799–1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası olan» (N.Q.Çernışevski) Puşkin novator şair kimi, yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Puşkinin Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 210.

**174. Lermontov,** M i x a i l  Y u r y e v i ç (1814–1841) – rus şairi, nasir, dramaturq və rəngkar. Lermontovin yaradıcılığı rus ictimai və estetik fikrinə qüvvətli təsir göstərmiş, rus poeziyasını yüksək ehtiraslı poetik ifadə tərzi ilə zənginləşdirmişdir. Onun dramaturgiyası rus teatrı sənətinin inkişafında mühüm rol oynamışdır. Onun əsərləri opera, simfonik musiqi yaradıcılığı, eləcə də xalq mahnıları üçün poetik mənbə olmuşdur. Lermontov Azərbaycan dilini yüksək qiymətləndirmiş, Avropada fransız dili kimi, Asiyada da bu dilin zəruri olduğunu qeyd etmişdir. Əsərlərində çoxlu Azərbaycan sözünə təsadüf olunur. – 210.

**175. Q o q o l,** N i k o l a y  V a s i l y e v i ç (1809–1852) – məşhur rus yazıçısı, dramaturq. Qoqol rus ədəbiyyatında tənqidi realizmin möhkəmlənməsi və inkişafında müstəsna rol oynamışdır. – 210.

**176. Dostoyevski Fyodor** (1821–1881) – rus yazıçısı. Dünyagörüşündəki dərin ziddiyyətlərə baxmayaraq, Dostoyevski mütərəqqi və humanist bir yazıçı olmuşdur. Məşhur romanları «Cinayət və cəza», «İdiot», «Şeytanlar», «Karamazov qardaşları»dır. Dostoyevskiyə görə insan həyatla yox, öz-özü ilə mübarizə aparmalı, özünü kamilliyə çatdırmalıdır ki, özü üçün deyil, başqaları üçün yaşamağın ən sadə yeganə həqiqət olduğunu dərk etsin. – 210.

**177. Turgenev,** İ v a n  S e r g e y e v i ç (1818–1883) – rus realist yazıçısı, şair, rublisist, dramaturq, tərcüməçi. XIX əsrin 2-ci yarısında rus ədəbiyyatının inkişafında mühüm rol oynamış klassiklərdən biri. Rus dilçiliyi və ədəbiyyatşünaslıq üzrə imperator Akademiyasının müxbir üzvü, Oksford Universitetinin isə həqiqi üzvü olmuşdur. Turgenev rus ədəbiyyatında birinci olaraq «yeni insanın» mənəvi aləmini və psixoloji xüsusiyyətlərini qələmə almış, «nihilst» terminindən rus dilində geniş istifadə etmişdir. – 210.

**178. Lev Tolstoy,** L e v  N i k o l a y e v i ç (1828–1910) – dahi rus yazıçısı. Yazdığı ilk hekayələrdə ağalarla kəndlilərin münasibətlərindəki dərin sosial ziddiyyətləri göstərmişdir: 1865–69-cu illərdə 1812-ci il Vətən müharibəsinə həsr olunmuş «Hərb və sülh» romanını yazmışdır. Bu əsər XIX əsr dünya realist nəsrinin zirvələrindən biri sayılır. 1873–77-ci illərdə yazdığı «Anna Karenina» romanında kübar cəmiyyətin saxta əxlaqının qurbanı olan qadının faciəsi əks etdirilir. 1908-ci ildə o, ölüm cəzalarına qarşı nifrət və etirazının ifadəsi olan məşhur «Susa bilmirəm» məqaləsini yazır. Ömrünün son illərində Tolstoy dərin mənəvi əzab keçirmişdir. 1910-cu il noyabrın 10-da Yasnaya Rolyananı xəlvətcə tərk etmiş, yolda Astapovo dəmir yol stansiyasında vəfat etmişdir. – 210.

**179. Vitali İqnatenko** (d.1941) – jurnalist. 1991–2013-cü illərdə İTAR-TASS agentliyinin Baş direktoru olmuşdur. – 213–214.

**180. «Drujba narodov»** – aylıq ədəbi-bədii jurnal. Əsası 1954-cü ildə almanax kimi qoyulmuşdur. «Drujba narodov»da SSRİ xalqları əbədiyyatının nümunələri çap edilirdi. Jurnalda milli ədəbiyyatların inkişafı probleminə, ədəbi əlaqə və bədii tərcümə məsələlərinə həsr olunmuş məqalələr də verilirdi. – 214.

**181. Çingiz Aytmatov,** Çingiz Toregül oğlu (d.1928-2008) – görkəmli qızğız yazıçısı. Qırğızıstan Respublikasının Xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976–1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazların daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusu olmuşdur. – 215.

**182. Oljas Süleymenov,** Oljas Ömər oğlu (d.1936) – məşhur qazax şairi, diplomat. Ümumittifaq Lenin komsomolu mükafatı laureatı. «Az İ Ya» əsəri ilə məşhurlaşmışdır. Hazırda Qazaxıstan Respublikasının YUNESKO-da daimi nümayəndəsidir. – 215.

**183. Dmitri Bıkov** (d.1967) – rus yazıçısı, ədəbi tənqidçi və publisist; Manyerist kurtuaz ordeni qrupunun üzvüdür. Əsas əsərləri «Etiraf» romanı və «Orfoqrafiya» şeirlər kitabıdır. – 215.

**184. Azərbaycan Yazıçılar Birliyi** (AYB) – könüllü ictimai təşkilat, Azərbaycan yazıçılarının yaradıcılıq birliyi. 1932-ci ildən 1990-cı ilə kimi Azərbaycan Yazıçılar İttifaqı adı altında fəaliyyət göstərmişdir. AYB-nin 1200 nəfərdən çox üzvü var. AYB müstəqillik, milli-mənəvi azadlıq və sərbəstlik şəraitində fəaliyyət göstərir. AYB-nin ali orqanı qurultaydır. – 215.

**185. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. Bakıdadır. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və gümbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı sferik gunbəzlə örtülmüşdür. İbadət zalının içməkan quruluşu yerli memarlıq konstruk-

siyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 230–232.

**186. Bakı İslam Universiteti** – Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdində olan dini ali tədris müəssisəsi. 1991-ci ildə Bakı İslam mədrəsəsinin bazası əsasında yaradılmışdır. Universitetin «İslamşünaslıq» və «Şəriət» fakültəsi və 1350 tələbəsi vardır. Burada bakalavr səviyyəsində dinşünaslıq ixtisası, magistratura səviyyəsində isə Dinlərin tarixi və İslamşünaslıq ixtisasları üzrə kadrlar hazırlanır. – 230, 231.

**187. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 230–232.

**188. Berlin** – Almaniyanın paytaxtı. Sahəsi 890 km$^2$-ə qədər, əhalisi 3,5 milyon nəfərdir. 1990-cı ildən müstəqil inzibati ərazidir. Almaniyanın ən böyük sənaye, mədəni və elmi mərkəzidir. 1945-ci ildə faşist Almaniyasının məğlubiyyətindən sonra Berlin SSRİ, ABŞ, Böyük Britaniya və Fransa tərəfindən zonalara bölündü. 1948-ci ildə Qərb dövlətləri Berlin parlamentində seçkilər keçirdilər. Şərqi Berlin isə ADR-in paytaxtı elan edildi. 1961-ci ildə Şərqi Berlindən Qərbi Berlinə əhali axınının qarşısını almaq üçün Berlin divarı tikildi. (1990-cı ildə Berlin divarı söküldü, AFR ilə ADR birləşdi və Berlin birləşmiş Almaniyanın paytaxtı elan edildi). – 233–258.

**189. Çernoqoriya,** (Monteneqro) Çernoqoriya Respublikası – Avropanın cənub-şərqində Balkan yarımadasında Adriatik dənizi sahilində dövlət. Sahəsi 13812 km$^2$, əhalisi 622,8 min nəfərdir. Dövlət başçısı prezident, qanun-

verici orqanı birpalatalı parlament Skupşınadır. Paytaxtı Podqoritsa şəhəridir. – 233,236,244,256.

**190. Milo Cukanoviç** (d.1962) – Çernoqoriya siyasətçisi. Milo Cukonoviç 1991–1998; 2003–2008-ci illərdə Baş nazir, 1998–2002-ci illərdə Çernoqoriyanın prezidenti olmuşdur. – 233,239,244,256.

**191. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 233,244.

**192. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı, 1995–2005-ci illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. – 233, 244,245,246,247,250,251,253,254,255.

**193. Nino Burcanadze** (d.1964) – gürcü siyasətçisi. 2003–2004 və 2007–2008-ci illərdə Gürcüstan parlamentinin sədri olmuşdur. – 234.

**194. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian - Demokrat İttifaqı Partiyasının lideri, 2000-ci ildən Almaniyanın Federal kansleridir. – 235,236,265.

**195. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 235.

**196. Gi Verhofstadt** (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçika Baş naziri. – 235.

**197. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km², əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 235.

**198. Avropa Komissiyası,** Avropa Şurası ölkələr i-nin Komissiyası – AŞ Hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 235.

**199. Joze Manuel Barrozu** (d.1959) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri olmuşdur. 2004-cü ilin noyabrından J.M.Barrozu Avropa Parlamenti tərəfindən Avropa Komissiyasının sədri seçilmişdir. – 235.

**200. Rumıniya,** Rumıniya Respublikası – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km², əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 236,237,238,240.

**201. Troyan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. Rumıniya Respublikasının Prezidentidir. – 236,240.

**202. Georgi Pirvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 236,239.

**203. Dnestryanı** – Moldovada Dnestr çayı sahilində tanınmamış bölgə. 1992-ci ildə Dnestryanıda hərbi münaqişə başladı. İyulun ortalarına qədər bir neçə ay davam edən silahlı

toqquşmalar zamanı Lebedin komandanı olduğu Rusiyanın 14-cü ordusunun separatçılara yaxından dəstək verməsi nəticəsində Kişinyov sol sahildəki rayonlar üzərində nəzarətini itirdi və Dnestryanı Moldovanın nəzarətindən çıxmış əraziyə çevrildi. – 237,241.

**204. Abxaziya** – Gürcüstan Respublikasının tərkibində muxtar respublika. 1921-ci ildə təşkil olunmuşdur. Sahəsi 8,6 min km$^2$, əhalisi 501 min nəfərdir. Paytaxtı Suxumi şəhəridir. – 237,241,247.

**205. Cənubi Osetiya** – Gürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır. Sahəsi 3,9 min km$^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəri. – 237,241,247.

**206. Yuqoslaviya hadisələri** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Monteneqro Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovoya girdi. 2006-cı ildə keçirilən referendum nəticəsində Monteneqro da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 238,239.

**207. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məq-

sədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 242.

**208. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (riksdaq). Paytaxtı Stokholmdur. – 244,256.

**209. Karl Bildt** (d.1949) – İsveç dövlət və siyasi xadimi. İsveçin Baş naziri. – 244,256.

**210. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 250.

**211. Fərman Salmanov,** S a l m a n o v  F ə r m a n  Q u r b a n  oğlu (1928–2008) – mühəndis-geoloq. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. Qərbi Sibirdə onun bilavasitə rəhbərliyi ilə ən iri neft və qaz yataqları kəşf edilmişdir. – 259.

**212. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1.219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 260.

**213. Xu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. –260.

**214. Nigeriya,** N i g e r i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 261.

**215. Olusequn Obasanco** (d.1937) – Nigeriya siyasi və dövlət xadimi, 1999-cu ildən Nigeriyanın prezidenti. – 261.

**216. Qvineya,** Q v i n e y a R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 246 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Konakri. – 262.

**217. Lansana Konte** (1934–2008) – Qvineya siyasi, dövlət və hərbi xadimi, general. 1984–2008-ci illərdə Ovineya Respublikasının prezidenti olmuşdur. – 262.

**218. Şinzo Abe** (d.1954) – Yaponiya dövlət və siyasi xadimi, 2006–2007 və 2012-ci ildən yenidən Yaponiyanın Baş naziri. Yaponiya Liberal-Demokratiya Partiyasının sədridir. – 263.

**219. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı-politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004-cü ildən Almaniyanın prezidentidir. – 264.

**220. əl-Cəzirə** – Qətərdə 1996-cı ildən yayımlanan TV kanalı. Kanal etdiyi yayımlarla, xüsusilə əl-Qaidə lideri Usama bin Ladenin video görüntülərini və verdiyi müsahi-

bələri, 2001-ci ildə ABŞ-ın Dünya Ticarət Mərkəzində baş verən 11 sentyabr hadisələrini olduğu kimi göstərdiyinə görə bütün dünyada məşhurlaşdı.

əl-Cəzirənin peyk vasitəsilə Orta Şərqdə fəaliyyəti bölgədə mediyaya baxışı tamamilə dəyişdirmişdir. əl-Cəzirənin yayıma başlaması ilə Orta Şərqdə söz, vicdan azadlığı baxımından yeniliklər, mübahisəli məsələlər ekrana gəlir. Kanalın yayımladığı bəzi proqramlar barədə ciddi tədbirlər görülməyə başlanılır.

2004-cü ildə əl-Cəzirə «brandehannelcom» saytına görə dünyada ən nüfuzlu telekanallar sırasınada beşinci yeri tutmuşdur. – 266–278.

**221. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə dair tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 267,268.

**222. Kaliforniya** – ABŞ-ın qərbində ştat. Sahəsi 411 min km$^2$, əhalisi 31,9 milyon nəfərdir. İnzibati mərkəzi – Sakramento. – 274.

**223. Supsa** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı–Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 276.

**224. Mixail Davudov** (d.1947) – Rusiya Onkologiya Elmi Mərkəzinin direktoru. Mixail Davudov Rusiyada və xaricdə

elmi və praktiki fəaliyyətində ağciyər xərçənginin, qida borusu, mədə, divararası şişlərin yeni və təkmilləşmiş üsulla əməliyyat edilməsində görkəmli alim kimi tanınmışdır.

M.Davudov REA-nın və Rusiya Tibb Elmləri Akademiyasının və bir sıra xarici ölkə akademiyalarının akademikidir. – 281.

**225. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 282.

**226. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

İkinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 284–285,298.

**227. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı Avropa İqtisadi Birliyi – (AİB), Avropa Kömür və Polad Birliyi – (AKPB), Avropa Atom Enerjisi Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi yarandı. – 293,313.

**228. Kofi Annan** (d.1938) – 1997–2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 300.

**229. HP,** H y u l e m m P a k k a r d – informasiya texnologiyaları sahəsində müəssisə və fərdi alıcıları aparat və proqramlarla təchiz edən ən böyük amerikan kompaniyası. Kompaniyanın əsası 1939-cu ildə qoyulmuşdur. Mənzil-qərargahı Palo-Alto (Kaliforniya, ABŞ) şəhərindədir.

Kompaniya 1966-cı ildə ilk dəfə minikompüter - HP 2116 A, 1968-ci ildə dünyada birinci stolüstü proqramlaşdıran kalkulyator buraxmışdır. – 303.

**230. «Alcatel»** – dünya bazarının ən qədim fransız telekommunikasiya avadanlığı istehsal edən kompaniya. Mənzil-qərargahı Parisdədir. Əsası 1898-ci ildə Elzasda qoyulmuşdur.

«Alcatel» dünyanın 130 ölkəsinə cihazların hissələrini və proqramlarını təqdim edir. İstehlakçıların fikrincə – Alkatel öz mobil aparatları ilə bütün dünyada geniş şöhrət qazanan kompaniyadır.

2004-cü ildə «Alcatel» mobil telefonları Cin TCL kompaniyası ilə birləşərək birgə müəssisə yaratdılar. «Alcatel»in telefon istehsal edən zavodları Çinə köçürüldü.

2005-ci ildə kompaniyanın işçilərinin sayı 55,7 min nəfər, gəliri isə 13,1 milyard dollar olmuşdur. – 303.

**231. Naxçıvan Dövlət Universiteti,** Y u s i f M ə m m ə d ə l i y e v a d ı n a NDU – ali təhsil məktəbi. Naxçıvan MR-nin mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix, filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsə-

nət, xarici tələbələr), hazırlıq şöbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. – 309.

**232. İsa Həbibbəyli,** İ s a  Ə k b ə r  o ğ l u (d.1949) – ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın həqiqi üzvü. AMEA-nın vitse-prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 309.

**233. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 309.

**234. Amerika–Azərbaycan Ticarət və Sənaye Palatası –** 1996-cı ildə yaradılmışdır. Özəl, qeyri-kommersiya təşkilatıdır. 160 üzvü var. – 310,312.

**235. Ceyms Beyker** (d.1930) – Amerika siyasi xadimi. 1981–85-ci illərdə prezident Ronald Reyqan administrasiyasının rəhbəri, 1985–88-ci illərdə ABŞ Ədliyyə naziri, 1989–92-ci illərdə Corc Buş (ata) hökumətində Dövlət katibi, 1992–93-cü illərdə Prezident administrasiyasının rəhbəri olmuşdur. 2007-ci ildə bir neçə Dövlət katibi ilə birlikdə erməni genosidi qətnaməsini qəbul etməmələri üçün ABŞ Konqresinə məktub imzalamışdır. ABŞ–Azərbaycan Ticarət və Sənaye Palatasının həmsədridir. – 312.

**236. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya kons-

titusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhər rayonları da İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 314,315.

**237. I Xuan Karlos** (d.1938) – İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 314.

**238. Xose Luis Rodriges Spatero** (d.1960) – İspaniya siyasətçisi. 2004-cü ildən İspaniyada Baş nazirdir. – 315.

## Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **II Abdulla** | – 71–78 |
| **Abdullayev Kamal** | – 166 |
| **Abdullayev Rövnəq** | – 165 |
| **Abe Şinzo** | – 263 |
| **Abutalıbov Hacıbala** | – 164,165 |
| **Adami Eduard** | – 139 |
| **Al Səud Abdullah** | – 140 |
| **Al Səud Sultan** | – 141,177 |
| **Annan Kofi** | – 300 |
| **Aras Nurettin** | – 81 |
| **Arınç Bülənt** | – 123 |
| **Aslanov Həzi** | – 20 |
| **Atatürk Mustafa Kamal** | – 207,218 |
| **Aytmatov Çingiz** | – 215 |
| **Bağırov Hüseynqulu** | – 146 |
| **Bakiyev Kurmanbek** | – 59 |
| **Baramidze Georgi** | – 98 |
| **Barrozu Joze** | – 235 |
| **Başesgioğlu Murat** | – 198 |
| **Ben Əli Zeynalabidin** | – 119 |
| **Besesku Troyan** | – 236,240 |
| **Beyker Ceyms** | – 312 |
| **Bədəvi Abdulla** | – 58 |
| **Bəxtiyar Nilufər** | – 179 |
| **Bildt Karl** | – 244,256 |
| **Binəli Yıldırım** | – 299 |
| **Bıkov Dmitri** | – 215 |
| **Brayza Mətyu** | – 111 |
| **Burkholder Udo** | – 280 |
| **Burcanadze Nino** | – 115 |

**Camalulai Tuanku** – 57
**Cukanoviç Milo** – 233,239,244,256
**Da Silva Luis** – 87
**Davudov Mixail** – 281
**De Vilpen Dominik** – 237
**Dostoyevski Fyodor** – 210
**Drnovşek Yanez** – 100,101,102–108
**Ebanoidze Aleksandr** – 214
**Eldarov Ömər** – 6
**Əhmədinejad Mahmud** – 120
**Əl-Qəddafi Müəmmər** – 83
**Əl-Tani Həməd** – 85
**Əliyev Heydər** –5,6,8,9,11,15,17,20,23,25,32, 33,36,39,77,78,164,167,168, 182,183,186,188,189,190,191, 192,198,206,207,214,215,218, 227,259,266,280,304
**Əliyev Hüseyn** – 194
**Əliyev Tələt** – 164
**Əliyeva Mehriban** – 5,6,8,15,16,17,20,21,28,29, 30,32,34,35,77–78,88,89,112, 114,115,116,167–168,192, 204, 205,207,214, 216
**Əliyeva Zərifə** – 16,164
**Ərdoğan Rəcəb Tayyib** – 122,123,124,129,217,218,223
**Əsədov Oqtay** – 284–285,298
**Əsgərov Akif** – 6
**Əsgərov Xosrov** – 36
**Əziz Şövkət** – 123,124
**Franjialli Françesko** – 180
**Frey Piter** – 237,238,239
**Gülər Müəmmər** – 121
**Gülmalı** – 36
**Həbibbəyli İsa** – 309
**Həsənova Tükəzban** – 189
**Hüseynzadə Mehdi** – 104

**Xan Sarbuland** – 300
**Xələfov Xələf** – 164
**Xəlil Rahmə Hüda** – 26–278
**Xu Szintao** – 260
**I Xuan Karlos** – 314
**İhsanoğlu Ekmələddin** – 123,181
**İqnatenko Vitali** – 213–214
**İsgəndərov Elşad** – 122,123
**İsmayılov Tofiq** – 21
**Jelyu Jelev** – 195
**Kastro Fidel** – 19
**Kesada Visente** – 138
**Kərimov İslam** – 82
**Koç Atilla** – 178
**Köler Horst** – 264
**Konte Lansana** – 262
**Klyuyev Andrey** – 118
**Kvasnevski Aleksandr** – 233,244,245,246,247,250,251, 253,254,255
**Kubiş Yan** – 111
**Qaşparoviç İvan** – 84
**Qoqol Nikolay** – 210
**Qross Devid** – 229
**Quterreş Antonio** – 63–64
**Lansar Mohand** – 62
**Lemyer Jan** – 110
**Lermontov Mixail** – 210
**Lətif** – 200
**Lomborq Byorn** – 70
**Luqar Riçard** – 66–67
**Maqinas Alan** – 165
**Merkel Angela** – 235,236,265
**VI Məhəmmməd** – 60
**Məmmədov Səlhab** – 188
**Məmmədyarov Elmar** – 40–56
**Məsimov Mübariz** – 31

**Mənsimova Yeganə** – 190
**Mərdanov Misir** – 208
**Mirzəyev Osman** – 32
**Muradov Dadaş** – 186–187
**Muttal Pramod** – 80
**Mübarək Hüsnü** – 68
**Ndiay Usman** – 169,175
**Nquyen Minh Triet** – 86
**Paşazadə Allahşükür** – 230–232
**Obasanco Olisequn** – 261
**Oskanyan Vardan** – 239,240,241
**Peçe Saşo** – 114,115
**Pirvanov Georgi** – 236,239
**Pirverdiyev Etibar** – 7
**Puşkin Aleksandr** – 210
**Pobedonosetsin Georgi** – 133
**Putin Vladimir** – 79
**Rəhimov Azad** – 5
**Roh Mu Hyun** – 117
**Rupel Dimitri** – 88,89–90,97
**Ruşaylo Vladimir** – 282
**Saakaşvili Mixeil** – 234
**Salim Adil Əbdülmunim** – 266–278
**Salmanov Fərman** – 259
**Sapatero Xose** – 315
**Sarıkaya Əli** – 122
**Semnebi Peter** – 99
**Seslavinski Mixail** – 214,215
**Sezər Əhməd Necdət** – 137
**Səfəri Mehdi** – 65
**Silva Luis** – 87
**Simşiç Dannika** – 112,114
**Star Frederik** – 197
**Stareqo Xose** – 237
**Süleymenov Oljas** – 215
**Şeremetyev Qraf** – 133

**Şevalye Pyer** – 109
**Şirəliyev Oqtay** – 17,205
**Şişnik Yanez** – 114
**Ştegin Peter** – 115
**Tağıyev Hacı Zeynalabdin** – 191
**Talışlı Mirhəşim** – 28
**Tarasyuk Boris** – 146
**Tauxammer Gertrut** – 196
**Ter-Petrosyan** – 255
**Tiomio Erkki** – 313
**Tolstoy Lev** – 210
**Topbaş Kadır** – 216,223
**Turgenev İvan** – 210
**Türel Menderes** – 216,223
**Veidenfeld Verner** – 235
**Verhofstadt Gi** – 235
**Vord Uiliam** – 226
**Voronin Vladimir** – 61
**Vudvord Devid** – 69,199
**Yanşa Yanez** – 88,89–90,132,133
**Yuşşenko Viktor** – 60,142–168
**Zabelin Mixail** – 132-133

## Cografi adlar göstəricisi


**Abxaziya** – 237,241,247
**Abşeron** – 182,185,190,191,192
**Ağdam** – 5
**Almaniya** – 21,194,205,233–258,264,265, 280
**Amerika Birləşmiş Ştatları** – 66–67,172,197,209,226,229, 243, 252,270,271,274, 310, 312
**Anapa** – 79
**Antalya** – 216–223
**Aralıq dənizi** – 153,154,246,276
**Argentina** – 274
**Asiya** – 92,252
**Avrasiya** – 209
**Avropa** – 89,90,92,93,94,95,96,98,102, 103,104,107,112,226,235, 236,237,238,240,241,242, 243,244,247,249,251,252, 256,271, 276,280,311
**Avstriya** – 196
**Bakı** – 19,22,57,58,59,60,61,66,68, 73,79,82,83,84,85,86,87,112, 113,117,119,120,127,129, 134,135,137,138,139,140, 141,177,178,187,200,204, 210,211,215,223,225,231, 255,258,260,261,262,263, 264,265,279–280,283,299, 309,312,314,315
**Balkan** (*yarımada*) – 95,195,235

**Balaxanı** – 190
**Belçika** – 235
**Berlin** – 233–258
**Biləsuvar** –7,36–39
**Bled** – 88–111
**Bolqarıstan** – 195,236,237,241,243
**Braziliya** – 87
**Brüssel** – 157
**Ceyhan** – 92,124
**Cəlilabad** – 7
**Cənubi Qafqaz** – 90,94,95,96,99,106,236,238, 247,248,272,311,313
**Cənubi Osetiya** – 237,247
**Çexiya** – 155
**Çernoqoriya** – 233,236,244,256
**Çin** – 29,260
**Dağlıq Qarabağ** – 28,49,50,101,103,104,105,106, 109,111,149,151,155,182,196, 236,237,241,247,248,253,254, 267,268,269,271,275,277, 289,292,293,294,296,302
**Dnestryanı** – 237
**Finlandiya** – 313
**Fransa** – 235,236,237,238,255,270
**Fələstin** – 74
**Gəncə** – 25
**Gürcüstan** – 95,98,153,194,234,244,272, 276
**Xəzər dənizi** – 29,65,89,90,91–97,151,153, 154,155,160,236,237,238,243, 249,275,276
**Xırdalan** – 182–194
**İgdır** – 81
**İordaniya** – 71–78
**İran** – 65,120,273
**İrəvan xanlığı** – 50

**İspaniya** – 314,315
**İsrail** – 74
**İstanbul** – 122–129,181
**İsveç** – 244,256
**İtaliya** – 194,205
**Kaliforniya** – 274
**Kiyev** – 157
**Kopenhagen** – 70
**Koreya Respublikası** – 117
**Kuba** – 19
**Qafqaz** – 133,197,236,243,247,268,304
**Qahirə** – 68
**Qara dəniz** – 151,153,154,160,235,236,243
**Qazax** – 5
**Qazaxıstan** – 94,151,215,243,276
**Qərbi Avropa** – 89
**Qətər dövləti** – 85,266
**Qırğızıstan** – 58,215
**Qobu** – 189
**Qusar** – 5
**Qvineya** – 262
**Latın Amerikası** – 274
**Lənkəran** – 20-34
**Liviya** – 83
**Los-Anceles** – 274
**Lüksemburq** – 215
**Lyublyana** – 88,12–116
**Macarıstan** – 235
**Malayziya** – 57,58
**Malta** – 139
**Marsel** – 50
**Masallı** – 7
**Meksika** – 138
**Mərakeş** – 62
**Mərkəzi Asiya** – 197,311
**Mərkəzi Avropa** – 155

**Mingəçevir** – 311
**Misir** – 68
**Moldova** – 61
**Moskva** – 133,134,157,214,259,266
**Naxçıvan Muxtar Respublikası** – 309
**Neftçala** – 7
**Nigeriya** – 261
**Novorossiysk** – 276
**Orta Asiya** – 194
**Orta Şərq** – 74
**Özbəkistan** – 82
**Pakistan** – 123,179
**Pivka** – 116
**Polşa** – 233,244
**Portuqaliya** – 63
**Postoyna** – 115–116
**Praqa** – 105,255
**Rambuye** – 255
**Rumıniya** – 236,237,238,240
**Rusiya** – 79,95,130–136,194,210–215, 243,247,250,251,259,270,271, 276,281
**Sabunçu** – 205
**Salyan** – 5–18
**Sankt-Peterburq** – 79
**Seba** – 114
**Seneqal** – 169,175
**Səna** – 122
**Səngəçal** – 69,199
**Səudiyyə Ərəbistanı** – 140,141,177,277
**Slovakiya** – 84
**Sloveniya** – 88–116,155
**Supsa** – 276
**Şərqi Avropa** – 155
**Tailand** – 311
**Tunis** – 119

**Türkiyə** – 81,95,121–129,137,178,194, 198,216–223,243,244,271, 272, 284,299
**Ukrayna** – 60,118,142–168
**Vaşinqton** – 66,197,209
**Vyetnam** – 86
**Yaponiya** – 192,205,263
**Yəmən** – 122
**Yuqoslaviya** (*keçmiş*) – 238
**Zabrat** – 200–205
**Zaqatala** – 25
**Zəngəzur** – 50

# MÜNDƏRİCAT

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN SALYAN RAYONUNA SƏFƏRİ

*10 avqust 2006-cı il.......................................................................... 5*

SALYAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞDƏ NİTQ

*10 avqust 2006-cı il.......................................................................... 9*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR
ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ
CƏNAB FİDEL KASTRO RUSA

*10 avqust 2006-cı il.......................................................................... 19*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN  LƏNKƏRAN RAYONUNA SƏFƏRİ

*11 avqust 2006-cı il.......................................................................... 20*

LƏNKƏRANDA MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN
İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*11 avqust 2006-cı il.......................................................................... 21*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENİ
İLHAM ƏLİYEV BİLƏSUVAR RAYONUNDA

*12 avqust 2006-cı il.......................................................................... 35*

BİLƏSUVAR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞDƏ NİTQ

*12 avqust 2006-cı il.......................................................................... 36*

AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN İKİNCİ MÜŞAVİRƏSİNDƏ NİTQ

*14 avqust 2006-cı il*........................................................................ *40*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU SEYİD SIRACUDDİN PUTRA CAMALULLAİYƏ

*15 avqust 2006-cı il*........................................................................ *57*

MALAYZİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA ƏHMƏD BƏDƏVİYƏ

*15 avqust 2006-cı il*........................................................................ *58*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*15 avqust 2006-cı il*........................................................................ *59*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YUŞŞENKOYA

*15 avqust 2006-cı il* ...................................................................... *60*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

*15 avqust 2006-cı il* ...................................................................... *61*

MƏRAKEŞİN KƏND TƏSƏRRÜFATI, KƏND RAYONLARININ İNKİŞAFI VƏ DƏNİZ BALIQÇILIĞI NAZİRİ MOHAND LANSARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 avqust 2006-cı il*........................................................................ *62*

BMT-nin QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO QUTERREŞİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 avqust 2006-cı il*........................................................................ *63*

İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 avqust 2006-cı il.......................................................................... 65*

ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ SENATOR RİÇARD LUQARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 avqust 2006-cı il .......................................................................... 66*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*21 avqust 2006-cı il.......................................................................... 68*

«*bp* – AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ

*22 avqust 2006-cı il.......................................................................... 69*

KOPENHAGEN KONSENSUS MƏRKƏZİNİN DİREKTORU BYORN LOMBORQ İLƏ GÖRÜŞ

*22 avqust 2006-cı il.......................................................................... 70*

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 avqust 2006-cı il.......................................................................... 71*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYANIN KRALI II ABDULLANIN GÖRÜŞÜ

*23 avqust 2006-cı il.......................................................................... 72*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLANIN SƏFƏRİN YEKUNLARINA DAİR BƏYANATLARI

*23 avqust 2006-cı il.......................................................................... 74*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*23 avqust 2006-cı il* ........................................................................ *77*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*23 avqust 2006-cı il* ........................................................................ *79*

«GLOBAL STEEL HOLDİNGS LTD» ŞİRKƏTİNİN SƏDRİ
PRAMOD MİTTALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*24 avqust 2006-cı il*......................................................................... *80*

TÜRKİYƏNİN İĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURETTİN
ARASIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*24 avqust 2006-cı il*......................................................................... *81*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*24 avqust 2006-cı il*......................................................................... *82*

LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST
XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ
CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

*24 avqust 2006-cı il*......................................................................... *83*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*24 avqust 2006-cı il*......................................................................... *84*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD
BİN XƏLİFƏ ƏL-TANİYƏ

*24 avqust 2006-cı il*......................................................................... *85*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MİNH TRİETƏ

*24 avqust 2006-cı il........................................................................ 86*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU
LULA DA SİLVAYA

*24 avqust 2006-cı il........................................................................ 87*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN SLOVENİYAYA RƏSMİ SƏFƏRİ

*27 avqust 2006-cı il........................................................................ 88*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «CASPİAN
ONTLOOK – 2008» BLED STRATEJİ FORUMUNDA
İŞTİRAK ETMİŞ VƏ NİTQ SÖYLƏMİŞDİR

*27 avqust 2006-ci il ....................................................................... 89*

CASPİAN ONTLOOK – 2008» BLED STRATEJİ
FORUMUNDA NİTQ

*27 avqust 2006-ci il ....................................................................... 91*

GÜRCÜSTAN BAŞ NAZİRİNİN MÜAVİNİ
GEORGİ BARAMİDZE İLƏ GÖRÜŞ

*27 avqust 2006-cı il ....................................................................... 98*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ
NÜMAYƏNDƏSİ PETER SEMNEBİ İLƏ GÖRÜŞ

*27 avqust 2006-cı il ....................................................................... 99*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*28 avqust 2006-cı il........................................................................ 100*

SLOVENİYA PREZİDENTİ YANEZ DRNOVŞEXİN VƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRGƏ MƏTBUAT KONFRANSI

*28 avqust 2006-cı il*........................................................................... 102

ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ PYER ŞEVALYE İLƏ GÖRÜŞ

*28 avqust 2006-cı il* ........................................................................... 109

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYER İLƏ GÖRÜŞ

*28 avqust 2006-cı il* ........................................................................... 110

ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZA İLƏ GÖRÜŞ

*28 avqust 2006-cı il* ........................................................................... 111

LYUBLYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞDƏ ÇIXIŞ

*28 avqust 2006-cı il*........................................................................... 112

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ROH MU HYUNA

*28 avqust 2006-cı il*........................................................................... 117

UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ, UKRAYNA–AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN UKRAYNA TƏRƏFDƏN SƏDRİ ANDREY KLYUYEV İLƏ GÖRÜŞ

*31 avqust 2006-cı il*........................................................................... 118

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZEYNALABİDİN BEN ƏLİYƏ

*31 avqust 2006-cı il*........................................................................... 119

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*1 sentyabr 2006-cı il* ........................................................................ *120*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*3 sentyabr 2006-cı il* ........................................................................ *121*

İSLAM KONFRANSI TƏŞKİLATININ ƏMƏKDAŞLIQ VƏ
DİALOQ UĞRUNDA GƏNCLƏR FORUMUNUN DAİMİ
QƏRƏRGAHININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*3 sentyabr 2006-cı il* ........................................................................ *122*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ
GÖRÜŞ

*3 sentyabr 2006-cı il* ........................................................................ *129*

RUSİYALI HƏMVƏTƏNLƏRİN BEYNƏLXALQ ŞURASININ
BAKIDA KEÇİRİLƏN GENİŞ İCLAS İŞTİRAKÇILARININ BİR
QRUPU İLƏ GÖRÜŞ

*5 sentyabr 2006-cı il* ........................................................................ *130*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*6 sentyabr 2006-cı il* ........................................................................ *137*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VİSENTE FOKS KESADAYA

*6 sentyabr 2006-cı il* ........................................................................ *138*

MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EDUARD FENEÇ ADAMİYƏ

*6 sentyabr 2006-cı il* ........................................................................ *139*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*6 sentyabr 2006-cı il ............................................................ 140*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*6 sentyabr 2006-cı il ............................................................ 141*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*7 sentyabr 2006-cı il ............................................................ 142*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*7 sentyabr 2006-cı il ............................................................ 143*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUSŞENKONUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*7 sentyabr 2006-cı il ............................................................ 144*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLA ÇIXIŞLARI

*7 sentyabr 2006-cı il ............................................................ 147*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*7 sentyabr 2006-cı il ............................................................ 159*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA SƏFƏRİ DAVAM EDİR

*8 sentyabr 2006-cı il* ........................................ *164*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKO HEYDƏR ƏLİYEV FONDUNDA

*8 sentyabr 2006-cı il* ........................................ *167*

BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN TURİZM NAZİRLƏRİNİN V KONFRANSINDA NİTQ

*11 sentyabr 2006-cı il* ........................................ *169*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ALİ TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ SULTAN BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUD İLƏ GÖRÜŞ

*11 sentyabr 2006-cı il* ........................................ *177*

TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ ATİLLA KOÇ İLƏ GÖRÜŞ

*11 sentyabr 2006-cı il* ........................................ *178*

PAKİSTAN İSLAM RESPUBLİKASININ TURİZM NAZİRİ XANIM NİLUFƏR BƏXTİYAR İLƏ GÖRÜŞ

*11 sentyabr 2006-cı il* ........................................ *179*

ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ (ÜTT) BAŞ KATİBİ FRANÇESKO FRANJİALLİN İLƏ GÖRÜŞ

*11 sentyabr 2006-cı il* ........................................ *180*

İSLAM KONFRANSI TƏŞKİLATININ (İTK) BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*11 sentyabr 2006-cı il* ........................................ *181*

ABŞERON RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*12 sentyabr 2006-cı il* ........................................................................ *182*

HEYDƏR PARKININ VƏ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*12 sentyabr 2006-cı il* ........................................................................ *188*

BALKAN SİYASİ KLUBUNUN PREZİDENTİ JELYU JELEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2006-cı il* ........................................................................ *195*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN «SOCİETY» JURNALININ REDAKTORU XANIM GERTRUT TAUXAMMERƏ MÜSAHİBƏ VERMİŞDİR

*13 sentyabr 2006-cı il* ........................................................................ *196*

VAŞİNQTONDA FƏALİYYƏT GÖSTƏRƏN MƏRKƏZİ ASİYA–QAFQAZ İNSTİTUTUNUN SƏDRİ FREDERİK STARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2006-cı il* ........................................................................ *197*

TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ MURAT BAŞESGİOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*14 sentyabr 2006-cı il* ........................................................................ *198*

«*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ

*14 sentyabr 2006-cı il* ........................................................................ *199*

BAKININ ZABRAT QƏSƏBƏSİNDƏKI 307 NÖMRƏLİ ORTA MƏKTƏBİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*15 sentyabr 2006-cı il* ........................................................................ *200*

BAKININ ZABRAT QƏSƏBƏSİNDƏ SAĞLAMLIQ MƏRKƏZİ İLƏ TANIŞLIQ

*15 sentyabr 2006-cı il* ........................................................................ *205*

«ANKARA MƏKTƏBİ» MƏKTƏB-LİSEYİ İLƏ TANIŞLIQ

*15 sentyabr 2006-cı il* ........................................................................ *206*

ABŞ MÜDAFİƏ NAZİRİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ CEYMS MAKDUQALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 sentyabr 2006-cı il* ........................................................................ *209*

BAKIDA BİRİNCİ BEYNƏLXALQ «RUS KİTABI» FESTİVALININ İŞTİRAKÇILARINA

*15 sentyabr 2006-cı il* ........................................................................ *210*

BİRİNCİ BEYNƏLXALQ «RUS KİTABI» FESTİVALININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*15 sentyabr 2006-cı il* ........................................................................ *211*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKDİLLİ DÖVLƏTLƏRİN VƏ TOPLULUQLARIN X DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏYƏ SƏFƏRİ

*17 sentyabr 2006-cı il* ........................................................................ *216*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN VƏ TOPLULUQLARIN X DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA NİTQİ

*18 sentyabr 2006-cı il* ........................................................................ *217*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

*18 sentyabr 2006-cı il* ........................................................................ *223*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*20 sentyabr 2006-cı il* ........................................................................ *224*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN AVROPA KOMANDANININ MÜAVİNİ, GENERAL UİLİAM VORD İLƏ GÖRÜŞÜ

*20 sentyabr 2006-cı il* ........................................................................ *226*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ PARKDA NEFTÇİLƏR GÜNÜ MÜNASİBƏTİLƏ XALQ GƏZİNTİSİNDƏ

*20 sentyabr 2006-cı il* ........................................................................ *227*

ABŞ DÖVLƏT KATİBİNİN RABİTƏ VƏ İNFORMASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD QROSS İLƏ GÖRÜŞ

*20 sentyabr 2006-cı il* ........................................................................ *229*

TƏZƏPİR MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARİLAN TƏMİR-TİKİNTİ VƏ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*21 sentyabr 2006-cı il* ........................................................................ *230*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BERLİN ŞƏHƏRİNDƏ KEÇİRİLƏCƏK «BEYNƏLXALQ BERTELSMANN– 2006» FORUMUNDA İŞTİRAK ETMƏK ÜÇÜN ALMANİYAYA SƏFƏRİ

*22 sentyabr 2006-cı il* ........................................................................ *233*

BERLİNDƏ «BEYNƏLXALQ BERTELSMANN –2006» FORUMUNUN AÇILIŞ MƏRASİMİ

*22 sentyabr 2006-cı il* ........................................................................ *235*

ÖLKƏMİZİN ALMANİYADAKI SƏFİRLİYİNİN YENİ BİNASI İLƏ TANIŞLIQ

*23 sentyabr 2006-cı il* ........................................................................ *257*

MƏŞHUR NEFTÇİ-GEOLOQ FƏRMAN SALMANOV
İLƏ GÖRÜŞ

*26 sentyabr 2006-cı il* ........................................................................ *259*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA

*25 sentyabr 2006-cı il* ........................................................................ *260*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA

*25 sentyabr 2006-cı il* ........................................................................ *261*

QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LANSANA KONTEYƏ

*25 sentyabr 2006-cı il* ........................................................................ *262*

YAPONİYANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB ŞİNZO ABEYƏ

*26 sentyabr 2006-cı il* ........................................................................ *263*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HÖRST KÖLERƏ

*26 sentyabr 2006-cı il* ........................................................................ *264*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL
KANSLERİ ZATİ-ALİLƏRİ
XANIM ANGELA MERKELƏ

*26 sentyabr 2006-cı il* ........................................................................ *265*

QƏTƏRİN «ƏL-CƏZİRƏ» TELEYAYIM KORPORASİYASININ
ƏMƏKDAŞLARINA MÜSAHİBƏ

*27 sentyabr 2006-cı il* ........................................................................ *266*

SƏRHƏD MƏSƏLƏLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN
SƏRHƏD XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN İŞÇİ QRUPUNUN

BAKIDA KEÇİRİLƏN İCLASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2006-cı il* ........................................................................ *279*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ONKOLOQLARI VƏ RADİOLOQLARININ DÖRDÜNCÜ QURULTAYININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*28 sentyabr 2006-cı il* ........................................................................ *281*

MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*28 sentyabr 2006-cı il* ........................................................................ *282*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ONKOLOQLARI VƏ RADİOLOQLARININ DÖRDÜNCÜ QURULTAYININ İŞTİRAKÇILARINA

*28 sentyabr 2006-cı il* ........................................................................ *283*

MİLLİ MƏCLİSİN 2006-cı il PAYIZ SESSİYASININ AÇILIŞINDA NİTQ

*2 oktyabr 2006-cı il* ........................................................................ *284*

TÜRKİYƏNİN RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2006-cı il* ........................................................................ *299*

BMT-nin İQTİSADİ VƏ SOSİAL İŞLƏR DEPARTAMENTİNİN YARDIM VƏ ƏLAQƏLƏNDİRMƏ BÖLMƏSİNİN İCRAÇI KATİBİ SARBULAND XAN İLƏ GÖRÜŞ

*2 oktyabr 2006-cı il* ........................................................................ *300*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2006-cı il* ........................................................................ *302*

«BAKUTEL–2006» XII BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİ-KONFRANSININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*3 oktyabr 2006-cı il .................................................................... 303*

ABŞ–AZƏRBAYCAN TİCARƏT PALATASININ HƏMSƏDRİ CEYMS BEYKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2006-cı il .................................................................... 312*

AVROPA BİRLİYİ «ÜÇLÜYÜ»nün (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2006-cı il .................................................................... 313*

İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*3 oktyabr 2006-cı il .................................................................... 314*

İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA

*3 oktyabr 2006-cı il .................................................................... 315*

*Q E Y D L Ə R .................................................................... 316*

*Şəxsi adlar göstəricisi .................................................................... 367*

*Coğrafi adlar göstəricisi .................................................................... 372*

| | |
|---|---|
| **Kitabı çapa hazırlayan** | ***Tofiq Babayev*** |
| **Texniki redaktoru** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,0. Uçot vərəqi 24,5 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.